PRESIDENTS
OF THE UNITED STATES OF AMERICA



# Amerika prezidentləri

Ciddi məsələlərə heç zaman rişxənd etməyin.

**Corc Vaşinqton**

Mənim vətənim azadlıq olan yerdir.

**Tomas Cefferson**

Xalqım bir hissəsini həmişə və bütün xalqı bir müddət aldatmaq olar, lakin, bütün xalqı həmişə aldatmaq qeyri-mümkündür.

**Avraam Linkoln**

Kişinin uduzmağı hələ onun məğlubiyyəti deyil, o, yalnız təslim olanda məğlub olur.

**Riçard Nikson**

downloaded from KitabYurdu.org

Elshan Bayramzadeh



# Presidents of the United States of America

downloaded from KitabYurdu.org

Elşən Bayramzadə

# Amerika prezidentləri

Bakı
2012

downloaded from KitabYurdu.org

**Elşən Bayramzadə**
Amerika prezidentləri
KitabKlubu.org, 2012, 248 səh.

Kitab ABŞ-ın prezidentlik institutu, prezidentlərin tərcümeyi-halı və onların siyasi fəaliyyətindən bəhs edir. ABŞ-ın superdövlətə çevrilməsində, Konstitusiya və demokratiya prinsiplərinə sadiqlik böyük rol oynayıb. Bu prinsiplərin pozulması bəzi prezidentlərin impiçmentinə gətirmişdir. Kitabda bu haqda da geniş məlumat verilmişdir. Əhatəli şəkildə ABŞ-ın siyasi quruluşu və onun birinci şəxslərinin fəaliyyətinə həsr olunmuş, maraqlı faktlar və məlumatlarla zəngin, illüstrasiyalı belə bir kitab Azərbaycan dilində ilk dəfədir nəşr olunur. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Qiyməti 5 manat
Əlaqə nömrələri: 012/492-12-38, 050/404-91-13

ISBN 978-9952-812-57-2

© Elşən Bayramzadə və Kitab Klubu MMC

downloaded from KitabYurdu.org

## Ön söz

Müstəqil Azərbaycan Respublikası öz sosial institutlarının qurulmasının elə bir mərhələsindədir ki, bu dövrdə dünya təcrübəsi böyük dəyərə malikdir. Ən geniş yayılmış belə dövlət quruluşu institutlarından biri, artıq 200 ildən çox bir müddətdə ABŞ-da bütün digər dövlət institutlarının fəaliyyətini əlaqələndirən prezidentlik institutudur. Prezidentlik institutu öz mahiyyətinə görə hakimiyyət institutu, daha doğrusu dövlət idarəetmə sistemində prezident hakimiyyəti səlahiyyətlərinin məcmusu kimi nəzərdən keçirilməlidir.

Rus tədqiqatçısı V.E.Çirkin qeyd edir ki, prezidentli respublikanın, tez-tez nazir böhranlarının alovlandığı və hökumət dəyişmələrinin adi hala çevrildiyi parlamentli respublikadan əsas üstünlüyü onun icraedici hakimiyyətin sabitliyinə təminat verməsidir; əsas qüsuru isə demokratik institutların inkişaf etməməsi şəraitində avtoritarizmə meyllənməsidir.

«Prezident» termini hərfən «irəlidə əyləşən» mənası verən latın sözü «praesidens»dən götürülüb və yəqin ki, antik dövr məclislərində sədrlik edənin tutduğu yerlə əlaqəli olmuşdur. Sonralar senat başçılarını prezident adlandırmağa başladılar. «Prezident» termini öz müasir məzmununu XVIII əsrin sonlarında, ABŞ-da prezidentlik institutu təsis edildikdə almışdır. Prezidentlik vəzifəsinin təsis edilməsi ilk dəfə 1787-ci ildə Filadelfiyada, ABŞ-ın yeni Konstitusiyasının hazırlandığı Konstitusiya Konventində müzakirə edilmişdir.

Maraqlıdır ki, o zamanlar ölkənin şəriksiz siyasi lideri müharibə qəhrəmanı, general Corc Vaşinqton idi və təsis ediləcək dövlət başçısı vəzifəsi (kral) «ona uyğunlaşdırılır», dövlət quruluşu kimi monarxiya təklif edilirdi. C.Vaşinqtonun nəhəngliyi təkcə onun monarx ol-



downloaded from KitabYurdu.org

maq istəməməyində yox, sonralar, üçüncü dəfə prezident seçkilərində iştirakdan könüllü imtina edərək, ABŞ-ın demokratik inkişafında misilsiz ənənənin başlanğıcını qoymasında idi.

Beləliklə, ABŞ-da respublika idarəetmə formasının bərqərar olması olduqca çətin məsələ idi, çünki, ABŞ-ın nə lazımi siyasi təcrübəsi, nə də uyğun tarixi ənənələri yox idi. İcraedici hakimiyyətin başçısı – prezidentin həm fəaliyyət müddəti, həm də seçilməsi qaydaları haqqında ciddi müzakirələr getmiş, nəticədə, C.Medisonun təklif etdiyi, müəyyən düzəlişlərlə bu gün də davam edən plan qəbul olunmuşdur. Prezident vəzifəsinin unikallığı onda idi ki, o, həm dövlət başçısı, həm də icraedici hakimiyyətin rəhbəri idi.

Xatırladaq ki, ABŞ dövlət quruluşu modeli, hakimiyyət bölgüsü ideyasını ilk yaradanlardan biri, fransız mütəfəkkiri Ş.L.Monteskyönün konstitusiya hüququ nəzəriyyəsinə əsaslanırdı. Məhz bu məqam ABŞ-da güclü prezident hakimiyyətinin ölkədə avtoritar rejim yaratmasına imkan verməmişdir.

Yeri gəlmişkən, Latın Amerikası ölkələrində ABŞ nümunəsinə uyğun olaraq prezidentlik institutu təsis edilsə də (XIX əsrin birinci yarısında), bu təhlükədən yaxa qurtarmaq mümkün olmamışdır. Bundan əlavə, prezidentlik vəzifəsi ABŞ modelindən «köçürülmüş», 1848-ci ildə Avropanın ilk prezidentli respublikası olan Fransanın (digəri İsveçrə) prezidenti seçilmiş Lui-Napoleon öz səlahiyyətlərindən monarxiyaya qayıtmaq və özünü III Napoleon adı ilə imperator elan etmək üçün istifadə etmişdi. Burdan görünür ki, uğurlu siyasi sistem təkcə kağızda yazılmış qanun və konstitusiyalardan asılı deyil, bu sistemi yaşadan konkret insanlardan, onların keyfiyyətlərindən, malik olduğu dəyərlərdən asılıdır. Məhz buna görə ABŞ konstitusiyasını yaşadan siyasi liderlər – prezidentlər bizim üçün çox maraqlıdır.



downloaded from KitabYurdu.org

Azərbaycan oxucusunun diqqətinə təqdim olunan «Amerika prezidentləri» kitabı ABŞ prezidentləri və onların fəaliyyət tarixinə həsr olunmuşdur ki, bu da onun ABŞ-ın bütün uğur və uğursuzluqları, nailiyyət və böhranları ilə birlikdə demokratik inkişaf təcrübəsindən söhbət açdığından xəbər verir. Amerika tarixinin «əsas» personajlar qalereyası ilə tanışlıqdan sonra, oxucu özü onların fəaliyyətini müstəqil şəkildə dəyərləndirə bilər. Belə ki, kitabın müəllifi Elşən Bayramzadə təfsirlərə az yer verərək, daha çox faktlara əsaslanmaqla uğurlu praktika seçə bilmişdir. Bundan əlavə, kitabın sonunda göstərilmiş geniş ədəbiyyat siyahısı oxucuya ABŞ-ın – bu gün dünyanın yeganə superdövlətinin siyasi sistemi və o sistemi yaşadan mədəniyyəti haqqında öz biliklərini müstəqil şəkildə artırmağa imkan verəcək.

**Əli Abasov,**
**Fəlsəfə elmləri doktoru, professor, AMEA-nın «Müasir fəlsəfə problemləri» şöbəsinin müdiri**



downloaded from KitabYurdu.org

## Mündəricat

Giriş........................................................................ 10

Corc Vaşinqton (1789-1797)...................................... 21
Con Adams (1797-1801)............................................ 30
Tomas Cefferson (1801-1809) .................................... 35
Ceyms Medison (1809-1817) ...................................... 43
Ceyms Monro (1817-1825)......................................... 49
Con Kuinsi Adams (1825-1829) ................................. 54
Endrü Cekson (1829-1837)......................................... 58
Martin Van Buren (1837-1841)................................... 65
Uilyam H.Harrison (1841-1841).................................. 70
Con Tayler (1841-1845).............................................. 73
Ceyms N.Polk (1845-1849) ........................................ 77
Zakari Teylor (1849-1850).......................................... 81
Millard Fillmor (1850-1853)........................................ 85
Franklin Pirs (1853-1857)........................................... 89
Ceyms Bükenen (1857-1861) ...................................... 93
Avraam Linkoln (1861-1865) ...................................... 97
Endrü Conson (1865-1869)......................................... 104
Uills S.Qrant (1869-1877) .......................................... 109
Razerford B.Heys (1877-1881).................................... 115
Ceyms Qarfild (1881-1881) ........................................ 120
Çester Artur (1881-1885)............................................ 124
Qrover Klivlend (1885-1889) və (1893-1897) ............ 128
Bencamin Harrison (1889-1893) ................................ 133
Uilyam Mak-Kinli (1897-1901).................................. 137
Teodor Ruzvelt (1901-1909)....................................... 142
Uilyam H.Taft (1909-1913) ........................................ 150
Vudro Vilson (1913-1921) .......................................... 155
Uorren Hardinq (1921-1923) ...................................... 162
Kalvin Kulic (1923-1929)........................................... 167



downloaded from KitabYurdu.org

Herbert Klark Huver (1929-1933) ................................ 172
Franklin Delano Ruzvelt (1933-1945) .......................... 177
Harri S.Trumen (1945-1953) ...................................... 184
Duayt Eyzenhauer (1953-1961) .................................. 189
Con Fitscerald Kennedi (1960-1963) ............................ 194
Lindon Conson (1963-1969) ........................................ 200
Riçard Milhauz Nikson (1969-1974) ............................ 204
Cerald Ford (1974-1977) ............................................. 209
Cimmi Karter (1977-1981) .......................................... 213
Ronald Reyqan (1981-1989) ........................................ 218
Corc Buş (1989-1993) .................................................. 223
Bill Klinton (1993-2001) ............................................. 228
Corc Buş (oğul) (2001-2009) ........................................ 233
Barak Obama (2009- ) ................................................. 237

İstifadə edilmiş ədəbiyyatın siyahısı ............................ 243



downloaded from KitabYurdu.org

# GİRİŞ

Müasir dünyada prezident üsul-idarəsi geniş tətbiq olunur. Dünyanın müxtəlif inkişaf səviyyəsinə malik bir çox ölkələrində bu institut uzun tarixi dövr ərzində fəaliyyət göstərməkdədir. Bu idarəetmə formasının konkret məzmununu müəyyənləşdirən prezident seçkiləri, onun səlahiyyətləri, hakimiyyətdə olma müddəti və digər xüsusiyyətləri heç də bütün ölkələrdə eyni deyil. Onlar əsasən tarixi şərait, siyasi ənənə, prezident və hakimiyyətin digər qolları arasında münasibətlər və digər amillərlə müəyyənləşir.

Dünya miqyasında prezidentlik üsul-idarəsi tarixinə nəzər yetirsək görmək olar ki, o heç də demokratiyanın meyarı deyil. Prezidentlik üsul-idarəsi örtüyü altında gizlənmiş diktatura və totalitar rejimlərə çoxlu misallar göstərmək olar. Lakin bununla yanaşı prezidentlik üsul-idarəsi daha çox demokratiya ilə əlaqələndirilir.

Bu mövzuda ABŞ-ın tarixi təcrübəsi xüsusi maraq doğurur. Bu maraq Böyük Britaniyanın Şimali Amerikadakı 13 koloniyasının 1775-1783-cü illərdə müstəqillik uğrunda apardığı inqilabi müharibənin alovlarından ABŞ-ın doğulması ilə müəyyənləşir. XVIII əsrin böyük inqilabi hadisəsi sayılan müstəqillik uğrunda müharibəni bəzən bəşəriyyət tarixində nəhəng rol oynamış 1789-1794-cü illər Böyük Fransa inqilabına proloq da hesab edirlər. Amerika kontinentində ilk müstəqil dövlətin yaradılması və onun dövlət quruluşu üçün respublika formasının seçilməsi bütün dünyadakı demokratik qüvvələr üçün mühüm sosial-siyasi nümunə olmuşdur. Lakin liberal-demokratik prinsipləri, insan hüquqlarını əsas amalı elan etmiş dövlətin qurulması heç də asanlıqla gerçəkləşməmişdir. Xarici düşmənə qarşı vahid mövqedən çıxış edən qurucular, daxili problemlərin həllində bəzən rəqiblərə çevrilmişlər.

Hələ müstəqillik uğrunda mübarizənin başlandığı ilk illərdə gələcək dövlətin quruluşu, idarəetmə forması çox-



downloaded from KitabYurdu.org

larını düşündürürdü. Müharibənin gedişində artıq özlərini Amerika Birləşmiş Ştatları adlandıran koloniyalar onları bir ölkə tərkibində birləşdirəcək müqavilə yazıb hazırlamışdılar. «Konfederasiya və əbədi ittifaq maddələri» kimi tərtib edilən bu müqavilə 1777-ci ildə on üç ştatın nümayəndəsinin iştirak etdiyi Kontinental Konqres tərəfindən qəbul edilmiş, 1778-ci ilin iyulunda rəsmən imzalanmışdır. 1781-ci ilin martında 13-cü ştat – Merilend tərəfindən ratifikasiya edildikdən sonra müqavilə qüvvəyə minir.

Lakin çox keçmir ki, müqavilənin səmərəsizliyi aşkar olur və ittifaq idarəetmə qabiliyyətini tamamilə itirir. Belə ki, ağır müharibə dövründə Konfederasiya ştatların üzərinə vergilər qoya bilmir, yalnız onlardan kömək diləyirdi: o qoşun yığmaq, onu maliyyələşdirmək, ticarət və sənayeni tənzimləmək, xarici siyasət yürütmək imkanından da məhrum idi. Yeni yaradılan ölkə siyasi, iqtisadi cəhətdən xaos vəziyyətinə düşmək həddinə gəlir. Sonralar ölkənin ilk prezidenti olacaq Corc Vaşinqtonun sözləri ilə desək 13 ştat bir-birinə yalnız «qum kəndiriylə» birləşdirilmişdi.

1786-cı ildə beş ştat Konqresə Konfederasiya haqqında Əsasnaməyə düzəliş vermək tələbiylə müraciət etdi. Məqsəd daha səmərəli idarəetmə formasını tapmaq idi. Federasiyanın – daha sıx ittifaqın yaradılması tərəfdarları, başda Vaşinqton olmaqla ölkə konstitusiyası üzərində işə başladılar. Layihə üzərində işə, gələcəkdə ABŞ-ın dördüncü prezidenti olmuş Ceyms Medison rəhbərlik edirdi.

Dövrün məşhur liderlərinin də daxil olduğu 55 nəfər nümayəndənin hazırlayacağı konstitusiya ilk növbədə güclü icraedici hakimiyyət yaratmalı, lakin bu hakimiyyətin səlahiyyətləri də hüdudsuz olmamalı idi. Digər tərəfdən ittifaqın işlək qanunverici orqanını və vahid məhkəmə sistemini yaratmaq lazım idi. Bütün deyilənləri gerçəkləşdirmək üçün ölkə qurucuları XVIII əsr fransız maarifçilərinin, xüsusilə filosof və tarixçi Ş.Monteskyönün yaratdığı «hakimiyyətin



downloaded from KitabYurdu.org

bölüşdürülməsi» nəzəriyyəsindən bəhrələnmişlər. Onun nəzəriyyəsinə görə düzgün qurulmuş dövlətdə vahid hakimiyyət ola bilməz, əksinə bir-birindən asılı olmayan üç hakimiyyət – qanunverici hakimiyyət, icra hakimiyyəti və məhkəmə hakimiyyəti olmalıdır. Bu hakimiyyət növlərinin bir orqanın, və yaxud şəxsin əlində birləşdirilməsi mütləq ümumi mənafenin unudulmasına, sui-istifadə təzahürlərinə aparıb çıxarır və şəxsiyyətin siyasi azadlığı ilə bir araya sığmır. Monteskyö yazırdı ki, qanunverici və icra hakimiyyətinin bir əldə cəmlənməsi Qanunun aliliyini pozur: əgər hakimlər təkcə mühakimə etməklə kifayətlənməyib həm də qanunvericiliklə məşğul olsalar məhkəmə özbaşınalığı labüddür. Onun sxemi hakimiyyətin bütün növlərini birləşdirən hər hansı orqanın varlığını istisna edirdi. Monteskyöyə görə qanunverici hakimiyyət parlamentə, icra hakimiyyəti monarxa məxsus olmalı, məhkəmə hakimiyyəti andlı iclasçılar məhkəməsində təcəssüm tapmalıdır.

Medison qarşıda duran vəzifənin öhdəsindən ustalıqla gəldi. O, Monteskyönun «hakimiyyətin bölüşdürülməsi» ideyasından səmərəli istifadə etməklə «əyləclər və balanslar» *(checks and balances)* və ya «qarşılıqlı nəzarət və əks təsir» prinsipinə əsaslanan siyasi quruluş yaratdı.

1787-ci ilin mayında öz işinə başlayan konstitusiya Konventi sentyabrın 17-də Konstitusiya layihəsini qəbul etdi. İki il ərzində ştatlarda ratifikasiya edilən konstitusiya 4 mart 1789-cu ildə qüvvəyə minmişdir.

Konstitusiya Konventindəki müzakirələrin gedişində Tomas Cefferson başda olmaqla bir qrup nümayəndə konstitusiyanın mətninə dövlətin məhdudlaşdıra bilməyəcəyi insan hüquqlarının siyahısını daxil etmək tələbini irəli sürürdü. Əvvəlcə etirazla qarşılanan bu təklif 1789-cu ilin yazında Konqresdə ciddi müzakirə edilir. Ceffersonun təklif etdiyi düzəlişlər siyahısı dərhal qəbul edilərək ratifikasiya üçün ştatlara göndərilir. 1791-ci ilə qədər düzəlişlərin 10-u



downloaded from KitabYurdu.org

təsdiqlənir və o vaxtdan ABŞ Konstitusiyasının Hüquqlar haqqında Billi kimi tanınır. Bu Billə əsasən Konqres vicdan, söz və dinc yığıncaqlar azadlığını məhdudlaşdıran qanunlar qəbul edə bilməz.

Hüquqlar haqqında Billin qəbul edildiyi 1791-ci ildən indiyə qədər Konstitusiyaya daha 17 düzəliş edilib. Bu düzəlişlər əsasən vətəndaş hüquqlarını (quldarlığın ləğvi, seçki hüquqlarının genişləndirilməsi və s.) artırmış və vətəndaşların dövlət üzərindəki nəzarətinin güclənməsinə kömək etmişdir.

ABŞ Konstitusiyasına əsasən icra hakimiyyətini prezident həyata keçirir. «Köhnə dünyadakı» böyük dövlətlərin əksəriyyətində monarxiya üsul-idarəsinin hökmran olduğu bir dövrdə məhdud müddətə seçilən prezident ideyasının özü inqilabi hadisə idi. Geniş səlahiyyətlərə malik olan prezidentlik institutunun yaradılması Konstitusiya Konventində bəzi mübahisələrə səbəb olmuşdu.

Sonralar Ceyms Medison yazırdı ki, 1 iyun 1787-ci ildə pensilvaniyalı nümayəndə Ceyms Uilson Konventin gündəliyinə gələcək «icra hakimiyyəti» haqqında məsələnin daxil edilməsini təklif edərkən zala sükut çökür. 55 nümayəndənin hər biri başa düşürdü ki, onlar hakimiyyət sisteminin ağrılı məqamına toxunmuşlar: onların əksəriyyəti 1777-ci ildə qəbul edilən «Konfederasiya və əbədi ittifaq maddələri» ilə müqayisədə icra hakimiyyətinin gücləndirilməsinin zəruri olduğunu başa düşürdülər. Lakin belə icra hakimiyyətinin forması, onun əhali tərəfindən necə qarşılanacağı haqqında konkret heç nə məlum deyildi. Konvent bir çox, o cümlədən A.Hamiltonun təklif etdiyi əbədi prezident seçilməsi, respublika prinsiplərinə daha çox uyğun gələn kollegial rəhbərliyi həyata keçirən orqanın yaradılması kimi modelləri nəzərdən keçirir.

Ceyms Uilson elə ilk çıxışındaca bildirmişdi ki, «icraedici hakimiyyət bir nəfərdən ibarət olmalıdır». Virçiniyalı



downloaded from KitabYurdu.org

nümayəndə Edmond Rendolf bu təklifə inamsız yanaşaraq onda «Monarxiya rüşeymlərinin» olduğunu bildirsə də, müzakirələrdən sonra Uilsonun təklifi qəbul edilir. Lakin məsələ bununla bitmir: bu qərar kim və hansı müddətə prezident seçiləcək, Konstitusiya ona hansı səlahiyyətləri verməlidir kimi sualları cavablandırmırdı. Bu sualların müzakirəsi həftələr, aylar boyu davam etmişdir. Xüsusilə prezidentlik müddəti ətrafında aparılan müzakirələr gərgin keçir. Burada əsas iki təklif gündəlikdə olub: bir dəfə seçilməklə yeddi illik və yenidən namizədliyi irəli sürmək hüququna malik olmaqla dörd illik müddətə seçilmək. İkinci variantın seçilməsinə əsas səbəb yeddi illik müddətdə vəzifə sahibinin sui-istifadə ehtimalının daha böyük olması idi.

ABŞ-da prezident və vitse-prezident seçkiləri, onların səlahiyyətləri və s. Konstitusiyanın II maddəsində əksini tapıb. Konstitusiyanın II maddəsi və məhz onunla bağlı edilmiş dəyişiklikləri aşağıda oxuya bilərsiniz.

## II MADDƏ
## (icra hakimiyyəti)

**1-ci bölmə.** İcra hakimiyyətini Amerika Birləşmiş Ştatlarının Prezidenti həyata keçirir. O öz vəzifəsində dörd illik müddətdə qalır və onun, eləcə də eyni müddətə seçilən Vitse-prezidentin seçkiləri bu cür keçirilir:

Hər ştat özünün Qanunverici yığıncağının müəyyənləşdirdiyi qaydada, ştatın Konqresə göndərmək hüququ olan Senatorların və Nümayəndələrin sayı qədər seçimçilər təyin edir, ancaq Senatorlar, Nümayəndələr və Birləşmiş Ştatların xidmətindəki fəxri, yaxud maaşlı vəzifələri tutan şəxslər seçimçi təyin edilə bilməzlər.

Seçimçilər öz ştatlarında toplaşır və gizli səsvermə ilə heç olmasa biri bu ştatın sakini olmayan iki şəxsi seçirlər. Sonra onlar səs yığmış bütün şəxslərin siyahısını tərtib edir,



downloaded from KitabYurdu.org

burada onların hər birinə verilmiş səslərin sayını göstərirlər. Seçimçilər siyahini imzalayır və təsdiqləyir, sonra o, möhürlənmiş halda Birləşmiş Ştatlar Hökumətinin olduğu yerə, Senatın Sədrinin adına göndərilir. Senatın Sədri Senatın və Nümayəndələr Palatasının iştirakı ilə bütün təsdiqlənmiş siyahıları açıb götürür, bundan sonra səslərin hesabı aparılır. Ən çox sayda (bu say bütün seçimçilərin yarısından çoxunu təşkil edirsə) səs toplamış şəxs Prezident olur. Səslərin əksəriyyətini bir neçə adam topladıqda və onlara eyni sayda səs verildikdə Nümayəndələr palatası birbaşa gizli səsvermə ilə onlardan birini Prezident seçir; əgər heç bir şəxs səslərin əksəriyyətini toplamazsa, Nümayəndələr palatası daha çox səs yığmış beş şəxsin içərisindən yenə həmin qayda ilə prezident seçir. Bu halda prezident seçilərkən səslər ştatlar üzrə verilir və hər ştatın nümayəndəliyinin bir səsi olur; bu məqsədlər üçün seçilmənin yetərsayı ştatların üçdə ikisinə bərabərdir, seçilmək üçünsə bütün ştatların əksəriyyəti zəruridir. Prezidentin seçilməsindən sonra ən çox səs toplamış şəxs bütün hallarda Vitse-prezident sayılır. Bir neçə şəxs bərabər sayda səs topladıqda Senat onlardan birini gizli səsvermə yolu ilə Vitse-prezident seçir.

Konqres seçimçilərin seçilmə vaxtını və onların öz səslərini verdikləri günü təyin edə bilər; həmin gün Birləşmiş Ştatların bütün ərazisində eyni olmalıdır.

Doğulduğu zaman Birləşmiş Ştatların vətəndaşı olmayan, yaxud bu Konstitusiyanın təsdiq edildiyi vaxt Birləşmiş Ştatların vətəndaşı olmayan şəxs Prezident vəzifəsinə seçilə bilməz; bu vəzifəyə eləcə də otuz beş yaşına çatmamış və birləşmiş Ştatlarda on dörd il daimi sakin olmamış şəxs seçilə bilməz.

Prezident vəzifəsindən kənarlaşdırıldıqda, yaxud öldükdə, istefa verdikdə, ya da vəzifəsi ilə bağlı hüquq və borclarını yerinə yetirməyə qabil olmadıqda həmin hüquq və borclar Vitse-prezidentə keçir; prezident və vitse-prezi-


downloaded from KitabYurdu.org

dent kənarlaşdırıldıqları, öldükləri, istefa verdikləri, yaxud qabiliyyəti itirdikləri təqdirdə Konqres hansı vəzifəli şəxsin Prezident kimi fəaliyyət göstərməli olduğunu qanunla müəyyənləşdirə bilər və o, prezidentə öz borclarını həyata keçirməyə mane olan səbəblər aradan götürülənədək, yaxud yeni Prezident seçilənədək onu əvəz edəcək.

Prezident öz xidmətinə görə, müəyyən edilmiş vaxtlarda haqq alır və bu haqq onun seçildiyi müddətdə artırıla, yaxud azaldıla bilməz; bu müddətdə o, Birləşmiş Ştatlardan, yaxud hər hansı ştatdan pul şəklində heç bir haqq ala bilməz.

Vəzifəsinə başlamazdan öncə Prezident bu cür and içir, yaxud təntənəli vəd verir: *«Mən təntənəli şəkildə and içirəm (söz verirəm) ki, Birləşmiş Ştatların Prezidenti vəzifəsini şərəflə yerinə yetirəcək, Birləşmiş Ştatlar Konstitusiyasını var gücümlə qoruyacaq, müdafiə edəcək və dəstəkləyəcəyəm».*

**2-ci bölmə**. Prezident Birləşmiş Ştatlar ordusu və donanmasının, ayrı-ayrı ştatların Birləşmiş Ştatların həqiqi xidmətinə çağırılmış xalq qoşunlarının ali baş komandanıdır; o, hər bir icra departamentinin başçısından onun səlahiyyətinə aid istənilən məsələ haqqında yazılı fikir bildirməyi tələb edə bilər; onun hökmlərin yerinə yetirilməsini təxirə salmaq, impiçment qaydasında ittiham halları istisna olunmaqla, Birləşmiş Ştatlara qarşı törədilmiş cinayətləri bağışlamaq hüququ var.

Onun Senatın məsləhəti və razılığı ilə beynəlxalq müqavilələr bağlamaq (onları iştirak edən Senatorların üçdə ikisi bəyənməlidir), Senatın məsləhəti və razılığı ilə səfirləri, başqa səlahiyyətli Nümayəndələri və konsulları, ali Məhkəmənin hakimlərini, eləcə də Birləşmiş Ştatların, təyinatları haqqında bu Konstitusiyada başqa göstəriş olmayan və vəzifələri qanunla müəyyənləşdirilən, bütün vəzifəli şəxslərini təyin etmək hüququ vardır, ancaq Konq-



downloaded from KitabYurdu.org

res lazım bildiyi aşağı vəzifəli şəxslərin təyin edilməsini qanunla şəxsən Prezidentin özünə, hakimlərə, yaxud departamentlərin başçılarına həvalə edə bilər.

Prezidentin Senatın sessiyaları arasındakı dövrdə yaranan bütün boş yerlərə Senatın ən yaxın sessiyası qurtaran müddətədək vəzifə səlahiyyətləri verməklə adam təyin etmək hüququ vardır.

**3-cü bölmə.** Prezident vaxtaşırı Konqresə ittifaqın vəziyyəti haqqında hesabat verir və baxılmaq üçün ona özünün zəruri və faydalı saydığı tədbirləri təqdim edir; təcili lazım olduqda o, hər iki Palatanı, yaxud onlardan birini çağırır, sessiyaların təxirə salınması vaxtı haqqında Palatalar arasında fikir ayrılığı yarandıqda onları özünün münasib bildiyi vaxta keçirir; səfirləri və başqa səlahiyyətli Nümayəndələri qəbul edir, qanunlara dəqiq riayət edilməsini təmin edir və Birləşmiş Ştatların vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir.

**4-cü bölmə.** Prezident, Vitse-prezident və Birləşmiş Ştatların bütün mülki vəzifəli şəxsləri impiçment qaydasında ittiham edilərkən xəyanətdə, rüşvətxorluqda, başqa ağır cinayətlərdə və əməllərdə təqsirli bilinərlərsə vəzifədən kənarlaşdırılırlar.

## XII DÜZƏLİŞ (1804)

Seçimçilər öz ştatlarında toplaşır və ən azı biri həmin ştatın sakini olmayan Prezidentə və Vitse-prezidentə bülletenlərlə səs verirlər; onlar öz bülletenlərində prezident kimi səs verdikləri şəxsi, ayrıca bülletenlərdə isə vitse-prezident kimi səs verdikləri şəxsi göstərirlər; elə onlar da Prezident kimi səs verdikləri bütün şəxslərin və vitse-prezident kimi səs verdikləri bütün şəxslərin ayrıca siyahılarını onlardan hər birinə verilmiş səslərin sayını göstərməklə tərtib edirlər; onlar bu siyahıları imzalayır, təsdiqləyir və möhürlənmiş halda



downloaded from KitabYurdu.org

Birləşmiş Ştatların hökumətinin olduğu yerə Senat Sədrinin adını göndərirlər. Senatın sədri Senatın və Nümayəndələr Palatasının iştirakı ilə bütün təsdiqlənmiş siyahıları açıb götürür, bundan sonra səslərin hesabı aparılır. Prezidentliyə ən çox sayda (bu say bütün təyin edilmiş seçimçilərin yarısından çoxunu təşkil edirsə) səs toplamış şəxs Prezident olur; heç kəs səslərin belə əksəriyyətini toplaya bilməzsə, daha çox səs toplamış şəxslərdən (prezidentliyinə səs verilmişlərin içərisindən üç nəfərdən artıq olmamaqla) Nümayəndələr Palatası gecikdirmədən, bülletenlərlə səs verərək Prezident seçir. Ancaq Prezident seçkisində səslər ştatlar üzrə verilir, özü də hər ştatın nümayəndəliyinin bir səsi olur; belə halda yetərsayı Nümayəndələr palatasının ştatların üçdə ikisindən olan üzvləri təşkil edir; bu vaxt Prezidentin seçilməsi üçün bütün ştatların səslərinin əksəriyyəti zəruridir (Nümayəndələr Palatası, seçmə hüququ ona keçərkən, növbəti martın dördüncü gününədək Prezidenti seçməzsə, onda Vitse-prezident Prezidentin öldüyü, yaxud başqa konstitusiya iqtidarsızlığı halında olduğu kimi Prezident sifətində hərəkət edəcək). Vitse-prezidentliyə ən çox sayda (bu say bütün təyin edilmiş seçimçilərin yarısından çoxunu təşkil edirsə) səs toplamış şəxs Vitse-prezident olur; heç kəs səslərin əksəriyyətini toplaya bilməzsə Senat siyahıdakı bütün namizədlərin içərisində ən çox səs toplamış iki şəxsdən birini Vitse-prezident seçir; bu zaman Vitse-prezidentin seçilməsi üçün bütün Senatorların səslərinin əksəriyyəti zəruridir. Ancaq Konstitusiya tələblərinin gücü ilə prezident vəzifəsinə seçilə bilməyəcək heç kəs Birləşmiş Ştatların Vitse-prezidenti vəzifəsinə seçilə bilməz.

## XX DÜZƏLİŞ (1933)

**1-ci bölmə.** Prezidentin və Vitse-prezidentin səlahiyyət müddətləri yanvarın 20-də günorta, Senatorların və Nümayəndələrin səlahiyyət müddətlərisə yanvarın 3-də



downloaded from KitabYurdu.org

günorta o illərdə qurtarır ki, bu maddə ratifikasiya edilmiş olsaydı, həmin müddətlər başa çatardı; elə bu vaxtdan da onların varislərinin səlahiyyət müddətləri başlanır.

**2-ci bölmə.** Konqres ildə ən azı bir dəfə toplaşır və bu sessiya, konqres qanunla başqa vaxt müəyyənləşdirməzsə, yanvarın 3-də günorta başlanır.

**3-cü bölmə.** Seçilmiş Prezident Prezidentin səlahiyyət müddətinin başlanğıcı kimi müəyyənləşdirilmiş vaxtadək ölərsə, seçilmiş Vitse-prezident Prezident olur. Əgər Prezident onun səlahiyyət müddətinin başlanğıcı kimi müəyyənləşdirilmiş vaxtadək seçilməsə, yaxud seçilmiş Prezident bu vəzifəyə namizədlər üçün müəyyən edilmiş tələblərə cavab vermirsə, onda seçilmiş Vitse-prezident Prezident bu tələblərə cavab verincəyədək Prezident kimi fəaliyyət göstərir, seçilmiş Prezident də, seçilmiş Vitse-Prezident də bu vəzifələrə namizədlər üçün müəyyən edilmiş tələblərə cavab vermədikdə Konqres kimin Prezident kimi fəaliyyət göstərəcəyinin qeyd olunduğu, yaxud Prezident kimi fəaliyyət göstərməli olacaq şəxsin seçilməsi qaydasının müəyyənləşdirildiyi qanun qəbul edir; həmin şəxs Prezident və Vitse-prezident bu vəzifələrə namizədlər üçün müəyyən edilmiş tələblərə cavab verincəyədək uyğun vəzifəni yerinə yetirir.

**4-cü bölmə.** Konqres Nümayəndələr Palatasının seçki hüququ ona keçdiyi zaman Prezident seçə biləcəyi şəxslərdən birinin ölümü halı üçün və Senatın seçki hüququ ona keçdiyi zaman Vitse-prezident seçə biləcəyi şəxslərdən birinin ölüm halı üçün qanunda öncədən tədbirlər nəzərdə tuta bilər.

**5-ci bölmə**. 1-ci və 2-ci bölmələr bu maddənin ratifikasiyasından sonrakı ilk oktyabrın 15-ci günündə qüvvəyə minir.

**6-cı bölmə.** Bu maddə təqdim edildiyi gündən sonrakı yeddi il ərzində ayrı-ayrı ştatların dörddə üçünün Qanunverici yığıncaqları tərəfindən Konstitusiyaya düzəliş kimi ratifikasiya edilməyincə qüvvəyə minmir.



downloaded from KitabYurdu.org

## XXII Düzəliş (1951)

**1-ci bölmə**. Heç bir şəxs Prezident vəzifəsinə iki dəfədən artıq seçilə bilməz və Prezident vəzifəsini tutmuş, yaxud Prezident seçilmiş başqa şəxsin müddətində iki ildən artıq Prezident kimi fəaliyyət göstərmiş heç bir şəxs Prezident vəzifəsinə bir dəfədən artıq seçilmir. Ancaq bu maddənin qüvvəsi Konqres bu maddəni təklif edərkən prezident vəzifəsini tutmuş şəxsə şamil edilmir və bu maddənin qüvvəyə mindiyi müddət ərzində Prezident vəzifəsini tutan, yaxud Prezident kimi fəaliyyət göstərən heç bir şəxsə həmin müddətin qalan vaxtında da Prezident vəzifəsini tutmağa, yaxud Prezident kimi fəaliyyət göstərməyə mane olmur.

**2-ci bölmə**. Bu maddə Konqresin onu ştatların bəyənməsi üçün təqdim etdiyi gündən keçən yeddi il ərzində, Konstitusiyada nəzərdə tutulduğu kimi, ayrı-ayrı ştatların dörddə üçünün Qanunverici yığıncaqları tərəfindən Konstitusiyaya düzəliş kimi ratifikasiya edilməzsə, qüvvəyə minmir.

## XXIV Düzəliş

**1-ci bölmə.** Birləşmiş Ştatlar vətəndaşlarının Prezidentin, yaxud Vitse-prezidentin, Prezidentin, yaxud Vitse-prezidentin seçimçilərinin, ya da Senatorların və Konqresdəki Nümayəndələrin hər hansı ilkin, yaxud başqa seçkilərində səsvermə hüququnu Birləşmiş Ştatlar, yaxud hər hansı ştat hansısa seçki vergisinin, yaxud başqa verginin ödənilməsi ilə bağlı danmamalı, yaxud məhdudlaşdırmamalıdır.

**2-ci bölmə.** Konqres bu maddəni uyğun qanunların qəbulu yolu ilə yerinə yetirə bilər.



downloaded from KitabYurdu.org



# CORC VAŞİNQTON
(GEORGE WASHINGTON)
(1789–1797)

Corc Vaşinqton adı Amerika tarixinə böyük hərflərlə yazılmış şəxsiyyətlərdəndir. O, on üç koloniyanın əvvəl suveren respublikalar ittifaqına, sonra dünyada ilk fede-



downloaded from KitabYurdu.org

ral dövlətə çevrilməsində mühüm rol oynamışdır. Virciniyada keçirilən ilk Kontinental konqresdə qətiyyətlə İngiltərənin müstəmləkə siyasətinə qarşı çıxanlardan olmuşdur. Amerika hərbi qüvvələrinin Ali Baş Komandanı kimi hərbi müqaviməti təşkil və ona rəhbərlik etmiş, səkkiz il davam edən müharibə Amerikanın tam müstəqilliyi ilə nəticələnmişdir.

C.Vaşinqton 11 fevral 1732-ci ildə artıq dördüncü nəsli Virciniyada yaşayan varlı plantator Avqustin Vaşinqtonun ailəsində dünyaya gəlmişdir. 1752-ci il təqvim islahatında tarix 11 gün irəliyə çəkilmiş, elə o vaxtdan 22 fevral C.Vaşinqtonun doğum günü hesab edilmişdir. İlk uşaqlıq və yeniyetməlik dövrü, aldığı səthi təhsil onun gələcəkdə parlaq karyera edəcəyindən xəbər vermir. 1743-cü il 12 apreldə ailəyə bədbəxtlik üz verir. 11 yaşlı Corcun atası vəfat edir. O vaxtkı ənənəyə görə mirasın böyük bir hissəsi onun ögey qardaşları (A.Vaşinqtonun birinci nikahdan olan) Lourens və Avqustin arasında bölüşdürülür. Lakin Lourensin övladı olmadan vəfat edəcəyi təqdirdə Corc onun varisi kimi göstərilir.

Atasının vəfatından üç ay sonra Lourens varlı qonşuları Uilyam Ferfaksın qızı Anna ilə evlənir. Vaşinqtonun dünyagörüşünün formalaşmasında U.Ferfaksın böyük rolu olur. Elə onun məsləhəti ilə 1748-ci ildə Corc yerölçən kimi fəaliyyətə başlayır.

1752-ci ildə Lourens vərəm xəstəliyindən vəfat edir və onun bütün varidatı, eyni zamanda Aleksandriya yaxınlığındakı Maunt Vernon malikanəsi C.Vaşinqtona qalır. Elə bu vaxtdan o, Virciniya milisində mayor rütbəsində fəaliyyətə başlayır. Çox keçmir ki, 22 yaşlı Corc polkovnik rütbəsində fransız-hindu müharibəsinə cəlb edilir. Burada o, özünü bacarıqlı hərbçi kimi göstərir. Amma ingilis ordu zabitlərindən fərqli olaraq onlara ikinci dərəcəli, ögey münasibət bəslənilir və demək olar ki, onun rəhbərlik etdiyi



downloaded from KitabYurdu.org

milis dəstəsindən yalnız sərhədləri qorumaq üçün istifadə edilir. Bu, gənc Vaşinqtonun qəlbində ingilis ağalığına dərin nifrət oyadır. Bu hisslərin təsiri altında 1759-cu ildə istefaya gedir.

Hərbi xidmətdən istefa verən C.Vaşinqton böyük sərvətə malik olan, varlı, dul və iki uşaq anası olan Marta Dendric Kastislə ailə həyatı qurur. Məhz indi, özü də Virciniya parlamentinin üzvü olan Vaşinqton üçün müstəmləkənin plantator aristokratiyasına gedən yolda yaşıl işıq yanır. Marta ilə nikah Vaşinqtona böyük var-dövlət gətirməklə yanaşı, onun üçün dəbdəbəli və qayğısız həyatın rəhninə çevrilir. Aristokrat həyatının bütün incəliklərinə bələd olan Martanın sayəsində Maunt Vernon malikanəsi tezliklə Virciniya plantatorlarının qeyri-rəsmi görüş yeri olur. Vaşinqtonun öz övladı olmasa da, Martanın birinci nikahından olan övladlarının tərbiyəsini öz üzərinə götürür.

C.Vaşinqtonun 1759-1775-ci illərdəki həyat və fəaliyyəti Amerika plantatorları ilə metropoliya arasında ziddiyyətlərin yaranma səbəblərini tam şəkildə özündə əks etdirir. Amerika müstəmləkələrinə xammal və satış bazarı kimi baxan ingilis burjuaziyası, burada iqtisadi inkişafı ləngidir, sənaye yüksəlişinə imkan vermirdi. Özlərini Böyük Britaniya kralının sadiq təbəələri hesab edən plantatorlar bir çox siyasi hüquqlardan, məsələn parlamentə öz nümayəndələrini seçmək hüququndan məhrum idilər. Onlar istehsal etdikləri məhsulların satılmasında ingilis ticarət evlərindən tam asılı idilər. Qaydalara görə Avropaya göndərilən tütün və digər xammal məhsullarının daşınma və digər xərclərini özləri ödəyirdilər.

Adətən yüklərin daşındığı gəmilər Amerikaya qayıdarkən, plantatorlar tərəfindən sifariş edilmiş hazır məhsulları gətirirdilər. Bu zaman plantatorlar istədikləri malın keyfiyyətinə baxmaq, qiymətində razılaşmaq kimi imkanlardan məhrum idilər. Bəzən tütünə qoyulan aşağı qiymətlər,



downloaded from KitabYurdu.org

göndərilən malların dəyərini və yol xərclərini ödəyə bilmirdi. Buradan əmələ gələn borc isə yüksək faizlərlə növbəti mövsümə saxlanılırdı.

Hər bir plantator kimi Vaşinqton da bu problemlərlə üzləşirdi. Vəziyyətdən çıxış yolunu öz plantasiyalarında aqrar islahatlar aparmaqda görən Vaşinqton 1763-cü ildən etibarən taxıl yetişdirməyə başlayır. Beş il müddətində taxıl plantasiyalarda becərilən əsas məhsul olur. Böyük dəyirman tikdirməklə 60-cı illərin sonuna yaxın Vest-Hində un ixracında uğurlar qazanır. Beləliklə o, plantasiyalarında nisbi iqtisadi sərbəstlik əldə edir. Bu Vaşinqtonun müstəqillik uğrunda apardığı mübarizənin Maunt Vernon çərçivəsində ilk qələbəsi idi.

1763-cü ildə İngiltərə və Fransa arasında yeddi illik müharibə sonuncunun Şimali Amerikadakı əsas torpaq sahələrini itirməsi ilə başa çatır. Tezliklə müharibə nəticəsində İngiltərənin çoxlu borclarının yığıldığı aşkar olur. Bu borcların ödənilməsi üçün C.Qrenvill kabinetinin təklifi ilə müstəmləkələrə qoyulan vergilər artırılır. Kral xəzinəsinin doldurulması üçün yeni-yeni vergi növləri («Möhür qanunu», «Mənzil təminatı qanunu») tətbiq edilir. 1763-cü ildə verilmiş fərmana görə müstəmləkəçilərə Qərbə tərəf köçmək, yeni torpaq sahələri əldə etmək qadağan edilir.

Bütün bunlar getdikcə müstəmləkələrlə metropoliya arasındakı münasibətləri daha da kəskinləşdirirdi. Nyu-York və digər iri şəhərlərdə mitinqlər keçirilir, vergi verilməsindən boyun qaçırılır, kral hakimiyyətinə itaətsizlik göstərməyə çağırışlar səslənirdi. Digər tərəfdən ingilis mallarına boykot elan edilirdi. 1773-cü ildə çay yüklənmiş bir neçə gəminin Boston limanında batırılması etirazların kulminasiyası oldu. Tarixə «Boston çay qonaqlığı» adı ilə daxil olmuş bu aksiya bir daha göstərdi ki, müstəmləkələrdə ingilis ağalığını əvvəlki qaydada davam etdirmək mümkün deyildir.



downloaded from KitabYurdu.org

1774-cü ildə on üç ştatın iştirakı ilə Birinci Kontinental Konqres çağırılır. Konqres iştirakçıları kral III Georqa müraciət edərək, onları qəddar nazirlərdən qorumağı xahiş edirlər. Lakin Kral nəinki bu xahişləri qəbul etmir, əksinə onları qiyamçı elan edərək cəza dəstələrinə müstəmləkələrdə qayda-qanun yaratmaq əmri verir. Beləliklə Amerika müstəmləkələrinin İngiltərə ilə aparacağı səkkiz illik İstiqlaliyyət müharibəsi başlayır.

10 may 1775-ci ildə Filadelfiyada İkinci Kontinental Konqresin açılışı olur. Bu konqresdə Corc Vaşinqton Şimali Amerika Hərbi qüvvələrinin Ali Baş Komandanı seçilir. İlk döyüşlərdən uğur qazanan Vaşinqton ordusu 1776-cı ildə Bostonu azad edir. Müstəmləkələr bir-birinin ardınca öz müstəqilliklərini elan edirlər. Bu hadisələrin məntiqi yekunu olaraq 1776-cı il iyulun 4-də Filadelfiyada Konqres «İstiqlaliyyət bəyannaməsi» qəbul edir. T.Cefferson tərəfindən yazılmış bu sənəd, yeni bir dövlət yarandığını elan etməklə yanaşı dünyada ilk dəfə insan azadlıqlarının şərhini verir.

Müharibə ərzində Vaşinqtonun ən böyük problemi ordunun silah və digər hərbi ləvazimatla təmin edilməsi olmuşdur. Bəzən o özünü Konfederasiya Konqresi tərəfindən unudulmuş hiss etsə də qətiyyən ruhdan düşməmişdir. Eyni zamanda o heç vaxt mülki rəhbərliklə qarşıdurmaya getməmiş, vacib hərbi qərarları da ətraflı müzakirələrdən sonra qəbul etmişdir. Onun daim məsləhətləşdiyi şəxslər arasında Aleksander Hamilton və Markiz de Lafayet xüsusi yer tuturdular. Vaşinqton bir çoxlarının təklif etdiyi partizan müharibəsi ideyasını rədd edərək yalnız açıq döyüşlər aparılmasına üstünlük verirdi. Onun fikrincə yalnız belə döyüşlərdə qazanılan qələbələrlə düşməni danışıqlara getməyə məcbur etmək olar. Bu strategiya özünü Virciniya ştatının Yorktaun şəhəri ətrafında gedən döyüşlərdə təsdiq etdi. 1781-ci il 19 oktyabrda General Kornuollisin 7.000 əsgərlə təslim olması danı-



downloaded from KitabYurdu.org

şıqlar üçün stimul yaratdı və iki il sonra rəsmi olaraq sülh müqaviləsinin imzalanması ilə nəticələndi.

Müharibə başa çatdıqdan sonra ordu komandanlarında öz gələcək taleləri üçün bir inamsızlıq var idi. Zabitlər müharibədən sonra Konqresin onlara hansı münasibəti göstərəcəyindən narahat idilər. Bu baxımdan Vaşinqtondan mülki rəhbərliyi öz əlinə almağı tələb edirdilər. Lakin 1783-cü il mart ayında Vaşinqton zabit heyətinə şəxsi müraciətində ordunun siyasi rəhbərliyə tabe olmasının zəruriliyini bildirirdi.

1783-cü il dekabr ayının 23-də Vaşinqton Ali Baş Komandanlığı təntənəli surətdə Konqresə qaytarır. Bununla yanaşı güclü, mərkəzləşmiş hakimiyyətin yaradılmasının zəruriliyi haqqında hər bir ştat rəhbərliyinə məktub imzalayır. Lakin ayrı-ayrı ştatların rəhbərliyi bu təklifə soyuq münasibət göstərir. Onlar ştatlara daha geniş sərbəstlik verən Konfederasiya tərəfdarı olduqlarını bildirirlər.

İstefaya çıxdıqdan sonra C.Vaşinqton yenidən Maunt Vernona qayıdır. Burada o, rahat və qayğısız həyat sürsə də, ölkə daxilində gedən prosesləri diqqətlə izləyirdi. Ştatlar arasında əlaqələrin düzgün qurulmaması, bir çox iqtisadi problemlərin öz həllini tapmaması ittifaqın gələcəyini şübhə altına salırdı. 1786-cı ilin payızında istefada olan kapitan Şeysin başçılığı ilə yoxsul fermerlərin üsyanı isə təcili tədbirlər görülməsini vacib etdi. Bu səbəbdən 1787-ci ilin mayında yeni Konstitusiya hazırlanması üçün Konstitusiya Konventi yaradılır. Xüsusən A.Hamilton və C.Medisonun təkidi ilə Vaşinqton Konventə sədr seçilir. Yeni hazırlanmış Konstitusiya özündə federal dövlət quruluşunu əks etdirirdi. Uzun müzakirələrdən sonra Konstitusiya qəbul edilir.

Artıq C.Vaşinqtonun prezident olacağı heç kimdə şübhə doğurmurdu. Hətta 1788-ci il 4 iyul Konstitusiya bayramı şənliklərində «Vaşinqton-Prezident» kimi şüarlar səsləndirilirdi.



downloaded from KitabYurdu.org

Nəhayət 1789-cu il fevral ayının 4-də keçirilən prezident seçkilərində Corc Vaşinqton ABŞ-ın ilk prezidenti seçilir. Səslərin sayına görə ikinci yeri tutan Con Adams Konstitusiyanın müvafiq maddəsinə əsasən vitse-prezident olur. Vaşinqtonun Maunt Vernondan Nyu-Yorka gəlişi bayram kimi qeyd olunur. O, 30 aprel 1789-cu ildə inauqurasiya nitqi söyləyir.

Prezident olaraq ilk gördüyü iş hakimiyyətin icraedici orqanlarını yaratmaq olur. Bunun üçün o, ətrafına intellektual və bacarıqlı şəxsləri toplayır. Aleksandr Hamilton maliyyə, Tomas Cefferson beynəlxalq əlaqələr, Henri Noks hərbi məsələlər, Edmund Rendolf ədliyyə naziri təyin edilir.

Bəzi tədqiqatçılar C.Vaşinqtonu başqalarının plan və layihələrini həyata keçirdiyi üçün yalnız simvolik rəhbər hesab edirlər. Əslində belə deyil. Məhz onun prezidentlik dövründə ölkənin gələcək müqəddəratında mühüm rol oynamış bir çox qərar və qanunlar qəbul edilərək həyata keçirilmişdir. Milli Bankın yaradılması, Hüquqlar haqqında Billin qəbul edilməsi bu dövrə təsadüf edir.

Cəmiyyətdə olan böyük nüfuzuna baxmayaraq o, ikinci dəfə prezident seçilmək istəmirdi. Hətta, ilk prezidentlik müddətinin sonuna yaxın C.Medisonun köməyi ilə Amerika xalqına vida müraciəti hazırlamışdı. Maunt Vernona qayıdıb sakit həyat sürmək onun başlıca arzusu idi. Lakin nazirlər arasındakı hərc-mərclik onu çox narahat edirdi. Nazirlər bir fikirdə tam həmrəy idilər: Vaşinqton yenidən seçilməlidir. Yeri gəlmişkən qeyd edək ki, nazirlər və digər siyasi xadimlər arasındakı fikir ayrılıqları, xüsusən Hamilton-Cefferson qarşıdurması tezliklə siyasi rəng alır və kabinet çərçivəsindən kənara çıxır. Hamilton tərəfdarları özlərini federalistlər adlandırır, ceffersonçular isə ad qayğısına qalmayıb antifederalist sözü ilə kifayətlənirlər. Lakin onların Fransa Burjua İnqilabının təsiri altına düşməsi özlərini demokrat respublikaçılar və ya sadəcə respublika-



downloaded from KitabYurdu.org

çılar adlandırması ilə nəticələnir. Beləliklə ABŞ prezidentlik institutunun yaradılması, siyasi qüvvələrin partiyalaşması prosesinin bünövrəsini qoyur.

Nəhayət Vaşinqton, xüsusən T.Ceffersonun ciddi təkidlərindən sonra öz namizədliyini irəli sürür və 1792-ci il seçkilərində ikinci dəfə ABŞ-ın prezidenti seçilir.

C.Vaşinqtonun ikinci prezidentlik dövrü Avropada müharibələrlə müşayiət edilir. Onun əsas məqsədi ABŞ-ı bu müharibələrdən kənarda saxlamaq idi. Bu istiqamət ölkənin Amerika kontinentində mövqeyini daha da möhkəmlədir, iqtisadi yüksəlişinə rəvac verirdi.

O, tərəfdaşlarına birmənalı şəkildə bildirir ki, növbəti prezident seçkilərində iştirak etməyəcək. Xatırladaq ki, o vaxt bir şəxsin iki dəfədən artıq prezident seçilməsinə hələ məhdudiyyət qoyulmasa da, o bu imkandan sui-istifadə etməmiş, öz xələflərinə böyük nümunə göstərmişdir. F.D.Ruzvelt istisna olmaqla heç bir prezident üçüncü dəfə seçilməmişdir. 1796-cı ilin yazından, Vaşinqton xalqa vida müraciətini hazırlayır. O, 1792-ci ildə yazılmış müraciəti A.Hamiltonun köməyi ilə yenidən işləyir və bu müraciət 1796-cı il 19 sentyabrda qəzetlərdə çap olunur.

İstefaya çıxdığı 15 mart 1797-ci il tarixindən sonra Maunt Vernon malikanəsində yaşamağa başlayır və Filadelfiyaya etdiyi qısamüddətli səfərləri nəzərə almasaq buranı heç vaxt tərk etmir. 1798-ci ilin yayında ABŞ-ın Fransa ilə münasibətləri kəskinləşəndə, müharibə olacağı təqdirdə Ali Baş Komandanlığı öz üzərinə götürəcəyini elan etsə də, hadisələr müharibəyə qədər inkişaf etmir.

Maunt Vernonda təsərrüfatla məşğul olan Vaşinqton gündəlik yazmışdır. Bu gündəlikdəki sonuncu qeyd 13 dekabr 1799-cu ildə edilmişdir. Həmin gün o, fermalarına baş çəkir və yağan sulu qar onu tamamilə isladır. Axşam evə qayıdarkən boğazında bərk ağrılar hiss edir. Səhəri gün yüksək hərarət içərisində olan Vaşinqtonu müalicə etmək



downloaded from KitabYurdu.org

üçün, qonşu fermada praktika keçən üç həkimi çağırırlar. Onların etdiyi müalicə yalnız qanalma olur. Bu isə sonu sürətlə yaxınlaşdırır. Axşam saat 10-a yaxın bu böyük insan əbədi olaraq gözlərini yumur.

Corc Vaşinqton vəsiyyətnaməsində ona məxsus olan bütün qulların azad edilməsini yazırdı. O, Müstəqillik haqqında Bəyannamənin prinsiplərini əsas tutaraq quldarlığı qəbul etmir, lakin quldarlığın tam şəkildə ləğv edilməsini də o dövr üçün qeyri-mümkün hesab edirdi. Onun vəsiyyəti Marta Vaşinqton tərəfindən həyata keçirilmişdir.



downloaded from KitabYurdu.org



# CON ADAMS
## (JOHN ADAMS)
## (1797–1801)

Vaşinqtondan sonra ölkəyə rəhbərlik etmək olduqca çətin iş idi. 1796-cı il seçkilərində qalib gəlmiş Con Adams üçünsə ikiqat çətindi. Balaca boylu, dolu bədənli Adams, təkcə öz xarici görünüşü deyil, həm də ideya və dünyagörüşü



downloaded from KitabYurdu.org

ilə Vaşinqtonun tam əksi idi. Aristoteldən Monteskyöyədək əksər dahi müəlliflərə dərindən bələd olmuşdu.

Con Adams 1735-ci il 30 oktyabrda Massaçusets ştatının Breyntri yaşayış məntəqəsində, nüfuzlu fermer ailəsində dünyaya gəlmişdi. Ailənin kənd şəraitində yaşamasına baxmayaraq təhsilə xüsusi meyli ilə digərlərindən fərqlənirdi. Gələcək prezident Harvardda təhsilini bitirdikdən sonra vəkil kimi fəaliyyətə başlayır və tezliklə böyük uğurlar qazanır. Çox keçmir ki, onun adı Bostonun tanınmış vəkilləri ilə bir sırada çəkilir. 1764-cü ildə pastor qızı Abigeyl Smitlə ailə həyatı qurur. Bu Amerika müstəmləkələrinin metropoliyaya qarşı mübarizəsinin başlandığı dövrə təsadüf edir. Öz karyerası haqqında düşünən gənc Adams bu mübarizədə iştirak etməkdən çəkinir. Hətta o, 1770-ci ildə Bostonun mülki əhalisinə qarşı qanunsuz əməllərinə görə mühakimə edilən ingilis əsgərlərini müvəffəqiyyətlə müdafiə edir.

Lakin tezliklə əmisi oğlu Samuel Adamsın təsiri altında mübarizəyə qatılır. Kontinental konqresin nümayəndəsi kimi, istiqlaliyyət qazanılmasında mühüm rol oynayır. Konqresdə İstiqlaliyyət Bəyannaməsini hazırlayacaq komissiyanın beş üzvündən biri olur. 1778-ci ildə oğlu Con Kunsi ilə birgə diplomatik danışıqlar aparmaq üçün Avropaya göndərilir. Diplomatik nümayəndə heyətinə «birinci amerikalı» adını almış Bencamin Franklin başçılıq edirdi. Bu səbəbdən onun fəaliyyəti kölgədə qalmışdı.

1779-cu ildə vətənə qayıdan Adams Massaçusets ştatının konstitusiyasını hazırlayır. Bu konstitusiyanın başlıca xüsusiyyəti – güclü icraedici hökumət, ikipalatalı qanunverici orqan və müstəqil məhkəmə sistemi – onun ideal hesab etdiyi qarışıq və məhdud idarəetmə forması idi. Lakin o, 1787-1788-ci illərdə yeni konstitusiya layihəsinin müzakirələrində bir o qədər fəalıq göstərmirdi. Bəzən hakimiyyətin bölünməsinə etirazlarını bildirən antifederalistlərlə razılaşır, qeyri-ardıcıllığı ilə özünü çətin vəziyyətə salırdı.


downloaded from KitabYurdu.org

1788-ci il prezident seçkiləri ilə əlaqədar Massaçusetsə qayıdır. Adams Vaşinqtona alternativ qismində özünü bu vəzifəyə şanslı hesab etmirdi və vitse-prezidentliklə razılaşmaq onun üçün elə də çətin deyildi.

Vitse-prezident kimi Adamsın ölkənin idarə edilməsində kifayət qədər böyük xidmətləri olmamışdır. Belə ki, prezident C. Vaşinqton onunla təsadüfi hallarda məsləhətləşərdi. Konstitusiyanın müvafiq bəndinə görə o, həmçinin senatın sədri hesab olunurdu. Səsvermələrdə səslərin sayı bərabər olduqda həlledici səsə malik idi.

Adams özünü respublikaçı hesab etsə də, gələcəkdə Birləşmiş Ştatların İngiltərə kimi monarxiyalı respublikaya çevriləcəyinə olan inamını gizlətmirdi. 1791-ci ildə çap etdirdiyi «Davil haqqında düşüncələr»i Fransa Burjua inqilabının təsiri altında olan amerikalılar arasında öz nüfuzunu itirməsinə səbəb olur. Başlıcası isə, bu yazı onun Ceffersonla olan dostluq münasibətlərinə son qoyur. Lakin Şimal ştatlarında o, hələ böyük hörmətə malik idi və 1792-ci il seçkilərində yenidən vitse-prezidenti seçilir.

1795-ci ildə Vaşinqton bir daha prezident seçilməyəcəyini bəyan etdikdə Konqresin federalist üzvləri Adamsın namizədliyini irəli sürməyi qərara alırlar. Növbəti ildə 16 ştatda keçirilən seçkilər (bu zaman Kentukki, Tennesi və Vermont da ittifaqa daxil olmuşdular) partiyalı sistemin yeni inkişaf mərhələsi olur. Seçkilər artıq özlərinin təkmil ideologiya və proqramları olan partiyaların yarışına çevrilir. Respublikaçılar isə T.Cefferson və Aron Burrun namizədliyini irəli sürürlər. Gərgin keçən seçkilərdə, Adams yalnız iki səs üstünlüyü ilə qalib gəlir. T.Cefferson vitse-prezident seçilsə də, bu vəzifəni ciddi qəbul etmir və özünün Montiçellodakı malikanəsinə çəkilir. Partiyalı seçkilərdə, vitse-prezidentin uyğun Konstitusiya maddəsi ilə müəyyənləşdirilməsi özünü doğrultmur və bu çatışmazlıq 1804-cü ildə Konstitusiyaya edilən 12-ci düzəlişlə aradan qaldırılır.



downloaded from KitabYurdu.org

1797-ci il 4 martda İnauqurasiya nitqi söyləyən Con Adams siyasi qruplaşmalar arasında barışdırıcı mövqe tutacağını vəd edir. Öz sələfinə sadiq olduğunu göstərərək kabinetdə ciddi dəyişiklik etmir. Və tezliklə səhv etdiyini anlayır. Əslində Adamsın mükəmməl fəaliyyət proqramı olmamışdır. Bu səbəbdən o, vaxtının çox hissəsini Massaçusetsdəki malikanəsində keçirir. Digər tərəfdən o, qarşıya çıxan hər hansı problemi qətiyyətlə həll etmək bacarığına malik idi.

Adamsın yeritdiyi xarici siyasi kurs əsasən ABŞ-ın beynəlxalq aləmdə bitərəfliyinə hesablanmışdı. İngiltərə ilə münasibətlər Cey tərəfindən bağlanmış müqavilə ilə tənzimlənirdisə, artıq 1796-cı ilin payızından Fransa ilə münasibətlər korlanmağa başlayır. 1797-ci ilin mayında prezident ekstremist federalistlərin etirazına baxmayaraq münasibətləri qaydaya salmaq üçün Fransaya nümayəndə heyəti göndərir. Altı aydan sonra nümayəndələr, danışıqların baş tutması üçün Fransa Xarici İşlər Naziri Taleyranın onlardan böyük miqdarda pul tələb etdiyini bildirirlər.

Bu hadisə tarixə «XYZ fırıldağı» kimi düşmüşdür. Problemin bu yolla həlli Adamsı razı salmır və 1799-cu il 18 fevralında Parisə yeni nümayəndə heyəti göndərilir. Nəhayət danışıqlar öz səmərəsini verir. 1800-cü ilin oktyabrında Napoleon Fransası ilə ABŞ üçün əlverişli müqavilə imzalanır və hələ onun prezidentliyi dövründə senatda ratifikasiya edilir.

Bu proseslər Adamsın nüfuzuna böyük zərbə vurur. Çünki, onun tərəfdarları arasında da Fransa ilə müharibənin başlanmasını istəyənlər vardı. Bəzi federalistlərin, xüsusilə A.Hamiltonun Luiziana və Floridanı işğal etmək barədə fikirləri özünə tərəfdarlar toplaya bilmişdi. Hamilton və onun bir sox tərəfdarlarının kabinetdən kənarlaşdırılması federalistlər arasındakı ziddiyyətləri daha da kəskinləşdirirdi. Cavab olaraq Hamilton Adamsın daha



downloaded from KitabYurdu.org

prezidentliyə yaramadığını bəyan edir. Bu isə növbəti seçkilərə öz təsirini göstərməyə bilməzdi.

Prezidentliyinin son aylarını Adams Vaşinqtonda davam etdirir. 1790-cı ildə paytaxt haqqında qəbul edilmiş qərara əsasən Vaşinqton şəhərinin tikilməsi yekunlaşırdı. Hökumətin buraya köçməsi 1800-cü ilin yazına təsadüf edir. Köçürmə prosesi çətin olmur və qısa müddətdə həyata keçirilir. Nazirliklərin bütün sənədləri yeddi iri qutuya asanlıqla yerləşirdi. Abigeyl Adams prezident sarayının ilk «sahibəsi» olur.

Con Adamsın prezidentlik kürsüsündəki son fəaliyyəti, bir çox gələcək konfliktlərin əsasını qoyur. Bu çoxsaylı hakim vəzifələrinə federalistlərin təyin edilməsi ilə həyata keçirilir. Ən başlıcası isə, xarici işlər naziri Con Marşallın ABŞ Ali Məhkəməsinə sədr təyin edilməsi olur. 1801-ci il 4 martda Ceffersonun prezidentlik fəaliyyətinə başlamasına bir neçə saat qalmış Adams ikinci müddətə seçilməmiş ilk eks-prezident kimi nəzərə çarpmadan paytaxtı tərk edir.

65 yaşlı eks-prezident özünü vəkilliyə və ya yenidən siyasi mübarizəyə həsr etmək üçün çox yaşlı hesab edirdi. Onun tarixin gedişi, Amerika inqilabı vaxtında həll edə bilmədiyi problemlər haqqında fikir yürütməyə çoxlu vaxtı vardı. Bu düşüncələr onun ədəbi-fəlsəfi yaradıcılığında öz əksini tapmışdır. 1811-ci ildən başlayaraq, öz köhnə rəqibi T.Ceffersonla yazışmaları ona bir növ məğlubiyyət acısını unutdurur. Ömrünün son günlərini Boston yaxınlığındakı Kuinsi malikanəsində keçirir.

Con Adams oğlu C.K.Adams 1824-cü ildə prezident seçildikdən sonra, 1826-cı il iyulun 4-də 90 yaşında vəfat edir. Bu gün Con Adams ABŞ tarixində görkəmli dövlət xadimlərindən biri hesab edilir. Bu dəyərləndirmə, onun prezidentlik fəaliyyəti yox, bütün həyat və yaradıcılığı kontekstində götürülür.



downloaded from KitabYurdu.org



# TOMAS CEFFERSON
## (THOMAS JEFFERSON)

(1801 –1809)

Tomas Ceffersonun həyat və fəaliyyəti bəşər tarixində dərin iz qoymuşdur. Onun ABŞ-ın, Yeni Dünyada ilk burjuaziya respublikasının, yaradılmasında əvəzsiz xidmətləri



downloaded from KitabYurdu.org

olmuşdur. O, tarixə təkcə böyük dövlət və siyasi xadimi kimi deyil, eyni zamanda filosof-humanist, maarifçi, linqivist, botanik, arxitektor, etnoqraf, paleontoloq kimi düşmüşdür. Bəzi bioqrafları onu Amerikanın Leonardo da Vinçisi adlandırırlar. T.Ceffersonun həyat və yaradıcılığı bir çox tədqiqatçıların diqqətini özünə cəlb etmiş, haqqında çoxlu sayda kitablar, məqalələr yazılmışdır.

T.Cefferson 13 aprel 1743-cü ildə Virciniya ştatının Albemarl qraflığında, varlı plantator ailəsində dünyaya gəlmişdir. Yaşlı vaxtında yazdığı memuarlarda, əcdadlarının Şimali Amerikaya ilk müstəmləkəçilərlə birlikdə Uelsdən gəldiyini bildirir. Uşaqlığı atası Piter Ceffersona məxsus Şedvil malikanəsində keçmişdir. Ailənin böyük oğlu olduğundan, atası onun təhsilinə ciddi fikir vermişdir. Çünki, Virciniya plantatorları feodal Avropa ənənələrinə sadiq qalaraq böyük oğlu əsas varis hesab edirdilər. Balaca Tomas beş yaşından xüsusi müəllimlər yanında sistemli təhsil alırdı.

1757-ci ildə Tomas çox sevdiyi atasını itirir. Bu ona böyük zərbə olur. Atasının vəsiyyətnaməsinə əsasən, ona 3.000 hektar torpaq sahəsi və 60 qul miras qalır. Lakin Cefferson təhsilini davam etdirmək niyyəti ilə Şedvili tərk edərək Uilyamsburqa gəlir. Burada o, virciniyalıların fəxri sayılan nüfuzlu «Uilyam ənd Meri» kollecinə daxil olur. Bu kollec din, hərb, tibb və hüquqşünaslıq sahələrində mütəxəssislər hazırlayırdı. Tomas tərəddüd etmədən vəkil olmağı qərara alır.

1763-cü ildə təhsilini bitirən Cefferson dostu və müəllimi, professor Corc Uaytın hüquq kontorunda fəaliyyətə başlayır və tezliklə böyük uğur qazanır. Virciniyanın varlı plantatorları onun müştərilərinə çevrilirlər. Cəmiyyətdə böyük nüfuz qazanan gənc Tomas 26 yaşında Virciniya qanunvericilik məclisinin üzvü seçilir.

1770-ci ildə Şedvil malikanəsində yangın baş verir. Yanğın onun evi ilə birlikdə, zəngin kitabxanasını da məhv



downloaded from KitabYurdu.org

edir. Bu ərəfədə o, gənc dul qadın Marta Skeltonla tanış olur. 1772-ci il yanvarın 1-də onlar evlənirlər. Bu nikahdan beş övladları olsa da, onların yalnız ikisi sağ qalır.

Ceffersonun siyasi fəaliyyətə başlaması müstəmləkələrdə antiingilis əhval-ruhiyyələrinin gücləndiyi dövrə təsadüf edir. O, müstəmləkələrin azadlıq hərəkatında fəal iştirak edərək, 1775-ci ildə Virciniyada əlaqələndirici Komitənin yaradıcılarından olmuşdur. Artıq belə komitələr əksər ştatlarda da yaradılmışdı və metropoliya qanunlarına tabe olmadığı üçün buraxılmış Müstəmləkə Assambleyasını əvəz edirdi. Cefferson 1775-ci ildə Kontinental Konqresə üzv seçilir. Qeyd edək ki, natiqlik bacarığının olmaması ona «qaradinməz deputat» imici qazandırmışdı. Lakin geniş erudisiya və dərin elmi biliklərə malik olması qərar və qanun layihələrinin hazırlanmasında onu əvəzsiz edirdi.

1776-cı ilin iyun ayında Kontinental Konqresdə İstiqlaliyyət haqqında bəyannamə hazrlamaq üçün B.Franklin, C.Adams, C.Dikkinson, E.Livinqston və Ceffersondan ibarət komissiya yaradılır. Komissiya üzvləri tərəddüd etmədən bu işi Ceffersona həvalə edirlər. O, layihə üzərində on yeddi gün gərgin işləyərək Adams və Franklinin xırda düzəlişlərindən sonra onu Konqresə təqdim edir. Layihə uzun sürən müzakirələrdən sonra 4 iyul 1776-cı ildə qəbul edilir. Bu, T.Ceffersonun siyasi arenada ilk böyük qələbəsi idi. Şedvildə baş vermiş yanğından sonra öz layihəsi əsasında tikilmiş Montiçello malikanəsinə qayıdan Cefferson Virciniya parlamentində fəaliyyətini davam etdirir.

1779-cu ildə Tomas Cefferson yenidən fəal siyasi mübarizəyə başlayır. Bu dəfə o, Virciniya ştatının qubernatoru vəzifəsinə – ştatın ali siyasi hakimiyyətinə iddialı olduğunu bildirir. Gərgin keçən seçkilərdə dostu Peynə qalib gələrək qubernator olur. Bu vəzifəni tutmaqda onun əsas istəyi bir çox sahələrdə islahatlar keçirmək idi. Onun başlıca arzusu azadlıq uğrunda dinc mübarizəni davam



downloaded from KitabYurdu.org

etdirərək, seçki hüququnu təkmilləşdirmək, təhsil sistemini yaxşılaşdırmaq idi. Bu niyyətlə o, dini azadlıq haqqında qanun layihəsi hazırlasa da, bu layihə Virciniya ştatının qanunverici məclisi tərəfindən yalnız yeddi ildən sonra – 1786-cı ildə C.Medisonun səyləri nəticəsində qəbul olundu. Bu günə qədər həmən qanun Virciniya ştatının Konstitusiyasının dini azadlıq haqqında müddəasının əsasını təşkil edir.

Lakin, İstiqlaliyyət uğrunda gedən müharibənin Şimaldan Cənuba keçirilməsi təəssüf ki, maarifçilik deyil, onda olmayan hərbçilik bacarığı tələb edirdi. Bəzi hərbi problemlərin həllində qətiyyətsizliyi, ştatın müdafiəsini yaxşı təşkil edə bilməməsi onu 1781-ci ildə istefaya getməyə məcbur edir. Növbəti il, ona daha bir bədbəxtlik üz verir, həyat yoldaşı Marta vəfat edir.

İstefaya çıxdıqdan sonra Cefferson Montiçello malikanəsinə qayıdır. 1782-ci ilin axırlarında Filadelfiyadan gələn kuryer, Konqresin onu diplomatik missiya ilə Fransaya göndərmək fikrində olduğunu çatdırır. Lakin bu ərəfədə Fransadan İngiltərə və ABŞ arasında razılıq əldə edildiyi xəbəri gəlir. Səfər yalnız 1784-cü ilin yayında baş tutur. Səfərin əsas məqsədi, Ceffersonun bu zaman Avropada olan C.Adams və səfir B.Franklinlə birlikdə 19 Avropa ölkəsi ilə siyasi və ticarət müqavilələri imzalaması idi. 1785-ci ilin yazında Franklin onun səfirlik fəaliyyətinə son qoyulması xahişi ilə Konqresə müraciət edir. Konqres tərəddüd etmədən Ceffersonu ABŞ-ın Fransada səfiri təyin edir. O, Fransadakı fəaliyyəti müddətində Fransa maarifçiləri ilə dostluq əlaqələri saxlamışdı.

23 noyabr 1789-cu ildə Cefferson Parisdən vətənə qayıdır. Burada ona gözləmədiyi bir xəbər çatdırırlar: prezident Vaşinqton onu Dövlət katibi təyin etmək istəyir. Dekabrın 11-də o, bu məzmunda Vaşinqtonun şəxsi məktubunu alsa da, qəti cavab vermir. Nəhayət 1790-cı ilin fevralında,



downloaded from KitabYurdu.org

xüsusən dostu Medisonun təkidlərindən sonra Cefferson dövlət katibi təyin edilməsinə razılıq verir.

Dövlət katibi kimi çalışdığı dövrdə, o, ABŞ-ın xarici siyasət kursunun müəyyənləşdirilməsində başlıca rol oynamışdır. Ceffersonun əsas məqsədi bütün müharibələrdən kənarda qalmaq, bir sözlə ABŞ-ın bitərəfliyini təmin etmək idi. O, yazırdı: «Yeni Dünya Köhnə Dünyanın səfehliyindən mənfəət götürməlidir. Onlar vuruşurlarsa, biz möhkəmlənməliyik». Onun müəyyənləşdirdiyi yeni xarici siyasi kurs, ölkənin bir çox Avropa dövlətləri ilə qurduğu iqtisadi-ticari əlaqələrə də öz təsirini göstərməyə bilməzdi. Bu əlaqələrdən ölkənin daha çox qazanc götürməsi məqsədini güdən maliyyə naziri A.Hamiltonla uzun müddət davam edən qarşıdurmalar öz mənbəyini məhz buradan götürürdü.

1796-cı ilin əvvəllərində C.Vaşinqton bir daha prezident seçilmək arzusunda olmadığını bildirdi. Respublikaçılar bu vəzifəyə Ceffersonu namizəd göstərdilər. İlin axırında keçirilən seçkilərdə federalistlərin namizədi Con Adams kiçik üstünlüklə (71:68) prezident seçilir. Cefferson vitse-prezident olur. Lakin, Adamsla aralarında ciddi fikir ayrılığı olduğu üçün, ölkənin idarə edilməsində onun rolu nəzərəçarpacaq olmur.

1800-cü il prezident seçkiləri, artıq liderlər yox, yaxşı təşkil edilmiş, konkret fəaliyyət proqramlarına malik partiyalar arasında gedən mübarizə kimi xarakterizə edilir. Bu seçkilərə respublikaçılar böyük əhəmiyyət verirdilər. Hətta T.Cefferson onu 1776-cı il inqilabı ilə eyniləşdirirdi.

Prezident seçkilərində T.Ceffersonun ilk atdığı addım, partiya daxilində həmrəyliyə nail olunması məqsədi güdürdü. Bunun üçün Şimal ştatlarında böyük nüfuza malik Aaron Burrla bir mövqedən çıxış etməyi qərarlaşdırır. Belə ki, Burr Şimal ştatlarında onun, o isə Cənub ştatlarında Burrun federalistlərlə mübarizəsinə yardımçı olmalı idi. Belə taktikanın seçilməsi, onların hər ikisinin federalistlərin



downloaded from KitabYurdu.org

nümayəndəsi Adamsdan çox səs toplaması ilə sonuclanır. Lakin səslər bərabər olduğundan, seçkilər Konqresin Nümayəndələr Palatasına keçirilir. Burada hər ştat, nümayəndələrinin sayından asılı olmayaraq bir səslə təmsil olunur. Gərgin keçən seçkilərdə T.Cefferson prezident seçilir. Aaron Burr vitse-prezident olur.

4 mart 1801-ci ildə T.Cefferson inauqurasiya nitqi söyləyir. Bəziləri gözləyirdi ki, o, siyasi rəqiblərinə hücum edəcək, onların siyasətini tənqid edəcəkdir. Lakin bunun əvəzində o, ölkənin bütün siyasi qüvvələrini əməkdaşlığa çağırdı.

Tomas Ceffersonun prezident kimi gördüyü ilk iş kabineti formalaşdırmaq olmuşdur. Onu ən çox narahat edən iki əsas nazirin: maliyyə naziri və dövlət katibinin təyin edilməsi idi. O, bu vəzifələrə əvvəlcədən nəzərdə tutduğu şəxsləri təyin edir. Beləliklə C.Medison Dövlət katibi, əslən isveçrəli olan Albert Qallatini isə maliyyə naziri təyin edilir. Maraqlı bir faktı qeyd edək ki, prezident digər nazirləri təyin edərkən də onların intellektual bacarıqları ilə yanaşı, regional mənsubluğunu da əsas götürmüşdür. Bununla o, ştatlar arasındakı birliyi gücləndirmək məqsədi güdmüşdür.

Tomas Ceffersonun ilk prezidentlik dövründə əldə etdiyi ən böyük uğuru şübhəsiz ki, Luizananı ABŞ-a birləşdirməsi olmuşdur. ABŞ dövləti 80 milyon frank ödəməklə Fransanın nəzarəti altında olan Luizananı əldə edir. Bu isə ABŞ ərazisinin təqribən iki dəfə böyüməsi demək idi.

1804-cü ilin ortalarından respublikaçılar partiyası növbəti prezident seçkilərinə hazırlaşmağa başlayır. Cefferson yenidən respublikaçılar partiyasının namizədi kimi göstərilsə də, vitse-prezidentliyə A.Burrun deyil, Corc Klintonun namizədliyi irəli sürülür. Bu halda Burr federalistlərlə koalisiya yaratmaq istəsə də, federalistlərin lideri A.Hamilton buna razılıq vermir. Burr və Hamilton arasındakı düşmənçilik iyul ayında duellə nəticələnir. Hamilton



downloaded from KitabYurdu.org

dueldə öldürülür. Bu, Aaron Burrun da siyasi ölümü demək idi. Müxalifət partiyası olan federalistlər Pinkni və Kinqin namizədliyini irəli sürürlər. Əvvəlki prezident seçkisində verdiyi vədlərin heç də hamısını yerinə yetirə bilməməsi Ceffersonun qalib gəlməsinə mane olmur. Luizunanın əldə edilməsi öz işini görmüşdü.

İkinci müddətə prezident seçilən Cefferson kabinetində ciddi dəyişikliklər etmir.

Avropada başlamış Napoleon müharibələri ABŞ ticarət donanmasının Atlantik okeanında və Avropa limanlarında hərəkət etməsinə mane olurdu. Buna görə də ticarət hüquqlarının qorunması ikinci prezidentlik müddətində «bitərəf» Ceffersonun başlıca problemi olur. İngiltərənin hərbi donanması ABŞ ticarət gəmilərini müsadirə etməkdən belə çəkinmir. Problemi diplomatik yolla həll edə bilməyən prezident Avropa ölkələri ilə ticarət əlaqələrinə embarqo tətbiq edir. İngilislərə təzyiq kimi nəzərdə tutulan bu qərar, nəticədə ABŞ-ın özünə böyük ziyan vurur. Sonralar Cefferson bu qərarı özünün böyük səhvi olduğunu etiraf etmişdir.

Hələ 1807-ci ildə respublikaçılar partiyasının liderləri Ceffersona üçüncü dəfə namizədliyini irəli sürməyi təklif etmişdilər. Lakin respublikaçıların lideri buna qəti etirazını bildirir. O, əsası Vaşinqton tərəfindən qoyulmuş ənənəni pozmaq istəmir. İstefaya çıxmamışdan əvvəl özünün siyasi varisi haqqında düşünür. Bu vəzifəyə daha çox Medisonu layiq görür. Ölkə rəhbərinin iradəsi öz təsirini göstərir. C. Medison yekdilliklə növbəti seçkilərə namizəd göstərilir.

İstefaya çıxdıqdan sonra Montiçello malikanəsinə qayıdan eks-prezident maarifçilik fəaliyyəti ilə məşğul olmuşdur. 1919-cu ildə yaradılmış Virciniya Universiteti onun maarifçilik fəaliyyətinin bariz nümunəsidir. Universitet binasının tikilməsindən tutmuş, tədris planının hazırlanmasına qədər bütün prosesə şəxsən özü rəhbərlik etmişdir. Onun



downloaded from KitabYurdu.org

təşəbbüsü ilə universitetə Avropadan təcrübəli müəllim və alimlər dəvət olunmuşdur.

1826-cı ilin yazında Ceffersonun səhhəti pisləşir. O, əsasən yaddaşının pozulmasından, ayaqlarındakı bərk ağrılardan şikayət edir.

Mart ayında tərtib etdiyi vəsiyyətnaməsində bütün mülkiyyətinin qızı və nəvələrinə çatmasını, kitabxanasının isə Virciniya Universitetinə verilməsini göstərir.

İyunun 13-də qeydiyyat kitabçasına sonuncu qeydini edir. 3 iyulda İstiqlaliyyət haqqında bəyannamənin qəbul edilməsinin 50 illiyi ərəfəsində sonuncu dəfə «4 iyul hələ başlamayıb?» deyə soruşur. Bu onun dediyi son sözlər olur. Növbəti günün səhəri Cefferson vəfat edir. Elə həmin gün Massaçusets ştatında başqa bir xadim – Con Adams vəfat edir. Adamsın sonuncu kəlməsi «Cefferson isə hələ yaşayır» olur. Bu, Adamsın sonuncu səhvi idi. O öz siyasi rəqibi və dostundan bir neçə saat çox yaşamışdı.

Ceffersonu ailə qəbiristanlığında, həyat yoldaşı Marta və qızı Mariyanın qəbirləri arasında dəfn edirlər. Vəsiyyətnaməyə görə, qəbir daşının üzərində aşağıdakı sözlər yazılmışdır:

ABŞ-ın İstiqlaliyyət Bəyannaməsinin və Virciniya ştatının dini azadlıq qanununun müəllifi,

Virciniya Universitetinin yaradıcısı,

Tomas Cefferson burada dəfn edilmişdir.

Qəbirüstü yazıda onun tutduğu heç bir dövlət vəzifəsi qeyd olunmamışdır. Görünür Cefferson həmvətənlərinin xatirəsində yalnız maarifçi kimi qalmaq istəmişdir.



downloaded from KitabYurdu.org



# CEYMS MEDİSON
(JAMES MADISON)
(1809–1817)

Dünyanın ilk yazılı konstitusiyasının layihəsi Amerika Millətinin iftixarı hesab olunur. Bunun başlıca səbəbi bu konstitusiyanın dünyanın digər demokratik dövlətlərinin konstitusiyaları üçün əvəzsiz nümunə olmasıdır. Tarixdə ilk dəfə olaraq hakimiyyətin bölünməsini özündə ehtiva edən konstitusiyanın müəllifi ABŞ-ın gələcək prezidenti Ceyms Medison idi.

Ceyms Medison 1751-ci il martın 16-da Virciniya ştatının Port-Konuey yaşayış məntəqəsində varlı plantator



downloaded from KitabYurdu.org

ailəsində anadan olmuşdur. Ailənin on bir uşağından ən böyüyü olan Ceyms, mirasa olan hüquqlarından istifadə etməmiş, yalnız özünü dolandırmaq üçün vəsait tələb etmişdir. Yerli internatda beş il təhsil aldıqdan sonra 1769-cu ildə, indi Prinston Universiteti adlanan Nyu-Cersi kollecində təhsilini davam etdirir. Burada o, Şotland Maarifçilərinin ideyalarına böyük maraq göstərir. Özünün bir çox siyasi mübarizə həmkarlarından fərqli olaraq onun hüquq təhsili olmamışdır. Məhz bu səbəbdən bəzi müasirləri konstitusiyanın zəif olmasını iddia edirdilər.

23 yaşında siyasi fəaliyyətə başlayan Medison Virciniyada ingilis ağalığına qarşı müqavimət hərəkatının Orinc komitəsinə üzv seçilir. 1776-cı ilin iyulunda o, Orinc dairəsini İnqilabi Konqresdə təmsil edir. Növbəti il Virciniya deputatlar məclisinə seçkilərdə uğur qazanmayan Medison 1777-79-cu illərdə Virciniya qubernator Şurasının, sonra, 1783-cü ilə qədər isə Konfederasiya Konqresinin iştirakçısı olur. Sonra Virciniyaya qayıdaraq yerli qanunverici məclisdə fəaliyyətini davam etdirir. Məclis üzvlərinin sərt müqavimətinə, populist əhval-ruhiyyələrinə baxmayaraq, dini azadlıq və kilsənin dövlətdən ayrılması haqqında Tomas Cefferson tərəfindən hazırlanmış qanun layihəsinin təsdiq edilməsinə nail olur. Bu qanun Amerika maarifçiliyinin əsasını təşkil edir.

C.Medison dul qadın Dolli Toddla ailə həyatı qursa da onların övladları olmamışdır. Dolli Medison Amerika prezidentləri tarixində ilk «First Ledy» hesab edilir.

1786-cı il Annapolis Ticarət konfransında Virciniyanın nümayəndəsi kimi iştirak edən Medison Konstitusiya islahatı tərəfdarları ilə birlikdə Filadelfiyada Konstitusiya Konventinin çağırılmasına nail olur və orada doğma ştatını təmsil edir. O, 1787-ci ildə yazdığı «Birləşmiş Ştatlar siyasi sisteminin qüsurları» məqaləsində Konfederasiya Haqqında Əsasnamənin çatışmazlıqlarını qeyd edərək, mükəmməl



downloaded from KitabYurdu.org

Konstitusiyaya ehtiyac olduğunu bildirir. Əsas mətni Medison tərəfindən yazılmış Konstitusiya ratifikasiya edilməsi üçün ştatlara göndərilir.

O, Cen Cey və Aleksander Hamiltonla birlikdə yeni konstitusiyanın təbliğinə yönəlmiş 85 qəzet məqaləsi ilə çıxış edir. «Publius» ləqəbi ilə imzalanan bu yazılar, sonradan «Federalist» adlı kitab kimi nəşr edilmişdir. Fraksiyaçılığın geniş təhlil edildiyi və aktuallığını bu gün də itirməmiş 10 saylı məqalə Medison tərəfindən yazılmışdı.

Konstitusiya əleyhdarları icraedici hökumətə həddən artıq səlahiyyətlər verilməsinə, insan hüquqlarının qorunmamasına etirazlarını bildirirlər. Medison ilk Nümayəndələr Palatası önündə verdiyi vədə əməl edərək Konstitusiyaya ilk on dəyişikliyi hazırlayır. Bu dəyişikliklər 1791-ci ildə Hüquqlar Haqqında Bill adı ilə qüvvəyə minir.

C. Medison 1797-ci ilə qədər Konqresin Nümayəndələr Palatasının üzvü olur. Burada o, Ceffersonla birlikdə Hamiltonun siyasi-iqtisadi proqramlarının tənqidçisi olaraq müxalif respublikaçılar partiyasını yaradır. Cefferson prezident seçildikdən sonra onun formalaşdırdığı kabinetdə xarici işlər naziri olur.

1808-ci ildə onun prezident seçilməsi partiyadaxili çəkişmələrlə müşayiət olunmuşdur. Bir dəfə də seçkiqabağı nitq söyləməyən Medison öz siyasi dostlarının, xüsusən Ceffersonun köməyi və bəzi partiyadaxili sövdələşmələr əldə edilməsi nəticəsində respublikaçılar partiyasının namizədi olur. Belə razılaşmalardan biri vitse-prezident vəzifəsinin Nyu-Yorklu partiya üzvlərinə güzəştə gedilməsidir. 60 yaşlı Corc Klinton vitse-prezident seçilsə də 1812-ci ildə onu, bu vəzifəyə daha layiq Elbric Herri əvəz etmişdir.

Kabinetin formalaşdırılmasında partiyadaxili qruplaşmaları və regional faktoru əsas götürən prezident maliyyə naziri A.Qallatindən başqa bütün nazirliklərə yeni rəhbərlər təyin edir. Bu təyinatların heç də hamısı uğurlu olmur.



downloaded from KitabYurdu.org

Tezliklə xarici işlər naziri Robert Smitin öz vəzifəsini layiqincə yerinə yetirə bilməməsi aşkar olur. 1811-ciilədək Virciniya qubernatoru işləmiş Ceyms Monronun bu vəzifəyə təyin olunmasına qədər, prezident eyni zamanda xarici işlər naziri vəzifəsini də icra edir.

1807-ci ildən Avropa ölkələri ilə ticarət əlaqələrinə tətbiq olunmuş embarqo kabinetin ilk müzakirə mövzusu olur. İxrac edilməyən kənd təsərrüfatı məhsullarının qiymətlərinin sürətlə aşağı düşməsi amerikalılara böyük ziyan vururdu. Nyu-York və digər liman şəhərlərinin gəmi sahibləri ticarət gəmiçiliyinin təcili bərpasını tələb edirdilər. Bunun üçün Fransa və İngiltərə ilə münasibətlərin qaydaya salınması lazım idi.

Problemləri danışıqlar yolu ilə həll edə bilməyən prezident, Qallatinin məsləhəti ilə müharibəyə hazırlaşır. 1812-ci il iyunun 1-də C.Medison İngiltərəyə müharibə elan edilməsi məzmunlu məktubunu Konqresə təqdim edir. O, bu təklifini belə əsaslandırır: İngiltərə ABŞ-a – «müstəqil və bitərəf millətə» düşmən münasibət bəsləyir. Ticarət gəmilərinin müsadirə edilməsi, minlərlə matrosun əsir götürülərək məcburi xidmətə cəlb olunması, hindu tayfalarının üsyanının təşkil edilməsi böyük cinayətlərdir. Təklif istər Nümayəndələr palatasında (79: 49), istərsə də Senatda (19: 13) təsdiqlənir. Beləliklə iyunun 19-da İngiltərəyə rəsmi olaraq müharibə elan edilir.

Səsvermənin nəticələrindən göründüyü kimi müharibə əleyhdarları da az olmamışdır. Onlar, xüsusilə də virciniyalı deputat Con Rendolf müharibənin başlanmasına qəti etirazlarını bildirirlər. Əhali arasında, xüsusilə mərkəzi ştatlarda anti-müharibə əhval-ruhiyyəsi güclənirdi. Bu 1812-ci il prezident seçkilərinə təsirni göstərir. Mərkəzi Ştatlarda aşkar məğlubiyyətə uğrayan C.Medison səslərin ümumi sayına görə (128: 89), federalistlər partiyasının nümayəndəsi De Uitni Klintona qalib gələrək ikinci dəfə prezident seçilir.



downloaded from KitabYurdu.org

Hərbi əməliyyatlar əsasən üç cəbhədə: Kanada sərhədləri boyunca, Atlantik okeanı sahillərində və Meksika körfəzində aparılırdı. Tarixçi Robert Rutlend prezidentin hərbi məqsədləri haqqında yazırdı: «Medisonun məqsədi İngiltərəyə məxsus torpaqların işğalı deyildi. O, Britaniya rəhbərlərindən ABŞ-ı uzaq, asılı qohum kimi yox, müstəqil dövlət kimi tanımasını istəyirdi». Bu baxımdan 1812-15-ci il müharibəsini ikinci İstiqlaliyyət müharibəsi adlandırırlar.

Avropada davam edən Napoleon müharibələri 1814-cü ildə onun hakimiyyətdən uzaqlaşdırılması ilə nəticələndi. Medison haqlı olaraq, döyüşlərdən azad olan ingilis qoşun hissələrinin də bu müharibəyə cəlb ediləcəyindən narahat idi. Bu perspektivdən ehtiyatlanan prezident və onun kabineti hərbi əməliyyatları dayandırmaq, müharibədən əvvəlki vəziyyətin bərpa edilməsi (status-kvo) şərti ilə sülh danışıqlarına başlamaq qərarına gəlir. Bu ərəfədə ingilis qoşunları Vaşinqtonu tutaraq Dövlət binalarını o cümlədən prezident iqamətgahını yandırırlar. Medison tələsik paytaxtı tərk edir.

Hindularla aparılan müharibələrdə böyük təcrübə toplamış general Endrü Cekson 1815-ci il yanvarın 8-də Yeni Orlean şəhəri yaxınlığında ingilislərin 5.000 canlı qüvvəsini məhv edərək qələbə qazanır. Lakin buna qədər 1814-cü il 24 dekabrında flamand şəhəri Kentdə sülh müqaviləsi imzalanmışdı.

14 fevral 1815-ci ildə Medison Vaşinqtona qayıdır. Müharibə qeyri-müəyyən sonluqla başa çatsa da, Birləşmiş Ştatları Amerika kontinentində ciddi ictimai quruluşa malik dövlət kimi bir daha təsdiqləyir.

C.Medison 1816-cı il prezident seçkilərində iştirak etməsə də öz siyasi varisinin bu vəzifəyə seçilməsinə köməklik göstərmişdir. Həmin varis gələcək səkkiz ildə ölkənin prezidenti olmuş Ceyms Monro idi. Vəzifə yüklərindən azad olan eks-prezident 6 aprel 1817-ci ildə ömrünün son illərini yaşadığı Cənuba köçür. Bu zaman o,



downloaded from KitabYurdu.org

bir müasirinin yazdığı kimi «tətilə gedən şagird» kimi sevinirdi. C.Medison istefada olanda da bəzi konstitusional problemlərin həllində iştirak etmiş, öz məsləhətlərini vermişdir.

Onun quldarlıqla bağlı dəqiq mövqeyi olmasa da 1817-ci ildə yaradılmış Amerika müstəmləkə Cəmiyyətinin sədri seçilmişdir. Bu cəmiyyət azad edilmiş qulları Afrikaya göndərməklə məşğul idi. Lakin maliyyə problemləri olduğu üçün özünə məxsus qulları azad edə bilməmişdir.

C.Medison 1836-cı il iyunun 28-də Virciniya ştatındakı Montpiliyer malikanəsində vəfat etmişdir.



downloaded from KitabYurdu.org



# CEYMS MONRO
## (JAMES MONROE)
## (1817–1825)

ABŞ-ın 5-ci prezidenti Ceyms Monro 1758-ci il aprelin 28-də Virciniyanın Vestmorlend dairəsindəki Vaşinqton-Periş şəhərciyində anadan olmuşdur. Virciniyanın digər nüfuzlu siyasətçilərindən fərqli olaraq, atası Spens Monro yalnız 500 akr torpaq sahəsinə malik fermer idi. Ceyms ilk ibtidai təhsilini keşiş Arçibald Kempbellin ya-



downloaded from KitabYurdu.org

nında alır. 16 yaşında Virciniyanın paytaxtı Uilyamsburqa gələrək «Uilyam ənd Meri» kollecində təhsilini davam etdirir. İstiqlaliyyət müharibəsi başladıqda Kontinental ordunun Virciniya alayına daxil olur və 18 yaşında zabitlik şəhadətnaməsi alır. Bacarıq və cəsarətinə görə fərqlənən Ceymsə 1778-ci ildə podpolkovnik rütbəsi verilir. Qeyd edək ki, Medisonun göstərdiyi hərbi xidmət rəhbərlik tərəfindən yüksək qiymətləndirilmiş, ona Qərb ərazisində böyük torpaq sahələri verilmişdir.

1780-83-cü illərdə Tomas Ceffersonun rəhbərliyi altında hüquq elmlərini öyrənərək, onunla uzun müddət dostluq əlaqələri saxlamışdır.

1782-ci ildə Virciniya qanunvericilik məclisinə üzv seçilən Monro, siyasi fəaliyyətə başlayır. 1786-cı ilədək, ştatin nümayəndəsi kimi, iclaslarını Nyu-Yorkda keçirən Konfederasiya Konqresinin iştirakçısı olur. Nyu-Yorkda yaşadığı vaxt (16 fevral 1786-cı ildə) müflis olmuş Vest-Hind plantatorunun qızı Elizabet Konraytla ailə qurur. Həmən ilin dekabr ayında anasının şərəfinə Elizabet adlandırılan ilk övladları dünyaya gəlir.

1787-ci ildə Filadelfiyada keçirilən Konstitusiya Konventinin üzvü olmasa da Virciniya ştatının Konventdəki nümayəndəsi kimi konstitusiyanın əleyhinə çıxış edir. Nümayəndələr palatasına seçkilərdə C.Medisona məğlub olmasına baxmayaraq, 1790-cı ildə Virciniya parlamenti onu senator seçir. Fransaya səfir göndərilənədək dörd il müddətində senator olur.

Onun Fransada səfir kimi fəaliyyəti qənaətbəxş olmur və 29 iyul 1796-cı ildə xarici işlər naziri Timoti Pikerinq tərəfindən geri çağırılır. Səfirlik fəaliyyətinin kəskin tənqid olunması onun siyasi nüfuzuna xələl gətirmir. Monro 1799-cu ildə Virciniya Ştatının qubernatoru seçilir və 1802-ci ilə qədər bu vəzifədə çalışır. Dostu T.Cefferson Birləşmiş



downloaded from KitabYurdu.org

Ştatların prezidenti seçildikdən sonra Vaşinqtona qayıdan Monro 1809-cu ilədək siyasi fəaliyyətini burada davam etdirmişdir. 1803-cü ildə yenidən Parisə səfər edərək, burada R.Livinqstonla birlikdə Luizirananın alınması danışıqlarında iştirak edir. Lakin Qərbi Floridanın İspaniyadan alınması və Londonda İngiltərə ilə münasibətlərin nizamlanması haqqında Uilyam Pinkni ilə birgə aparılan danışıqların uğursuzluqla nəticələnməsi onun siyasi reytinqinin aşağı düşməsinə səbəb olur. Bu ona 1808-ci il prezident seçkilərində namizədliyini irəli sürməyə mane olur. O, 1788-ci ildə olduğu kimi, bu dəfə də Medisona məğlub olur və bu, iki siyasətçi arasında münasibətlərin korlanmasına gətirib çıxarır.

C.Monro 1811-ci ildə yenidən Virciniya ştatının qubernatoru seçilir. Cefferson Medisonla onu barışdırdıqdan sonra, prezident 1811-ci ilin mart ayında Monronu Robert Smitin yerinə xarici işlər naziri təyin edir. C.Medisonun prezidentliyi müddətində, ABŞ-ın xarici siyasəti, xüsusilə İngiltərə ilə münasibətlər, məhz Monronun fəaliyyəti ilə müəyyənləşmişdir. İngiltərə ilə aparılan müharibə ərəfəsində Con Armstronq müdafiə naziri vəzifəsindən uzaqlaşdırıldıqdan sonra bu vəzifə də C.Monroya tapşırılır. Yeni Orlean və Plattsburqda ABŞ ordusunun qələbələri, eyni zamanda Kent sülhünün bağlanması onun siyasi mövqeyini daha da möhkəmləndirir.

O, partiyadakı tərəfdarlarının böyük köməyi sayəsində Respublikaçılar partiyasının 1816-cı il prezident seçkilərinə namizədini müəyyənləşdirməyə həsr olunmuş konqresində Medison hökumətində maliyyə naziri olmuş Uilyam Krouforda kiçik üstünlüklə (65: 54) qalib gələrək partiyanın namizədi olur. Prezident seçkiləri Monronu xüsusi narahat etmirdi. Belə ki, müharibədən sonra federalistlər partiyası praktiki olaraq öz fəaliyyətini dayandırmışdı. Nəticədə



downloaded from KitabYurdu.org

o, federalistlərin namizədi Rufus Kinqə böyük üstünlüklə (183: 34) qalib gələrək prezident olur.

Ceyms Monronun səkkiz illik prezidentlik dövrü «xoş əhval-ruhiyyələr dövrü» («The era Good feelings») kimi xarakterizə edilir. Bu hər şeydən əvvəl onun prezidentliyi dövründə partiyalar arası ziddiyyətlərin olmaması ilə əlaqədardır. Prezidentin partiyalar fövqündə dayanması prinsipini əsas tutan Monro istər şəxsi, istərsə də fraksiyalar arası münasibətlərlə bağlı qarşıdurmalarda iştirak etməməsidir. Bu mövqeyi onun kabinetə olan münasibətində də özünü göstərmişdir.

İspaniya ilə bağlanmış müqaviləni Monro hökumətinin böyük uğuru hesab etmək olar. 24 fevral 1819-cu ildə Monro tərəfindən imzalanan Transkontinental müqavilə haqlı olaraq Adams-Onis müqaviləsi adlanır. Xarici işlər naziri Adamsın gərgin fəaliyyəti sayəsində bağlanmış bu müqaviləyə əsasən bütün Florida ABŞ-a birləşdirilmişdi.

1820-ci ildə keçirilən prezident seçkiləri ötən seçkilərdən fərqli olaraq sakit keçmişdir. Respublikaçıların rəsmi namizədi kimi çıxış edən Monronun rəqibi müstəqil respublikaçı C.K.Adams olmuşdur. C.Monro böyük üstünlüklə (234: 1) ikinci müddətə prezident seçilmişdir. Bu dövr bir çox beynəlxalq-siyasi hadisələrlə zəngin olmuşdur.

Xatırladaq ki, İspaniyanın Avropada gedən Napoleon müharibələrinə cəlb olunması onun Latın Amerikasındakı müstəmləkələrini itirməsi ilə nəticələnir. Müharibələr sona çatdıqda Müqəddəs İttifaqda birləşmiş dövlətlər İspaniyanın öz əski müstəmləkələrindəki ağalığını bərpa etməsinə kömək göstərirlər. Bu, ABŞ-ın ciddi etirazı ilə qarşılanır. Bununla əlaqədar 2 dekabr 1823-cü ildə Ceyms Monro Konqresə məktub göndərir. Sonradan «Monro doktrinası» adını almış məktubda dünyanın Avropa və Amerika sistemlərinə bölünməsi prinsipi elan edilir, ABŞ-ın Avropa-



downloaded from KitabYurdu.org

nın daxili işlərinə qarışmayacağına təminat verilir, eyni zamanda Avropadan Amerikanın daxili işlərinə qarışmamaq tələb olunurdu.

Xələflərinin qoyduğu ənənəyə sadiq qalan Monro 1824-cü il prezident seçkilərində iştirak etmir. Ömrünün son illəri maddi çətinliklər içərisində keçir. 1830-cu il 23 sentyabrda həyat yoldaşı vəfat etdikdən sonra, Nyu-Yorka qayıdaraq kiçik qızı Mariya Hesterin yanında yaşayır. 4 iyul 1831-ci ildə, Birləşmiş Ştatların İstiqlaliyyət Bəyannaməsinin 55-ci ildönümü günü vəfat edir.



downloaded from KitabYurdu.org



# CON KUİNSİ ADAMS
## (JOHN QUINCY ADAMS)
## (1825–1829)

ABŞ-ın ilk altı prezidenti dövlətin əsas qurucuları hesab olunur və ənənəvi olaraq «bani atalar» adlandırılır. Onların sonuncusu Con Kuinsi Adams 11 iyul 1767-ci ildə Massaçusets ştatının Breyntri şəhərində, ABŞ-ın ikinci prezidenti olmuş Con Adamsın ailəsində dünyaya gəlmişdir. Amerikanın köhnə siyasətçiləri ailəsinə mənsubluğu onun



downloaded from KitabYurdu.org

gələcək taleyinin müəyyənləşməsində həlledici rol oynamışdır. Hələ 17 yaşlı gənc ikən atasını bir çox Avropa ölkələrinə səfərlərində müşayiət etmiş, 1794-cü ildə Haaqada ölkəsinin səfiri olmuşdur. Bu səfərlər zamanı nəinki müxtəlif məktəb və universitetlərdə öz bilik səviyyəsini artırmış, həm də məşhur Avropa saraylarının siyasi yönümü ilə yaxından tanış olmuşdur. Zəngin həyat təcrübəsi, aldığı mükəmməl təhsil onu Amerikanın görkəmli dövlət xadimlərindən biri etmişdir.

Londonda yaşadığı müddətdə, tütün ticarətçisinin qızı Luiza Ketrin Consonla tanış olur. Nəticədə onlar 1797-ci il 26 iyulda evlənirlər.

C.K.Adamsın prezident seçildiyi 1824-cü ilə qədərki müxtəlif hadisələrlə zəngin həyatında üç amil xüsusilə seçilir: 1814-cü ildə ingilis-amerikan müharibəsinə son qoymuş Kent sülhü, 1819-cu ildə İspaniya ilə bağlanmış Transkontinental müqavilə, 1823-cü ildə elan edilən «Monro Doktrinası». Xüsusilə sonuncu iki hadisə məhz C.K.Adamsın yaradıcı fəaliyyətinin bəhrəsi idi və onun prezident C.Monro ilə sıx əməkdaşlığının nəticəsində həyata keçirilmişdi.

1820-ci il prezident seçkilərinə müstəqil respublikaçı kimi qatılan Adams Monroya məğlub olur. Lakin bu məğlubiyyət onun növbəti seçkilərə qatılmasına mane olmur.

1824-cü il prezident seçkiləri olduqca gərgin keçmişdir. Bu vəzifəyə iddialılar arasında heç bir inzibatçılıq təcrübəsi olmasa da hərbi qələbələri sayəsində şöhrət zirvəsində olan Endrü Ceksondan başqa, kabinet və konqres üzvləri də vardı. Adamsla yanaşı Kalxaun, Krouford, Kley kimi dövlət xadimləri iddiaçılar arasında idilər.

1 dekabr 1824-cü ildə keçirilən seçkilərdə Endrü Cekson daha çox səs toplasa da, səslərin sayı prezident seçilmək üçün zəruri olan miqdara çatmadı və seçkilər nümayəndələr



downloaded from KitabYurdu.org

palatasında keçirildi. 1825-ci il 9 fevralda nümayəndələr palatasında keçirilən seçkidə E.Cekson deyil, ilkin seçkilərdə ikinci yer tutmuş C.K.Adams prezident seçildi. Adams Henri Kleyi dövlət katibi təyin etdikdə Cekson və tərəfdarları Adamsı seçkilərdən öncə H.Kleylə gizli ittifaq bağlamaqda ittiham etdilər. Bu məsələ hələ də düzgün şərhini tapmayıb. Əvvəla, hələ seçkilərdən öncə Kley və Cekson arasında ixtilaf yaranmışdı. Digər tərəfdən Kley bir çox başqaları kimi respublikaçılar partiyasının rəsmi namizədi Kroufordun prezident seçiləcəyi təqdirdə öz vəzifəsinin öhdəsindən layiqincə gələcəyinə şübhə edirdi. Şübhəsiz ki, Adams və Kley adasında səsverməyə qədər hər hansı razılaşma olub. Lakin bu razılaşmanın nədən ibarət olması müasirlərini maraqlandırmırdı. Onlar üçün «mənfur razılaşmanın» olmasını milli qəhrəman Ceksonun deməsi kifayət idi. Bu ittiham Adamsın bütün prezidentlik müddətində ona problemlər yaratmışdır.

Şəxsi keyfiyyətlərindəki bəzi naqisliklər Adamsa siyasi komandasını yaratmağa mane olurdu. Bu özünü kabinetin təşkil edilməsində də göstərir. Ceksonu müdafiə naziri təyin etmək istəsə də, bu fikirdən daşınır. Başa düşür ki, Cekson bu vəzifəni özünə qarşı təhqir kimi qəbul edəcək. Kroufordа maliyyə naziri vəzifəsini təklif etsə də rədd cavabı alır və bu vəzifəyə 1818-ci ildən Avropada yaşayan, ABŞ-da heç bir siyasi dayağı olmayan, Londonda Amerika səfiri Riçard Raşı təyin edir. Beləliklə Adams siyasi rəqiblərini zərərsizləşdirə bilmir. Tezliklə Cekson, Krouford və Kolxaun tərəfdarları Konqresdə birləşirlər və Adamsın siyasi kursuna müxalif mövqedən çıxış edirlər. Prezidentliyinin üçüncü ilində Konqresə keçirilən seçkilərdə Adamsın rəqibləri hər iki palatada üstünlüyə nail olurlar.

C.K.Adamsın 4 mart 1825-ci ildə etdiyi inauqurasiya nitqi prezidentlik borcunun dərk edilməsinin yüksək



downloaded from KitabYurdu.org

ifadəsidir. O, milli birliyə çağıraraq faktiki olaraq artıq mövcud olmayan partiyaların milli maraqlar yönümündən çıxış etməsini istəyir.

Deyilənlərlə yanaşı onun prezidentlik illərində digər problemlər də qarşıya çıxmışdır. Amerika ticarət gəmiçiliyinin Britaniyaya məxsus Karib adaları arasında hərəkətinə bərabər hüquqlar tələb edilməsi Londonun etirazına səbəb olur, hətta 1826-cı ildə bütün Vest-hind limanları ABŞ gəmilərinin üzünə bağlanır. 1827-ci ilin martından Adamsın İngiltərə gəmilərinin Amerika limanlarına daxil olmasını qadağan etməsindən başqa çarəsi qalmır. Vest-hind ticarət əlaqələrini yalnız 1830-cu ildə qaydaya salmaq mümkün olmuşdur.

Konqresdə ona qarşı formalaşmış mütəşəkkil müxalifət Adamsın öz siyasi-iqtisadi platformasını reallaşdırmağa böyük əngəl yaradır. Artıq onun 1828-ci il seçkilərində məğlub olacağı qabaqcadan görünür. Bu seçkilərdə səslərin 56 %-ni toplayan E.Cekson prezident olur.

Yenidən seçilməyən bütün prezidentlər aktiv siyasətdən uzaqlaşmışdılar və atası Con Adams buna ən yaxşı nümunə idi. Lakin onun oğlu qəribə istisna təşkil edir. Qısa fasilədən sonra 1831-ci ilin dekabrında Plimutdan nümayəndələr palatasına üzv seçilərək ömrünün axırınadək burada fəaliyyət göstərir. C.K.Adams Amerika-Meksika müharibəsi haqqında aparılan müzakirələr zamanı, 21 fevral 1848-ci ildə elə Konqres zalındaca vəfat etmişdir.



downloaded from KitabYurdu.org



# ENDRÜ CEKSON
(ANDREW JACKSON)
(1829–1837)

Endrü Cekson sadə amerikalılar arasından çıxmış ilk prezidentdir. O, yalnız bacarıq və qabiliyyəti, işgüzarlığı sayəsində ölkənin ali vəzifəsinə sahib olmuşdur. Nə onun



downloaded from KitabYurdu.org

keçirdiyi ağır uşaqlıq dövrü, nə aldığı səthi təhsil gələcəkdə parlaq karyera edəcəyindən xəbər vermirdi.

15 mart 1767-ci ildə Cənubi Karolina ştatının Uokshou yaşayış məntəqəsində, irland immiqrantı ailəsində anadan olan Cekson məşəqqətlərlə dolu həyat yolu keçib. O, hələ dünyaya gəlməmiş atası vəfat edir. Ailənin maddi çətinliklərinə baxmayaraq anası Elizabet Xaçinson onu yerli məktəblərdən birində oxudur. Lakin tezliklə başlayan İstiqlaliyyət müharibəsi onu təhsilini yarımçıq qoyaraq həmyaşıdları ilə birgə hərbi təlimlər keçməyə məcbur edir.

1780-ci ildə hərbi əməliyyatlar Uokshouya da gəlib çatır. Burada baş vermiş ağır döyüşlərdə Ceksonlar ailəsinin böyük oğlu Uilyam həlak olur. Ağır dərdə dözməyən Elizabet tezliklə vəfat edir. 1782-ci ildə məktəbi bitirən Endrü pedaqoji kadrlar çatışmadığı üçün həmin məktəbdə müəllim kimi fəaliyyət göstərir. Lakin o, on yeddi yaşında doğma Uokshounu tərk edir.

Müstəqil həyata qədəm qoyan Endrü hüquqşünas olmağa qərar verir. Hüquqşünaslıq Şimali Amerikada artıq hörmətli peşə hesab edilir, istər ictimai nüfuz, istərsə də yaxşı təminatlı həyatın qarantına çevrilirdi. Cənubi Karolinanın Solsberi şəhərciyində Makkeyin hüquq kontorunda praktika keçən Endrü vəkillik fəaliyyətinə başlayır, iki il sonra ştatın Ali Məhkəməsinə üzv seçilir. Təcrübəli vəkillərin çoxluq təşkil etdiyi Solsberidə uğur qazanmaq onun üçün çətin idi. Ona görə Qərbə köçməyi qərara alır və 1788-ci ildə Neşvill qəsəbəsində məskunlaşır. Qısa müddət ərzində böyük hörmətlə yanaşı var dövlət də toplaya bilir. 24 yaşlı Cekson Neşvill sakini, tanınmış ailədən olan Raşel Rabardsla ailə qurur.

XVIII əsrin 90-cı illərində Cənub-Qərb bölgəsi sürətlə inkişaf edirdi. Artıq burada yaşayan əhalinin sayı 76.000 nəfərə çatırdı. Bu baxımdan ərazinin müstəqil ştata



downloaded from KitabYurdu.org

çevrilməsi gündəmə gəlir (federal qanunvericiliyə əsasən əhalisinin sayı 60 mini keçdikdə əraziyə ştat statusu verilə bilər). 1796-cı ildə çağırılan konventdə əraziyə ştat statusu verildi və Tennessi adlandırıldı. Cekson bu prosesdə fəallıq göstərmiş və haqlı olaraq İttifaqa daxil edilmiş Tennessidən Nümayəndələr Palatasına üzv seçilmişdir. Növbəti il o, Ştatı senatda təmsil edir.

Lakin Cekson yalnız altı ay senatorluq edir. 1798-ci ilin yazında biznes ortağı Devid Allison həbs edildikdə istefa verərək Neşvillə qayıdır. Az bir zamanda işlərini qaydaya salır. İşgüzar sahibkar, varlı quldar Cekson ştatın Ali Məhkəməsinə üzv seçilir.

E.Ceksonun karyerasında növbəti mərhələ Tennessi legislaturasında milis general-mayoru seçilməsidir. Lakin, o, hərbi xidmətlə yanaşı siyasi fəaliyyət də göstərir, belə ki, 35 yaşlı general Şimali Amerikada Avropa müstəmləkə torpaqları və hindular yaşayan ərazilər hesabına ABŞ ərazisinin genişləndirilməsi arzusunda olduğunu bildirir. Onun bu istəyi sülhsevər prezident Ceffersondan dəstək almır.

1812-ci ildə prezident Medison İngiltərəyə müharibə elan etdi. Müharibəyə qatılan İngiltərə hökuməti hindu qəbilələrini ələ alaraq onların ABŞ-a qarşı qiyama qalxmasına nail olur. 1813-cü ilin əvvəllərindən iki alay formalaşdıran Cekson Cənub-qərbdə hindu qiyamlarını yatırmağa göndərilir. Hindularla amansız döyüşlərdə bir-birinin ardınca qələbə qazanan Cekson bəzi qəbilələri tamamilə məhv edir, qiyam amansızlıqla yatırılır. Hindulara məxsus 23 milyon akr torpaq sahəsi ABŞ-a birləşdirilir. Bundan razı qalan Konqres Ceksona ordu generalı rütbəsi verir. Qorxmaz, cəsur bir döyüşçü olması ona «Qoca Hikari» ləqəbi qazandırır.

Əldə etdiyi uğurlar Ceksona şöhrət gətirsə də bəzi dairələrdə buna barmaqarası baxır, primitiv silahlarla



downloaded from KitabYurdu.org

döyüşən hindular üzərindəki qələbələri böyük rəşadət hesab etmirdilər. Lakin ingilis nizami orduları üzərində, xüsusilə Yeni Orlean yaxınlığındakı qələbəsi onun bacarıqlı hərbçi olduğunu təsdiq edərək generalı milli qəhrəmana çevirdi.

1818-ci ildə Florida ABŞ-a birləşdirildikdən sonra prezident Monro, onu yeni ştatın qubernatoru təyin edir. Lakin general tezliklə istefa verir, üç il sonra isə ordudan gedir. Yaxınlarına yazdığı məktublarında qalan həyatını dinc fermerlik fəaliyyətinə həsr etmək arzusunda olduğunu bildirir. Lakin yaxın dostları, xüsusilə Tennessi ştatının varlı şəxsləri J.Levis, C.Overton və C.İton onun növbəti prezident seçkilərinə namizədliyini verməsini istəyirlər.

1824-cü il seçkilərində E.Cekson C.K.Adams, U.Krouford və H.Kleylə birgə namizədliyini irəli sürür. Seçkilərdə birincilik qazansa da zəruri olan minimum səs həddini aşa bilmir və seçkilər Nümayəndələr Palatasına keçirilir. H.Kleyin səslərini Adamsa verməsi sonuncunun prezident seçilməsi ilə nəticələnir. Məğlubiyyətdən məyus olan Cekson Adamsı və onun dövlət katibi təyin etdiyi H.Kleyi gizli sövdələşmədə günahlandırır.

Qeyd edək ki, gərgin keçən seçkilər siyasi qüvvələrin yenidən qütbləşməsinə səbəb olmuşdur. Adams-Kley qruplaşması milli respublikaçılar, 1832-ci ildən viqlər adlandırılan partiyanın yaranması ilə nəticələnir. Cekson tərəfdarları, xüsusilə C.Kalxaun və M.Van Burenin təşəbbüsü ilə demokrat respublikaçılar və ya sadəcə demokrat adlandırılan partiyanı təsis edirlər.

1828-ci il seçkilərinə ciddi hazırlaşan demokratlar yeni təbliğat taktikalarından istifadə edirlər. Artıq namizəd proqramını seçicilərlə birbaşa təmas yaratmaqla, mitinqlərdə açıqlayır, mətbuatdan geniş istifadə olunur. Bu tədbirlər bəhrəsini verir və Cekson Adamsa böyük üstünlüklə qalib gələrək prezident seçilir.



downloaded from KitabYurdu.org

İnauqurasiya nitqində demokratik islahatların zəruriliyindən danışan yeni prezident bu işə ilk olaraq dövlət məmurlarının dəyişdirilməsi ilə başlayır. Cekson hələ 12 il əvvəl prezident Monroya yazdığı məktubunda partiya mənsubluğuna görə dövlət vəzifələrinin paylanmasının əleyhinə çıxırdı: «Hər bir halda partiya marağı və partiya mənsubluğu kənara qoyulmalıdır… Böyük və güclü millət rəhbəri özünü partiya mənsubluğu ilə buxovlamamalıdır». Buna baxmayaraq sonrakı fəaliyyətində əvvəl dediklərinə riayət etmir, tərəfdarlarını vacib vəzifələrə təyin edir. Bunu o, Adamsın dövründə kadrların korrupsiya və rüşvətxorluğa qurşanması ilə izah edirdi. Hadisələrin sonrakı inkişafı onun haqlı olduğunu göstərdi. Təkcə hərbi dəniz nazirliyində aparılan yoxlamalar ildə bir milyon dollar yeyinti olduğunu üzə çıxartdı.

Ceksonun siyasi rəqibləri islahatların keçirilməsinə müqavimət göstərir, təyin etdiyi kadrların Konqresdə təsdiq olunmasına maneçilik törədirdilər. Tədricən prezidentin fəaliyyəti demokrat partiyasının daxilində narazılıqla qarşılanmağa başladı. Xüsusilə federal hakimiyyətin hüquqlarını ştatların suverenliyindən üstün tutması partiyanın vitse-prezident Kalxaunun başçılıq etdiyi cənub qanadının ciddi etirazına səbəb oldu. Konstitusiyanı özünəməxsus şəkildə şərh edən Kalxaun, ştatların İttifaqdan ayrılması hüququnu özündə saxladığını iddia edirdi. Prezident isə onun bu təfsiri ilə qətiyyən razılaşmırdı. Fikir ayrılığı, müharibəylə sonuclanacaq quldarlıq problemi gündəmə gəlməmiş, partiya daxili ikitirəliyin yaranmasına səbəb oldu.

Partiyadaxili ixtilaflar Ceksonun nüfuzuna ziyan vurmur. Onun yeni formalaşan kiçik burjuaziyanın mənafeyini güdən maliyyə sistemində apardığı islahatlar, Konqres qanunlarına veto qoymaqla Milli Bankın monopoliyasının



downloaded from KitabYurdu.org

qarşısını alması cəmiyyətdə ona islahatçı-prezident imici qazandırmışdı.

1832-ci il seçkilərində Ceksonun əsas rəqibi H.Kley olur. Gərgin keçən seçkilərdə Cekson böyük üstünlüklə ikinci müddətə prezident seçildi. Qeyd edək ki, seçkilərdə üçüncü siyasi qüvvə kimi çıxış edən Antimason partiyası ciddi uğur qazanmadı və bu ümumiyyətlə ABŞ-da bərqərar olmuş iki partiyalı sistemə əsaslı dəyişiklik gətirmədi. Onların nümayəndəsi Floyd seçimçilər kollegiyasında Cekson və Kleyin topladıqları 219 və 49 səsə qarşı yalnız 11 səs ala bilmişdi.

Cekson ikinci prezidentlik müddətində də götürdüyü kursun fundamental xarakter daşıdığına inanır və başladığı demokratik islahatları özünəməxsus inadkarlıqla davam etdirirdi.

Cekson prezidentlik müddətinin başa çatmasından çox əvvəl daha seçilmək niyyətində olmadığını bildirir və siyasi varis qayğısına qalır. Məhz onun istəyilə demokratların 1835-ci ilin mayında keçirilən Konventində M.Van Buren prezidentliyə namizəd göstərilir. Elə onun böyük köməyi nəticəsində də M.Van Buren ABŞ-ın növbəti prezidenti seçilir.

Tennessiyə qayıdan eks-prezident Ermitaj malikanəsində yaşayır. Buradakı mənzərə heç də ürəkaçan deyildi. Səkkiz illik prezidentliyi müddətində oğulluğu Endrü-kiçiyə tapşırdığı böyük təsərrüfat iflas həddinə çatmışdı. Buna səbəb bir tərəfdən 1834-cü ildə Ermitajda baş vermiş yanğın idisə, digər tərəfdən oğulluğunun işə soyuq yanaşması, spirtli içkilərlə aludə olmasıydı. Təsərrüfata rəhbərliyi ələ alan eks-prezidentə tədricən vəziyyəti sabitləşdirmək nəsib olur.

Təsərrüfatla ciddi məşğul olması, ona ölkədə gedən siyasi prosesləri izləməyə mane olmamışdır. Xüsusilə 1844-cü il seçkilərində, siyasi əlaqələrindən, partiya daxilində



downloaded from KitabYurdu.org

hələ də mövcud olan böyük nüfuzundan istifadə edərək C.Polkun prezident seçilməsinə yardımçı olmuşdur.

1845-ci ilin əvvəllərindən Ceksonun səhhəti pisləşir. Qısa müddətdə hərəkət qabiliyyətini itirən qoca general xüsusi quraşdırılmış kreslodan istifadə edir. Bu ərəfədə onun əhval-ruhiyyəsini yüksəldən yalnız Texasın ilhaq olunması idi. Var-dövlətinin böyük hissəsinin Endrü-kiçiyə və nəvələrinə, şəxsi silah-sursatlarının yaxın dostlarına verilməsini vəsiyyət edir.

E.Cekson 8 iyun 1845-ci ildə 78 yaşında vəfat etmişdir. İki gün sonra düzənlənən dəfn mərasimində onu son mənzilə yola salmağa üç mindən çox adam toplanmışdı.


downloaded from KitabYurdu.org



# MARTİN VAN BUREN
(MARTIN VAN BUREN)
(1837–1841)

Dünyanın bir çox dillərində özünə vətəndaşlıq hüququ qazanmış «Okey» sözünün qəribə yaranma tarixçəsi var. İstər xalq, istərsə də siyasi dairələrdə böyük nüfuza malik Ceksonun prezidentlik müddəti bitdikdən sonra



downloaded from KitabYurdu.org

növbəti prezidentin kim olacağı ictimaiyyət arasında geniş müzakirə edilir, qəzetlər ətraflı şərhlər verirdilər. Ceksonun yaxın ətrafına daxil olan Martin Van Buren bu vəzifəyə ən şanslı namizəd hesab edilirdi. Hətta qəzetlərdən biri ona Kinderhuk şəhərində anadan olduğu üçün «Qoca Kinderhuk» («Old Kinderhook»), və ya sadəcə «O. K» ləqəbi verir. İlk anda «ən uğurlu variant» mənasında işlənən «O. K» hərf birləşməsi sonradan «hər şey əladır» mənasını alır.

Martin Van Buren 5 dekabr 1782-ci ildə Nyu-York yaxınlığındakı Kinderhuk şəhərində anadan olub. Sonralar yazdığı memuarlarında əcdadlarının Amerikaya 1633-cü ildə Hollandiyadan gəldiyini bildirirdi. Nüfuzlu fermer və meyxana sahibi olan atası Avraam Van Buren işgüzarlığı sayəsində böyük sərvət toplaya bilmişdi. Anası Mariya van Alen (Hoes) həmçinin holland əsilli olub tanınmış ailədən çıxmışdı. Martin ailənin beş uşağından üçüncüsü, eyni zamanda böyük oğul idi. İbtidai təhsilini əsasən latın dilini tədris edən məktəbdə alaraq, 14 yaşında ikən vəkil olmaq məqsədilə dəftərxanada işləməyə başlayır. O, dövrün tanınmış vəkillərindən biri Frensis Silvesterin yanında praktika keçdikdən sonra müstəqil fəaliyyət göstərir. 1803-cü ildə məhkəmədə işləməyə başlarkən, artıq yerli siyasətdə Cefferson tərəfdarı kimi tanınırdı.

1807-ci ildə anasının uzaq qohumu Hanna Hoeslə ailə həyatı qurmuşdur.

30 yaşında Nyu-York senatına seçilən Van Buren doğma ştatın siyasi həyatında əhəmiyyətli rol oynayır. 1821-ci ildə Nyu-York Konstitusiya konventində ştatın siyasi sisteminin demokratikləşməsi uğrunda fəal mübarizə aparır. Elə həmin il ştatı Vaşinqtonda təmsil edəcək iki senatordan biri seçilir.

Prezident Adamsın yeritdiyi siyasi kursa müxalif olması onu Ceksonla yaxınlaşmağa sövq edir. 1828-ci ildə


downloaded from KitabYurdu.org

yenidən senator seçilsə də mandatdan imtina edərək Nyu-York qubernatoru seçkilərində namizədliyini irəli sürür. Bu siyasi gedişdə onun məqsədi, paralel olaraq keçirilən prezident seçkilərində Ceksonun namizədliyini təbliğ etmək idi. O, qubernator seçilsə də, 1829-cu ilin martında Ceksonun qurduğu kabinetdə xarici işlər naziri vəzifəsini tutur.

Prezidentin yaxın silahdaşı kimi 1831-ci ildə istefaya gedərək ona kabineti yenidən qurmaq imkanı yaradır. Van Buren İngiltərədə səfir təyin edilsə də, senatda olan müxalif qüvvələr buna razılıq vermir. Lakin çox keçmir ki, Ceksonun Van Buren haqqında daha ciddi fikirdə olduğu aşkar olur. Prezident onu özünün siyasi varisi görmək istəyirdi. 1836-cı ildə Ceksonun arzusuna uyğun olaraq Van Buren və Kentukki ştatından Riçard Consonun uyğun olaraq prezident və vitse-prezidentliyə namizədlikləri irəli sürülür.

Cekson və Van Burenin siyasi rəqibləri artıq viqlər partiyasında birləşsələr də seçkilərə vahid namizədlə gedə bilmədilər. Belə ki, 1836-cı il seçkilərində Ohayo ştatından olan U.H.Harrisonla birgə Tennessili H.L.Uayt, Massaçusetsdən D.Uebster, Cənubi Karolinadan U.P.Manqam da seçkiyə qoşuldular. Səslərin bölünməsi Van Burenin qələbəsini təmin etmiş oldu.

Bəziləri Van Burenin gələcək fəaliyyətini sadəcə Ceksonun üçüncü prezidentlik müddəti olacağını deyirdilər. Lakin verilən proqnozların əksinə olaraq, Van Buren bir çox məsələlərin həllinə özünəməxsus tərzdə yanaşırdı. Müharibələrin artıq tarixə çevrilməsi onu İngiltərə ilə mülayim davranmağa sövq edirdi.

1837-ci ildə baş vermiş iqtisadi böhran onun nüfuzuna böyük zərbə vurmuşdur. Qırxıncı illərə qədər davam etmiş iqtisadi böhran, onun növbəti seçkilərdə uğur qazanmamasının başlıca səbəbi olmuşdur. Buna baxmayaraq Van Buren prezidentliyi dövründə qarşıya çıxan bir çox problemləri



downloaded from KitabYurdu.org

müvəffəqiyyətlə həll edir. 1837-ci ilin qışında Niaqara çayında, 1838-ci ilin qışında isə şimal-şərq sərhəd zolağında İngiltərəylə, hər ikisi müharibə ilə nəticələnə biləcək qarşıdurma yaranır. Hər iki halda general Uinfild Skottun rəhbərliyi altında qoşunları Kanada ilə sərhəd bölgəsinə göndərən prezident ona münaqişədən yayınmaq və dostluq münasibətləri yaratmağı tapşırır. Bununla o, nəinki labüd müharibənin qarşısını alır, eyni zamanda Birləşmiş Ştatlarla Kanada arasında mübahisəli sərhəd problemini birdəfəlik həll edir.

Təəssüf ki, Van Buren bu uğurlardan səmərəli yararlana bilmir. 1840-cı il seçkilərində demokratların güclü köməyinə baxmayaraq viqlər partiyasının nümayəndəsi Uilyam Harrisona məğlub olur. Ümumi səsvermədə 46,8 % səs toplasa da, seçimçilər kollegiyasındakı səsvermədə pis nəticə göstərir (60: 234).

Belə ağır məğlubiyyətə uğraması onu heç də ruhdan salmır. Nyu-Yorkdakı fermasında yaşayan Van Buren yenidən siyasətə qayıtmaq haqqında düşünür. Bu məqsədlə 1842-ci ildə Birləşmiş Ştatlara səfərə çıxır. Lakin Texasın ilhaq edilməsinin əleyhdarı olması onun 1844-cü il prezident seçkilərində qələbə çalacağını şübhə altına salır və demokratlar ehtiyat varianta əl ataraq C.Polkun namizədliyini irəli sürürlər.

Van Buren yenidən öz malikanəsinə çəkilir. C.Polkun siyasi xəttinin cəmiyyətdə birmənali qarşılanmaması, quldarlığın ləğvi ilə əlaqədar partiya daxilində ikitirəliyin yaranmasına biganə qala bilməyən qoca siyasətçi 1848-ci il prezident seçkilərində namizədliyini irəli sürür. O, seçkilərdə yalnız üçüncü yeri tutsa da, nəticədən razı idi. Məhz onun sayəsində quldarlıq problemi ilk dəfə olaraq seçkiönü mübarizənin əsas amilinə çevrilirdi. Bu, eyni zamanda Şimal və Cənub arasında münaqişələrin başlanmasına rəvac


downloaded from KitabYurdu.org

vermişdir. Quldarlığın barışmaz əleyhdarı olan Van Buren ümumilikdə 10 % səs toplasa da Cənub ştatlarında bir səs belə ala bilmir.

Bu, Van Burenin milli siyasətdə sonuncu böyük çıxışı idi. 1853-55-ci illərdə Avropaya səyahətə çıxır və eyni zamanda tamamlaya bilmədiyi bioqrafiyasını yazmaqla məşğul olur. Burada o, siyasi partiyalara və müasir partiyalı dövlətə olan inamını bir daha təsdiq edir.

Ömrünün son illərini Kinderhukdakı Lindenvald malikanəsində keçirir. O, 24 iyul 1862-ci ildə, vətəndaş müharibəsinin qızğın vaxtında vəfat edir.



downloaded from KitabYurdu.org



# UİLYAM H.HARRİSON
## (WILLIAM H. HARRISON)
## (1841–1841)

XVII əsrin əvvəllərindən Amerikada məskunlaşmış ingilis əsilli Harrisonlar ailəsindən çoxlu dövlət xadimləri, varli quldarlar, böyük torpaq sahibləri çıxmışdır. Gələcək prezidentin atası Bencamin Harrison İstiqlaliyyət Bəyannaməsinə imza atan şəxslərdən, sonralar 1781-84-cü illərdə isə Virciniya qubernatoru olmuşdu.



downloaded from KitabYurdu.org

Britaniya vətəndaşı kimi doğulmuş sonuncu prezident Uilyam Henri Harrison 1783-cü il 9 fevralda Virciniyanın Çarlz-Siti şəhərində dünyaya gəlib. Elmə xüsusi marağı ilə seçilməyən balaca Uilyam ibtidai təhsilini yerli Hempton-Sidni kollecində alır. Kolleci bitirən ərəfədə atasını itirən Uilyam ailənin digər üzvlərinin təkidi ilə tibbi təhsil almaq üçün Filadelfiyaya göndərilir. 17 yaşlı Harrison Kvaker-Sitidə tibb kollecinə daxil olur. Lakin növbəti il kollecdən çıxaraq hərbçi olmağa qərar verir.

1791-ci ildə orduya daxil olan gənc Harrison Virciniya qubernatoru R.H.Linin himayədarlığı ilə ABŞ ordusunun praporşiki olur. 22 yaşında ikən daşınmaz əmlak ticarətçisi və hakim Con Simmsin qızı Anna Tothil Simmslə ailə qurur. Gələcək karyerasında əhəmiyyətli rol oynamış uğurlu nikahdan onun doqquz övladı olmuşdur. Qeyd edək ki, oğlu Con Skott hələlik prezident oğlu və atası şərəfinə nail olmuş yeganə amerikalıdır. Belə ki, Con Skottun oğlu Bencamin Harrison 1888-ci ildə ABŞ prezidenti seçilmişdir.

23 illik hərbi karyerası ərzində əsasən hindularla çoxsayli döyüşlərdə iştirak edərək general-mayor rütbəsi alır. 1811-ci ildə Tippekenu-Krik yaxınlığında hindularla aparılan amansız döyüşlərdəki qələbəsi ona «Qoca Tippekenu» ləqəbini qazandırır. Hərbi nazirlə arasındakı ixtilaflar 1814-cü ildə onun istefasıyla sonuclanır.

İstefadan sonra siyasətlə məşğul olur. Əvvəl Ohayo ştatının Nümayəndələr Palatasında, sonra ştatın Vaşinqtonda, senatda nümayəndəsi kimi fəaliyyət göstərir. Adams administrasiyasında dövlət katibi olan H.Kley 1828-ci ildə onu Kolumbiyaya səfir göndərir. Harrisonun səfirliyi uzun çəkmir, yeni seçilən prezident Cekson onu geri çağırır və Harrison Ohayodakı Bend fermasına qayıdır.

Böyük külfətini dolandırmaq məqsədilə 1834-cü ildə yerli məhkəmədə katib işləməyə başlayır. 1836-cı il prezident seçkilərində Kley onun xalq arasında milli qəhrəman nüfu-



downloaded from KitabYurdu.org

zunu nəzərə alaraq, viqlərin namizədi olmasına köməklik göstərir. Harrison seçkilərdə viqlərin üç namizədindən biri olur. Köhnə siyasət ustası, şöhrətpərəst Kleyin üç namizədlə seçkilərə getməkdə məqsədi, 12 il əvvəl olduğu kimi, demokratların nümayəndəsi Van Burenə zəruri minimum səs toplamaqda mane olmaq, seçkiləri Nümayəndələr Palatasına keçirmək idi. Lakin Van Burenin inamlı qələbəsi Kleyin məqsədini puç etdi.

1840-cı il seçkilərində Van Burenin iqtisadi böhran səbəbindən nüfuzunu itirməsi viqlərə qələbə imkanı yaratdı. Partiyanın namizədi olmaq istəyən Kley partiyadaxili müxalifətin ona mane olması səbəbiylə bu dəfə də istəyinə çatmır və partiyanın Harrisberqdə keçirilən konventində keçmiş seçkilərdə təcrübə toplamış Harrison namizəd göstərilir.

Bu dəfə tale üzünə gülür və o, böyük üstünlüklə prezident seçilir. Lakin seçkilər Harrisonun qələbəsindən daha çox M.Van Burenin acınacaqlı məğlubiyyəti ilə yadda qalmışdır. İqtisadi böhranın qarşısını ala bilməməsi ona inamı azaltmış, hətta doğma ştatı Nyu-Yorkda belə seçkiləri uduzmuşdu.

U.H.Harrison ABŞ prezidentlik tarixinə bir neçə rekord yazmışdır. Onların heç də hamısı müsbət işarəli olmamışdır. Əvvəla o, prezident seçilmiş ən yaşlı (67 yaş) şəxs idi (Onun bu rekordunu 1980-ci ildə prezident seçilən 70 yaşlı R.Reyqan təzələdi). İkincisi, onun prezidentliyi çox qısa, vur-tut bir ay sürmüşdür. İlk dəfə olaraq prezident, səlahiyyətlərini icra edərkən vəfat edir. 4 mart 1841-ci ildə qeyri-adi, saatyarımlıq inauqurasiya nitqi söyləyir. Soyuq və rütubətli mart havası səhhətinə mənfi təsir göstərir və o, sətəlcəm olur. Bir ay sonra 4 aprel 1841-ci ildə elə bu xəstəlikdən də vəfat edir.



downloaded from KitabYurdu.org



# CON TAYLER
## (JOHN TYLER)
## (1841–1845)

ABŞ Konstitusiyasına əsasən prezident seçkilərində qalibdən sonra ən çox səs toplamış şəxs vitse-prezident sayılmalı idi. Bu maddə elə ilk seçkilərdən özünü doğrultmadı. Belə ki, uzun müddət bir-biri ilə siyasi rəqabətdə olmuş iki şəxsin sonradan iş birliyində olması qeyri-müm-



downloaded from KitabYurdu.org

kün idi. 1804-cü ildə Konstitusiyaya edilmiş düzəlişlə (bu düzəlişə əsasən prezident və vitse-prezidentliyə namizədlər əvvəlcədən müəyyənləşir və onlar uyğun vəzifələr uğrunda birgə mübarizə aparırlar) yaranmış presedent aradan götürüldü. Prezident öldükdə, vəzifəsindən kənarlaşdırıldıqda və Konstitusiyada nəzərdə tutulan digər hallarda səlahiyyətlərini icra edə bilmədikdə, ona məxsus bütün səlahiyyətlər vitse-prezidentə verilir. İlk belə vəziyyət Harrison qəflətən vəfat etdikdə yarandı və vitse-prezident Con Tayler prezidentlik səlahiyyətlərinin icrasına başladı.

İngilis əsilli əcdadları 200 əvvəl Virciniyada məskunlaşmış Con Tayler 1790-cı il martın 29-da Uilyamsburqda anadan olub. Atası Con Tayler varlı plantator və quldar olmaqla yanaşı ölkənin siyasi xadimləri, xüsusilə T. Ceffersonla dostluq əlaqələrinə malik idi. O, 1809-11-ci illərdə Virciniyanın qubernatoru, sonra isə ştatın federal məhkəməsinin hakimi olmuşdu.

Con Tayler ilk olaraq nüfuzlu «Uilyam Ənd Meri» kollecində oxuyur. Kolleci bitirdikdən sonra o dövrün aristokratik ənənələrinə uyğun olaraq vəkillik sənətinə yiyələnir. O, hüquqşünaslığı bu elmin görkəmli nümayəndələrinin rəhbərliyi altında öyrənir: əvvəl atası, sonra isə C.Vaşinqton administrasiyasında ədliyyə naziri olmuş məşhur Edmund Rendolf onun müəllimi olur. Özəl vəkillər kontoru açaraq qısa müddətdə varlanır. 23 yaşlı Con Virciniya müstəmləkəçisinin qızı Letisiya Kristianla evlənir. Onun vəfatından iki il sonra, 1842-ci ildə, özündən 30 yaş kiçik Culiya Qardinerlə ailə qurur. Taylerin iki nikahdan on dörd övladı olmuşdur.

Gənc yaşlarından siyasi fəaliyyət göstərməsi 21 yaşında Virciniya parlamentinə seçilməsi ilə sonuclanır. 1816-21-ci illərdə Konqresin Nümayəndələr Palatasının, 1827-36-cı illərdə isə senatın üzvü olur. 1825-27-ci illərdə Virciniya qubernatoru vəzifəsini tutmuşdur. Taylerin zəngin


downloaded from KitabYurdu.org

siyasi təcrübə toplamasına baxmayaraq konkret partiya mənsubluğu olmamışdır.

1836-cı il prezident seçkilərində bəzi ştatlarda H.Uaytla, digərlərində isə U.Harrisonla yanaşı vitse-prezidentliyə namizəd kimi çıxış edir. O, əsl cənublu kimi quldarlığın məhdudlaşdırılmasının, ittifaqın silah gücünə qorunub saxlanılmasının əleyhinə çıxır. Bununla o, Ceksonun rəqibinə çevrilir və nəticədə viqlər partiyasına yaxınlaşır. Partiyanın 1839-cu ildə keçirilən Konventində H.Kleyin namizədliyini müdafiə etsə də, Harrisonun namizədliyi göstərilir. Viqlərin Cənubda qələbəsinə kömək göstərəcəyini nəzərə alıb, Tayleri vitse-prezidentliyə namizəd göstərirlər.

4 mart 1841-ci ildə vəzifəsinin icrasına başlasa da, hökumətin formalaşdırılmasına təsir göstərə bilməyəcəyini anlayaraq Uilyamsburqdakı malikanəsinə çəkilir. Aprelin 5-də səhər tezdən prezidentin vəfatı xəbərini alaraq Vaşinqtona tələsir və növbəti gün ABŞ-ın 10-cu prezidenti kimi and içir.

Bəzi problemlərin həllində onun, hələ Harrisonun qurduğu kabinet üzvləri ilə ciddi fikir ayrılığı əmələ gəlir. Xüsusilə, prezidentin ABŞ Xəzinə Bankının yaradılması haqda qanun layihəsinə veto qoyması 1841-ci il 11 sentyabrda dövlət katibi Uebsterdən başqa bütün nazirlərin istefaya getməsi ilə nəticələnir. Eyni zamanda Tayler yeni üzv olduğu viqlər partiyasından xaric edilir.

Tayler iki gün ərzində Şimal və Cənubdan dəvət etdiyi tanınmış siyasətçi-viqlərin köməyilə yeni kabineti qurur. Dövlət katibi Uebster istefa verdikdə isə o, Con Kalxaunu bu vəzifəyə təyin edir. Bu öz növbəsində prezidentin Cənub ştatlarından olan demokratlarla yaxınlaşmasına səbəb olur. Tayler növbəti seçkilərdə Demokrat partiyasının namizədi olacağına ümid bəsləyir. Lakin özünə sadiq və etibarlı komanda yarada bilməməsi onun bu ümidlərini də heçə çıxarır.



downloaded from KitabYurdu.org

Prezidentlik müddəti bitdikdən sonra Virciniyadakı malikanəsinə qayıdır. Demokratlarla sıx əlaqə saxlasa da aktiv siyasi fəaliyyət göstərmir. Son illər Uilyamsburqdakı kollecdə kansler kimi çalışır.

Yalnız hər an başlaya biləcək vətəndaş müharibəsi təhlükəsi, onu dinc kənd həyatından ayırır. Virciniya parlamentinin təşəbbüsü ilə müharibənin qarşısını almaq məqsədilə Vaşinqtonda aparılan danışıqlarda iştirak edir. Müharibənin labüdlüyünü başa düşərək doğma ştata İttifaqdan ayrılmağı məsləhət görmüşdür. Noyabr ayında İttifaqdan ayrılmış ştatların Nümayəndələr palatasına üzv seçilsə də, orada fəaliyyət göstərmək ona nəsib olmur. Con Tayler 1862-ci il 18 yanvarda 72 yaşında vəfat edir.

Onun adı ABŞ tarixində ən uğursuz prezidentlər sırasındadır. Xarici müşahidəçilər bunu hətta ABŞ Prezidentlik İnstitutunun böhranı kimi dəyərləndirirdilər. Lakin əslində belə deyil. Sadəcə Taylerin, şəxsi keyfiyyətlərinin naqisliyi ucbatından, bəzi tanınmış siyasi xadimlərlə dil tapa bilməməsi, onun yeritdiyi siyasi kursun Konqresdə dəstəklənməməsi ilə nəticələnmişdir. Prezidentlik İnstitutu belə siyasi çəkişmələrdən daha da təkmilləşmişdir.



downloaded from KitabYurdu.org



# CEYMS N.POLK

## JAMES KNOKS POLK
## (1845–1849)

ABŞ-ın 11-ci prezidenti Ceyms Noks Polk 2 noyabr 1795-ci ildə Şimali Karolina ştatının Meklenburq dairəsində anadan olmuşdur. On bir yaşında ikən ailəsiylə



downloaded from KitabYurdu.org

birlikdə Tennessiyə köçürlər. Səhhətində olan problemlər onun ibtidai təhsil almasını gecikdirmişdir. Lakin bu, onun mükəmməl təhsil almasına mane olmur. 21 yaşında Şimali Karolina Universitetinə daxil olaraq, 1818-ci ildə oranı müvəffəqiyyətlə bitirir. Tennessiyə qayıdaraq Neşvilldə vəkillər kontorunda işləyir. 1824-cü ildə varlı biznesmen, böyük torpaq sahibi mayor Coel Çayldresin qızı Sara ilə ailə həyatı qurmuş, lakin övladları olmamışdır. Saranın atası vəfat etdikdən sonra, onun bütün varidatı, Tennessi və Alabamada malikanələr, çoxsaylı qullar Polklara çatmışdır.

E.Ceksonun və demokrat partiyasının inanılmış tərəfdarı olan Polk parlaq natiqlik bacarığı ilə hətta rəqiblərinin də hörmətini qazanmışdı. 1823-25-ci illərdə Tennessi parlamentinin üzvü olur. Onun çoxlu tanışları olsa da, onların çox az hissəsi ilə dostluq əlaqələri qurmuşdu. Endrü Cekson onun ən yaxın dostlarından biri idi. Məhz onun yaxından köməyi və himayədarlığı sayəsində Polk böyük siyasətə gəlmişdi.

Ştatın tanınmış şəxsləri ilə isti münasibətdə olması onun yerli milisin polkovniki və qanunverici orqanın üzvü seçilməsinə kömək etmişdi. 23 yaşında ikən Konqresə seçilir və 1825-39-cu illərdə burada fəaliyyət göstərir. Son dörd ildə Nümayəndələr Palatasının spikeri seçilmiş və burada demokratlar fraksiyasına rəhbərliyi ələ almışdı.

1839-41-ci illərdə Tennessinin qubernatoru kimi siyasi təcrübə toplayan Polk məğlub olduğu iki ardıcıl seçkidən (1841, 1843) sonra Vaşinqtona qayıdır. 1844-cü ildə demokratların Baltimorda keçirilən partiya konventində onu prezidentliyə namizəd göstərirlər. Bunun başlıca səbəbi partiyanın görkəmli xadimləri M.Van Buren, L.Kass və C.Bükenenin arasındakı qarşıdurma olur. Onlar qarşıdurmanı kəskinləşdirməkdən çəkinərək Polkun şəxsində ortaq məxrəcə gəlirlər.



downloaded from KitabYurdu.org

Siyasi xadim olmaqla yanaşı, quldar olan Polk Cənubda böyük nüfuza malik idi. Cənublular onun prezident olacağı təqdirdə vergiləri azaldacağına, bankların özbaşınalığına qarşı çıxacağına ümid bəsləyirdilər. Viqlər demokratların seçiminə istehza ilə yanaşır, «Ceyms Polk kimdir axı?» kimi istehzalı şüarla çıxış edirdilər. Lakin Polk özünü seçkiönü mübarizənin bacarıqlı strateqi kimi göstərdi və müxtəlif regional maraqlardan öz xeyri üçün istifadə etdi. Belə ki, Texasın ilhaq edilməsi planı demokratlar arasında ikitirəliyin yaranmasına səbəb olmuşdu. Polk Şimalda seçiciləri Texasın ABŞ-a birləşdirilməsinin onların da marağı çərçivəsində olduğuna inandırmaq istəyirdi. O, senator Robert Uolkerlə birlikdə Cənubda qullar və quldarlar arasında başlaya biləcək hər hansı konfliktin Şimala da yayılacağını bildirirdi. Bunun qarşısını isə yalnız ABŞ ərazilərini genişləndirməklə almaq olardı. Polk quldarlığın əleyhinə olmasa da, onun ABŞ-a daxil edilmiş yeni ştatlara yayılmasının tərəfdarı deyildi.

Mühafizəkar viqlərdən fərqli olaraq Polk ictimai rəyin ərazilərin genişləndirilməsi tərəfində olduğunu yaxşı başa düşür və bundan səmərəli istifadə edirdi. Uğurlu seçkiönü kampaniya təşkil edə bilməsi, nəticədə onun viqlərin namizədi H.Kleydən daha çox səs toplaması ilə nəticələndi. Seçimçilər kollegiyasında Kleyə böyük fərqlə qalib gəlsə də (170:105), əhalinin seçkilərdə iştirak səviyyəsinin yüksək olmasına (79,9 %) baxmayaraq, yalnız 49,6 % səs topladı. 1824-cü ildən sonra ilk dəfə prezident 50 %-dən aşağı səs toplamaqla seçilirdi.

Nazirlərin təyin edilməsində Polk yüksək siyasi və inzibati bacarıq göstərmişdir. Dövlət katibi vəzifəsini tutan Ceyms Bükenenlə yanaşı Uilyam L.Mersi (hərbi), Robert Uolker (maliyyə), Corc Bankroft (hərbi-dəniz donanması) kimi yüksək səviyyəli mütəxəssislər kabinetə daxil edildilər. Onlar prezidentin demokratik prinsiplərini



downloaded from KitabYurdu.org

müdafiə etsələr də, icraedici hakimiyyətin siyasi kursuna əhəmiyyətli təsir göstərə bilmədilər. Çünki əsas kursu Polk özü müəyyənləşdirir və həyata keçirirdi. Bu isə onun prezidentliyi üçün bəzi problemlərin yaranması ilə nəticələndi.

Prezidentin gömrük xidmətini təkmilləşdirmək üçün vəsait ayrılmasını nəzərdə tutan qanun layihəsinə veto qoyması qərb demokratlarının partiyadan uzaqlaşmasına səbəb olur. Onlar Polku cənub ştatlarının mənafeyinə xidmət etməkdə günahlandırırdılar.

Prezident kimi fəaliyyətində əsasən ölkə ərazisinin genişləndirilməsi kursunu götürən Polk 1845-ci ilin dekabrında Texasın 28-ci ştat kimi ABŞ-a birləşdirilməsinə nail olur. Bunun ardınca o, həmin vaxt Meksikaya məxsus olan Nyu-Meksiko və Kaliforniyanı da İttifaqa daxil edir. Beləliklə Polkun prezidentliyi dövründə Birləşmiş Ştatların ərazisi 2/3-si qədər artırılır.

Səhhətində əmələ gələn problemlər üzündən Polk demokratların 1848-ci il prezident seçkilərinə namizədi olmaqdan imtina edir. Digər tərəfdən partiyadaxili müzakirələrdə onun artıq ikinci müddətə prezidentlik üçün yaramadığı fikri səslənirdi. Belə ki, partiyanın Şimal qanadı onun cənubluların mövqeyində dayanmasından narazı idi. Prezidentlik müddəti başa çatdıqdan sonra Tennessiyə qayıdaraq Neşvilldə yaşayır. Bir neçə ay sonra, 15 iyul 1849-cu ildə 53 yaşında vəfat edir.



downloaded from KitabYurdu.org



# ZAKARİ TEYLOR

## ZACHARY TAYLOR
## (1849–1850)

Onu bəzən apolitik (siyasətdən kənar) prezident də adlandırırlar. Doğrudan da C.Vaşinqton və E.Cekson kimi Zakari Teylor da hərbdə qazandığı uğurlardan siyasi karyera qurmaq üçün istifadə etmişdir. Onun şəxsində ilk dəfə olaraq peşəkar əsgər Ağ Evin sahibi olmuşdur.



downloaded from KitabYurdu.org

Zakari Teylor 24 noyabr 1784-cü ildə Virciniya Ştatının Orinc dairəsində anadan olmuşdur. Amerikada yaşamış ilk Teylor 1620-ci ildə məşhur «Meyflauer» gəmisində Yeni Dünyaya gəlmiş piliqrimlərdən idi. Gələcək prezidentin atası Riçard Teylor Virciniya və Kentukkidə böyük torpaq sahələrinə, çoxlu sayda qula sahib olmuş, İstiqlaliyyət müharibəsində zabit kimi iştirak etmişdi. Erkən uşaqlıq çağlarından ailəsi ilə Kentukkiyə köçən Zakari Luisvilldə böyüyür. Ailənin geniş maddi imkanlarına baxmayaraq, səthi təhsil alır. 20 yaşı olarkən Kentukki polisinə qəbul edilir və 1808-ci ildə ona leytenant rütbəsi verilir. Bu vaxtdan etibarən onun bütün həyat və fəaliyyəti ordu ilə bağlı olmuşdur.

1810-cu ildə Merilendli Marqaret Mekel Smitlə ailə qurmuş, bu nikahdan onların altı övladı dünyaya gəlmişdir.

Z.Teylorun tərcümeyi-halını Birləşmiş Ştatların XIX əsrin birinci yarısında apardığı müharibələr tarixi kimi dəyərləndirmək olar. O, 1812-ci ildə İngiltərəyə qarşı aparılan müharibədə iştirak edir və mayor rütbəsi alır. Müharibənin sonuna yaxın ordudan tərxis olunmuş və rütbəsinin endirilməsinə baxmayaraq, növbəti il yenidən orduya qayıdaraq əvvəlki hərbi rütbəsini bərpa etmişdir.

1830-cu ildə Konqres «Hinduların köçürülməsi haqqında qanun» qəbul etdi və hinduların əksəriyyəti on il ərzində bəzi yerlərdə torpaq alqı-satqısı haqqında müqavilə yolu ilə, digər yerlərdə zorla boş qərb torpaqlarına köçürüldü. Bu isə hindu qəbilələrinin haqlı narazılığına səbəb oldu və hindularla ABŞ ordusu arasında elan olunmamış qanlı müharibələr başlandı. 1832-ci ildə İllinoys və Viskonsin ərazisində «Qara tərlanlar» adlandırılan müharibədə iştirak edən Teylor böyük rəşadət göstərir və ona polkovnik rütbəsi verilir. İki il sonra Hindu-seminollarla aparılan müharibədə isə briqada generalı olur. Döyüşlərdə göstərdiyi qəhrəmanlıq və cəsurluğu ona «Qoca dəlisov» ləqəbi qazandırır.



downloaded from KitabYurdu.org

Zakari Teylorun iştirakçısı olduğu sonuncu müharibə 1846-48-ci illərdə Meksika ilə aparılan müharibədir. Müharibə ərəfəsində, xüsusilə Palo-Alto və Monterey yaxınlığındakı döyüşlərdə özünü bacarıqlı sərkərdə kimi göstərmiş və ona general-mayor rütbəsi verilmişdir. Buena-Vista yaxınlığında rəqibin sayca üstün ordusu üzərində çaldığı qələbə isə onu milli qəhrəmana çevirmişdir.

1848-ci il prezident seçkilərində Z.Teylor viqlər partiyasının namizədi olur. Viqlər heç vaxt siyasi fəaliyyət göstərməmiş generalın xalq arasındakı nüfuzuna güvənirdilər. Demokrat partiyası isə daxili çəkişmələrdən olduqca zəif görünürdü. Quldarlığa olan münasibət partiyada ikitirəliyin yaranmasına səbəb olur. Buna görə də partiyanın şimal qanadı ayrılaraq seçkilərdə Azad torpaq partiyası kimi çıxış edir. Onlar quldarlığın yeni yaradılmış ştatlarda yayılmasının qəti əleyhdarı M.Van Bureni prezidentliyə, C.K.Adamsın oğlu Çarlz Frensis Adamsı isə vitse-prezidentliyə namizəd göstərirlər. Köhnə Demokratlar Miçiqanlı senator Lyuis Kassı namizəd göstərsələr də, onun proqramı tərəfdarlarından ciddi dəstək almır. Belə ki, L.Kass quldarlığın qəbul edilib-edilməməsinin ştatların daxili işi kimi onların özlərinə həvalə edilməsini istəyirdi.

Teylorun cənubdan olub Luizianada yaşaması, Miçiqanda pambıq plantasiyaları və 100-ə yaxın qula sahib olması seçkilərdə qalib gəlməsinə mane olmur. İlk dəfə olaraq bütün ştatlarda eyni gündə keçirilən seçkilərdə, seçki hüququna malik əhalinin 72 %-i iştirak edir. Zakari Teylor ümumi səsvermədə 47,4 %, seçimcilərin isə 163 səsini alaraq prezident olur. Nyu-Yorklu liberal viq Millord Fillmor isə vitse-prezident seçilir.

ABŞ prezidentləri sırasında, ölkənin siyasi kursuna onun qədər az təsir göstərmiş ikinci prezident olmamışdır. Gözlənilirdi ki, o bütün qanunvericilik təşəbbüslərini Konqresə etibar edərək, yalnız qanunların icrasına nəzarətlə



downloaded from KitabYurdu.org

məşğul olacaq. Teylorun səlahiyyətlərinin icra etməsinə əvvəlcə siyasi cəhətdən daha təcrübəli vitse-prezident Fillmor köməklik göstərsə də, sonradan bu funksiyanı Massaçusetsli senator Uilyam Syüard yerinə yetirir. Onun məsləhəti ilə prezident kadr islahatları aparmaqla viqlərin mövqeyini möhkəmləndirməyə cəhd göstərmiş, lakin əsaslı nəticələrə nail olmamışdı. Diplomatiya sahəsində heç bir təcrübəyə malik olmayan Con Kleytonun xarici işlər naziri təyin olunması uğursuz kadr siyasətinin göstəricisi idi. Nazirin qeyri-diplomatik davranışı Fransa ilə münasibətlərə sərinlik gətirmişdi.

Buna baxmayaraq 1850-ci ildə İngiltərə ilə imzalanmış «Kleyton-Bulever» sazişini Teylor hökumətinin uğuru kimi dəyərləndirmək olar. Bu sazişə əsasən hər iki dövlət Mərkəzi Amerika torpaqlarını ilhaq etməmək haqda öhdəlik götürürdülər.

Zakari Teylorun prezidentliyi 1 il 3 ay davam edir. O, 1850-ci il iyulun 9-da Ağ Evdə gözlənilmədən vəfat edir. İstiqlaliyyət gününə həsr edilmiş təntənəli mərasimdə iştirak edən Teylor qızmar günəş altında çoxlu vaxt keçirərək yorğun halda evə qayıtmışdı. Çoxlu meyvə yeyərək, buz kimi soyuq süd içmiş, bunun nəticəsində də onda qıc olma və bağırsaqlarda soyuqlama baş vermişdi. Teylorun qəfil vəfatı müxtəlif şayiələrin yayılmasına səbəb oldu. Şayiələrdə prezidentin zəhərlənib öldürülməsi versiyası üstünlük təşkil edirdi. Nəhayət 1891-ci ildə aparılan eksqumasiya və məhkəmə-tibb ekspertizası Teylorun ölümündə sui-qəsd olmadığını birmənalı olaraq təsdiq etdi.



downloaded from KitabYurdu.org



# MİLLARD FİLLMOR
## (MILLARD FILLMORE)
## (1850–1853)

Z. Teylor vəfat edən günün səhəri, 1850-ci il iyunun 10-da vitse-prezident Millard Fillmor prezident səlahiyyətlərinin icrasına başladı. Sələfindən fərqli olaraq uzunmüddətli siyasi təcrübəyə malik Fillmor ənənəvi yolla çətin ki, prezident seçilərdi. Viqlər partiyasının liderləri ilə sıx əməkdaşlıq edərək daxili və xarici siyasətdə bəzi



downloaded from KitabYurdu.org

uğurlar qazanmasına baxmayaraq onun ikinci müddətə prezident seçilməsi üçün heç bir şansı olmamışdır. Fillmor 1856-cı il prezident seçkilərində iştirak etsə də uğur qazana bilməmişdir.

Millard Fillmor 7 yanvar 1800-cü ildə kasıb fermer ailəsində dünyaya gəlib. Gələcək prezidentin ağır uşaqlıq dövrü atasına məxsus fermada keçib. Təsərrüfat işlərində ailəyə kömək etməsi səbəbindən ildə iki-üç ay təhsil ala bilib. Çətin fermerlik həyatının bəhrəsizliyini görən ailə başçısı övladlarına heç olmasa yaxşı sənət öyrətməyi qərara alır. Bu məqsədlə 14 yaşlı Millard dərzi emalatxanasında şagird olur. Lakin az müddətdən sonra yenidən doğma fermaya qayıdaraq ağac emalı sexində fəhləlik edir. Yaxınlıqda açılan kitabxana onda bütün həyatı boyu saxladığı mütaliə həvəsi oyadır.

Çoxlu mütaliə etməsi 19 yaşında ikən ona məktəbdə təhsilini davam etdirmək imkanı verir. Elə bu məktəbdə də gələcək həyat yoldaşı, müəlliməsi Abigeyl Pauerslə tanış olur.

Buffaloda hüquq təhsili alaraq 1823-cü ildə vəkil işləməyə başlayır. Növbəti il siyasətlə məşğul olaraq, Con Kuinsi Adamsın tərəfdarı kimi tanınır. 1829-31-ci illərdə Antimason «Müstəqil bənnalar partiyası»nı Nyu-York parlamentində Eri dairəsinin deputatı kimi təmsil edir. Bu ərəfədə artıq dörd nəfərdən ibarət ailəsi ilə birlikdə Buffaloya köçür.

Gələcək prezident qərbi Nyu-Yorkda viqlər partiyasının yerli şöbəsinin yaradıcılarından olaraq 1832-ci ildə konqresə seçilir. Nümayəndələr palatasının üzvü kimi əsasən H.Kleyin ideyalarının qızğın tərəfdarı olmuşdur.

1844-cü ildə vitse-prezidentliyə namizəd olmaq cəhdi viqlər tərəfindən dəstəklənmədiyi üçün həyata keçmir. Növbəti seçkilərdə, partiyanın Filadelfiyada keçirilən konventində, H.Kleyin köməkliyi sayəsində Fillmor, Z.Teylorla



downloaded from KitabYurdu.org

yanaşı vitse-prezidentliyə namizəd göstərilir. O, Nyu-York ştatında Teylorun seçkiönü kampaniyasına rəhbərlik edir. Teylor və Fillmor bir-birlərini şəxsən tanımırdılar və ilk dəfə yalnız uğurlu keçən seçkilərdən sonra görüşürlər. Qeyd edək ki, Fillmor, konqres üzvləri ilə məhrəm münasibətdə olmasına baxmayaraq, Teylor administrasiyası ona etinasız yanaşmışdı. Hətta doğma ştatı Nyu-Yorkda vəzifə bölgüsü aparılarkən belə onunla məsləhətləşməmişdilər.

Fillmor prezident kimi 1850-ci ilin avqustunda Konqresə göndərdiyi məktubunda quldarlıq məsələsində Cənubla Şimalı barışmağa çağırır. Sentyabrda isə quldarlıq probleminin həllinə yönəlmiş və «1850-ci il kompromisi» adlanan qanunlar toplusunu imzalayır. Bu qanunlarla o, sələfi Teylordan fərqli olaraq, «xalqın suverenliyi» prinsipini təsdiq edir. Bu prinsipə əsasən quldarlığın ləğvi və ya qəbulu ştatın müstəsna hüququ kimi göstərilir.

Barışdırıcı xarakter daşımasına baxmayaraq, qanunlar toplusu heç də birmənalı qarşılanmadı. Hətta Şimaldan olan viqlər belə burada Cənublu quldarlara böyük güzəştlər olduğunu bildirirdilər. Xüsusən şimala qaçan qulların tutularaq geriyə, öz sahiblərinə qaytarılmasını nəzərdə tutan maddə kəskin etiraz doğururdu.

1848-49-cu illərdə bəzi Avropa dövlətlərini respublika üsul-idarəsinin yaranması ilə nəticələnən milli-demokratik inqilablar bürümüşdü. Bir çox amerikalılar bunda ölkələrinin tarixi ilə paralellər görür və dövlətin bu hərəkata köməklik göstərməsini istəyirdilər. Fillmor administrasiyası bu çağırışlara reaksiya vermir və yalnız formal olaraq Köhnə Dünyada baş verən demokratik dəyişikliklərin tərəfdarı olduğunu bildirir.

Uzaq Şərqə ticarət yolunun açılması məqsədilə Fillmor, 1852-ci ildə Metyü Perinin komandanlığı altında Yaponiyaya dörd hərbi gəmi göndərir. Hərbi gücünə güvənən Periyə 1854-cü ildə Kanaqav prefekti ilə saziş imzalamaq



downloaded from KitabYurdu.org

nəsib olur. Bu sazişə əsasən Yaponiya limanları ABŞ ticarət gəmilərinə açıq elan edilir.

Viqlər partiyasının 1852-ci ildə keçirilən konventində Fillmorun namizədliyi təsdiqini tapmır. Xüsusilə «Qaçqın qullar haqda Akt»ı imzalaması onu partiyanın şimal qanadının dəstəyindən məhrum etmişdi. Partiyanın namizədi isə ABŞ-Meksika müharibəsinin məşhur iştirakçılarından olan general Uinfild Skott olur.

Fillmorun siyasi məyusluğuna onun şəxsi faciəsi də əlavə olur. 1853-cü ildə, yeni seçilmiş prezident Pirsin inauqurasiya mərasimində Fillmorun xanımı Abigeyl bərk soyuqlayır və tezliklə dünyasını dəyişir. Buffaloya qayıtdıqdan bir il sonra yeganə qızı vəfat edir. Bu dərdləri qismən də olsa unutmaq məqsədilə o, Avropaya səfərə çıxır və hətta Roma Papasının qəbulunda olur. Səfərdən qayıtdıqdan sonra 1856-cı il prezident seçkilərində iştirak edir, yalnız 21 % səs toplaya bilir. Bu onun böyük siyasətdə son çıxışı olur. Buffaloya qayıdaraq yerli siyasətdə aktiv fəaliyyət göstərməyə başlayır.

Millard Fillmor 1874-cü il martın 8-də beyninə qan sızması nəticəsində vəfat etmişdir.



downloaded from KitabYurdu.org



# FRANKLİN PİRS
(FRANKLIN PIERCE)
(1853–1857)

Onun prezidentliyi müharibənin qaçılmazlığını göstərən ictimai gərginlik və dəyişikliklər dövrünə təsadüf edir. ABŞ-ın 14-cü prezidenti Franklin Pirs 23 noyabr 1804-cü ildə Nyu-Hempşir ştatının Hillsboro şəhərində dünyaya gəlib. Atası Bencamin Pirs inqilab generalı və ştatın qubernatoru olmuşdu. Elə də varlı olmasalar da Pirslər övladlarının yax-



downloaded from KitabYurdu.org

şı təhsil alması qayğısına qalırdılar. Balaca Franklin ibtidai təhsilini məşhur Bouduin kollecində alır. Kolleci bitirərək üç il ərzində hüquq elmlərini öyrənir və 22 yaşı olarkən özəl vəkil kontorunu açır. Bu ərəfədə Bouduin-kollecin keçmiş prezidentinin qızı Ceyn Minz Epltonla ailə həyatı qurur. Epltonlarla qohumluğu Pirsin gələcək karyerasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Cəmi iki il vəkillik fəaliyyəti göstərən Franklin siyasətlə məşğul olur. 25 yaşlı Pirs əvvəl doğma ştatın qanunverici orqanına (tezliklə spikeri olmuşdur) seçilir. Dörd il burada göstərdiyi uğurlu fəaliyyəti onun Vaşinqtonda Nümayəndələr Palatasına seçilməsi ilə nəticələnir. 1837-ci ildə isə ştatın senatdakı iki təmsilçisindən biri olur.

Sürətlə siyasi karyera etsə də 1841-ci ildə yenidən Nyu-Hempşirə qayıdaraq, ştatın əsas şəhəri Konkordda vəkillik fəaliyyətini davam etdirir. Bunun başlıca səbəbi ciddi kalvinist ruhunda tərbiyə almış xanım Pirsin Vaşinqton aristokrat cəmiyyətinə uyğunlaşa bilməməsi olmuşdu.

1846-cı ildə Meksikaya qarşı aparılan müharibənin ilk günlərindən Pirs könüllü olaraq cəbhəyə yollanır. Hərbi xidmətə yefreytor kimi başlayaraq, qısa müddətdə briqada generalı rütbəsinədək yüksəlir. Müharibənin əvvəlində dəfələrlə böyük rəşadət və qəhrəmanlıqlar göstərsə də, sonadək döyüşlərdə iştirak edə bilmir. Atdan yıxılaraq zədələnməsi onun hərbi karyerasına nöqtə qoyur. Bu Pirsin sonuncu uğursuzluğu olmamışdır, şəxsi həyatında qayğılar daim onu izləmişdir. Xanımı Ceyn Pirs vərəmdən əzab çəkir, özü isə həddən artıq spirtli içki qəbul edirdi. Pirslərin ilk övladı hələ körpə ikən tələf olur, ikincisi isə dörd yaşında tif xəstəliyindən vəfat edir. Ailənin sonbeşiyi isə dəmiryol qəzasında valideynlərinin gözü qarşısında həlak olur.

F.Pirs 1852-ci il prezident seçkilərinə Demokrat partiyasının namizədi seçilir. Onunla yanaşı prezidentlik uğrunda viqlərin nümayəndəsi general Uinfild Skott, Azad torpaq



downloaded from KitabYurdu.org

partiyasından isə Con Heyl mübarizə aparır. Pirs ümumi seçkilərdə cəmi 50,1 % səs toplasa da, seçimçilər kollegiyasında böyük üstünlük qazanır. O, U.Skottun topladığı 42 səsə qarşı 254 səs alaraq prezident olur.

Belə çətin dövrdə prezident olmaq üzərinə böyük məsuliyyət götürmək demək idi. Quldarlıq problemində Cənub və Şimal arasındakı ziddiyyətlərin getdikcə daha da kəskinləşməsi, İttifaqa daxil edilmiş torpaqlarda əhalinin məskunlaşması, hindularla münasibətin qaydaya salınması, dəmiryol xətlərinin çəkilməsi və bu kimi, ölkənin inkişafında ciddi əhəmiyyət daşıyan problemlərin mövcudluğu düşünülmüş siyasi-iqtisadi kurs götürülməsini vacib edirdi.

Pirsin 1853-cü ildə qurduğu kabinetdə vəzifə tutanların əksəriyyəti heç bir siyasi təcrübəyə malik deyildi. Prezidentin kabineti heç olmasa bircə dəfə yenidən qurmağı məqsədəuyğun hesab etməməsi Amerika tarixində görünməmiş haldır. Müdafiə naziri, onun yaxın və inanılmış dostu Cefferson Devis idi. Prezident Cənub ştatlarının qızğın müdafiəçisi və onların qeyri-rəsmi lideri hesab edilən Devislə açıq-aşkar əməkdaşlıqdan çəkinirdi. Onlar əsasən gecədən keçmiş, Devisin evində görüşərdilər. Sonralar İttifaqdan ayrılmış Cənub ştatlarının prezidenti olmuş hərbi nazir, Pirsin fəaliyyətinə ciddi təsir göstərmişdir.

Təəssüflə qeyd etməliyik ki, Prisin yeritdiyi daxili siyasi kurs, xüsusilə quldarlığa olan münasibəti uğurlu olmamışdır. Bu özünü 1854-cü ildə Bostonda qaçqın qul Entoni Börnsün qurama ittihamla həbs edilməsində açıq-aşkar göstərir. 1850-ci ildə «Qaçqın qullar haqqında» qəbul edilmiş qanuna əsasən Börns sahibinə qaytarılmalı idi. Bu zaman bir qrup abolisionist həbsxana qarşısına toplaşaraq qulu zorla azad etmək istəyirlər. Teleqraf vasitəsilə prezidentdən kömək istəyən yerli icra orqanlarına istər hərbi, istərsə də polisin köməyi ilə qanuna əməl olunması əmr olunur və Börns azadlıqdan məhrum edilir.



downloaded from KitabYurdu.org

Cənub və Şimal ştatları arasındakı münaqişənin kəskinləşməsi nəinki daxili, eyni zamanda ölkənin xarici siyasi kursuna da təsirini göstərmişdir. Belə ki, Konqresdə quldarlığın tərəfdarları Cənub istiqamətində ölkə ərazisinin genişləndirilməsini, eləcə də, xüsusilə Meksikanın hesabına, İttifaqa daxil edilmiş ərazilərdə quldarlığı qadağan edən qanunun ləğv olunmasını tələb edirdilər. Prezident özü də heç vaxt ABŞ ərazilərini genişləndirmək niyyətini gizlətməmişdi. O, kadrların seçilməsində də, bu amili əsas götürmüş, Con Meyson, Ceyms Bükenen kimi ekspansiya tərəfdarları kabinetdə təmsil olunmuşdular. Lakin Pirsin bu istiqamətdə gördüyü işləri sələfi Polkla müqayisə etsək, onun ciddi uğur qazanmadığının şahidi olarıq. Digər tərəfdən Cənubu iqtisadi cəhətdən gücləndirmək məqsədilə yeni əldə edilmiş torpaqlar boyu dəmiryolu xəttinin çəkilməsi planı da baş tutmamışdır. Bu plan yalnız vətəndaş müharibəsi ərəfəsində həyata keçirilmişdir.

Pirsin 1857-ci ildə siyasətdən getməsi çox az adamı məyus etmişdir. Dövrün aktual problemlərini həll edə bilməməsi Cənub və Şimal arasındakı ziddiyyətlərin dərinləşməsinə səbəb oldu. Prezidentlik müddəti qurtardıqda respublikaçı siyasətçi C.F.Adams senator C.Samnerə məktubunda yazırdı: «Belə şəxsin prezident olmasına sevinmək olar. Çünki onun administrasiyasının kobud səhvlərindən xələfləri düzgün nəticə çıxararaq oxşar səhvləri təkrar etməyəcəklər». Lakin Con Adamsın nəvəsi də səhv edirdi. Pirsin xələfi olacaq C.Bükenen Cənub ştatlarının mənafeyini müdafiə etməklə daha ağır səhvlərə yol verdi.

Bir çox Amerika siyasətçilərinin satqın adlandırdıqları Pirs ömrünün son dövrünü tənhalıq və məhrumiyyətlər içərisində keçirir. O, 1869-cu il oktyabrın 8-də Nyu-Hempşirin Konkord şəhərində vəfat etmişdir.



downloaded from KitabYurdu.org



# CEYMS BÜKENEN
(JAMES BUCHANAN)
(1857-1861)

Ceyms Bükenen ABŞ tarixinə quldarlıq problemini həll edə və İttifaqın dağılmasının qarşısını ala bilməmiş zəif prezident kimi daxil olmuşdur. O, cənublu olmasa da, müasirləri tərəfindən Cənub ştatlarının tərəfdarı kimi tənqid edilmişdir.



downloaded from KitabYurdu.org

C.Bükenen 1791-ci il aprelin 23-də Pensilvaniya ştatının Mersersberq şəhərciyində irland immiqrantı ailəsində anadan olub (Bükenen atası Amerikadan kənarda doğulmuş beş prezidentdən biridir).

Ceymsin atası varlı ticarətçi olaraq övladlarının təhsilinə ciddi fikir verirdi. Ailənin on bir uşağından biri, eyni zamanda böyük oğlu olan Ceyms ibtidai təhsilini Karlisldəki Dikkinson kollecində alır. 1809-cu ildə kolleci bitirərək, Lankaster vəkillər kollegiyasının nüfuzlu nümayəndəsi Ceyms Hopkinsin rəhbərliyi altında vəkillik öyrənir.

Qısa müddətə 1812-ci il müharibəsində könüllü kimi iştirak etdikdən sonra Lankasterə qayıdaraq müstəqil vəkillik praktikasına başlayır.

Siyasi təcrübəsinin zənginliyinə görə Bükenen demək olar ki, bütün prezidentləri üstələmişdir. O, 1814-16-cı illərdə Pensilvaniya parlamentinin deputatı, 1821-31-ci illərdə federalistlər partiyasının (1824-cü ildən demokrat partiyasının) üzvü kimi konqresin deputatı olmuşdur. 1834-45-ci illərdə Pensilvaniya ştatının Senatda nümayəndəsi kimi siyasi fəaliyyətini davam etdirir. Ədliyyə naziri təyin edilsə də, bu vəzifədən imtina edir. 1832-33-cü illərdə diplomatik missiya ilə Rusiyada səfərdə olur, C. Polk administrasiyasında dövlət katibi vəzifəsini tutur. "Monro Doktrinası"nın qızğın tərəfdarı kimi, İngiltərənin Mərkəzi Amerika və Oreqondan çıxarılması ideyasını dəstəkləmiş, Texas və Kaliforniyanın ilhaq edilməsində bilavasitə iştirak etmişdir.

1848 və 1852-ci illərdə Bükenen prezidentliyə namizəd olmaq istəsə də müvəffəqiyyətsizliyə uğrayır. Onun bu arzusu 1856-cı ildə həyata keçmiş, o, Sinsinattidən demokrat partiyasının nümayəndəsi kimi prezidentliyə namizəd göstərilmişdir. Bükenenin seçkiönü kompaniyasının leytmotivini abolisionist təbliğata son qoymaqla İttifaqı qorumağa çağırış təşkil edirdi. Onunla yanaşı respublikaçı Con



downloaded from KitabYurdu.org

Fremon və Amerika partiyasından keçmiş viq Millard Fillmor da prezidentliyə iddiaçı idilər.

Quldarlığa loyal münasibəti, ABŞ torpaqlarının genişləndirilməsinin tərəfdarı olması ona Cənub ştatlarında demək olar ki, mütləq qələbə qazandırır. Eyni zamanda bəzi Şimal ştatlarında da üstünlük əldə edir. Ceyms Bükenen seçicilərin səsinin 45,3 %-ni, seçimçilər kollegiyasında isə 174 səs alaraq prezident seçilir.

Bükenen hələlik ömrünün axırınadək subay qalmış yeganə prezidentdir. Dostlarından biri yarızarafat- yarıciddi «O özünü dərk edəndən Amerika konstitusiyasına evlidir» demişdi. Kabineti qurarkən o, əsasən Cənuba rəğbət bəsləyənlərə üstünlük vermişdir.

Bükenen inauqurasiya nitqində barışdırıcı mövqe tutur və xalqı Qərb ərazilərində quldarlıq probleminin həllini Ali Məhkəməyə tapşırmağa çağırır. Lakin tezliklə prezidentin Ali Məhkəməylə gizli sövdələşmə bağlaması üzə çıxır və bu Şimalda kəskin etirazla qarşılanır. Gözlənildiyi kimi, Ali Məhkəmə, prezidentin gizli dəstəyilə, qaradərililərin ABŞ vətəndaşları və heç bir konstitusional hüquqa malik olmadıqları qərarını çıxarır.

Bütün bunlarla yanaşı ölkədə iqtisadi böhran baş verir. Bükenenin bank işinin tənzimlənməsi yönündə gördüyü tədbirlər əvvəlcə əhalidə böyük ruh yüksəkliyi yaradır. Lakin onun dövlət sifarişlərilə ölkə iqtisadiyyatını dirçəltmək haqqında əvvəlcədən verdiyi vədə əməl etməməsi narazılığa səbəb olur. İqtisadi böhran Şimal və Cənub arasındakı münasibətlərə də təsir göstərir. Böhrandan daha az ziyan çəkmiş Cənub bunu quldarlıq sisteminin Şimalın iqtisadi əsasını təşkil edən «Muzdlu quldarlıq»dan üstünlüyü ilə izah edirdi.

İstər iqtisadi sahədə, istərsə də xarici siyasətdə qarşıya çıxan maneələr, ölkənin əsas problemi olan quldarlıq məsələsini arxa plana keçirməmişdir. 1859-cu ildə fana-



downloaded from KitabYurdu.org

tik abolisionist olan Con Braun Virciniyanın Harpers-Ferri şəhərindəki silah anbarını ələ keçirməklə qulları üsyana qaldırır. Lakin qulların üsyanı amasızca yatırılır. Con Braun və oğlanları edam edilir.

Bu ərəfədə Konqres Bükenen administrasiyasını korrupsiyada ittiham edərək, onun fəaliyyətini təftiş etmək üçün komitə yaradır. Aparılan yoxlamalar nəticəsində prezidentin günahı sübut olunmasa da, onun nüfuzuna böyük zərbə dəyir. Amma Bükenen hələ prezident seçildiyi ilk günlərdə təkrar seçkilərdə iştirak etməyəcəyini bildirmişdi.

Demokratların 1860-cı il aprel ayında Çarlstounda keçirilmiş, prezident seçkilərinə həsr edilmiş Konventi partiyanın Şimal və Cənub qanadları arasında ciddi fikir ayrılığı olmasını üzə çıxartdı. Nəticədə, Şimaldan Stiven Duqlas, cənubdan isə Con Brekinric prezidentliyə namizəd göstərildi. Səslərin bölünməsi onların məğlub olacağını qabaqcadan göstərirdi.

Bükenen prezidentlik müddətinin qalan hissəsində də Cənub ştatlarının İttifaqdan çıxmasının qarşısını almağa, heç olmasa onu yeni seçilmiş prezident Linkolnun fəaliyyətə başlamasına qədər təxirə salmağa səy göstərirdi. Lakin onun bu cəhdləri də fayda vermədi. Beləliklə 1860-cı il dekabrın 20-də Cənubi Karolina, 1861-ci ilin fevralında isə digər altı cənub ştatı İttifaqdan çıxaraq Amerika Konfederativ Ştatlarını yaratdıqlarını elan etdilər.

Prezidentlik müddəti başa çatdıqdan sonra Bükenen Lankaster yaxınlığındakı Uitlend malikanəsində yaşayır. Vətəndaş müharibəsi ərəfəsində mətbuatda gedən yazılarda o, nəinki problemin həllində qətiyyətsizlik göstərməkdə, hətta vətənə xəyanətdə günahlandırılırdı. Baş verənlərdən məyus olan eks-prezident gələcəkdə bəraət qazanacağına ümid bəsləyirdi. O, 1861-ci il iyunun 1-də öz malikanəsində vəfat etmişdir.



downloaded from KitabYurdu.org



# AVRAAM LİNKOLN
## (ABRAHAM LINCOLN)
## (1861–1865)

XIX yüzilliyin 60-cı illəri ABŞ dövləti üçün ağır sınaq dövrü olmuşdur. Burada söhbət ölkənin qarşılaşdığı hər hansı sosial-iqtisadi problemdən deyil, onun ərazi bütövlüyünün qorunub saxlanmasından, demokratik dəyərlərə



downloaded from KitabYurdu.org

əsaslanan, insan hüquqlarının qorunmasını özünün başlıca prinsipi elan etmiş bir dövlətin mövcudluğundan gedir. Xatırladaq ki, hələ C.Vaşinqton öz vəsiyyətnaməsində, ona məxsus qullara azadlıq verilməsini istəmişdi. 60-cı illərədək ölkə prezidentlərinin demək olar ki, əksəriyyəti qul sahibləri olsa da, onların mütərəqqi fikirliləri quldarlığın əleyhinə olmuşdur.

30-cu illərdə başlamış abolisionizm hərəkatı 50-ci illərdə öz apogeyinə çatır. Hər bir keçid dövrü özünəməxsus lider, xalq kütlələrinin marağından çıxış edərək, onu qlobal problemlərin həlli üçün ardınca apara biləcək rəhbər yetişdirir. Birləşmiş Ştatların 16-cı prezidenti olmuş Avraam Linkoln məhz belə liderlərdən idi. Onu haqlı olaraq ABŞ tarixində üç böyük prezidentdən biri hesab edirlər.

Avraam Linkoln 12 fevral 1809-cu ildə Kentukki ştatının Hocenvill yaşayış məntəqəsində, əcdadları ilk Avropa immiqrantlarından olan fermer ailəsində dünyaya gəlib. Atası Tomas Linkoln savadı olmasa da zəhmətkeş fermer idi. Balaca Avraam ilk ibtidai təhsilini qonşuluqda yaşayan müəllimdən alır. 1816-cı ildə Linkolnlar ailəsi İndianaya köçür. Bu zaman qərbdə «süd titrətməsi» deyilən yoluxucu xəstəlik tüğyan edirdi. Çox keçmir ki, anası Nensi Linkoln bu xəstəlikdən vəfat edir. 1819-cu ildə T. Linkoln Sara Constonla ailə qurur. Mülayim təbiətli, qayğıkeş ana olan xanım Conston Avraamın xarakterinin formalaşmasına böyük təsir göstərmişdir. Ailənin tez-tez öz yaşayış yerini dəyişməsi Avraamın sistemli təhsil almasına imkan verməmişdir. Onun əsas müəllimi həyat özü idi.

Linkoln ilk əmək fəaliyyətinə varlı qonşunun malikanəsində günəmuzd işçi kimi başlayır. Torpağın becərilməsi, atlara qulluq, taxılın döyülməsi onun gündəlik gördüyü işlər idi. Gənc Linkolnun həyatında ilk böyük hadisə, dairənin varlı adamlarından biri Ceyms Centri ilə birgə səyahətə çıxması olmuşdur. Ticarət məqsədilə edilən bu səfərdə ən



downloaded from KitabYurdu.org

yaddaqalan hadisə Yeni Orleanla tanışlıq olmuşdur. ABŞ-ın qeyri-rəsmi qul bazarı hesab edilən Yeni Orleanda Linkoln qulların hərracda necə satılmasının şahidi olur. Bu 19 yaşlı Avraama olduqca pis təsir edir və quldarlığa qarşı onda böyük nifrət hissi oyadır.

1830-cu ildə yayılan epidemiya Linkolnların İllinoys ştatına köçməsinə səbəb olur. Bir il sonra müstəqil həyata qədəm qoyan Avraam kiçik Nyu-Salem kəndində məskunlaşır. Burada o, ilk dəfə seçici kimi seçkilərdə iştirak edir. Federal konqresə keçirilən seçkilərdə Linkoln viqlər partiyasının tanınmış nümayəndəsi Henri Kleyə səs verir. Sonralar o, özünü H.Kleyin şagirdi adlandırardı.

Müstəqil həyat yaşayan gələcək prezident müxtəlif peşələrdə özünü sınayaraq odun yaran, torpaqölçən, poçt xidmətçisi, vəkil kimi fəaliyyət göstərmişdir. Bununla yanaşı o, müstəqil olaraq təhsilini artırmaqla məşğul olur.

1832-ci ildə siyasi fəaliyyətə başlamaq arzusu ilə, İllinoys qanunvericilik orqanına seçkilərdə namizədliyini irəli sürür. Lakin tezliklə hindulara qarşı başlayan müharibə onun bu arzusunu reallaşdırmağa mane olur. Könüllü olaraq orduya gedib kapitan rütbəsi alsa da hərbi əməliyyatlarda iştirak etmir. Müharibədən sonra yenidən namizədliyini irəli sürsə də, uğur qazanmır. Məğlub olmasına baxmayaraq bu seçkilər onun siyasi cəhətdən püxtələşməsinə kömək etmişdi.

Nəhayət 1834-cü il seçkilərində tale üzünə gülür və 25 yaşlı Avraam ştat parlamentinə üzv seçilir. Çox keçmir ki, gənc deputat viqlərin parlamentdəki fraksiyasına başçılıq edir və 1836, 1840-cı illərdə yenidən deputat seçilir.

1842-ci ildə cənub müstəmləkəçisinin qızı Meri Toddla ailə qurur. Onların dörd oğlu olsa da, yalnız biri, Robert Todd yetkinlik yaşına qədər yaşamışdır.

1846-cı ildə Konqresə keçirilən seçkilərdə qalib gələn Linkoln, İllinoys ştatını Nümayəndələr palatasında təmsil edir. Burada o, Meksika ilə aparılan müharibənin əleyhdarı



downloaded from KitabYurdu.org

kimi çıxış edir. Bu çıxışlar ona böyük nüfuz qazandırsa da, təkrar seçkilərdə məğlub olur və İllinoysa qayıdaraq vəkil kimi fəaliyyət göstərir.

50-ci illərin birinci yarısında quldarlığa qarşı mübarizə daha da kəskinləşir və quldarlıq əleyhdarlarının bir cəbhədə birləşməsi ilə nəticələnir. 1854-cü il 25 fevralda Viskonsin ştatının Ripon şəhərində bəzi viq, demokrat və quldarlığa qarşı radikal mövqe tutmuş digər qruplar birləşərək yeni respublikaçılar partiyasının yaranmasını elan edirlər. Linkoln partiyanın yaradılmasında əsas fiqurlardan biri olur.

1856-cı ildə respublikaçıların namizədi C.Frimontun prezident seçkilərində məğlub olması quldarlıq probleminin dinc yolla həll olunmayacağını göstərdi.

1858-ci ildə senata keçirilən seçkilər Linkolnun siyasi karyerasında mühüm yer tutur. O, bu mübarizədə çoxdankı siyasi rəqibi, demokrat Stiven Duqlasa məğlub olsa da, seçkiönü keçirilən görüşlər, debatlar, onu quldarlığın qatı əleyhdarı kimi bütün ölkədə tanıtdı.

1859-cu ildə baş vermiş Con Braun qiyamı növbəti il keçiriləcək prezident seçkilərində quldarlıq probleminin aparıcı mövzu olacağından xəbər verirdi.

16 may 1860-cı ildə Respublikaçılar partiyasının prezident seçkilərinə həsr olunmuş Çikaqo konqresi keçirildi. Partiyanın əsas namizədləri U.Syuard və Linkoln arasında qızğın mübarizə getdi. Yalnız üçüncü səsvermədən sonra Avraam Linkoln partiyanın namizədi oldu. Onun bu qələbəsi ölkənin siyasi həyatında böyük hadisə idi.

Quldarlığa olan münasibət demokrat partiyasında ikitirəliliyin yaranmasına səbəb olmuşdu. Bu səbəbdən onlar seçkilərə vahid namizədlə gedə bilmədilər. Partiyanın Şimal qanadından Stiven Duqlas Cənubdan isə Con Brekinric namizəd göstərildi. Səslərin bölünməsi Linkolnun qələbə qazanmaq imkanını artırdı. Gərgin keçən seçkilərdə Linkoln 39,8 % səs toplayaraq prezident oldu.



downloaded from KitabYurdu.org

Kabineti qurarkən böyük siyasi bacarıq nümayiş etdirən Linkoln köhnə siyasi rəqiblərinə üstünlük verdi. Belə ki, U.Syuard (xarici işlər), Edvard Beyts (ədliyyə), Salman Çeyz (maliyyə) əsas vəzifələrə təyin edildilər.

Linkolnun prezident seçilməsi Cənubda böyük həyəcanla qarşılandı. O, vəzifəsinin icrasına başlamamış ölkədə fövqəladə hadisələr baş verdi. Hələ Milad bayramından əvvəl Cənubi Karolina ştatı İttifaqdan çıxdı. Onun ardınca daha yeddi ştat: Alabama, Corciya, Luiziana, Missisipi, Texas, Tennessi və Florida İttifaqdan ayrıldılar və 4 fevral 1861-ci il tarixdə yeni müstəqil dövlətin: Amerika Konfederativ Ştatlarının yarandığını elan etdilər. Varlı quldar, eks-prezident Pirsin formalaşdırdığı kabinetdə müdafiə naziri olmuş Cefferson Devis yeni yaradılmış dövlətin müvəqqəti prezidenti seçildi.

Ştatların ayrılmasına Linkoln birmənalı olaraq münasibət bildirdi: «Secession (ştatların İttifaqdan ayrılması) ölkə konstitusiyasının kobud şəkildə pozulmasıdır və İttifaq mütləq bərpa edilməlidir».

12 fevral 1861-ci ildə Konfederasiya qoşunları Samter fortuna hücum edərək onu ələ keçirdilər. Vətəndaş müharibəsi başlandı. Linkoln Cənub Ştatlarını qiyamçı elan edərək 75 minlik könüllülər ordusu yaratdı. Lakin o, müharibənin quldarlığın ləğvi üçün deyil, İttifaqın bütövlüyü uğrunda aparıldığını elan etdi.

Müharibəni şərti olaraq iki mərhələyə bölürlər: 1861-62 və 1863-65. Birinci mərhələdə şimallılar bir sıra məğlubiyyətlərə düçar oldular. Bunun səbəbi komandanlığın əsasən təcrübəsiz generalların əlində olması idi. Digər tərəfdən, əvvəlcədən elan olunmasına baxmayaraq homstedlər haqqında qanunun qəbul edilməməsi uğursuzluqların əsas səbəblərindən hesab olunur. 1862-ci ilin mayında homstedlər haqqında qanun qəbul edildi. Qanuna görə torpaq becərmək istəyən hər amerikalı cüzi haqq ödəməklə



downloaded from KitabYurdu.org

160 akr (65 ha) torpaq sahəsi ala bilərdi. Prezident 1862-ci ilin sentyabr ayında «Azadlıq haqqında bəyannamə»ni imzaladı. Bəyannamədə 1863-cü il yanvarın 1-dən ölkədə quldarlığın ləğv olunması elan olunurdu.

Yalnız 1863-cü ilin yayında Şimal ordusu ilk uğurlarını qazanmağa başladı. Gettisberq yaxınlığında baş verən qanlı savaşlarda general Qrantın komandanlığı altında federalistlər ordusu böyük qələbə qazandı. Həmin il 19 noyabrda Linkoln gələcəkdə «Gettisberq müraciəti» adını almış məşhur nitqini söylədi. Prezident deyirdi: «Bu müharibə, bizim qismətimizə düşən sınaqlar bir şeyi göstərməli idi: demokratik dövlət, «bütün insanlar anadan bərabər doğulmuşlar» prinsipi üzərində qurulmuş bir dövlət sağ qalıb yaşaya biləcəkmi». Linkoln hazırlıqsız söylədiyi iki dəqiqəlik nitqində eyni zamanda demokratiyanın – «xalq hakimiyyəti, xalq üçün və xalqın həyata keçirdiyi idarəetmə üsulu» kimi qısa və dəqiq təyinini verə bildi.

1864-cü ilin martında prezident general Qrantı Ali Baş Komandan təyin etdi. Qrant Uilyam Şerman və Filip Şeridanla birgə Linkolnun hərbi planını – geniş miqyaslı və yaxşı mərkəzləşdirilmiş hücum planını həyata keçirərək müharibənin gedişində ciddi dönüş yaratdı.

1864-cü il prezident seçkiləri xüsusi əhəmiyyət kəsb edirdi və iyulda Linkoln ikinci müddətə namizəd göstərildi. Onun rəqibi isə vaxtilə Şimal ordusuna komandanlıq etmiş və 1862-ci ildə Linkolnun əmri ilə istefaya göndərilmiş general Mak-Klelan idi. Xatirladaq ki, Endrü Ceksondan sonra heç bir prezident təkrar seçkilərdə uğur qazanmamışdı. Lakin Linkoln seçkilərdə 55 % səs toplayaraq ikinci müddətə prezident seçildi.

Linkolnun qələbəsi döyüşlərə öz əhəmiyyətli təsirini göstərdi. 2 sentyabr 1864-cü ildə general Şermanın Atlanta və Corciyanı tutması tam qələbə üçün ciddi zəmin yaratdı. Bu ərəfədə prezident konstitusiyaya quldarlığın ləğvini



downloaded from KitabYurdu.org

özündə ehtiva edən 13-cü dəyişikliyi Konqresə təqdim etdi. Konqres bu dəyişikliyi 2/3 səs çoxluğu ilə təsdiq etdi. 1865-ci ilin aprelində general Qrantın komandanlığı ilə Şimal ordusu Konfederasiyanın paytaxtı Riçmondu tutdu. Aprelin 9-da general Li və ordusunun təslim olması ilə müharibə sona çatdı.

Müharibə qurtardıqdan bir neçə gün sonra, aprelin 14-də Linkoln Ford teatrında tamaşaya baxarkən aktyor Con Uilks Buts tərəfindən sui-qəsdə məruz qalaraq ağır yaralandı və elə həmin gecə vəfat etdi.

Linkolnun qətlində çoxlu müəmmalı nüanslar var. Onun həyatına bir neçə sui-qəsd cəhdi olmuşdu. 1865-ci ilin martında üstündə «Qətl» yazılmış xüsusi qovluqda 80-ə yaxın yazılı qətl təhdidi saxlanılırdı. Linkoln bu təhdidlərə nəinki fikir vermir, hətta onlara ironiya ilə yanaşırdı. Xüsusi istedad sahibi olmayan aktyor Buts quldarlığın fanatik tərəfdarı idi. İstintaq onun bu qətli çoxdan hazırladığını üzə çıxartdı. Tezliklə bu qətldə təkcə Cənub quldarları deyil, Şimaldan bəzi quldarlıq tərəfdarlarının da əli olduğu aşkar edildi. Prezident qətlə yetirilən gün onun şəxsi mühafizəsinə məsul əməkdaşların səhlənkarlığı, Butsun qaçdığı yoldan başqa Vaşinqtondan çıxan bütün yolların bağlanması, qatilin diri tutulması əmr edilsə də, onun həbs edilərkən öldürülməsi bu nəticəyə gəlməyə əsas verirdi. Buts Linkolna atəş açaraq bu sözləri qışqırmışdı: «Tiranlar belə öldürülür. Cənubun intiqamı alındı». Lakin, bu intiqam deyil, siyasi terror idi. Prezident «Azadlıq bəyannaməsini» imzalayarkən belə demişdi: «Əgər mənim adım tarixə yazılarsa, bu bəyannaməyə görə yazılacaq. Onda mənim ruhum yaşayır». Linkoln həqiqətən tarixə düşdü və gördüyü böyük əməllərə öz qanı ilə möhür vurdu.



downloaded from KitabYurdu.org



# ENDRÜ CONSON
(ANDREW JOHNSON)
(1865–1869)

Linkolnun qətlindən bir gün sonra 1865-ci il aprelin 15-də vitse-prezident Endrü Conson prezident səlahiyyətlərinin icrasına başladı. Vətəndaş Müharibəsi Şimallıların qələbəsi



downloaded from KitabYurdu.org

ilə başa çatsa da, ölkənin gələcək taleyi qeyri-müəyyən olaraq qalırdı. İttifaqdan ayrılmış ştatların statusu necə olacağı bilinmirdi. Rekonstruksiyanın (ayrılmış ştatların İttifaqa qaytarılması) kimin, Konqresin yoxsa prezidentin səlahiyyətlərinə aid olması, azadlıq əldə etmiş qulların statusu problemi həllini gözləyirdi. Təəssüf ki, Conson müxtəlif səbəblər üzündən bu problemlərin öhdəsindən gələ bilmədi.

Hələ 4 mart 1865-ci ildə, Prezidentin andiçmə mərasimində göstərdiyi fərdi xüsusiyyətləri onun vəzifəsini layiqincə yerinə yetirəcəyini şübhə altına alırdı. Respublikaçı Linkolna hər mənada yaxşı köməkçi hesab edilən Tennessili demokrat, vitse-prezident kimi ilk çıxışını edərkən sərxoş olmuşdu. Onun bu vəzifəyə namizəd göstərilməsinin bir neçə səbəbi vardı. Əvvəla respublikaçılar bununla İttifaqa sadiq demokratların səsini almaq istəyirdilər. Digər tərəfdən Conson Tennessi ştatının hərbi qubernatoru olarkən fəaliyyəti ilə radikal respublikaçıların rəğbətini qazanmışdı.

Endrü Conson 29 dekabr 1808-ci ildə Şimali Karolinanın Reyley şəhərində dünyaya gəlib. Üç yaşı olarkən atasını itirən Endrü anasının himayəsində böyümüş, heç vaxt məktəbə getməmişdir. O, 14 yaşında ikən dərzi C.Selbinin yanında şagird olur. Müqaviləyə əsasən yetkinlik yaşınadək usta yanında qalmalı olan Conson iki il sonra emalatxanadan qaçaraq balaca Kartic şəhərində özəl dərzixana açır.

1826-cı ildə Texasın Qrinvell şəhərinə köçən Conson, burada aldığı ikimərtəbəli malikanədə işini davam etdirir. Elə həmin il yerli çəkməçi qizi Elayza Mak-Kardl ilə ailə qurmuş və bu nikahdan onların beş övladı olmuşdur. Gec də olsa təhsil almasına həyat yoldaşının böyük təsiri olur.

Consonun yerli siyasətdə iştirakı da uğurlu olmuşdur. Gələcək prezident parlaq siyasi karyera edə bilməsini Amerika demokratiyasının nailiyyəti hesab edirdi. Artıq 21 ya-



downloaded from KitabYurdu.org

şında o, Qrinvill şəhər sovetinin üzvü, sonra isə meri seçilir. 1834-cü ildə ştat parlamentində siyasi fəaliyyətini davam etdirir. Doqquz il sonra isə Vaşinqtonda, Nümayəndələr Palatasında ştatı təmsil edir.

Siyasi irəliləyişi ilə yanaşı şəxsi biznesi də sürətlə inkişaf edir. Onun kiçik dərzixanası böyük müəssisəyə çevrilir və sahibinə gəlir gətirir.

1852-ci ilə qədər Konqresdə fəaliyyət göstərdikdən sonra, Conson Tennessi qubernatoru seçilir. İki seçki müddətində bu vəzifədə çalişir. Konqresə keçirilən növbəti seçkilərdə Tennessini Senatda təmsil etmişdir. Qeyd edək ki, Vətəndaş Müharibəsi ərəfəsində Cənub ştatlarını Senatda təmsil edən yeganə şəxs olmuşdur.

1862-ci ildə prezident Linkolnun əmri ilə briqada generalı rütbəsi almış və Tennessinin hərbi qubernatoru təyin edilmişdir.

E.Consonun prezident kimi gördüyü ilk iş qiyam iştirakçılarına amnistiya elan etməsi oldu. 29 may 1865-ci ildə imzalanmış akta əsasən amnistiya fərdi qaydada aparılırdı. 20.000 dollardan artıq kapitala malik hər bir qiyam iştirakçısı prezidentə əfv olunması üçün şəxsən ərizə ilə müraciət etməli idi. Bu onun Cənub aristokratiyasına dərin nifrətinin göstəricisi idi. Bir neçə ay ərzində artıq 13.000 nəfər əfv edilmişdi.

Lakin Consonun Cənub ştatlarına müvəqqəti qubernatorlar təyin etməsi radikal respublikaçıların narazılığına səbəb oldu. Çünki yeni qubernatorların əksəriyyəti köhnə quldar plantatorlar idi. Prezidentin rekonstruksiya planına əsasən quldarlıq ləğv edilsə də, qaradərililərə heç bir siyasi-iqtisadi azadlıq verilmirdi. Hətta vaxtilə general Şerman tərəfindən döyüşlərdə iştirak etmiş zəncilərə verilən torpaqlar da geri alınmalı idi.

Consonun yeritdiyi bu siyasət Cənubda razılıqla qarşılanırdı. Prezident ilk əvvəl Konqresdə də dəstəklənirdi.



downloaded from KitabYurdu.org

O, Konqresə göndərdiyi illik hesabatda tutduğu mövqeni Cənub ştatlarının İttifaqdan leqal olaraq çıxmadıqları ilə əsaslandırır və bu yolla ştatların İttifaqa qayıtmasını sürətləndirdiyini bildirirdi. Lakin Konqres, xüsusilə də radikal respublikaçıların tələbi ilə zəncilərin hüquqlarının müdafiəsinə yönəlmiş iki qanun layihəsini prezidentə təqdim etdi.

Qanun layihələrinə, xüsusilə zəncilərə seçki hüquqları verilməsini nəzərdə tutan «Vətəndaş hüquqları haqqında Bill»ə qəti etirazını bildirən prezident hər iki qanuna veto qoydu. Bu isə Konqreslə prezident arasında ziddiyyətlərin yaranmasına səbəb oldu.

1867-ci ilin yanvarında Konqres Kolumbiya dairəsində zəncilərə seçki hüququ verən qanunu qəbul etdi. Lakin prezident bu qanunu ştatların konstitusiya hüquqlarının pozulması kimi dəyərləndirib, ona veto qoydu. Cavab olaraq Konqres 2/3 səs çoxluğu ilə vetonu ləğv etdi. Bu prezidentlə Konqres arasındakı münasibətlərin tam pozulması ilə nəticələndi.

1867-ci ilin fevralından başlayaraq Konqres rekonstruksiya ilə bağlı bir neçə qanun qəbul etdi. Bu qanunlara əsasən Cənub beş hərbi dairəyə bölünməli və bu dairələrə Şimallı generallar başçılıq etməli idi. Zəruri halda onlar hərbi hüquqlarından istifadə edə bilərdilər. Bu, Conson siyasətinin tam iflası demək idi.

Lakin prezident hələ də Konqresə inadla müqavimət göstərirdi. O, iki hərbi dairənin rəhbərini, xüsusilə də Senatin razılığı olmadan hərbi nazir Edvin Stentonu tutduqları vəzifədən kənarlaşdırdıqda Nümayəndələr Palatası prezidenti impiçment qaydasında mühakiməyə qərar verdi. Beləliklə ABŞ tarixində ilk və hələlik yeganə dəfə prezident qanuni qaydada mühakimə edildi.

1867-ci ilin mayında Senatda impiçment məsələsinə görə səsvermə keçirildi. Yeddi respublikaçının



downloaded from KitabYurdu.org

gözlənilmədən prezidentin lehinə səs verməsi Consonu vəzifədən kənarlaşdırılma biabırçılığından qurtardı. (Prezidentin senatda impiçment qaydasında mühakiməsi üçün edilən təklif 2/3 səs çoxluğu almalıdır).

Baş verənlərdən sonra Conson rekonstruksiya məsələsində Konqreslə qarşıdurmaya getmədi. Lakin o, tutduğu siyasi kursun doğruluğuna, Konstitusiya çərçivəsində olmasına qəti şəkildə inanırdı.

Conson xarici siyasətdə, xarici işlər naziri Uilyam Syuardın məqsədyönlü və düşünülmüş fəaliyyəti nəticəsində bəzi uğurlar qazanmışdır. O, diplomatik təzyiq vasitələrindən istifadə edərək fransız qoşunlarının Meksikadan çıxarılmasına nail olmuş, bununla Meksika xalqının müstəqilliyini bərpa etməsinə kömək göstərmişdir. Syuardın hazırladığı plana görə Karib hövzəsindəki bəzi adaların satın alınması Senatda dəstəklənməsə də, Birləşmiş Ştatlar 1868-ci ildə Rusiyaya 7,2 milyon dollar ödəməklə strateji cəhətdən əhəmiyyətli və zəngin xammal ehtiyatına malik Alyaskanı özünə birləşdirir.

Cənubda böyük hörmətə malik olmasına baxmayaraq təkrar seçkilərdə Consonun namizədliyi irəli sürülmədi. Vəzifədən getdikdən sonra da şöhrətpərəst eks-prezident aktiv siyasətdən kənarda qalmır. Qrinvillə qayıdan kimi yenidən fəaliyyətə başlayaraq seçkili orqanlarda təmsil olunmağa cəhd göstərir. Bir neçə məğlubiyyətdən sonra 1874-cü ildə Tennessi senatına seçilir. Növbəti il isə vaxtilə onu vəzifədən uzaqlaşdırmaq istəyən Nümayəndələr Palatasına daxil olur. Lakin buradakı fəaliyyəti uzun çəkmir. E.Conson 1875-ci il 31 iyulda beyninə qan sızması nəticəsində vəfat edir.



downloaded from KitabYurdu.org



# UİLLİS S.QRANT
(ULYSSES S. GRANT)
(1869–1877)

Ölkənin bütövlüyü uğrunda aparılan Vətəndaş Müharibəsində misilsiz xidmətlərinə baxmayaraq U.S.Qrant



downloaded from KitabYurdu.org

ABŞ tarixində zəif prezidentlərdən hesab edilir. Onu əsasən prezident kimi xüsusi fəaliyyət proqramına malik olmamaqda, yalnız Konqresin qərarlarını icra etməkdə günahlandırırlar. Consonun prezidentliyi dövründə Prezidentlik İnstitutunun nüfuzdan düşməsi, qarşıya çıxan mürəkkəb problemlərin həll edilməsi üçün icraedici orqanların mövqeyinin möhkəmləndirilməsini və Konqresdə müxtəlif qruplaşmalara rəhbərliyin ələ alınmasını tələb edirdi. Qrant bu problemlərin öhdəsindən gələ bilməmişdir.

Uillis Simpson Qrant 1822-ci il aprelin 27-də Ohayo ştatının Poynt-Plezənt şəhərində anadan olmuş və Hayram Uillis adlandırılmışdı. Dəri fabrikinin sahibi və kommersant olan atası Cess Qrant övladlarının təhsilinə xüsusi diqqət yetirir. Hayram Uillis bir neçə xüsusi məktəbdə təhsil aldıqdan sonra atası onun hərbçi olmasını istəyir. Hərb sənətinə xüsusi marağı olmasa da Uillis atasının istəyinə tabe olur. Atasının dostu konqresmen Tomas Heymerin zəmanəti ilə Qrant Amerika ordusuna kadrlar hazırlayan elitar məktəbə, Nyu-Yorkdakı Uest-Poynt hərbi akademiyasına qəbul edilir. Qeydiyyatdan keçərkən anasının qızlıq familiyası səhvən onun ikinci adı kimi yazılır. Qrant bu səhvi düzəltmək istəməmiş və bundan sonra özünü Uillis Simpson Qrant kimi adlandırmışdır.

1843-cü ildə zabitlik şəhadətnaməsi alaraq ABŞ ordusunun 4-cü piyada alayında xidmətə başlayır. Meksikaya qarşı müharibəni ədalətsiz saysa da müharibədə iştirak edir və kapitan rütbəsi alır. Bu ərəfədə gənc zabitin spirtli içkilərə daim onun üçün problemlər yaratmış meyli güclənir.

1848-ci ildə Qrant Sent-Luisli hərbçi qızı Culiya Dentlə ailə qurur. Onun xidmət etdiyi alay tez-tez yerini dəyişir və o, maddi çətinliklər ucbatından ailəsindən ayrı yaşamağa məcbur olur. Tək yaşaması onun içkiyə olan meylini daha da artırır. Nəticədə hərbi rəhbərliyin bir neçə xəbərdarlığından sonra istefa verərək ailəsinin yanına dönür və Sent-Luisdə

downloaded from KitabYurdu.org

xanımına məxsus kiçik fermada yaşamağa başlayır. 1860-cı ildə İllinoysa köçərək atasına məxsus dükanda satıcı işləyir.

Həyat yoldaşı Culiyanın qul sahibi olmasına baxmayaraq Vətəndaş Müharibəsi başladıqda Şimallılar ordusunda xidmət etməyi qərara alır. 1861-ci ildə Sprinqfild (İllinoys şt.) könüllülər batalyonuna komandir təyin edilir. Maraqlı bir faktı qeyd edək ki, Qrant maddi çətinliklər üzündən hərbi rütbəsinə uyğun geyim və at ala bilmir. Nə atası, nə də qayınatası ona lazım olan məbləği borc vermirlər. Yalnız yerli biznesmenlərdən biri bu işdə ona köməklik göstərir.

Müharibədə qazandığı uğurlara görə ona briqada generalı rütbəsi verilir. Onun rəhbərliyi altında İttifaq qoşunları Kentukkini tutduqdan sonra Linkoln Qranta general-mayor rütbəsi verir. Bu uğurlara baxmayaraq yenə də çoxlu spirtli içki qəbul etməkdə davam edir. Onun alkoqolik olub-olmaması indi də mübahisəli olaraq qalır. Hər halda, döyüşlərdə qazandığı qələbələrə baxmayaraq, hərbi rəhbərlik onun ordudan azad edilməsini tələb edir.

1862-ci ildə İttifaq tərəfdarlarının vəziyyəti qənaətbəxş olmadığı üçün Linkoln Qrant kimi bacarıqlı generalla vidalaşmağa risk etmir. 1863-cü ildə Viksberq yaxınlığındakı böyük qələbədən sonra prezident Qrantı Missuri dairəsinin Ali Baş Komandanı təyin edir. O, hərbi əməliyyatların keçirilməsində öz məntiqi dəqiqliyi, inadkarlığı ilə digər generallardan üstün idi. Qrantın ordusu yüksək hərbi əxlaq nümayiş etdirirdi. 1864-cü ildə Konqres ona general-leytenant rütbəsi verir, bir az sonra isə prezident fərmanı ilə Qrant İttifaq qoşunlarının Ali Baş Komandanı təyin edilir. Bu təyinat müharibədən sonra da qüvvədə qalmışdır. 1866-cı ildə Konqres ona ordu generalı rütbəsi verir.

Müharibə ona həyatda öz yerini göstərdi və böyük şöhrət gətirdi. Onun xalq arasında populyarlığı respublikaçı siyasətçilərin diqqətindən yayınmadı. Prezident Consonun yeritdiyi daxili siyasi kursla razılaşmaması Qrantı eyni



downloaded from KitabYurdu.org

zamanda siyasi liderə çevirdi. Heç bir partiyanın üzvü olmasa da, 1868-ci il prezident seçkilərində respublikaçıların namizədi oldu.

Qrantın əsasən Cənubun rekonstruksiyasını özündə ehtiva edən seçkiönü proqramı əhali arasında rəğbətlə qarşılanırdı. O, seçkilərdə 52,7% səs toplayaraq demokratların namizədi Horasio Seymura qalib gəldi.

Ölkənin siyasi mühitinə bir o qədər də bələd olmaması ona kabineti qurmaqda mane olur. Qrant əsasən yerlilərinə, bir də keçmiş xidmət yoldaşlarına üstünlük verir. Yalnız dövlət katibi təyin edilmiş Hamilton Fiş bacarıqlı diplomat kimi özünü təsdiq edir.

Qrantın prezident seçilməsi radikal respublikaçıların mövqeyini möhkəmlətdi. Prezident onların Cənubun rekonstruksiyası haqda tələbləri ilə razılaşaraq, Konstitusiyaya zəncilərə seçki hüququ verən 15-ci düzəlişi təsdiq etmiş, qanun 30 mart 1870-ci ildən qüvvəyə minmişdir.

Qeyd edək ki, quldarlığın ləğv edilməsi yeni problemin - irqi ayrı seçkiliyin yaranmasına səbəb oldu. Qrant administrasiyasının radikal addımlarına baxmayaraq, Cənubda mühafizəkar qüvvələr quruculuq işlərinə maneələr törədirdilər. Xüsusilə də Ku-kluks-klan təşkilatlarının azğınlığına qarşı Federal hakimiyyət ciddi tədbir görə bilmirdi. Prezident isə problemlərin formal həllindən razı idi.

Vətəndaş Müharibəsinin yaratdığı iqtisadi problemlər həllini gözləyirdi. İqtisadi-maliyyə biliklərinin olmaması Qranta çətinlik törədirdi. Xüsusilə rüsumlarla bağlı məsələləri həll edə bilməməsi seçiciləri məyus etdi. Qərb fermerləri müharibə ərəfəsində təyin edilmiş yüksək rüsumların azaldılmasını tələb edirdilər. Seçki öncəsi rüsumların 10 %-lik endirilməsi haqqında verilmiş vəd də yerinə yetirilmədi.

Qrantın məhsuldar işləməsinə bəzi ciddi maneələr vardi. Korrupsiyaya uğramış, yalnız öz mənafeyini güdən



downloaded from KitabYurdu.org

rüşvətxor məmurlar aparatı ona qarşı çıxırdı. Prezident bu sahədə əsaslı islahatlar keçirməyə cəhd göstərərək xüsusi komissiya yaradır. Lakin komissiyanın dörd illik yarıtmaz fəaliyətindən sonra qurum buraxılır. Konqreslə qarşıdurmaya getmək istəməyən Qranta qarşı partiyadaxili müxalifət formalaşır.

Özlərini liberal respublikaçılar adlandıran fraksiya, hətta növbəti prezident seçkilərinə öz namizədini irəli sürür. Lakin seçkiönü kompaniyanı düzgün qura bilməmələri, xüsusilə yetkin proqramın yoxluğu Qrantın ikinci müddətə seçilməsinə şərait yaradır.

Qrantın ikinci prezidentlik müddəti bəzi skandallarla yadda qalıb. Onun adı hər hansı bir qalmaqalda bilavasitə hallanmasa da, yaxın ətrafından bəzi səlahiyyət sahibləri korrupsiya və rüşvətxorluqda suçlandırılır. Hətta vitse-prezident Henri Uilson Sakit Okean dəmiryol xəttinin tikintisində böyük məbləğdə dövlət vəsaitinin mənimsənilməsində ittiham edilir.

Xarici siyasət sahəsində Qrant administrasiyası bəzi xırda uğurlar əldə edib. Onun fəaliyyətə başladığı ərəfədə ABŞ-la İngiltərə arasında münasibətlər gərgin idi. Sonuncunun müharibə vaxtı Cənuba yardım göstərməsi buna zəmin yaratmışdı. İnsidenti həll edən Beynəlxalq Arbitraj Məhkəməsi İngiltərənin ABŞ-a 15 milyon dollar ödəməsi qərarını çıxarır. Dövlət katibi H.Fişin məsələyə düzgün yanaşması ingilis hökumətinin məhkəmə qərarına tabe olması ilə sonuclanır.

ABŞ-ın Kubaya olan mübahisəli münasibəti həllini tapmır. Bəzi qüvvələr adada ispan ağalığına son qoymaq üçün Birləşmiş Ştatların hərbi müdaxiləsini tələb edirdilər. Səbəb olaraq Kubada qulların azad edilməsi göstərilirdi. İdeyanın əsas tərəfdarı Qrantın yaxın dostu, hərbi nazir Con Rollinz olsa da, H.Fiş və xarici komissiyanın rəhbəri Çarlz Samner prezidenti bu fikirdən daşındırırlar.



downloaded from KitabYurdu.org

Bütün tənqidlərə baxmayaraq Qrant üçüncü müddətə seçilmək istəyir. Maraqlı haldır ki, Qrantı buna vadar edən, sadəcə şəxsi maddi problemləri olub. Heç bir gəlir mənbəyi olmayan prezidenti Ağ Evi tərk etdikdən sonra hansı vəsait hesabına yaşayacağı narahat edirdi. Lakin Nümayəndələr Palatası onun bu istəyinə qəti rədd cavabı verir, əsası ölkənin baniləri tərəfindən qoyulmuş ənənənin pozulmasına razı olmur.

Prezidentlik müddəti bitdikdən sonra Qrant tədricən siyasətdən uzaqlaşır. Dostlarının maddi köməyindən yararlanaraq Nyu-Yorkda mülk alır və orada yaşayır. Məşhur sənayeçi Uilyam Vanderbiltin 150.000 dollar krediti hesabına açdığı makler firması iki il sonra müflis olur. Bu zaman xərçəng xəstəliyindən əzab çəkən eks-prezident Mark Tvenin ona memuarlarını yazmaq təklifini qəbul edir. Yazdığı kitabı bitirdikdən iki həftə sonra 23 iyul 1885-ci ildə Nyu-Yorkdakı Maunt Mak-Qreqor malikanəsində vəfat edir.

General Qrantın yazdığı memuar tezliklə bestsellərə çevrilmiş və ailəsinə 450.000 dollar həcmində gəlir gətirmişdir.



downloaded from KitabYurdu.org



# RAZERFORD B.HEYS
## (RUTHERFORD B. HAYES)
## (1877–1881)

Razerford Börçard Heys 4 oktyabr 1822-ci ildə Ohayo ştatının Delaver şəhərində anadan olmuşdur. O hələ dünya-ya gəlməmiş əcdadlari 1680-ci ildə Şotlandiyadan Ameri-



downloaded from KitabYurdu.org

kaya köçərək Konnektikutda məskunlaşan atası vəfat edir. Razerford varli dayısı Sardis Börçardın maliyyə köməyilə yaxşı təhsil alır. 1842-ci ildə Hempşirdəki Kenyon kollecini bitirərək Kolumbusdakı vəkillər kontorunda praktika keçir. Üç il sonra isə Harvard Universitetinin hüquq fakültəsində təhsilini başa vuraraq, dayısına məxsus vəkillər kontorunda işləməyə başlayır. Çox keçmir ki, Heys Sinsinnatiyə köçərək, burada öz kontorunu açır.

Heys 1852-ci ildə Virciniya plantatorunun qızı Lüsi Uorren Uebblə ailə həyatı qurmuş və onların beş övladı olmuşdur. Yüksək savada və geniş dünyagörüşünə malik, quldarlığın qəti əleyhdarı olan xanım Heys həyat yoldaşının siyasi baxışlarının formalaşmasına ciddi təsir göstərmişdir.

XIX əsrin 50-ci illərində ölkədə baş verən siyasi çəkişmələr Heysi siyasi fəaliyyətə sövq edir və o, respublikaçılar partiyasına üzv olur. Lakin onun konqresin üzvü olmaq cəhdi uğursuzluqla nəticələnir. Bundan sonra Heysə Hamilton qraflığı Məhkəməsinin sədri vəzifəsi təklif edilsə də, maaşın az olmasına görə bu təklifdən boyun qaçırır. 1858-ci ildə Sinsinnati şəhərinin hüquq müvəkkili seçilir.

Bir çox müasirləri kimi Heys də Vətəndaş müharibəsində fəal iştirakıyla özünə karyera qazanmışdır. Müharibəyə Ohayonun könüllülər alayında mayor kimi başlayaraq briqada generalı rütbəsinədək yüksəlmişdir. Bu ərəfədə onun siyasətə marağı daha da artır. Nüfuzlu naşir Uilyam Henri Smitin böyük köməyi nəticəsində Heys, 1864-cü ildə Nümayəndələr Palatasına seçilir. Burada o, radikal respublikaçı olaraq Cənub ştatlarının rekonstruksiyası tərəfdarı kimi çıxış etmişdir. Lakin o, keçmiş konfederatların amansız cəzalandırılmasının əleyhinə idi. Digər tərəfdən Konstitusiyaya afro-amerikalılara vətəndaşlıq və seçki hüququ verilməsini özündə ehtiva edən 14 və 15-ci düzəlişləri birmənalı olaraq dəstəkləyir. Siyasətlə yanaşı elmi-icti-



downloaded from KitabYurdu.org

mai fəaliyyət də göstərən Heys, Ohayo Universitetinin və Vaşinqtonda Konqres kitabxanasının yaradılmasında bilavasitə iştirak etmişdir.

Heys 1868-72, 1876-77-ci illərdə Ohayo ştatının qubernatoru seçilir. 1872-76-cı illərdə isə ailə qayğıları və şəxsi problemləri ilə məşğul olaraq ictimai-siyasi fəaliyyət göstərmir.

Qubernator olarkən, dövlət idarəetmə sistemində aparılan islahatların tərəfdarı olması ona böyük nüfuz qazandırır. Seçkilərdə saxtalaşdırma hallarının qarşısını almaq məqsədilə, seçki hüququna malik əhalinin qeydiyyata alınması, həbsxanalarda və nevroloji klinikalarda şəraitin yaxşılaşdırılması təklifi ilə çıxış edir. Ümumiyyətlə o, gözüaçıq siyasətçi, cəsur və liberal inzibatçı hesab edilirdi. Heys U.S.Qrantın seçkiönü kampaniyasında fəal iştirak etsə də, onun prezidentliyindən razı qalmamışdır.

Heys uzun tərəddüdlərdən sonra respublikaçıların ona 1875-ci il qubernator seçkilərində iştirak etməsi, növbəti il isə prezidentliyə namizəd olmasi təkliflərini qəbul edir. Prezidentliyə namizəd olmasına razılığını ifadə edən bəyanatında seçkiönü kompaniyasının aparıcı tezislərini açıqlayır. Dövlət idarəetmə sistemində islahatlar keçirilməsi, Cənub ştatlarında nüfuzlu və işlək icra strukturlarının yenidən qurulması, təhsil sisteminin təkmilləşdirilməsi, «kağız yoxsa metal pul» probleminin həlli onun seçki platformasının əsasını təşkil edirdi. Eyni zamanda prezident seçiləcəyi halda ikinci müddətə seçilmək üçün namizədliyini irəli sürməyəcəyini bəyan edirdi.

Heysin rəqibi, demokratlarin namizədi Semyuel Tildenin seçkiönü platformasının əsasını iqtisadi sektorda islahatlar təşkil edirdi. 7 noyabrda keçirilən seçkilərdə, axşam səsləri sayarkən Tildenin 250.000 səs çoxluğu ilə qalib gəldiyi məlum oldu. Lakin, respublikaçılar elə həmin anda



downloaded from KitabYurdu.org

bəzi cənub-qərb ştatlarında seçkilərin nəticələrini şübhə altına aldılar və arbitraj komissiyasının yaradılmasını tələb etdilər. Konqresin hər iki palatasından və Ali Məhkəmədən, hər birindən beş nəfər olmaqla, Amerika tarixində analoqu olmayan komissiya yaradıldı. Martın 2-də seçimçilər kollegiyasında keçirilən təkrar seçkilərdə Heys Birləşmiş Ştatların prezidenti seçildi.

Demokratlara barışıq jesti olaraq Prezident Luiziana və Cənubi Karolinadan sonuncu İttifaq hərbi birləşmələrinin çıxarılmasını təsdiqlədi. Seçki nəticələrinin bir müddət qeyri-müəyyən qalması, Heysin öz səlahiyyətlərini icra etməsinə başlayanadək kabineti tam formalaşdırmasına mane olmuşdu. Prezident dövləti vəzifələrə təyinatlarda kadrların partiya mənsubluğunu nəzərə almayacağını söz versə də, vəzifələr paylanarkən dost və seçkiönü kampaniyasına köməklik göstərənlərə üstünlük verdi. Heysin apardığı kadr siyasətinə nəinki Konqres, hətta nüfuzlu respublikaçılar da təsir göstərə bilmədilər. Nazirlərdən Con Şerman (maliyyə), Uilyam Everts (xarici işlər), Karl Şurts (daxili işlər) onun fəaliyyətinə böyük təsir göstərmişlər. Vətəndaş müharibəsindən sonra ilk dəfə cənublu, poçt naziri təyin edilmiş Tennessili Mak-Kendri Kinin şəxsində, kabinetə daxil edilmişdi.

Heys, gömrük sistemində apardığı islahatların uğurla nəticələnməsinə baxmayaraq, ölkə iqtisadiyyatında önəmli irəliləyişə nail olmamışdır. Dəmiryol işçilərinin kütləvi tətillərə başlaması iqtisadiyyatın dərin böhran keçirməsinə səbəb olmuşdur. Qeyd edək ki, ölkə tarixində ilk dəfə tətilləri dağıtmaq üçün ordudan istifadə edilmişdir.

Xarici siyasətdə Heys ciddi problemlərlə üzləşməmişdir. Onun prezidentliyi dövründə, Meksikadakı inqilablar nəticəsində sərhəddə yaranmış konfliktlər danışıqlar yolu ilə öz həllini tapmışdır.



downloaded from KitabYurdu.org

Əvvəlcədən bəyan etdiyi kimi Heys ikinci müddətə prezident seçilmək istəməmişdir. O, Ceyms Qarfildin namizədliyini dəstəkləyərək deyirdi: «Qarfild özü-özünə yol açmış ideal insan olduğu kimi ideal da namizəddir».

Prezidentlik müddəti bitdikdən sonra Heys, həyat yoldaşı ilə birlikdə Fremontdakı (Ohayo ştatı) Şpigel Qrouv malikanəsinə qayıdır. Burada o, yalnız xeyriyyəçilik fəaliyyəti göstərir. Heys 17 yanvar 1893-cü ildə 72 yaşında vəfat etmişdir.



downloaded from KitabYurdu.org



# CEYMS QARFİLD
## (JAMES GARFIELD)
## (1881–1881)

ABŞ-ın 20-ci prezidenti Ceyms Qarfild 19 noyabr 1831-ci ildə Ohayonun Klivlend şəhəri yaxınlığında anadan olmuşdur. Ulu babası Edvard Qarfild 1635-ci ildə İngiltərəni tərk edərək Massaçusetş ərazisindəki Uotertaun yaşayış məntəqəsində məskunlaşmışdı. Atası Avraam Qarfild kasıb



downloaded from KitabYurdu.org

olmasına baxmayaraq, zəhmətsevərliyi nəticəsində özünə torpaq sahəsi ala bilmişdi. Ümumiyyətlə, gələcək prezidentin uşaqlığı ağır keçmişdir. Ömrünün sonlarına yaxın bunu «Heyf ki, mən yoxsulluq içərisində anadan oldum» deyə etiraf etmişdi.

Balaca Ceyms iki yaşında ikən atasını itirir. İbtidai təhsilini dini təmayüllü məktəbdə alaraq, erkən yaşlarından fermada, sonra isə gəmidə köməkçi işləyir. Bacarıqlı və qabiliyyətli bir gənc olan Ceyms sonralar Hayram-Kollec adlanan Qərb Eklektika institutuna daxil olur. Burada təhsilini bitirdikdən sonra Yeni İngiltərədəki Uilyams kollecində oxuyur. 26 yaşında ikən Eklektika institutuna direktor təyin edilir. C.Qarfild bütün ömrü boyu qatı dindar olmuşdur. Belə ki, o Darvinin təkamül nəzəriyyəsinə qarşı çıxmış, din və coğrafiyadan mühazirələr oxumuşdur.

1858-ci ildə nüfuzlu ailədən olan Lukresiya Rendolfla ailə həyatı qurur. Bu nikahdan onların beş övladı olmuşdur. Qarfildin iki oğlu T.Ruzvelt və V.Vilsonun prezidentliyi dövründə yüksək dövləti vəzifələrində çalışmışlar.

Gələcək prezident gənc yaşlarından siyasətə ciddi maraq göstərir. 1859-cu ilin yazında Qarfild Ohayo ştatının qanunvericilik orqanına üzv seçilir. Quldarlığın qəti əleyhdarı olması və parlaq natiqlik qabiliyyəti onu tezliklə respublikaçı liderə çevirir.

Qarfildin hərbi karyerası uzunmüddətli olmasa da, olduqca uğurlu olur. Ölkədə başlamış vətəndaş müharibəsinin ilk günlərindən cəbhəyə yollanaraq piyada hissələrində polkovnik rütbəsində xidmətə başlayır. İki il sonra general-mayor rütbəsi alaraq general Uilyam Rozenkransın ordusunda qərargah rəisi təyin edilir. 1862-ci ildə, hələ hərbi xidmətdə ikən Konqresə seçilsə də, öz fəaliyyətinə 1863-cü ildə, hərbi xidmətdən tərxis olunduqdan sonra başlayır. Konqresdə çalışdığı müddətdə sahibkarlıq fəaliyyəti ilə də



downloaded from KitabYurdu.org

məşğul olmuş, xüsusilə neftli torpaqların alqı-satqısından böyük qazanc əldə etmişdir.

1877-ci ildən Ohayo ştatını senatda təmsil edir. Üç il sonra isə respublikaçıların milli konventində iştirak edərək növbəti prezident seçkilərinə Con Şermanın namizədliyini dəstəkləyir. Lakin namizəd məsələsində partiyada yekdillik yox idi. Fraksiyalararası barışdırıcı variant kimi Qarfildin namizədliyi irəli sürülür. Bu namizədlik prezident Heys tərəfindən də müdafiə olunurdu.

Qarfild özünün başlıca vəzifəsini partiyanın monolitliyinin bərpa edilməsində görürdü. Məhz bu məqsədlə partiya daxilində böyük nüfuza malik Çester Artur vitse-prezidentliyə namizəd göstərilir. Digər tərəfdən seçki kompaniyasının uğurlu alınması üçün, Qarfild bir çox xoş məramlı səfərlər edir. Bununla o, xüsusilə partiyanın qüdrətli Nyu-York qanadının dəstəyini qazanmaq məqsədi güdürdü.

1880-ci ilin noyabrında keçirilən seçkilərdə C.Qarfild 48,5 % səs toplayaraq prezident seçilir. O, demokratların namizədi Uinfild Skotdan yalnız 0,4 % çox səs alsa da, seçimçilər kollegiyasında daha böyük üstünlük əldə edir (214: 155) .

Qarfild kabineti qurarkən partiyadaxili qruplaşmaların fövqündə durmuşdur. Dövlət katibi vəzifəsinə partiyanın Nyu-York qanadından olan nüfuzlu senator Rosko Konklinqin deyil Ceyms Bleynin təyin edilməsi birincinin prezidentə qarşı çıxmasına səbəb oldu. Konklinq və Nyu-Yorkdan olan digər senator Tomas Platt prezidentin kadr siyasətinə etiraz olaraq konqresdəki yerlərindən imtina etdilər. Qarfildin himayədarlıq sistemi üzərindəki qələbəsi, prezidentin müstəqil mövqeyini möhkəmlətmiş, prezidentlik institutunun nüfuzunu artırmış oldu.



downloaded from KitabYurdu.org

Qarfild bir çox sahələrdə, o cümlədən poçt xidməti, maliyyə, hərbi sahədə islahatlar keçirmək niyyətində idi. Lakin bu təşəbbüslərin heç birini axıradək reallaşdırmaq ona nəsib olmadı. 2 iyul 1881-ci ildə prezidentə sui-qəsd oldu. Dövlət katibi və iki oğlu ilə Vaşinqton-Pensilvaniya vağzalında olarkən, Qarfild Çarlz Gitonun açdığı atəşdən ağır yaralanır. Gito öz hərəkətini belə izah etmişdi: «Mən partiyanın sadiq üzvüyəm və indi Artur prezidentdir». 1881-ci il sentyabrın 19-da prezident aldığı yaralardan vəfat etdi.

Öldürülməyəcəyi halda Qarfildin prezidentliyi necə olacağını demək çətindir. Buna baxmayaraq, vaxtilə Linkolnun şəxsi katibi olmuş Con Hey, onu son əlli ildə seçilmiş prezidentlərin ən bacarıqlısı hesab etmişdir.



downloaded from KitabYurdu.org



# ÇESTER ARTUR
(CHESTER A. ARTHUR)
(1881–1885)

Qarfild vəfat etdiyi günün səhəri vitse-prezident Çester Artur prezident səlahiyyətlərinin icrasına başladı. O, ABŞ tarixində uğursuz prezidentlərdən hesab edilir. Dəbdəbəli həyata meylli olan, bir çox inzibati vəzifələrdə çalışmış Ç.Arturun heç vaxt prezidentlik iddiası olmamışdır.



downloaded from KitabYurdu.org

Müasirlərindən birinin «Çester Artur ABŞ prezidentidir, İlahi özün kömək ol!» – deməsi heç də təsadüfi deyil.

Çester Artur 5 oktyabr 1830-cu ildə Vermont ştatının Fearfild şəhərində ruhani ailəsində dünyaya gəlmişdir. Atası Uilyam Allen Artur İrlandiyada anadan olmuş, gənc yaşlarından Amerikaya köçmüşdü. İbtidai təhsilini Yunion-Villicdəki xüsusi məktəbdə alan gələcək prezident, sonra Yunion-kollecə daxil olur. Kolleci əla qiymətlərlə başa vuraraq Kahouzdakı xüsusi məktəbdə əvvəl müəllim, sonra isə direktor işləyir. Boş vaxtlarında hüquq elmlərini müstəqil öyrənərək, Nyu-York vəkillər kollegiyasına daxil olmağa hazırlaşır. Qısa müddətə Kanzasa köçsə də yenidən Nyu-Yorka qayıdır. 1859-cu ildə varlı gəmi kapitanının qızı Elen Luis Herndonla ailə həyatı qurur.

Respublikaçılar partiyası yaradıldığı ilk günlərdən partiyanın üzvü olur. Bu onun uğurlu siyasi karyerasının başlanğıcı idi.

Partiyanın Nyu-York şöbəsinin sədri Turlou Uid və qubernator Edvin Morqanla isti münasibəti 1861-ci ildə onun Nyu-York ştatının general-kvartirmeyestri təyin olunması ilə nəticələnir. Növbəti il qubernator seçkilərində Morqanın məğlub olması Arturun da vəzifəsindən getməsinə səbəb olur. Öz fəaliyyətini partiyada davam etdirir və tezliklə Nyu-York şöbəsində partiya icraiyyə komitəsinə üzv seçilir. Onun siyasi karyera etməsində partiyanın nüfuzlu funksionerlərindən olan Rosko Konklinqin əhəmiyyətli təsiri olmuşdur.

1871-ci ildə prezident Qrant onu Nyu-York gömrüyünə rəis təyin edir. İllik 840 milyon dollar gömrük rüsumlarına nəzarət edən, 1000-ə yaxın iş yerinə malik idarə rəhbəri olmaq çoxlarının arzusu idi. Təəssüflə qeyd etməliyik ki, Ç.Artur vəzifəsindən sui-istifadə edərək bir çox qanunsuzluqlara yol verir. Gömrük rüsumlarının mənimsənilməsi, vəzifələrin satılması hesabına külli miqdarda gəlir əldə edir.



downloaded from KitabYurdu.org

O, bu sərvətlərin hesabına özünə cah-cəlallı həyatı təmin etməklə yanaşı, ölkənin siyasi arenasında mövqeyini daha da möhkəmlədir.

Çox keçmir ki, Artur vəzifəsindən uzaqlaşdırılır. Dövlət xidməti sahəsindəki total rüşvətxorluq islahatlar keçirilməsini, mühüm vəzifələrə daha bacarıqlıların təyin olunmasını zəruri edirdi. Nyu-York gömrüyü ölkəni bürüyən korrupsiyaya biabırçı nümunə idi. Prezident Heys 1878-ci ildə Artur və gömrükdə çalışan digər məsul işçiləri tutduqları vəzifədən azad edir. Lakin növbəti prezident seçkiləri göstərir ki, gömrük biabırçılığı Arturun siyasi imicinə o qədər də xələl gətirməyib. 1880-ci ildə keçirilən seçkilərdə respublikaçı Qarfild prezidentliyə o isə vitse-prezidentliyə namizəd göstərilir. Qarfildin seçkilərdə qələbə qazanması ilə Artur yenidən federal hökumətə daxil olur. Qarfild sui-qəsd nəticəsində aldığı yaralardan vəfat etdiyi günün səhəri o, prezident səlahiyyətlərinin icrasına başlayır.

Qarfildin öldürülməsi ona olduqca pis təsir etmişdi. Bəlkə bu səbəbdən onda ciddi dəyişikliklər baş verir. Gözlənildiyinin əksinə olaraq, Artur, çox da təmiz olmayan keçmişindən üz çevirərək, himayədarlıq siyasətindən əl çəkir. Yeni qurulan kabinetdə vəzifə bölgüsü apararkən, üstünlüyü kadrların partiyadakı nüfuzuna deyil, onların bacarıq və qabiliyyətinə verir. Yeni korrupsiya mənbələrinin yaranmasına rəvac verəcək dövlət vəzifələrinin təsis edilməsini özündə ehtiva edən federal qanunlara veto qoyması bəzi partiya bosslarının ondan narazı qalmasına səbəb olur. Federal administrasiyada aşkarlanan digər korrupsiya halları, Arturu 1883-cü ildə dövlət xidmətinin yenidən təşkili haqqında qərar layihəsini dəstəkləməyə vadar edir. Bu qərar layihəsinə əsasən dövləti vəzifələrə təyinatlar himayədarlıq prinsipinə deyil, layihədə əksini tapmış prosedura uyğun aparılmalı idi.



downloaded from KitabYurdu.org

İslahat tərəfdarı olmasına baxmayaraq Arturun prezidentlik fəaliyyəti bir o qədər də məhsuldar olmamışdır. O, gün ərzində iki saat olmaqla həftədə beş dəfə administrativ işlərlə məşğul olur. Digər tərəfdən Artur bəzi əski vərdişlərindən əl çəkməmiş, təmtəraqlı həyat tərzini davam etdirmişdir. Belə ki, Ağ Evdə tez-tez ziyafətlər verir, qəbullar təşkil edirdi.

Bütün bunlarla yanaşı prezidentin şəxsi həyatı da uğurlu olmamışdır. O, 1880-ci ildə həyat yoldaşını itirir. Bir oğlu hələ körpə ikən tələf olur, Prinston Universitetinin tələbəsi olan digər oğlu isə avara və perspektivsiz həyat keçirir. Artur bütün mehrini on yaşlı qızına salır. Həddən artıq həssas olan Artur özünü çox vaxt tənha və məğlub hiss edirdi. Əhvalının dəyişkənliyi, onun prezidentliyinin başlıca sirri olan ağır xəstəliyi ilə bilavasitə əlaqədardı. Yalnız ölümündən səkkiz il sonra onun, o vaxtlar müalicəsi qeyri-mümkün olan nefritdən (böyrək xəstəliyi) əzab çəkdiyi ictimaiyyətə məlum olmuşdur.

Artur ikinci müddətə prezident seçilmək iddiasından rəsmən imtina etməsə də, onun həqiqətən belə bir arzusu yox idi. 1884-cü il seçkilərində respublikaçılar qoca xarici işlər naziri Ceyms Bleyni namizəd göstərsələr də o, demokrat Klivlendə məğlub oldu. Artur ictimaiyyət arasında sonuncu dəfə, 21 fevral 1885-ci ildə Vaşinqtonun abidəsinin açılışında görünür. Nyu-Yorka qayıtdıqdan sonra siyasi fəaliyyət göstərmir. Ömrünün son günlərində əlyazmalarını yandırır.

Çester Artur 18 yanvar 1886-cı ildə, 56 yaşında əzab çəkdiyi ağır xəstəlikdən vəfat etmişdir.



downloaded from KitabYurdu.org



# QROVER KLİVLEND
(GROVER CLEVELAND)
(1885–1889) və (1893–1897)

Hazırda Ağ Evin sahibi Barak Obama sıra nömrəsi ilə 44-cü prezident hesab edilir. Əslində isə o, ABŞ prezident



downloaded from KitabYurdu.org

olmuş 43-cü şəxsdir. Birləşmiş Ştatların 22-ci prezidenti olmuş Qrover Klivlend ikinci müddətə seçilməsə də, növbəti seçkilərdə yenidən namizədliyini irəli sürərək qələbə qazanır. Belə ki, Q.Klivlend 22-ci və 24-cü prezident sayılır. Onun prezidentliyi bir də onunla əlamətdardır ki, son 28 ildə Ağ Evin sahibi respublikaçı deyil demokrat idi.

Qrover Klivlend 18 mart 1837-ci ildə Nyu-Cersi ştatının Kolduell şəhərində anadan olub. Ulu babası Mouzes Klivlend 1635-ci ildə İngiltərəni tərk edərək, Massaçusets ərazisində məskunlaşmışdı. Gələcək prezidentin atası varlı olmasa da mükəmməl dini təhsil almışdı. Balaca Qrover ilk təhsilini Klinton (Nyu-York şt.) şəhərindəki xüsusi məktəbdə alır. 15 yaşlı Qrover atasını itirdikdən sonra təhsilini davam etdirməklə yanaşı günəmuzd işləməyə məcbur olur. Əvvəlcə dükanda satıcı kimi, sonra isə Nyu-York korlar cəmiyyətində çalışır. 1855-ci ildə Buffalodakı vəkillər kontorunda şagird olur. 22 yaşı olarkən vəkillik praktikasına başlayaraq, tezliklə hörmətli və qazanclı vəkil kimi tanınır.

XIX əsrin ikinci yarısında ABŞ prezidenti olan şəxslərin əksəriyyəti vətəndaş müharibəsində iştiraki ilə karyera qurub. Lakin, Klivlend maraqlı istisna təşkil edir. O, nəinki müharibədə iştirak etməmiş, hətta əvəzinə hərbi xidmətə yollanan şəxsə 150 dollar ödəməklə ordudan yayınmışdır.

Təcrübəli vəkil olaraq cəmiyyətdə qazandığı nüfuz onun siyasi karyera etməsi üçün zəmin yaratdı. Demokrat partiyasına üzv yazılan Klivlend 1862-ci ildə partiya qurultayının iştirakçısı olur. Onun antikorrupsiya xarakterli çıxışları siyasi dairələrdə rəğbətlə qarşılanır. «Dövləti vəzifə – dövləti cavabdehlikdir» şüarı onun gələcək siyasi karyerasının leytmotivinə çevrilir.

Klivlendin yüksək qazanclı vəkillik praktikasından müvəqqəti uzaqlaşaraq müxtəlif inzibati vəzifələrdə çalışması onun siyasi ambisiyalarından xəbər verirdi. Lakin



downloaded from KitabYurdu.org

1868-ci ildə Buffalo dairə rəhbərliyinə seçkilərdə uğursuzluğu onu yenidən vəkillik fəaliyyətinə qayıtmağa məcbur etdi. İki şəriki ilə birgə açdığı vəkillər kontoru varlı kommersant və iş adamları ilə yanaşı «Standart oyl», «Merçants ənd Treyders», «Lixay-Velli reylroud» kimi nəhəng korporasiyaların hüquqlarını qoruyurdu. «Nyu-York sentral» dəmiryol şirkətinin əlverişli və yüksək məvacibli təklifindən imtina edən Klivlend 1870-ci ildə Eri qraflığının polis rəisi vəzifəsini tutur. Bu vəzifə az gəlirli olmasına baxmayaraq ona böyük siyasi kapital gətirir. On il sonra isə Buffalo şəhərinin meri seçilir.

Dövlət idarəetmə orqanlarında korrupsiya və rüşvətxorluq hallarının barışmaz tənqidçisi, islahatlar tərəfdarı olması onun 1882-ci il Nyu-York qubernatoru seçkilərində demokratların namizədi olmasına şərait yaratdı. Qubernator vəzifəsinə seçilən Klivlendin prinsiplərinə sadiq qalması, ona ümummilli etimad qazandırdı. Nyu-Yorkla yanaşı digər regional partiya qurumları ilə isti münasibətləri isə 1884-cü il prezident seçkilərinə namizədliyini təmin etdi.

Seçkiönü kampaniya Klivlend üçün olduqca çətin keçir. Bu ABŞ tarixinə ən qalmaqallı və çirkin mübarizə üsulları ilə yadda qalan seçki kimi düşüb. Belə ki, əks düşərgələr bir-birlərinin seçki proqramlarını tənqid etməklə yanaşı, ictimaiyyətə namizədlərin xarakterik xüsusiyyətləri, şəxsi həyatları haqqinda çeşidli kompromatlar da ötürürdülər. Rəqibləri respublikaçı namizəd Ceyms Bleyni korrupsiyaçı partiya funksioneri kimi tənqid atəşinə tuturdularsa, respublikaçılar Klivlendi daha ağır ittihamlarla məişət pozğunluğunda, əxlaqsızlıqda suçlayırdılar. Şübhəsiz ki, 47 yaşlı subay Klivlend haqqında səsləndirilən ittihamların heç də hamısı əsassız deyildi. Lakin Klivlend bəzi «cavanlıq səhvlərini» səmimi etiraf etməklə reputasiyasını qoruya bildi.

Seçkilərdə rəqibinə çox kiçik, yalnız 0,2% səs çoxluğu ilə qalib gəlsə də, Klivlend seçimçilər kollegiyasın-


downloaded from KitabYurdu.org

da daha yaxşı nəticə göstərdi. Onun qələbəsi, Vətəndaş müharibəsindən sonra ilk demokratın Ağ Evə sahib olması, Demokrat Cənubu ilə Respublikaçı Şimalın barışıq simvolu təsiri bağışlayırdı.

Onun birinci prezidentliyinin əsas fəaliyyət istiqaməti valyuta siyasəti, rüsum islahatları, hökumət və dövlət xidmətinin təkmilləşdirilməsinə yönəlmiş islahatlar oldu. Sələfi Arturdan fərqli olaraq inzibati işlərə daha çox vaxt sərf edən Klivlend səhərdən axşamadək çalışırdı. Dəbdəbəli ziyafətləri, təmtəraqlı qəbulları xoşlamayan prezident Ağ Evə işgüzar mühit gətirmişdi. Bu, prezidentliyinin ikinci ilində gözlənilmədən aristokrat nəslindən olan Franses Folsla ailə qurduqdan sonra da dəyişmədi.

Prinsiplərinə sadiq qalan Klivlend himayədarlıq sisteminə qarşı çıxır, gəlirli (təəssüf ki, bəzi dövləti vəzifələr hələ də gəlir mənbəyi hesab edilirdi) vəzifələrin bölünməsində partiya mənsubluğunu nəzərə almamağa çalışırdı. Lakin radikal islahatlar keçirilməsindən çəkinirdi.

Klivlend güclü mərkəzləşmiş hakimiyyət tərəfdarı olmasa da Konqreslə icraedici hakimiyyət arasındakı bərabərsizliyi minimuma endirməyə cəhd göstərir. Prezident olduğu müddətdə veto hüququndan görünməmiş sayda, 304 dəfə istifadə etmişdir.

Seçkiönü verdiyi vədlərin heç də hamısını həyata keçirə bilməməsi, himayədarlıq sisteminə qarşı çıxmaqla bəzi partiya bosslarını özündən incik salması 1888-ci il seçkilərində uğursuzluğunun başlıca səbəbi oldu və o, respublikaçıların namizədi B.Harrisona uduzdu.

Məğlubiyyətindən sonra maliyyə problemlərinin həlli ilə məşğul olur. Prezident Harrisonun fəaliyyəti, onda prezidentliyə özünün daha layiqli şəxs olduğu fikrini gücləndirir. Respublikaçıların təsərrüfatsızlıq və korrupsiya rejimindən milləti xilas etmək istəyilə, növbəti seçkilərə namizədliyini irəli sürərək parlaq qələbə qazanır.



downloaded from KitabYurdu.org

Klivlendin ikinci prezidentliyi gözlənildiyinin əksinə olaraq uğurlu alınmır, iqtisadi böhranla müşayiət olunur. Xüsusilə maliyyə sisteminin iflic vəziyyətinə düşməsi təkcə 1893-97-ci illərdə 600 bankın bağlanmasına, 15000 müəssisənin müflis olmasına səbəb olur. İşsizik 20 % artır. Kənd təsərrüfatı məhsullarının qiymətdən düşməsi fermerlərə böyük ziyan vurur.

Bu ərəfədə prezidentin səhhətində problemlər yaranır. xərçəng xəstəliyindən əzab çəkən Klivlend 1893-cü ildə ağır cərrahiyyə əməliyyatına məruz qalır. Olduqca gizli şəraitdə aparılan əməliyyat yalnız 1917-ci ildə ictimaiyyətə açıqlanıb.

1896-cı il seçkilərində namizəd olmaq istəsə də, demokratlar onun deyil Cenninqs Brayanın namizədliyini irəli sürürlər. İstefaya çıxdıqdan sonra Prinstona köçür, burada yerli universitetin rektoru, gələcəkdə prezident olacaq Vudro Vilsonla dostluq münasibəti yaradır. İttifaq Sığorta Şirkətləri Təşkilatının sədri və publisist kimi ictimai mühitdə fəaliyyət göstərir. Qrover Klivlend 24 iyul 1907-ci ildə vəfat edir.



downloaded from KitabYurdu.org



# BENCAMİN HARRİSON

(BENJAMIN HARRISON)

(1889–1893)

Bencamin Harrison ABŞ-ın 9-cu prezidenti U.H.Harrisonun nəvəsi idi. O, 20 avqust 1833-cü ildə Ohayonun Nord-Bend yaşayış məntəqəsində dünyaya gəlmişdi. Klivlend kimi presviterian ruhunda tərbiyə almış, lakin sələfindən



downloaded from KitabYurdu.org

fərqli olaraq prezident olarkən belə dini qaydalara ciddi əməl etmişdir. Uşaqlıq illəri atasına babasından miras qalmış 600 akr torpaq sahəsinə malik fermada keçib. Böyük və əməksevər fermer ailəsinin həyatı, aristokrat əcdadlarından fərqli olaraq, heç də təmtəraqlı keçməmişdir. Buna baxmayaraq ailə başçısı Con Skottun gərgin işgüzarlığı sayəsində ailənin on iki uşağının hamısı xüsusi müəllimlər yanında təhsil alır. Kollecə daxil olmaq məqsədilə Bencamini 14 yaşı olarkən xüsusi məktəbə qoyurlar. Maddi çətinliklər səbəbindən atasının onu məşhur Yel Universitetində oxutmaq arzusu həyata keçmir.

Lakin Bencamin «Qərbin Yel Universiteti» hesab edilən Oksforddakı Mayami Universitetində təhsil alır. Universitetdə təhsilini bitirdikdən sonra Sinsinattiyə köçərək, atasının dostu Bellami Starerin köməyi ilə, hələ 21 yaşı tamam olmamış yerli vəkillər kollegiyasına üzv qəbul edilir. Nüfuzlu vəkil Uilyam Uolles ona şərikli vəkillər kontoru açmağı təklif edir. Tezliklə böyük hörmət qazanan yeni kontorun müştəriləri arasında istər iri şirkətlər, istərsə də sıravi şəxslər yer tutur. Böyük qonorarlar almasına baxmayaraq Harrisonun tez-tez pula ehtiyacı olmuş və o, uşaqlıq dostu Albert Qallatindən borc götürmüşdür. Qeyd edək ki, Qallatin sonralar İndiana ştatının qubernatoru, Harrisonun prezidentliyi dövründə isə ABŞ-ın İtaliyada səfiri olmuşdur.

1861-ci ildə Uollesdən ayrılan Harrison özünün vəkillər kontorunu açır. Kontor tezliklə İndianapolisin aparıcı kontoruna çevrilir.

Dövrün bir çox dövlət xadimləri kimi Vətəndaş Müharibəsi onun da karyerasına önəmli təsir göstərib. 1862-ci ilin iyul ayında leytenant rütbəsində hərbi xidmətə başlayır və ona yeni formalaşdırılan alaylardan biri üçün könüllülər toplamaq tapşırılır. Müharibədə iki illik iştirakı ərzində bir neçə dəfə ağır döyüşlərdə iştirak edir və briqada generalı rütbəsinədək yüksəlir.



downloaded from KitabYurdu.org

Müharibədən sonra vəkillik praktikası ilə məşğul olur və İndiana Ali Məhkəməsinə üzv seçilir. Onun hərbdə qazandığı uğurlar, seçkili orqanlarda təmsil olunmasına əlverişli şərait yaradırdı. Respublikaçılar onu İndiana qubernatoru seçkilərinə namizəd göstərmək istəsələr də, bu təklifdən imtina edir. Lakin 1881-ci il Konqresə keçirilən seçkilərdə iştirak etməyə razılıq verir və senata seçilir. Siyasi fəaliyyətə bir o qədər həvəs göstərməməsi növbəti seçkilərdə məğlub olması ilə nəticələnir.

Bu uğursuzluğa baxmayaraq, nüfuzlu siyasi xadimlərin, maliyyəçilərin daxil olduğu yaxın ətrafı onu gələcəkdə prezident görmək istəyirdi. Heç bir siyasi qalmaqalda adı hallanmayan, saf əxlaqa malik Harrison 1888-ci il prezident seçkilərində respublikaçıların namizədi olur.

İkinci müddətə prezident seçilmək istəyən demokrat Klivlendlə yanaşı «Spirtli içkilərə qadağa» adlandırılan partiyadan Klinton Fisk və Əmək partiyasını təmsil edən Ekson Striter də seçkilərə qatılır. Seçkilərdə mübarizə əsasən Harrison və Klivlend arasında getmişdir.

Harrison Klivlenddən 0,7 % az səs toplasa da, seçimcilər kollegiyasında ona qalib gələrək (233:168) prezident olur.

Zəngin siyasi təcrübəyə malik olmayan yeni prezident bu uğurunu Allahın işi hesab edir. Onun məqsədyönlü siyasət yeridə bilməməsi ölkənin siyasi-iqtisadi həyatında önəmli inkişaf üçün stimul yaratmamışdır. Harrison qarşıya çıxan siyasi problemləri həll edə bilmir və özünü yalnız ölkənin ali məmuru kimi göstərir. Prezidentliyinin ilk 18 ayı müddətində 1700-ədək məmuru yenisi ilə əvəzləyir. Təyinatların heç də hamısı uğurlu olmur və narazılıqla qarşılanır. 30 yaşlı Nyu-Yorklu Teodor Ruzveltin Federal Komissiyada dövlət qulluğuna götürülməsini məqbul hesab etmək olar. Gələcəkdə prezident seçilmiş Ruzvelt siyasi-inzibati karyerasının əsasını məhz bu təyinatla qoymuşdur.



downloaded from KitabYurdu.org

Prezidentin Konqreslə səmərəli əməkdaşlığı alınmır. Əlavə təkliflərlə Konqresə göndərdiyi illik müraciətlərinin heç biri qəbul edilmir. Qanunverici orqanla qarşıdurma arzulamayan Harrison veto hüququndan istifadə etmir.

Təntənəli mərasimləri xoşlamayan prezident xanımı Karolin Skott uşaqları və nəvələri ilə Ağ Evdə təm-təraqsız həyat sürmüşdür.

Harrison administrasiyasının xarici siyasi kursu da olduqca uğursuz olmuşdur. Dövlət katibi Ceyms Bleynin qənaətbəxş olmayan fəaliyyəti Avropa dövlətləri, həmçinin Kanada ilə bəzi konfliktlərin yaranmasına rəvac verir. 1891-ci ilin oktyabr ayında isə Çili ilə münasibətlərdə ciddi böhran yaranır. ABŞ-ın Çilinin daxili işlərinə qarışması iki matrosun öldürülməsi ilə nəticələnir. Vaşinqton hökumətinin etirazına və dəyən zərərin ödənilməsi tələbinə Çili xarici işlər naziri təhqiredici cavab verir. Müharibəyə səbəb ola biləcək böhran yalnız Çili hökumətinin güzəştə getməsi ilə aradan qaldırılır. Hadisələr Bleyn və Harrisonun xarici siyasi kursunun naqisliyini göstərməklə yanaşı, ABŞ-ın aparıcı dövlətə çevrildiyini təsdiq edirdi.

Harrisonun himayədarlıq siyasətindən imtina etməsi, partiyaya rəhbərlik arzusunda olmaması partiyadaxili parçalanmaları gücləndirir. Onun 1892-ci il seçkilərinə namizəd göstərilməsini isə sadəcə respublikaçıların daha layiqli namizədi olmaması ilə izah etmək olar.

Seçkilərdən iki həftə əvvəl xanımının vərəm xəstəliyindən vəfat etməsi Harrisonu tam ruhdan salır və o, seçkiyə maraq göstərmir. Nəticədə demokrat Klivlendə məğlub olur. O, sonralar siyasi fəaliyyətini davam etdirmiş, İngiltərə və Venesuela arasında yaranmış sərhəd münaqişəsini həll edən arbitraj komissiyasının üzvü olmuşdur.

Harrison 13 mart 1901-ci ildə sətəlcəmdən vəfat etmişdir.



downloaded from KitabYurdu.org



# UİLYAM MAK-KİNLİ

(WILLIAM McKINLEY)
(1897–1901)

Birləşmiş Ştatların XIX əsrdə sonuncu prezidenti olmuş Uilyam Mak-Kinlinin yeritdiyi daxili siyasi kursun zəif olmasına baxmayaraq, apardığı xarici siyasət ABŞ tarixində yeni səhifə açmışdır. Xüsusilə İspaniyaya qarşı aparılan müharibə və bir neçə ispan müstəmləkəsinin ilhaq edilməsi



downloaded from KitabYurdu.org

ölkənin dünyanın böyük hegemon dövlətlərindən birinə çevrilməsinin əsasını qoymuşdur.

Uilyam Mak-Kinli 29 yanvar 1843-cü ildə Ohayonun Nayls şəhərində anadan olmuşdur. Şotland əsilli irlandiyalı olan atası Uilyam Mak-Kinli çuqun istehsalı və satışı ilə məşğul olurdu. Gələcək prezident ilk təhsilini Polanddakı xüsusi məktəbdə alır, 1860-cı ildə isə Midvill şəhərindəki Allegan kollecinə daxil olur. Vətəndaş Müharibəsi başladıqda polkovnik Razerford Heysin başçılıq etdiyi könüllülər ordusuna yazılır. Müharibənin sonunadək döyüşlərdə iştirak edərək mayor rütbəsinədək yüksəlir.

Müharibədən sonra Olbani (Nyu-York ştatı) Hüquq məktəbində oxuyaraq vəkillik fəaliyyətinə başlayır. Müdafiə etdiyi müştərilərinin maddi vəziyyəti ilə maraqlanmayaraq öz peşəsinə prinsipial yanaşması onu qısa müddətdə məşhurlaşdırır. 1871-ci ildə Ohayo bankirlərindən birinin qızı İda Pakstonla ailə həyatı qurur. Nikah uğurlu olsa da, tezliklə xanım Mak-Kinli ağır xəstələnir və nəticədə əlil olur.

Müharibədən on il sonra uğurlu vəkillik fəaliyyəti Mak-Kinlinin maddi vəziyyətini əhəmiyyətli dərəcədə dəyişir. Qazandığı pulları daşınmaz əmlaka və Ohayonun sənaye müəssisələrinə yatıraraq şəxsi kapitalını ikiqat artırır. Çox keçmir ki, vəkillik praktikasına son qoyaraq siyasətlə məşğul olmağa qərar verir və respublikaçılar partiyasına üzv yazılır. Nüfuzlu vəkil, vətəndaş müharibəsinin veteranı, sağlam dünyagörüşünə malik mühafizəkar biznesmen Mak-Kinli uğurlu siyasi karyera edəcəyinə ümid bəsləyə bilərdi. Doğrudan da o, 1876-cı ildə Konqresə seçilir və qısa müddətli fasiləni nəzərə almasaq 1891-ci ilədək orada fəaliyyət göstərir. Bu ərəfədə o, perspektivli konqresmen kimi varlı və böyük hörmət sahibi olan biznesmen M.Hannın diqqətini özünə cəlb edir. M.Hann Mak-Kinlinin karyera etməsinə əhəmiyyətli dərəcədə köməklik göstərmişdir.



downloaded from KitabYurdu.org

1892-ci ildə Ohayonun qubernatoru seçilən Mak-Kinli, 1895-ci ilə qədər bu vəzifədə çalışır. Qeyd edək ki, siyasətlə intensiv məşğul olması, dövləti vəzifələrdə yer alması, şəxsi biznesində geriləmə ilə müşayiət olunmuşdur. Müflis olduqdan sonra yığılan borclarını bəzi sənayeçilər öz üzərlərinə götürərək, Mak-Kinlinin onların marağı çərçivəsində fəaliyyət göstərəcəyinə ümid bəsləyirdilər.

1896-cı il prezident seçkilərində Mak-Kinli respublikaçıların namizədi oldu. Partiya funksionerləri onun istər sənayeçilər, istərsə də kənd təsərrüfatı işçiləri arasındakı nüfuzuna güvənirdilər.

Seçkiönü kampaniyanın meneceri kimi çıxış edən Hann ölkə iqtisadiyyatında söz sahibi olan bir neçə şəxsi öz ətrafında toplaya bilir. ABŞ-ın məşhur bankirlərindən olan Morqan və sənayeçi Rokfeller təkcə reklam nəşrlərinə yarım milyon dollar xərcləmişlər. Mak-Kinli haqqnıda film çəkilmiş ilk namizəd idi. Nəticədə U.Mak-Kinli 51,1 % səs toplayaraq demokrat partiyasının namizədi Uilyam Brayana qalib gəlir. Seçimçilər kollegiyasında onun üstünlüyü daha böyük olur: 271:176.

Prezidentliyinin ilk günlərindən ictimaiyyətlə əlaqələrini düzgün qurması, xüsusilə mətbuata olan münasibəti onu populyar liderə çevirmişdir. Lakin seçkiönü çıxışlarında verdiyi vədləri tam şəkildə gerçəkləşdirə bilməmişdir. Ən əsası, iqtisadi sahədə aparılması zəruri olan islahatları tam həyata keçirməmiş, inhisarçılığa qarşı loyal mövqe tutmuşdur. Buna səbəb onun hələ prezident seçilməmişdən əvvəl ölkənin iqtisadi bossları ilə sıx əlaqələrinin olmasıdır.

90-cı illərdə Avropa dövlətlərinin Asiya və Afrikada müstəmləkəçilik siyasətinin güclənməsi ABŞ-ın xarici siyasi kursunda əsaslı dəyişikliklər edilməsini gündəmə gətirdi. Bu yöndə atılan ilk addım Konqresin hərbi-dəniz nəzəriyyəçisi Alfred Mehemin əsərləri əsasında müasir hərbi-dəniz donanmasının yaradılması barədə qərarı oldu.



downloaded from KitabYurdu.org

1898-ci il iyulda Havay adalarının ilhaq edilməsinə Birləşmiş Ştatların ekspansionist siyasətinin tərkib hissəsi kimi də baxmaq olar. Lakin, İspaniya və Filippinə qarşı aparılan müharibələr ABŞ-ın xarici siyasi kursunda ciddi dəyişikliklərdən xəbər verirdi. İspaniyanın Kubadakı uzunmüddətli ağalığı Amerika ictimaiyyətini ciddi narahat edirdi. Digər tərəfdən ölkənin iqtisadi maraqları və Karib dənizində şəriksiz ağalıq istəyi Kubanı Birləşmiş Ştatların milli maraq obyektinə çevirirdi. Prezidentin bu mövqe ilə razılaşmasına baxmayaraq, o, İspaniya ilə hərbi qarşıdurmadan çəkinərək İspaniya və Kuba arasındakı münaqişənin sülh yolu ilə həllinə çalışırdı. Lakin 15 fevral 1898-ci ildə ABŞ-ın «Meyn» gəmisinin Havana limanında qəzaya uğraması Mak-Kinlini problemin sülh yolu ilə həll olunmayacağına inandırdı. Uzun müzakirələrdən sonra 19 aprel 1898-ci ildə Konqres prezidentin tapşırığı ilə İspaniyaya müharibə elan etdi.

Müharibə elan etmək, şübhəsiz ki, onu udmaqdan qat-qat asandır. Quruda aparılan elə ilk döyüşlər ABŞ ordusunun müharibəyə tam hazır olmadığını göstərdi. Lakin döyüşlərin dənizdə davamı, ölkənin qüdrətli hərbi-dəniz donanmasına malik olduğundan xəbər verirdi. Filippində İspanların darmadağın edilməsi müharibənin gedişində ciddi dönüş yaratdı və müharibə 10 may 1898-ci ildə Birləşmiş Ştatların tam qələbəsi ilə başa çatdı. Müharibənin nəticələrinə görə Kubaya azadlıq verilsə də, Puerto-Riko, Quam və Filippin ABŞ müstəmləkəsi elan edildi.

Ölkəyə birləşdirmiş əlavə torpaqlar, ümumdünya nüfuzu və milli özünəinam hissi doğuran sensasiyalı hərbi qələbələr növbəti prezident seçkilərinin müqəddəratını əvvəlcədən həll etmiş oldu. 1900-cü il seçkilərində respublikaçıların prezidentliyə namizədi yekdilliklə Mak-Kinli seçilsə də, vitse-prezidentliyə namizəd göstərilməsi fikir müxtəlifliyilə müşayiət olundu. Uzun çəkən partiyadaxi-



downloaded from KitabYurdu.org

li debatlardan sonra Nyu-York ştatının qubernatoru Teodor Ruzvelt vitse-prezidentliyə namizəd oldu. Seçkilərdə demokrat partiyasını «həmişə namizəd» Uilyam Brayan təmsil edirdi. Mak-Kinli 51,7 % səs toplayaraq ikinci müddətə prezident seçildi.

Mak-Kinlinin bu qələbəsi onun şöhrətinin zenit nöqtəsi oldu. Lakin ikinci müddətə prezidentlik fəaliyyətinə başladıqdan alti ay sonra, 6 sentyabr 1901-ci ildə Buffaloda keçirilən Panamerikan sərgisində iştirak edən prezidentin həyatına sui-qəsd edildi. Anarxist Leon Çolqoşun açdığı atəşlərdən sinəsindən və qarın nahiyəsindən yaralanan Mak-Kinli 14 sentyabrda vəfat etdi.

Qeyd edək ki, onun şöhrəti vəfatından azacıq sonra unudulmuşdur. Buna səbəb xələfi T.Ruzveltin ABŞ tarixində fundamental dönüş yaratması olmuşdur.



downloaded from KitabYurdu.org



# TEODOR RUZVELT
## (THEODORE ROOSEVELT)
## (1901–1909)

Bəzən Teodor Ruzvelti müasir Amerikanın simvolu hesab edirlər. O, Mak-Kinli öldürüldükdən sonra Ağ Evin sahibi olmaqla ən gənc prezident kimi tarixə düşmüş-



downloaded from KitabYurdu.org

dür. ABŞ-ın inkişaf edərək dünyanın qüdrətli, hegemon dövlətinə çevrilməsində misilsiz xidmətləri olub. Ruzvelt prezidentlik institutunun konstitusional imkanlarından ardıcıl istifadə edərək islahatlar vasitəsilə ABŞ siyasi sistemini XX əsrin tələblərinə uyğun qurmuşdur.

T.Ruzvelt 27 oktyabr 1858-ci ildə Nyu-York şəhərində varlı aristokrat ailəsində anadan olub. Holland əsilli Ruzveltlər XVII əsrin birinci yarısında Nyu-Amsterdam ərazisində məskunlaşan ilk mühacirlərdən idilər. Gələcək prezidentin atası Teodor Ruzvelt şüşə ticarəti və bank əməliyyatları ilə məşğul olaraq ailə biznesini uğurla davam etdirmişdi. Ruzvelt (ata) övladlarının təlim-tərbiyəsinə xüsusi diqqət verirdi. Fiziki cəhətdən zəif və bir çox uşaq xəstəliklərinə mübtəla olan balaca Teddi doğmalarının xüsusi qayğısı altında böyümüş, ilk təhsilini də evdə xüsusi müəllimlərdən almışdı. Hələ ilk uşaqlıq çağlarından onda qarşısına qoyduğu məqsədə çatmaq üçün qətiyyət göstərmək və prinsipiallıq özünü büruzə verir. İki həmyaşıdı tərəfindən amansızca döyülməsi onda rəqibə nifrət hissi ilə yanaşı qalib gəlmək yanğısı oyadır və atasından ona idmanla məşğul olmasına icazə verməsini istəyir. Atçılıq idmanı, gimnastika, ovçuluq, boksla məşğul olmaqda onun məqsədi məşhur idmançı olmaq deyil, sağlamlığını bərpa etmək idi. Bununla yanaşı o, atlara və ovçuluğa olan marağını ömrü boyu saxlamışdır.

1876-80-ci illərdə Ruzvelt Harvard Universitetində təhsil alır. Bu müddətdə onun həyatında önəmli dəyişikliklər baş verir. O, 20 yaşında ikən atası vəfat edir. Təhsilini bitirən kimi tələbə ikən tanış olduğu Bostonlu bankir qızı Əlis Li ilə ailə qurur. 1884-cü ildə onların ilk övladı dünyaya gəlsə də faciə baş verir, Əlis doğuş zamanı vəfat edir. İki il sonra Ruzvelt yenidən evlənmiş, bu nikahdan daha beş övladı dünyaya gəlmişdir.



downloaded from KitabYurdu.org

Harvardda təhsilini bitirdikdən sonra ailəsilə birgə qohumlarına məxsus şəhərətrafı malikanədə yaşayaraq, ədəbi-tarixi mövzuda yaradıcılıqla məşğul olur. Bununla yanaşı əmisinin hüquq kontorunda hüquqşünaslıq öyrənir, Kolumbiya Universitetində mühazirələr dinləyirdi. Lakin tədricən siyasət onu özünə cəlb edirdi.

Ruzvelt siyasi fəaliyyət üçün partiya seçimində çətinlik çəkmir. Şimalda böyük elektoral gücə, siyasi nüfuza malik respublikaçılar partiyası onun karyera etməsi üçün əlverişli mühitə malik idi. 1881-ci ildə qəti olaraq siyasətlə məşğul olmağa qərar verən Ruzvelt siyasi mühitlə tanışlıq məqsədilə, dərnəklərdə, yığıncaqlarda iştirak edir. Dərin savada, gözəl natiqlik bacarığına malik olması tezliklə partiya funksionerlərinin diqqətini cəlb edir və 28 oktyabr 1881-ci ildə keçirilən partiya yığıncağında ştat parlamentinə seçkilərə namizəd göstərilir. Respublikaçıların, xüsusilə Co Merreyin böyük dəstəyi nəticəsində Ruzvelt deputat seçilir.

Ştat parlamentindəki ilk çıxışları onu ictimai diqqət obyektinə çevirir, söylədiyi nitqlər qəzetlərdə dərc olunurdu. Ənənəvi olaraq sosial-iqtisadi problemlərdən deyil, konkret adlar çəkməklə dövlət orqanlarında korrupsiya və rüşvətxorluqdan danışırdı. İnhisarçılığı tənqid etməsi isə onu bütün ölkəyə tanıtdı.

İki müddət ardıcıl deputat olduqdan sonra Ruzvelt Qərbə, Dakotaya köçür. Burada maldarlıq və əkinçiliklə məşğul olur. Bu sahədə ciddi uğur qazanmaq ona nəsib olmur və 1887-ci ildə yenidən Nyu-Yorka qayıdır. Şəhər meri seçkilərində iştirak etsə də qələbə qazana bilmir.

1888-ci il seçkilərində B.Harrisonun prezident seçilməsilə respublikaçılar Ağ Evə yiyələnirlər. Ruzveltin Xarici İşlər Nazirliyində işləmək cəhdi, nazir və şəxsi rəqibi C.Bleynin mane olması səbəbindən baş tutmur. Nümayəndələr palatasının spikeri T.Ridin zəmanəti ilə Dövlət Xidməti məsələləri



downloaded from KitabYurdu.org

ilə məşğul olan komissiyada işə qəbul edilir. 1895-97-ci illərdə isə Nyu-York polis komissarı vəzifəsini tutur.

Növbəti seçkilərdə U.Mak-Kinlinin namizədliyini müdafiə edən Ruzvelt, prezidentin administrasiyasında yer alacağına ümid bəsləyə bilərdi. Sələflərindən fərqli olaraq ekspansiya tərəfdarı olan Mak-Kinli kabinetə məhz ABŞ-ın ümumdünya siyasi məkanına inteqrasiyası tərəfdarlarını toplayırdı. Bu sırada artıq özünəməxsus siyasi baxışları ilə fərqlənən Ruzvelt diqqətdən yayınmır və o, hərbi-dəniz nazirinin müavini təyin edilir.

Nazir müavini olmasına baxmayaraq kabinetin digər üzvləri arasındakı nüfuzu, onun dövlətin xarici siyasət kursunun müəyyənləşməsinə təsir imkanını artırır. Bu haqda U.Taft prezident olarkən belə demişdi: «Əgər Ruzvelt olmasaydı, çətin ki, İspaniyaya müharibə elan olunardı».

Amerika-İspaniya müharibəsi başlayarkən Ruzvelt tutduğu vəzifədən istefa verərək cəbhəyə yollanır. Nyu-York milli qvardiyasının kapitanı olan Ruzvelt podpolkovnik rütbəsində «Vəhşi atlılar» kavaleriya alayının komandiri təyin olunur.

Müharibədə özünü bacarıqlı hərbçi kimi təsdiq edən Ruzvelt şan-şöhrət qazanmaqla yanaşı siyasi karyerasında yeni mərhələnin əsasını qoyur. Ordudan tərxis olunduqdan sonra 1898-ci ilin sonunda Nyu-York qubernatoru seçilir.

1900-cü il prezident seçkilərndə yenidən Mak-Kinlinin namizədliyi irəli sürüldü. Şöhrətpərəst Ruzveltin də namizəd olmaq istəyi vardı. Lakin M.Hann, T.Platt kimi qüdrətli partiya bossları buna razlaşmadılar və Ruzveltə növbəti seçkilərədək gözləməyi məsləhət bildlilər. Partiyadakı Ruzvelt tərəfdarlarının tələbi ilə o, vitse-prezidentliyə namizəd göstərilir.

Uğurlu keçən seçkilərdən sonra vitse-prezident senat qarşısındakı ilk çıxışında öz məramını bu şəkildə açıqla-



downloaded from KitabYurdu.org

mışdı: «Biz Qərb yarımkürəsində, bütün kontinentdə aparıcı dövlətik. Şərq və Qərbdə, iki böyük okeandan o tərəfdə daha böyük dünyaların həyatını müşahidə etməkdəyik. İstəsək də, istəməsək də biz o həyatda iştirak etməyə borcluyuq».

14 sentyabr 1901-ci ildə Mak-Kinli sui-qəsd nəticəsində aldığı ölümcül yaralardan vəfat etdi. Elə həmin gün Ruzveltin ABŞ-ın 26-cı prezidenti kimi andiçmə mərasimi keçirildi.

Ruzveltin prezidentliyinin ilk illərində iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi istiqamətində ilk addımlar atıldı. Prezidentin təşəbbüsü ilə Konqres «trestlər əleyhinə» qanun layihəsini qəbul edir. Bu qanuna əsasən iri trestlər və digər inhisarçı qrupların fəaliyyəti dövlət nəzarəti altına keçirdi. Ruzvelt kapitalın həddən artıq mərkəzləşməsini «bədbəxtlik» adlandırırdı. Onun fikrincə bu, rəqabəti, fərdi sahibkarı, ümumiyyətlə xırda burjuaziyanı məhv edir, ölkənin sonrakı inkişafına əngəllər törədirdi.

1902-ci ildən başlayaraq Ruzvelt bu istiqamətdə konkret fəaliyyətə keçir. 1890-cı ildə qəbul edilmiş antitrest Şerman qanununa istinad edən baş prokuror Filander Noks nüfuzlu dəmiryol şirkəti «Şimal səhmdar kompaniyası»na qarşı prosesə başlayır və bu, 1904-cü ildə trestin buraxılması ilə nəticələnir. Bunun ardınca trestlərə qraşı növbəti proseslərə start verilir.

Bununla yanaşı Ruzvelt fəhlə təşkilatlarının yaranmasında da maraqlı idi. 1902-ci ildə prezident Pensilvaniya şaxtaçılarının maaşların artırılması və əmək şəraitinin yaxşılaşdırılması tələbini dəstəkləyir. Arbitraj məhkəməsinin fəhlələrin mənafeyinə uyğun çıxardığı qərarı yerinə yetirməkdən imtina edən sahibkarları regiona ordu göndərməklə, şaxtaları milliləşdirməklə hədələyir və bununla onların məhkəmə qərarına əməl etmələrinə nail olur. Əmək konfliktlərinə dövlətin müdaxilə hüququnun etiraf



downloaded from KitabYurdu.org

edilməsini Ruzvelt daxili siyasətdə özünün başlıca uğuru hesab edirdi.

Fəaliyyətinin əhali tərəfindən dəstəklənməsinə baxmayaraq, onun partiyadaxili mövqeyi müdafiəsiz olaraq qalırdı. Lakin 1904-cü ildə əsas rəqibi M.Hannın vəfatından sonra Ruzveltin partiyadaxili nüfuzu mübahisəsiz oldu. Respublikaçıların növbəti prezident seçkilərinə həsr olunmuş konventində Ruzveltin namizədliyi irəli sürüldü. 1904-cü il noyabrın 8-də keçirilən seçkilərdə Demokratların namizədi Olton B.Parkerə qalib gələrək prezident seçilən Ruzvelt, həmin günün axşamı növbəti seçkilərdə iştirak etməyəcəyini bəyan etdi.

T.Ruzvelt ikinci prezidentlik müddətində də reformist fəaliyyət proqramını həyata keçirir. Onun prezidentliyinin əsas xüsusiyyətlərindən biri də ölkənin xarici siyasi kursunda önəmli dəyişikliklərin olmasıdır. XX əsrin əvvəllərinədək ABŞ-ın xarici siyasət kursunun əsasını təcridçilik prinsipləri təşkil edirdi. İki başlıca amil: ölkənin iqtisadi gücünün sürətli artımı və mərkəzi Avropa hesab edilən beynəlxalq sistemin tədricən tənəzzül etməsi ABŞ-ın ümumdünya siyasət məkanına inteqrasiyasını şərtləndirirdi. Buna subyektiv amillər də təsir göstərməmiş deyildi. Belə ki, Ruzvelti sələflərindən fərqləndirən ən başlıca xüsusiyyəti onun Avropa ilə six tellərlə bağlı, bəzi Avropa dövlət və mədəniyyət xadimləri ilə dostluq əlaqələrinin olması idi. Qeyd edək ki, icraedici hakimiyyətin bir əldə toplanması, konkret olaraq prezidentlik institutunun tətbiqi, xarici və daxili siyasətdə prezidentin şəxsi əlaqələrindən istifadə etməsi üçün geniş imkanlar yaradır. Ruzvelt bu əlaqələrdən məharətlə istifadə edə bilmişdi.

T.Ruzvelt ABŞ xarici siyasət kursunun ideya əsaslarında «sakit inqilab» edib. Ona qədər bu kurs C.Vaşinqtonun vida müraciəti ilə müəyyənləşirdi: Avropadan asılı olmamaq və



downloaded from KitabYurdu.org

bu istiqamətdə Latın Amerikası ölkələrinə dəstək vermək. Lakin, Ruzvelt ümumdünya siyasətində ABŞ-ın söz sahibi olması xəttini yeridir.

XX əsrdə Birləşmiş Ştatların xarici siyasətində üç əsas müddəa Ruzveltin hakimiyyəti dövründə müəyyənləşib: 1) Latın Amerikası – Avropa dövlətlərinin buradan sıxışdırılıb çıxarılması; 2) Asiya – xüsusilə Çin və digər Asiya ölkələrində ABŞ-ın mövqeyinin möhkəmlədilməsi, buna mane olan Yaponiyanın zərərsizləşdirilməsi, 3) Avropa – ümumdünya ağalığının qarantına çevrilə biləcək mövqe döyüşü.

Qarşıya qoyduğu strateji məqsədlərə çatmaq üçün Ruzvelt bütün diqqəti hərbi-dəniz qüvvələrini gücləndirməyə yönəldir. Artıq onun prezidentlik müddətinin sonuna yaxın ABŞ dünyada ikinci dəniz dövləti olur.

Radikal-pasifistləri reallıqdan uzaq romantiklər adlandırsa da, dünyada sülhün qorunub saxlanması tərəfdarı kimi çıxış edir. Rus-Əfqan müharibəsinə son qoyulmasında vasitəçiliyi 1906-cı ildə ona Nobel Sülh mükafatının verilməsilə nəticələnir.

İstefaya çıxdıqdan sonra ümumdünya səyahətinə çıxır. Afrikanı, Avropanı dolaşır, vətənə qayıtdıqdan sonra yenidən aktiv siyasi fəaliyyətə başlayır. Prezident Taftın yeritdiyi siyasətlə razılaşmayaraq 1912-ci ildə yenidən prezident seçilməyə cəhd göstərir. Lakin onun bu istəyi partiya daxilində narazılıqla qarşılanır. Nəticədə Ruzveltin tərəfdarları partiyadan çıxaraq Tərəqqi partiyasını yaradırlar və Ruzvelt onların namizədi olur. Respublikaçıların seçkilərə vahid namizədlə gedə bilməmələri onların məğlubiyyətilə nəticələnir. Demokrat Vilson qalib gələrək prezident seçilir.

Ruzvelt bu məğlubiyyətdən sonra da siyasi fəaliyyətini davam etdirir. 1914-cü ilin payızında ABŞ ictimaiyyətinin



downloaded from KitabYurdu.org

Avropada Almaniyanın özbaşınalığına etirazını dəstəkləyir. Britaniya sərnişin gəmisi «Luzitaniya» batırıldıqdan sonra ABŞ-ın ittifaq qoşunları tərəfində müharibəyə qatılmasının vacibliyini bildirir.

1918-ci ildə Taftla barışması onu növbəti seçkilərə şanslı namizəd edirdi. Lakin səhhətinin kəskin pisləşməsi onun bu planlarını pozdu. Kiçik oğlu Kventinin Fransa cəbhəsində həlak olması onun həyat eşqini daha da korşaldır. T.Ruzvelt 6 yanvar 1919-cu ildə Nyu-York yaxınlığındakı Saqemor-Hil malikanəsində 60 yaşında vəfat edir.



downloaded from KitabYurdu.org



# UİLYAM H.TAFT
## (WILLIAM H. TAFT)
## (1909–1913)

ABŞ-ın 27-ci prezidenti olmuş Uilyam Houard Taft 15 sentyabr 1857-ci ildə Ohayo ştatının Sinsinnati şəhərində varlı vəkil Alfonso Taftın ailəsində dünyaya gəlmişdir. Taft-



downloaded from KitabYurdu.org

lar hələ 1678-ci ildə Amerikaya köçmüş ilk mühacirlərdən idi və bu sülalədən iri torpaq sahibləri, vəkillər, dövlət xadimləri çıxmışdı. Balaca Uilyam ibtidai təhsilini doğma şəhərində aldıqdan sonra Yel Kollecində oxuyur. 1878-ci ildə Kolleci bitirərək Sinsinnati hüquq məktəbində təhsilini davam etdirir.

Hüquq fakültəsini bitirən Taft qəzetdə ona təklif olunan yüksək məvacibli işdən imtina edərək, öz hüquq biliklərini zənginləşdirmək məqsədilə məhkəmədə işləməyə başlayır. 23 yaşında ikən Hamilton qraflığının (Ohayo şt.) prokuror köməkçisi təyin edilir. Bu təyinat Taftın 30 il sonra Ağ Evdə bitəcək siyasi-ictimai karyerasının başlanğıcı idi.

Tezliklə o, atasının dostu Harlan P.Lloydla birgə şəxsi vəkillər kontoru açsa da, iki il sonra vəkillik fəaliyyətinə son qoyur. Maddi cəhətdən heç bir çətinliyi olmayan Uilyam sırf siyasətlə məşğul olmağa qərar verir. Şöhrətpərəst olmasına baxmayaraq, ambisiyaları ABŞ Ali Məhkəməsinin sədri olmaqdan uzağa getmirdi. Ona Ali Məhkəmənin üzvü olmaq təklif edilsə də, sədr olmaq məqsədilə bu təklifdən imtina etmişdi.

1896-cı ildə nüfuzlu ailədən olan Ellen Herronla ailə qurmuş və bu nikahdan onların üç övladı dünyaya gəlmişdir.

1887-ci ildə Ohayo Ali Məhkəməsinin sədri seçilir. Üç il sonra isə prezident Harrison onu Birləşmiş Ştatların Baş prokuroru təyin edir. İki il bu vəzifədə çalışan Taft 1892-ci ildə Sinsinnatiyə qayıdaraq səkkiz il yerli məhkəmədə hakim kimi fəaliyyət göstərir. 1900-cü ildə prezident MakKinli onu iki il əvvəl ABŞ tərəfindən ilhaq edilmiş Filippin arxipelaqının konstitusiyasını hazırlayacaq İkinci komissiyaya prezident təyin edir. Növbəti il Taft arxipelaqın ilk qubernatoru olur.

1904-cü ildə ikinci müddətə prezident seçilmiş T.Ruzveltin qurduğu kabinetə hərbi nazir kimi daxil olan Taft



downloaded from KitabYurdu.org

dörd il bu vəzifədə çalışmışdır. Onun Ruzveltlə isti münasibətləri karyerasına əhəmiyyətli təsir göstərmişdir. Müxtəlif xarakterli insanlar olmasına baxmayaraq, onlar istər siyasi, istərsə də gündəlik həyatda dost olmuşlar. Elə Ruzveltin təklifi ilə də respublikaçılar Taftı 1908-ci il prezident seçkilərinə namizəd göstərirlər. Ruzvelt başladığı siyasi-iqtisadi islahatları Taftın davam etdirəcəyinə inanırdı.

1908-ci ilin noyabrında keçirilən seçkilərdə Taft vitse-prezidentliyə namizəd göstərilmiş Nyu-Yorklu senator Ceyms Şermanla birgə demokratların namizədi Uilyam Brayana qalib gəlir.

Gözlənildiyinin əksinə olaraq, yeni seçilmiş prezident heç də Ruzveltin başladığı islahatları davam etdirməmiş, partiyanın mühafizəkar qanadının dəstəyinə arxalanaraq islahatlar aparılmasına loyal yanaşmışdır. Taftın Ruzveltin məsləhətlərinə laqeyd münasibəti, köhnə dostları bir-birinə rəqib, sonda isə düşmən etdi.

Prezidentin belə daxili siyasi kurs götürməsi respublikaçılar partiyasında böyük narazılıqla qarşılanırdı. İslahat tərəfdarlarının Konqresin hər iki palatasında güclü fraksiya yaratdığını nəzərə alsaq, prezidentin mövqeyinin zəifləyəcəyini, konqres-prezident qarşıdurmasının labüdlüyünü əvvəlcədən xəbər vermək olardı. Taftın apardığı kadr siyasəti də Ruzvelti məyus etmişdir. Yeni kabineti qurarkən Taft əsasən yaxından tanıdığı və inandığı şəxslərə üstünlük vermişdir. İqtisadi məsələlər üzrə vəkil Filander Noksun dövlət katibi, Riçard Bollingerın daxili işlər naziri təyin olunmasını da bununla izah etmək olar.

Lakin, Taft heç də islahatların tam əleyhdarı olmamışdır. Sonradan o, nəinki Ruzveltin başladığı bəzi islahatları həyata keçirmiş, bir çox sahələrdə islahatlar aparılmasının təşəbbüskarı olmuşdur. Poçt xidməti sahəsində islahatlar aparılması və poçt idarəsi nəzdində əmanət kas-



downloaded from KitabYurdu.org

sasının yaradılmasını, uşaq əməyini məhdudlaşdırmaq məqsədilə Ticarət və Əmək Nazirliyində xüsusi idarənin təsis edilməsini yüksək qiymətləndirmək olar. 1910-cu ildə Mann Elkins qanununun qəbul edilməsi dəmiryol şirkətləri üzərində dövlət nəzarətini gücləndirmişdir. Məhkəmələrdə dinlənilən 90 antitrest prosesində o, Ruzveltdən daha kəskin mövqe tutmuşdur. Ruzveltin məharətlə yayındığı gömrük rüsumları haqqnıda qanun da Taftın prezidentliyi dövründə qəbul edilmişdir.

Xarici siyasətdə də Taft öz yolu ilə getmişdir. Prezidentin yeritdiyi xarici siyasi xətt bəzən «dollar diplomatiyası» adlandırılır. Bu siyasətin mahiyyəti bəzi ölkələrə, xüsusilə Çin və Latın Amerikası ölkələrinə yüksək faizlə kreditlər vermək və iqtisadiyyata investisiyalar yatırmaqla onları təsir dairəsində saxlamaq idi. Hadisələrin gedişi bu kursun heç də doğru olmadığını göstərdi.

Ruzvelt və tərəfdarlarının prezidentin yeritdiyi daxili və xarici siyasətlə razılaşmaması respublikaçılar partiyasında ikitirəliyin yaranması ilə sonuclandı. Ruzveltin növbəti prezident seçkilərində partiyanın namizədi olmaq istəyinə kəskin reaksiya verən Taft bunu özünə qarşı xəyanət kimi dəyərləndirdi. Ruzveltin daha yüksək reytinqə malik olmasına baxmayaraq, Tafta bəzi partiya funksionerlərini ələ almaq nəsib oldu və o, 1912-ci il 18 iyunda partiyanın Çikaqoda keçirilən qurultayında prezidentliyə namizəd göstərildi. Bundan dörd gün sonra yeni yaradılmış Tərəqqi Partiyası Ruzveltin namizədliyini irəli sürdü. Seçkilərin gərgin keçəcəyi əvvəlcədən bəlli idi.

5 noyabr 1912-ci ildə keçirilən seçkilərdə Taft ağır məğlubiyyətə uğradı. O, vur-tut 23,23 % səs toplamışdı. Demokratların namizədi V.Vilson 41,9 % səs toplayaraq prezident seçildi. Ruzveltin 27,4 % səs alması isə onun cəmiyyətdə hələ də öz nüfuzunu qoruyub saxladığından xəbər verirdi.



downloaded from KitabYurdu.org

Seçkiləri uduzan eks-prezident vaxtilə tələbəsi olduğu Yel Universitetinə qayıdır və professor kimi elmi-pedaqoji fəaliyyət göstərir. Burada o, hakim və prezidentlik fəaliyyətini analiz edərək üç kitab yazmışdır. Birinci Dünya Müharibəsində Vilsonun bitərəflik siyasətini dəstəkləmiş, Sülh Uğrunda Mübarizə Liqasının prezidenti kimi Yeni dünya düzəninin formalaşdırılmasına tərəfdar çıxmışdır. 1921-ci ildə ABŞ Ali Məhkəməsinin sədri seçilməklə ilk gənclik arzusuna çatmış, növbəti il isə ABŞ məhkəmə sistemində əsaslı islahatlar keçirmişdir.

Uilyam Taft 8 mart 1930-cu ildə Vaşinqtonda vəfat etmişdir. Onun prezidentliyi zəif qiymətləndirilsə də, Ali Məhkəmənin məşhur sədri kimi öz adını Birləşmiş Ştatlar tarixinə böyük hərflərlə yazmışdır.



downloaded from KitabYurdu.org



# VUDRO VİLSON
## (WOODROW WILSON)
## (1913–1921)

Vudro Vilson Z.Teylordan sonra prezident olmuş ilk cənublu idi. Bunu yəqin ki, Cənub ştatlarının ölkə tarixində oynadığı faciəvi rolla izah etmək olar. ABŞ prezidentləri



downloaded from KitabYurdu.org

iyerarxiyasında Vilson Linkoln kimi böyük, eyni zamanda faciəvi prezident hesab edilir.

Vudro Vilson 28 dekabr 1856-cı ildə Virciniya ştatının Stenton şəhərində anadan olub. Şotland əsilli babası Ceyms Vilson 1807-ci ildə İrlandiyadan köçərək Filadelfiyada məskunlaşmışdı. Atası Cozef mükəmməl dini təhsil alsa da ailəsini çətinliklə dolandırırdı. Lakin gələcək prezident hələ uşaqkən ailənin maddi durumu, dayısı vəfat edərkən varidatını onlara vəsiyyət etməsi səbəbindən əhəmiyyətli dərəcədə yaxşılaşır.

Valideynləri balaca Vudronun ev şəraitində təhsil almasına üstünlük verirlər. Bu səbəbdən o, yalnız doqquz yaşında ikən yazıb-oxumaq öyrənir, 12 yaşında isə məktəbə gedir. İki il sonra Vilsonlar Kolumbiyaya (Cənubi Karolina şt.) köçür. 1873-cü ildən Vudro təhsilini Devidson kollecində davam etdirir. Lakin səhhətində əmələ gələn problemlər onu təhsilini yarımçıq qoyaraq valideynlərinin yanına qayıtmağa vadar edir.

Buna baxmayaraq o, müstəqil olaraq təhsilini artırır və 1875-ci ildə ABŞ-ın aparıcı təhsil ocaqlarından biri olan nüfuzlu Prinston Universitetinə qəbul edilir. Təhsilini artırmaqla yanaşı yaradıcılıqla da məşğul olması onu digər tələbələrdən fərqləndirirdi. Onun ilk tədqiqat obyekti görkəmli siyasi xadimlərin həyat və fəaliyyəti olur. 1877-ci ildə yerli jurnalda «Knyaz Bismark», bir il sonra isə «Qraf Uilyam Çatam» (Pitt-böyük) məqalələri dərc olunur. Prinstonda təhsil aldığı müddətdə ən uğurlu işi isə «Birləşmiş Ştatlarda kabinet hökuməti» məqaləsi hesab edilir. Məhz bu məqalə ilə Vilson elmi ictimaiyyətin diqqətini özünə cəlb edir.

1879-cu ilin yayında Prinstonda təhsilini bitirən Vilson Virciniya Universitetinin hüquq fakültəsində oxuyur. Onun xəstələnməsi universiteti tərk etməsilə nəticələnsə də, müstəqil olaraq hüquq, tarix elmlərini dərindən öyrənir.



downloaded from KitabYurdu.org

1882-ci ildə vəkillik praktikası ilə məşğul olmaq cəhdi baş tutmadıqda özünü tamamilə elmə həsr etmək qərarına gəlir.

O zamanlar varlı ailədən çıxmış gənclər təhsillərini artırmaq niyyətilə Avropaya üz tuturdular. Yaxınları Vudroya bunu məsləhət bilsələr də o, alman dilini pis bilməsini səbəb göstərərək təklifi qəbul etmir və Con Hopkins Universitetinin aspiranturasına daxil olur. Burada o, məşhur universitet professorları Riçard Eli, Herbert Adamsın rəhbərliyi altında siyasi-iqtisadi hüququ öyrənir. Bununla yanaşı alman və fransız dillərini mənimsəyir.

Təhsilinə davam etməklə yanaşı elmi araşdırmalar da aparan Vilson «Konqresli idarəetmə» kitabı üzərində işləyir. Kitab 1885-ci ilin yanvarında işıq üzü görür. Əsərin başlıca qayəsini konqres və prezidentin fəaliyyət və funksiyalarının təhlili, ABŞ dövlət hakimiyyətinin iki qolunun qarşılıqlı münasibətinin şərhi təşkil edirdi.

1885-ci ilin yayında Vilson pastor qızı Ellen Eksonla ailə həyatı qurmuş, bu nikahdan üç övladı dünyaya gəlmişdir.

Nəşr olunan kitabı onu akademik dairələrdə tanıdır və müxtəlif universitetlər Vilsona pedaqoji fəaliyyət üçün təkliflər edirlər. Bu zaman maddi çətinliklə üzləşməsi Brin-Mor qızlar kollecindən gələn yüksək məvacibli təkliflə razılaşmasına səbəb olur. 1886-cı ildə şifahi imtahan verərək tarix və siyasiət elmləri üzrə fəlsəfə doktoru adını alır. İki il sonra Ueston Universitetində (Konnektikut şt.) professor vəzifəsini tutur. Burada o, yeni kitabı üzərində işləyir və 1889-cu ildə elmi araşdırmalarının bəhrəsi olan «Dövlət» kitabını çap etdirir.

1889-cu ildə Prinston Universitetinin rektoru F.Petton ona professor yeri təklif edir. On bir il ayrılıqdan sonra Vilson yenidən doğma universitetə qayıdır. Pedaqoji fəaliyyətlə yanaşı elmi araşdırmalarla məşğul olur və 1902-ci ildə beş cildlik «Amerika xalqının tarixi» əsərini nəşr etdirir. Elə həmin il iyunun 9-da Vilson Universitetin rektoru seçilir.



downloaded from KitabYurdu.org

Vilsonun rektor olması ondan elmi-pedaqoji bacarıqla yanaşı inzibatçılıq qabiliyyəti də tələb edirdi. Bu sahədə üzləşdiyi bəzi problemlər sonda onun universitet kollektivi ilə münasibətlərinin korlanmasına səbəb olur. Nəticədə səkkiz il müddətində rektor olan Vilson 1910-cu il 20 oktyabrda istefa verir.

Məğlubiyyət onu çox da məyus etmir. Çünki buna qədər o, Nyu-Cersi qubernatoru seçkilərinə Demokrat partiyasının namizədi seçilmişdi. Bu seçkilər onun həyatında yeni səhifə açmış oldu.

İki illik qubernatorluq fəaliyyəti onun siyasi görüşlərində əsaslı dəyişikliklər yaratdı. Dövrün tələblərilə ayaqlaşmaq zərurəti onun mühafizəkar baxışlardan imtina edərək proqressiv düşərgəyə keçməsinə səbəb oldu. Hər iki partiyada getdikcə daha çox tərəfdar toplayan reformist cərəyan siyasi praktikanın demokratikləşməsini, ətraf mühitin qorunması və azad bazarın inkişafına mane olan kartel və inhisarların yaranmasının qarşısını alacaq iqtisadi islahatların aparılmasını tələb edirdi. Qubernator kimi bu istiqamətdə gördüyü işlər onu bütün ölkədə tanıtdı. Nəticədə 1912-ci il prezident seçkilərində Demokratların namizədi oldu. Respublikaçıların parçalanması isə qələbə qazanmasını asanlaşdırdı.

Prezidentliyinin ilk ilində «Yeni Azadlıq» şüarı altında islahatlar keçirilməsini özündə ehtiva edən qanunlar paketinin Konqresdə ratifikasiya edilməsinə nail oldu. Gömrük tariflərində bank işi və maliyyə sahəsində əsaslı islahatlar keçirildi, federal ticarət komissiyasının təsis edilməsilə sənaye konsernləri üzərində dövlət nəzarəti gücləndirildi. Bu isə öz növbəsində azad rəqabət mühitinin yaranmasına xidmət etdi.

Bu ərəfədə Avropada başlayan müharibə Vilsondan qətiyyətli addımlar atmağı tələb edirdi. Avropada baş vermiş bütün müharibələr kimi, yeni başlanmış bu müharibədə də ABŞ-ın bitərəf qalması zəruri idi. İngiltərə, xüsusilə Şot-



downloaded from KitabYurdu.org

landiya ilə mənəvi bağlılığının olmasına baxmayaraq Vilson ABŞ-ın bitərəfliyini təmin etməyə çalışırdı. Lakin 1915-ci ildən Alman İmperiyası ilə münasibətlər gərginləşir. Buna səbəb isə almanların sualtı qayıqlar vasitəsilə apardığı elan olunmamış amansız müharibə idi.

7 may 1915-ci ildə göyərtəsində 124 Amerika vətəndaşının olduğu Britaniya sərnişin gəmisi «Luzitaniya»nın batırılması hadisələrin kulminasiya nöqtəsi oldu. Buna etirazını bildirən Vilson Almaniya hökumətindən sualtı müharibənin dayandırılmasını, dənizdə kreyser müharibəsi çərçivəsində – neytral gəmilərə toxunmamaqla müharibə aparılmasını tələb etdi. 18 aprel 1916-cı ildə Fransaya məxsus «Sussex» gəmisi məhv edildikdə isə ABŞ öz mövqeyini uyğun ultimatumla bildirdi. Lakin Avropa dövlətlərinin gözlədiyinin əksinə olaraq Alman-Amerika münaqişəsi yüksələn xətlə inkişaf etmədi. Buna səbəb Almaniyanın 1916-cı ilin aprelində sualtı müharibəni dayandırdığını bəyan etməsi oldu.

Buna baxmayaraq Vilson ABŞ-ın bitərəfliyinin nə qədər dayanıqsız olduğunu başa düşürdü. Səlahiyyətli nümayəndəsi Edvard Hauzun vasitəçiliyi ilə döyüşən tərəflər arasında barışdırıcılıq missiyasını üzərinə götürdüyünü bildirsə də təşəbbüsü dəstəklənmir. 1916-cı il prezident seçkilərini də məhz ABŞ-ı müharibədən kənarda saxlamaq şüarı altında keçirir.

31 yanvar 1917-ci ildə Almaniyanın yenidən sualtı müharibəyə başladığını elan etməsi münasibətləri gərginləşdirdi. 18 aprel 1916-cı il ultimatumundan sonra ABŞ-ın, eyni zamanda özünün nüfuzunu qorumağa məcbur olan Vilson Almaniya ilə diplomatik əlaqələri kəsdi. Bir neçə Amerika gəmisi batırıldıqdan sonra 6 aprel 1917-ci ildə Konqresin razılığı ilə Almaniyaya müharibə elan edildi.

Vilsonu müharibənin müqəddəratı ilə yanaşı, müharibədən sonrakı dünyanın siyasi düzəni də narahat edirdi. Bu məqsədlə o, 8 yanvar 1918-ci ildə özünün məşhur «14



downloaded from KitabYurdu.org

maddə» tələbini irəli sürür. Lakin hər şeydən əvvəl alman hərb maşınını məğlub etmək lazım idi. Bunun üçün Vilson Amerikanın bütün iqtisadi gücünü səfərbər etdi. Bu işdə amerikalıların böyük əksəriyyəti onu müdafiə edirdi. Avropaya əsgərlə yanaşı maddi və mənəvi kömək göstərilirdi. Fransada Qərb cəbhəsinin açılması həlledici rol oynadı və Almaniya 3 oktyabr 1918-ci ildə Vilsonun təklif etdiyi «14 maddə» əsasında Sülh danışıqlarına başlamağa razılığını bildirdi. Bu Vilsonun ümumdünya şöhrətinin zirvə nöqtəsi idi.

Ölkənin gələcək taleyini düşünən Vilson eyni zamanda digər Avropa ölkələri ilə də müqavilələr imzalamağı zəruri hesab edirdi. 1919-cu il yanvar-may aylarında Parisdə qaliblərin sülh konfransı keçirildi. Burada Vilsonun əsas məqsədi Millətlər Liqasının yaradılması idi. Uzun sürən danışıqlar bəhrəsini verdi və 1919-cu il 28 iyunda Versal Sülh Müqaviləsi imzalandı.

İndi Vilsonun qarşısında duran növbəti problem, Versal Sülh Müqaviləsinin senatda 2/3 səs çoxluğu ilə ratifikasiyası idi. İlk müzakirələrdən müqavilə təpki ilə qarşılandı. Bunun bəzi səbəbləri vardı. Hər şeydən əvvəl 1918-ci ildə Konqresə keçirilən seçkilərdə respublikaçılar yerlərin çoxuna sahib olmuşdular. Digər tərəfdən Müqavilənin əsas maddələrindən biri Millətlər Liqasının yaradılmasını, bu da öz növbəsində Avropada başlaya biləcək hər hansı növbəti müharibəyə ABŞ-ın avtomatik cəlb olunmasını tələb edirdi. Vilsona müxalif qüvvələr əksər amerikalıların arzusuna uyğun olaraq ABŞ-ı müharibələrdən kənarda saxlamaq, normal dinc həyata qayıtmaq çağırışları səsləndirirdilər.

Konqreslə dil tapa bilməyən Vilson məqsədini bilavasitə xalqa çatdırmaq arzusu ilə ölkəyə səfərə çıxır. Şimal və Qərb bölgələrində təbliğat işi apararaq Sülh Müqaviləsi təsdiqlənməsə yaxın gələcəkdə daha dəhşətli müharibə ilə üzləşmək təhlükəsinin real olduğunu bildirir. Koloradodakı çıxışlarından biri ərəfəsində səhhəti qəfildən pisləşir və o,



downloaded from KitabYurdu.org

təcili olaraq Vaşinqtona çatdırılır. 2 oktyabr 1919-cu ildə beyninə qan sızır və sol tərəfi iflic olur. Tədricən səhhəti normallaşsa da həkimlərə onu tam sağaltmaq müyəssər olmur.

19 mart 1920-ci ildə Senat Versal Sülh Müqaviləsini təsdiq etməmək haqqında qəti qərar verir. Bununla ABŞ müqavilənin və Millətlər Liqasının qarantı olmaqdan boyun qaçırır.

Senatın qərarını şəxsi faciəsi hesab edən Vilson siyasi karyerasının belə acı sonluqla bitməsilə barışmaq istəməmişdir. Növbəti seçkilərdə demokratların qələbəsinə ümid bəsləmiş və seçkiləri udacaqları halda Millətlər Liqası Xartiyasının qəbul edilməsi üçün referendum keçirilməsini mümkün saymışdı. Lakin 1920-ci il seçkilərində demokratlar ağır məğlubiyyətə uğradılar.

Hadisələrdən məyus olan Vilson tənhalığa çəkilir, ictimai-siyasi həyatda iştirak etmir. Bu onsuz da xəstə eks-prezidentin səhhətinin tam korlanması ilə nəticələnir və o, 3 fevral 1924-cü ildə vəfat edir.



downloaded from KitabYurdu.org



# UORREN HARDİNQ
## (WARREN G. HARDING)
## (1921–1923)

Ohayodakı Bluminq-Qrouv qəsəbəsinin sakini Fibi Elizabet Hardinq ən azı bir arzusuna görə Amerikanın bütün analarına oxşayırdı. Öz oğlunu xoş günlərin birində



downloaded from KitabYurdu.org

Birləşmiş Ştatların prezidenti görmək onun müqəddəs arzusu idi. Yaşıdlarından heç bir üstünlüyü ilə fərqlənməyən balaca Uorrenin gələcəkdə prezident olması «Amerika əfsanəsinin» yalnız əfsanə olmadığını sübut edirdi. Bu «əfsanə»yə görə sosial mənsubiyyətindən, maddi vəziyyətindən, təhsil aldığı məktəbin nüfuzundan asılı olmayaraq hər bir Amerika vətəndaşı prezidentlik iddiasında ola və bu arzusunu gerçəkləşdirə bilər.

Uorren Hamaliel Hardinq 2 noyabr 1865-ci ildə Ohayo ştatının Bluminq-Qrouv qəsəbəsində dünyaya gəlmişdir. Amerikada yaşayan ilk Hardinq 1623-cü ildə İngiltərədən gələrək Massaçusets ərazisindəki Breyntri şəhərində məskunlaşmış Ricard Hardinq olmuşdur. Bəzi şayiələrə görə Hardinqlərin zənci qarışığı var idi. Gələcək prezidentin atası Corc Hardinq fermer və homeopat-həkim idi. Zəhmətkeş, işgüzar, namuslu insan olan C.Hardinq ailəsini çətinliklə dolandırırdı. Qəsəbənin bütün uşaqları kimi Uorren də təsərrüfat işlərində valideynlərinə kömək etməyə məcbur idi. O yerli məktəbdə ilk təhsilini aldıqdan sonra, on yaşında ikən «Kaledonian Arkus» qəzetinin mətbəəsində şagird kimi əmək fəaliyyətinə başlayır. Eyni zamanda İberiya-kollecdə təhsilini davam etdirir və 1882-ci ildə oranı bitirir. Aldığı təhsilin ona heç bir praktik bacarıq verməməsi ucbatından qısa müddətə bir neçə sənət dəyişməli olur.

18 yaşında ikən Marion şəhərinə köçür və yerli «Deyli Star» qəzetində redaktor, sonra isə «Mirror» qəzetində reportyor kimi çalışır. Tezliklə iki şəriki ilə birgə «Star» qəzetinin aksiyalarını alır. Adi əyalət qəzeti olan «Star» Hardinqin rəhbərliyi altında tirajını iki dəfə artırır və sahiblərinə gəlir verməyə başlayır.

1891-ci ildə 25 yaşlı Uorren varlı iş adamı Amos Klinqin qızı Florenslə ailə qurur. Xanım Hardinq ərinin işinə yardımçı olur və qəzetin satışını öz üzərinə götürür.



downloaded from KitabYurdu.org

XIX əsrin sonlarında Marion şəhəri sürətlə inkişaf edərək ştatın böyük şəhərlərindən birinə çevrilir. Bununla yanaşı şəhərin ən populyar qəzeti olan «Star» da öz tirajını artıraraq böyük qazanc gətirir. Tədricən ştatın nüfuzlu və varlı adamlarından biri olan Hardinq gəlirlərini digər istehsal sahələrinə yatıraraq kapitalını daha da artırır.

Onun, xüsusən qadınlara böyük təsir göstərən gözəgəlimli xarici görünüşü, var-dövləti, işgüzar əlaqələri və şəxsi keyfiyyətləri siyasi arenaya çıxışını asanlaşdırır. Hələ 22 yaşı olarkən Respublikaçılar partiyasının Ohayo bölməsi qurultayına nümayəndə seçilir. Beş il sonra isə Marion gənc respublikaçılar təşkilatının rəhbəri olur və öz qəzetini onların ruporuna çevirir. 1903-cü ildə Ohayo ştatının vitse-qubernatoru olur.

1910-cu ildə qubernator seçilmək cəhdi baş tutmasa da, məğlubiyyət Hardinqi ruhdan salmır, dörd il sonra ştatın senatda iki təmsilçisindən biri seçilir. Onun senator kimi fəaliyyəti qənaətbəxş olmasa da, bu gözəgəlimli və ideoloji cəhətdən etibarlı senator 1920-ci il prezident seçkilərinə partiyanın namizədi oldu. Qeyd edək ki, onun bu qələbəsində yaraşıqlı xarici görkəmi az rol oynamamışdır. Təsadüfi deyil ki, onunla tanış olan Ohayolu partiya funksionerlərindən biri «O yaraşıqlı prezident ola bilərdi» söyləmişdi.

Hardinqin namizəd olmasının digər və bəlkə də başlıca səbəbi, namizədlik uğrunda gərgin mübarizə aparan iki partiya lideri Leonard Vud və Frenk Loudenin onun şəxsində ortaq məxrəcə gəlmələri olmuşdur. Onun seçki platformasının əsasını vergilərin azaldılması, immiqrasiyanın məhdudlaşdırılması, qadın əməyinin kişilərlə bərabər dəyərləndirilməsi təşkil edirdi.

1920-ci il noyabrın 2-də keçirilən seçkilərdə Hardinq parlaq qələbə çaldı. O, 60,4 %, demokratların namizədi Ceyms Koks isə 34,2 % səs topladı.



downloaded from KitabYurdu.org

Yeni qurulan kabinetdə təcrübəli və bacarıqlı siyasi xadimlər təmsil olunurdu. Onlardan Çarlz Hyuz (dövlət katibi), gələcəkdə prezident olmuş H.Huver (ticarət), Uolles (kənd təsərrüfatı), Mellon (maliyyə) və başqalarını uğurlu təyinat hesab etmək olar. Prezident köhnə siyasi dostlarını da yaddan çıxartmadı. Doerti və Foll uyğun olaraq Ədliyyə və Daxili İşlər naziri təyin edildilər.

Haqqnıda dolaşan bəzi şayiələrə baxmayaraq Hardinq işgüzar prezident olmuşdur. Büdcə vəsaitlərinin qənaətlə istifadəsinə cavabdeh olan büdcə şurasının təsis edilməsi yeni qurulan kabinetin ilk tədbirlərindən oldu. Vilsonun iqtisadi tənzimlənmə siyasəti tezliklə aradan qaldırıldı. Qəbul olunmuş vergi qanunlarına əsasən vergilər azaldıldı, gömrük qanunları ilə kənd təsərrüfatı və sənaye məhsullarına qoyulan rüsumlar isə artırıldı. Kənd təsərrüfatına kömək məqsədilə fermerlərə iki milyard dollar həcmində kredit ayrılması, federal avtomobil yollarının çəkilməsi hökumətin qənaətbəxş fəaliyyətindən xəbər verirdi.

Hardinq administrasiyasının xarici siyasətdə atdığı ilk addım keçmiş hərbi rəqibləri ilə münasibətləri tənzimləmək oldu. Bu məqsədlə 1921-ci il avqust ayında Almaniya ilə sülh müqaviləsi imzalandı. Noyabrda isə Vaşinqtonda Uzaq Şərqdə vəziyyətin nizamlanması və donanmada silahlanmanın məhdudlaşdırılması məqsədilə doqquz hegemon dövlətin iştirak etdiyi konfrans keçirildi. Konfransda ümumi razılıqla Çinin suverenliyi və ərazi bütövlüyü birmənalı olaraq təsdiqləndi.

1923-cü ilin ilk aylarında Prezident administrasiyasının bəzi əməkdaşlarının adı böyük qalmaqallarda hallandırıldı. Hardinqin özü qalmaqallı korrupsiyalarda bilavasitə iştirak etməsə belə, məsuliyyət daşıyırdı. Çünki əsas «qəhrəmanlar» sırasında onunla yaxın olması ilə seçilən şəxslər də vardı. Huverin məsləhət görməsinə baxmayaraq,



downloaded from KitabYurdu.org

cinayətlərin üstünün tezliklə açılmasına təşəbbüs göstərməməsi Hardinqin böyük səhvi oldu. Əsas sensasiyanı isə «Teapot-Dome» skandalı doğurdu. Bu, Daxili İşlər naziri Follun görünməmiş məbləğdə rüşvət alaraq, dövlətə məxsus qiymətli neft yataqlarını iki sahibkara verməsilə bağlı idi. Tezliklə Foll cinayət məsuliyyətinə cəlb olunaraq həbs edildi. Kabinet üzvünün həbsxanaya düşməsi ABŞ tarixində ilk hadisə idi. Ədliyyə naziri Doertini oxşar taledən yalnız dəlillərin azlığı qurtardı.

1923-cü ilin yayında cəmiyyəti sakitləşdirmək və nüfuzunu bərpa etmək məqsədilə Alyaska və Qərb ştatlarına səfərə çıxmış Hardinq səfər zamanı, San-Fransiskoda olarkən, 2 avqust 1923-cü ildə 57 yaşında beyninə qan sızması nəticəsində vəfat etmişdir.



downloaded from KitabYurdu.org



# KALVİN KULİC
## (CALVIN COOLIDGE)
## (1923–1929)

Prezident Hardinqin qəfil vəfatından sonra vitse-prezident Kalvin Kulic ölkənin ali vəzifəsinə sahib oldu. Yeni prezident 4 iyul 1872-ci ildə Vermontun Plimut Noç yaşayış məntəqəsində dünyaya gəlmişdi. Onun ingilis puritanı olan ulu babası Con Kulic 1630-cu ildə Uotertaunda (Massaçusets şt.) məskən salmışdı. Fermer, dükan və poçt sahibi,



downloaded from KitabYurdu.org

eyni zamanda dünyəvi hakim olan atası Con Kulic oğlunun təlim-tərbiyəsinə xüsusi diqqət yetirirdi.

13 yaşlı Kalvin ilk təhsilini Ladloudakı bahalı tədris müəssisələrindən biri «Blək River» məktəbində alır. Məktəbi bitirdikdən sonra, əsasən ziyalı ailələrindən çıxmış uşaqların oxuduğu, nüfuzlu Amhert kollecində təhsilini davam etdirir. Bəzi bioqrafları Kulicləri varlı ailələrdən hesab etsələr də, fakt budur ki, atası maddi çətinliklər ucbatından gələcək prezidentin nüfuzlu Universitetlərdən birində hüquq təhsili almasına yardımçı ola bilməmişdir. Kalvin hüquq elmlərini müstəqil öyrənməyə məcbur olur. Bu işdə ona Northemptonun varlı və görkəmli vəkilləri, xüsusilə atasının dostu və Vermontun keçmiş qubernatoru Uilyam Diliqhem böyük köməklik göstərmişlər.

1897-ci ildə 25 yaşlı Kulic Massaçusets vəkillər kollegiyasına qəbul edilir və o, tezliklə şəxsi kontorunu açır. İki illik vəkillik fəaliyyəti ərzində böyük hörmətlə yanaşı, var-dövlət də qazana bilir. Onun müştəriləri arasında ştatın nüfuzlu iş və ticarət adamları özünə yer tutur. O, eyni zamanda şəhər hüquq məsləhətçisi vəzifəsini də tutmuşdur.

33 yaşlı Kulic Northemptona köçərək burada müəllimə işləyən, Vermont Universitetinin məzunu Qreys Anna Qudhyu ilə ailə qurmuşdur.

İlk gənclik yaşlarından siyasətə ciddi maraq göstərən Kulic respublikaçılar partiyasına üzv yazılır. Onun vəkillər kontorundakı iş yoldaşları, vaxtilə uyğun olaraq mer və dairə prokuroru seçilməsində yardımçı olduğu Henri Fild və Con Hemmond öz növbələrində Kulicin siyasi karyera etməsinə yaxından kömək edirlər. Məhz onların himayədarlığı sayəsində Kulic Respublikaçılar partyasının Northempton şəhər komitəsinə, sonra isə şəhər bələdiyyəsinə fəxri üzv seçilir. Üç il şəhər hüquq məsləhətçisi vəzifəsində çalışdıqdan sonra 1903-cü ildə müvəqqəti olaraq Hempşir qraflığının məhkəmə katibi təyin edilir. İki dəfə ardıcıl ştat parla-


downloaded from KitabYurdu.org

mentinin aşağı palatasına seçildikdən sonra Northempton şəhərinin meri olur.

Yalnız bir il mer kimi fəaliyyət göstərdikdən sonra, ştat senatına seçilir. Üç dəfə ardıcıl senata seçilən Kulic, 1914-cü ildə onun sədri olur. Növbəti il ştatın vitse-qubernatoru, 1919-20-ci illərdə Massaçusets ştatının qubernatoru olmuşdur.

Birinci Dünya Müharibəsindən sonra ölkənin ictimai-siyasi həyatında xaos yaranmışdı, radikal düşüncəli insanlar təqib edilirdi. Bu ərəfədə qubernator olan Kulic, çıxışları ilə ümummilli nüfuz qazandı. O, ölkədə sabitliyin və qanunun müdafiəçisi kimi respublikaçıların milli konventində vitse-prezidentliyə namizəd göstərildi. Respublikaçıların qələbəsi və Hardinqin vəfatından sonra 2 avqust 1923-cü ildə prezident kürsüsünə sahib oldu. Yeni prezidentin andiçmə mərasimini barışdırıcı hakim olan atası Plimutdakı evində qəbul etdi. Kulic lampa işığında əlini ailə Bibliyasına basıb and içdi. Radio vasitəsilə bütün ölkəyə yayımlanan təmtəraqsız mərasim, prezidenti sağlam kənd Amerikasının təcəssümü kimi təqdim edirdi.

Kulicin prezidentliyi iyirminci illərin iqtisadi yüksəliş dövrünə təsadüf edir. Ölkə vətəndaşları yeni prezidenti tərəqqinin simvol və qarantı hesab edirdilər. Daxili siyasətdə sələfi Hardinqin proqramını əsas götürən Kulic immiqrasiyanın məhdudlaşdırılması, Amerika sənayesinin marağı çərçivəsində müdafiə xarakterli rüsumların saxlanılması, fermerlərə ayrılan kreditlərə dövlət nəzarətinin təmin edilməsi, gəmiqayırmanın özəlləşdirilməsi tərəfdarı kimi çıxış edirdi. Prezident, adları məşhur korrupsiya və rüşvətxorluq qalmaqallarında hallandırılan ədliyyə naziri Doerti və hərbi nazir Vik istisna olmaqla, Hardinqin qurduğu kabineti bütünlüklə saxlamışdı.

1924-cü il seçkilərində Kulic yenidən qələbə çaldı. O, 54 % səs toplayaraq demokratların namizədi Con Devis və



downloaded from KitabYurdu.org

fermer təşkilatları, həmkarlar, vətəndaş və qadın təşkilatları komissiyasının namizədi, Viskonsinli islahatçı senator Robert Lafolleti üstələyərək ikinci müddətə prezident seçildi.

Kulicin ikinci prezidentlik dövründə ticarət naziri Huver bir çox qanunların qəbul edilməsinə təşəbbüs göstərmişdir. Hava rabitə sisteminin yeniləşdirilməsi, radio şəbəkəsinin inkişafı və özəl radio kanallarına dövlət nəzarətinin təmin edilməsi, hava nəqliyyatı haqqında qanunların qəbul edilməsi ümumilikdə ölkənin inkişafına stimul verdi. 1928-ci ildə Boulder-Kanyan layihəsi əsasında Kolorado çayı üzərində, o dövrlər üçün dünyanın ən böyük bəndinin tikintisi başlandı. Amerika hindularına vətəndaşlıq hüququnun verilməsini də Kulic administrasiyasının uğuru hesab etmək olar.

Bütün bunlarla yanaşı Prezidentin yeritdiyi daxili siyasi-iqtisadi kursun mənfi cəhətləri də olmuşdur. Hökumət tərəfindən himayə edilən böyük biznesin nəzarətsiz qalması, birjalarda möhtəkirlik hallarının çiçəklənməsi 1929-cu ildə baş verən Böyük böhranı şərtləndirən səbəblərdən olmuşdur.

Kulic administrasiyasının xarici siyasi kursunun əsasını iqtisadi ekspansiya təşkil edirdi. Bu dövrdə xarici ölkələrdə (əsasən Avropa, Kanada və Latın Amerikası) yatırılan Amerika kapitalı 17 milyard dollar həcmində idi.

Xarici siyasi kursun təşkilini dövlət katibi Çarlz Hyuza həvalə edən Kulic 1925-ci ildə onu Frenk Kelloqla əvəz edir. Müharibədən sonra Avropa ölkələri arasında yaranmış hərbi borclar və təzminatlar probleminin həllində Amerika yaxından iştirak etmiş, bəzi Amerika bankları Almaniyaya uzunmüddətli borclar vermişdir.

Fransa Xarici İşlər Naziri Aristid Brian və dövlət katibi F.Kelloqun təşəbbüsü ilə 1928-ci ildə «Müharibədən imtina» paktının bağlanmasını Kulic administrasiyasının başlıca uğuru hesab etmək olar. Brian-Kelloq adlandırılan pakt çoxtərəfli müqavilə idi və onu 60-dan çox ölkə imzaladı.



downloaded from KitabYurdu.org

Paktı imzalayan dövlətlər müharibədən milli siyasət vasitəsi kimi imtina edirdilər. Bu isə öz növbəsində beynəlxalq münasibətlərdəki gərginliyi müvəqqəti də olsa zəiflədirdi.

1928-ci ildə Kulic administrasiyası Çan Kayşinin rəhbərlik etdiyi Çin milli hökumətini rəsmən tanıdı. Lakin Kulic və dövlət departamenti, iki ölkə arasında iqtisadi əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etməsinə baxmayaraq, SSRİ-ni tanımaq istəmirdilər.

1927-ci ildə Kulic gözlənilmədən növbəti il keçiriləcək prezident seçkilərində iştirak etməyəcəyini bəyan etdi. Bu qərara əsas kimi ailə və şəxsi problemlərini göstərən prezident, ticarət naziri Huverə Ağ Evə gedən yolda yaşıl işıq yandırmış oldu.

Ağ Evi tərk edən eks-prezident yenidən Northemptona qayıdır. Bundan sonra o, avtobioqrafiyasını və bəzi qəzetlər üçün məqalələr yazmaqla məşğul olur. Kulic 5 yanvar 1933-cü ildə 60 yaşında infarktdan vəfat etmişdir.



downloaded from KitabYurdu.org



# HERBERT KLARK HUVER
## (HERBERT HOOVER)
## (1929–1933)

ABŞ-ın 31-ci prezidenti Herbert K.Huver bəzi xüsusiyyətlərinə görə bütün sələflərindən fərqlənir. Hər şeydən əvvəl o, Missisipi çayından qərbdə doğulmuş ilk prezident idi. Digər tərəfdən Ağ Evədək maraqlı və qeyri-adi həyat yolu keçən Huver heç bir seçkili orqan, və ya vəzifədə təmsil olunmamışdı.



downloaded from KitabYurdu.org

Huver 10 avqust 1874-cü ildə Ayova ştatının Uest Branç şəhərində dünyaya gəlib. Dini təqiblərdən yaxa qurtarmaq istəyilə İsveçrədən qaçmağa məcbur olan əcdadları 1738-ci ildən Pensilvaniyada məskunlaşmışdılar. Gələcək prezidentin atası Cessi Huver dəmirçixana və kənd təsərrüfatı alətlərinin satışı və təmiri ilə məşğul olan kontorun sahibi idi. Altı yaşında atasını, səkkiz yaşında isə anasını itirən balaca Herbert iki il Uest Brançdakı, əmisinə məxsus, fermada yaşayır, sonra Oreqona köçür. Burada o, dayısı Henri Con Mentornun himayəsi altında yaşamalı idi. Həkim və Oreqonda torpaq sahibi olan dayısı ona öz övladı kimi qayğı göstərir. Huver ilk yeniyetməlik çağlarından dayısına məxsus kontorda işləməklə yanaşı, yerli biznes məktəbinin axşam şöbəsində təhsil alaraq, riyaziyyatı öyrənir.

1891-ci ildə 17 yaşlı Huver yeni yaradılmış Stenford Universitetinə daxil olur. Özündə dil öyrənməyə və digər fənlərə bacarıq görməyərək, geologiya və mədən mühəndisliyi üzrə ixtisaslaşır. Təhsil aldığı ilk illərdə, qəzet satmış, xırda kontorçu işləmiş, hətta camaşırxanada fəhləlik etmişdir. İşgüzar, bacarıqlı gənc olan Huver tezliklə Amerikanın məşhur geoloqlarından biri, professor Brennerin katibi olur. Məhz Brennerin məsləhətilə o, Arkanzas geologiya idarəsi ilə əməkdaşlıq etmişdi.

Universitetdə təhsilini bitirən Huver əvvəl mədəndə fəhlə, sonra isə qazma qurğusu maşinistinin köməkçisi kimi təcrübə toplayır. Xoş təsadüf nəticəsində dağ-mədən işləri üzrə tanınmış mütəxəssis Luis Caninlə tanış olur və onun yanında işləməyə başlayır. Bu tanışlıqdan iki il sonra Avstraliyada, böyük mədənçıxarma kompaniyalarından birində, yüksək məvacibli iş yerinə yiyələnir. On min dollarlıq illik gəlirinin bir hissəsini kompaniyaya məxsus perspektivli qızıl mədəninə yatıraraq onun payçısı olur. 1899-cu ildə Pekində illik 20 min dollar məvacibi verən və əlavə xidməti xərcləri də ödəyən firma ilə əlverişli müqavilə bağlayır.



downloaded from KitabYurdu.org

Elə həmin il 25 yaşlı Huver vaxtilə Stenford Universitetində bir yerdə oxuduğu Montereyli (Kaliforniya şt.) bankir qızı Lu Henri ilə ailə qurur. Xanım Huver ölkənin birinci xanımı olaraq, qadın hüquqlarının dönməz müdafiəçisi kimi çıxış etmiş, qadın idmanının inkişafına dəstək vermişdir.

İki il sonra, 1901-ci ildə Huver Londondakı böyük «Byuik Morinq ənd K» firmasının şəriki olur. Birinci Dünya Müharibəsi ərəfəsində 40 yaşlı Huver artıq multimillioner idi. Huverlərin Kensinqton Qardenzdəki dəbdəbəli evlərində tez-tez təşkil olunan ziyafətlərdə ölkənin tanınmış siyasətçiləri, maliyyəçi və digər məşhurları iştirak edirdi. Maddi cəhətdən heç bir problemi olmayan Huver özünü bütünlüklə dövlət xidmətinə həsr etməyə qərar verir. 1921-ci ildə dünyanın böyük mədənçıxarma və metallurgiya konsernin sahibləri Hugenhaym qardaşlarının şirkətə şərik olması barədə ona etdikləri təklifdən imtina edir. İllik gəliri yarım milyon dollar olan sərfəli təklifi rədd edərək əvəzində prezident Hardinqin qurduğu kabinetdə illik məvacibi 15 min dollar olan ticarət naziri vəzifəsinə razılaşması, onun böyük siyasi ambisiyalarından xəbər verirdi. Belçikaya yardım komissiyasına sədr təyin olunması, sonralar isə Amerika ərzaq administrasiyasına rəhbərlik etməsi Huveri ölkə miqyasında tanıtdı. Müharibədən sonra bəzi Avropa dövlətlərinə yardım etməklə məşğul olan müxtəlif təşkilat və agentliklərin fəaliyyətinə rəhbərlik edərək, 1919-cu il Paris Sülh Konfransında iştirak edəcək ABŞ nümayəndə heyətinə daxil edildi. Əvvəl Hardinq, sonra isə Kulicin prezidentliyi dövründə ticarət naziri vəzifəsində çalışaraq zəngin inzibatçılıq təcrübəsi topladı.

Prezident Kulic növbəti seçkilərdə iştirak etməyəcəyini bəyan etdikdə respublikaçılar bu posta daha şanslı hesab etdikləri Huverin namizədliyini irəli sürdülər. Demokrat partiyasının namizədi isə Nyu-Yorkun qubernatoru Alfred Smit idi. Uğurlu seçkiönü kompaniya keçirən Huver 6



downloaded from KitabYurdu.org

noyabr 1928-ci ildə baş tutmuş seçkilərdə 58,2% səs toplayaraq prezident seçildi. İstedadlı təşkilatçı, inzibatçı və texnokrat olan Huver ölkənin işgüzar elitasından çıxmış ilk prezident idi. Onun siyasi-iqtisadi konsepsiyasının əsasını dövlət inzibati orqanlarının yeniləşdirilməsi, hökumətin və iqtisadiyyat bosslarının qeyri-rəsmi qarşılıqlı fəaliyyəti ilə ölkə iqtisadiyyatının inkişaf etdirilməsi təşkil edirdi. Onun qurduğu kabinetdə əsasən sənayeçilər, bankirlər və digər iş adamları təmsil olunurdular. Təcrübəli respublikaçı, siyasətçi və diplomat Henri Stimson xarici işlər naziri təyin edildi.

Huverin daxili siyasi-iqtisadi kursunda başlıca məqsədlər: milli parkların genişləndirilməsi və meşə təsərrüfatının inkişaf etdirilməsi, hinduların həyat şəraitlərinin yaxşılaşdırılması, «Quru qanun»un (Spirtli içkilərin istehsal və satışına qadağa) həyata keçirilməsi, milli xeyriyyəçilik və sosial xidmət fəaliyyətlərinin koordinasiyası və s. idi. Təəssüf ki, bu sahələrin heç birində ciddi uğurlar əldə edilmədi.

1929-cu il oktyabr ayında iqtisadiyyatın bütün bölmələrində iz qoymuş «Böyük böhran» baş verdi. 1932-ci ildə Amerika sənaye istehsalı 1913-cü il, xarici ticarət dövriyyəsi isə 1905-ci il səviyyəsinə endi. Böhranın zirvəsi hesab edilən 1932-33-cü illərin qışında fəhlələrin 25%-i işsiz qaldı. Huver hadisələrin əsirinə çevrilərək sosial ehtiyacların və iqtisadi hərc-mərcliyin miqyasını düzgün dəyərləndirə bilmədi. O, 1930-cu ilin yazında gömrük rüsumlarını rekord yüksək həddə müəyyənləşdirən qanunu təsdiq etməklə səhvə yol verdi. Bu qanun nəinki ölkə, bütün dünya ticarət sisteminə ağır zərbə vurdu. Yalnız 1930-cu ilin axırlarında Huver administrasiyası antiböhran tədbirlərinə başladı.

1932-ci ildə hökumət hər ştata 300 milyon dollar həcmində maliyyə yardımı etdi. Prezident Konqresin təklif etdiyi geniş islahatlar paketinə, o cümlədən işsizliyin qarşısını almaq üçün dövlət vəsaitinin ayrılmasını nəzərdə tu-



downloaded from KitabYurdu.org

tan qanuna veto qoydu. Huverin ümummilli fəlakətə laqeyd münasibəti, xüsusilə 1932-ci ildə müharibə veteranlarının Vaşinqtondakı nümayişinin hərbi güc tətbiq etməklə dağıdılmasını əmr etməsi, onun ictimaiyyət arasında sürətlə nüfuzdan düşməsinə səbəb oldu.

Xarici siyasətdə Huver, faktiki olaraq hər iki sələfinin tutduğu kursu davam etdirmişdir. O da, öz növbəsində, Millətlər Liqasında iştirak etməmək, SSRİ-ni tanımamağın tərəfdarı kimi çıxış edirdi.

1932-ci il prezident seçkiləri ərəfəsində Huverin reytinqi olduqca aşağı idi. Daha şanslı namizədin olmaması səbəbindən respublikaçılar yenidən onu namizəd göstərdilər. Demokratların namizədi isə Nyu-Yorkun islahatçı qubernatoru Franklin D.Ruzvelt idi. Ölkədə baş verən «Böyük böhran» və onun qarşısını almaq üçün görülən tədbirlərin qeyri-effektiv xarakter daşıması Huverin seçkilərdə acınacaqlı məğlubiyyətinə səbəb oldu.

Ağ Evi tərk etdikdən sonra Huver uzun ömür yaşamışdır. Nyu-Yorkdakı «Uoldorf Astoriya» mehmanxanasında yaşayan eks-prezident Ruzveltin «Yeni kurs» siyasətini kəskin tənqid etmiş, İkinci Dünya Müharibəsində ABŞ-ın iştirakına qarşı çıxmışdır. Trumen və Eyzenhauerin prezidentlikləri dövründə, 1946-55-ci illərdə Avropaya humanitar kömək göstərən təşkilatların koordinatoru kimi dövlət tapşırığını yerinə yetirmişdir. O, həmçinin ölkənin Koreya və Vyetnama hərbi müdaxiləsini təqdir etməmişdir.

H.Huver 20 oktyabr 1964-cü ildə 90 yaşında Nyu-Yorkda dünyasını dəyişmiş və vətəni Uest-Brançda dəfn edilmişdir. O, 31 il eks-prezident statusunda yaşamaqla özünəməxsus rekorda imza atmışdır. Onun bu rekordu, ABŞ-ın 39-cu prezidenti olmuş Cimmi Carter tərəfindən yenilənib.



downloaded from KitabYurdu.org



# FRANKLİN DELANO RUZVELT
## (FRANKLIN D. ROOSEVELT) (1933–1945)

Franklin D.Ruzvelt XX əsrin ən görkəmli və parlaq siyasi xadimlərindən biri hesab edilir. Onun prezidentliyi ölkə daxilində və bütün dünyada böyük hadisələr, kataklizmlərlə zəngin dövrə təsadüf edir. 1932-ci ildə Amerika xalqı dövlət sükanını Ruzveltə etibar edərkən ölkə batan «Titanik»i xatırladırdı: banklar bağlanmış, konveyrlər dayanmışdı, fermerlər torpaq becərmir, milyonlarla əhali Xilasetmə Ordusunun təşkil etdiyi pulsuz yemək payını almaq üçün alçaldıcı növbələrə dayanırdılar. Ruzveltə nəinki ölkəsini milli faciə hesab edilən ağır iqtisadi böhrandan çıxarmaq



downloaded from KitabYurdu.org

nəsib oldu, o, millətin öz gücünə inamını özünə qaytararaq Birləşmiş Ştatları super hegemon dövlətə çevirdi. Məhz onun təşəbbüs və bilavasitə iştirakıyla antihitler koalisiyası yaradılmış, bəşəriyyət faşist taunundan xilas edilmişdi.

Taleyin qəribə işləri olur. Ömrünün çiçəkləndiyi dövründə hərəkət etmək qabiliyyətini itirən Ruzveltin həyatı xəstəxana palatası çərçivəsində qala bilərdi. Lakin o özündə nəhəng iradə və enerji ehtiyatı taparaq acı qisməti ilə barışmamış vətənin ağır günündə ölkəsinə rəhbərlik etmişdir.

Ruzveltlər sülaləsindən çoxlu dövlət xadimləri, iş adamları, bankirlər, torpaq sahibləri çıxmışdır. Məhz bu səbəbdən Ruzveltlər daim ictimaiyyətin diqqət mərkəzində olmuş, haqlarında şayiələr dolaşmışdır. Hətta 1935-ci ildə Amerika yəhudi icması prezidentin yəhudi olduğunu bildirib. Bu fakt öz təsdiqini tapmasa da, birmənalı olaraq inkar da edilməmişdir. Amerika tarixçiləri, həmçinin F.D.Ruzveltin bioqrafları yalnız Yeni Dünyada yaşamış Ruzveltlərin nəsil şəcərəsini dəqiq müəyyənləşdirə biliblər. İlk olaraq Klaus Martinson van Ruzvelt 1643-cü ildə Hollandiyadan köçərək Amerikaya gəlmişdir. O və oğlu Nikolas haqqında bilgilər yox dərəcəsindədir. Amma Nikolasın Teodor və Franklin Ruzveltlərin ulu babası olduğu məlumdur. Nikolasın böyük oğlu İoannın nəslindən Teodor, kiçik oğlu İakovun nəslindən isə Franklin dünyaya gəlib.

Franklin D.Ruzvelt 1882-ci il 30 yanvarda Nyu-Yorkda anadan olub. Atası Ceyms Ruzvelt şəhərin varlı və nüfuzlu iş adamlarından idi. Anası Sara Delano əcdadları «Meyflauer» gəmisində Amerikaya köçən piliqrimlərdən olan aristokrat ailədən çıxmışdı. Ailənin maddi problemləri olmadığı üçün balaca Franklin yalnız xüsusi müəllimlər yanında təhsil alır. 14 yaşında ikən valideynləri onu təhsil almaq üçün Boston yaxınlığında yerləşən Qroton şəhərindəki nüfuzlu ictimai məktəbə göndərirlər.



downloaded from KitabYurdu.org

1900-cü ildə məktəbi uğurla bitirən Franklin dənizçi olmağa qərar versə də, valideynlərinin sərt təpkisi ilə üzləşir. Onların istəyilə gənc Ruzvelt Harvard Universitetində təhsilini davam etdirir.

Elə həmin il ailəyə bədbəxtlik üz verir. Franklinin atası vəfat edir.

1904-cü ilə qədər Harvardda təhsil alan Ruzvelt bu ərəfədə prezident T.Ruzveltin uzaq qohumu Eleonora Ruzveltlə tanış olmuş və onlar 1905-ci ildə ailə qurmuşlar. Onların beş övladı olmuşdur.

1904-1907-ci illərdə Kolumbiya Universitetinin hüquq fakultəsində oxuduqdan sonra, Ruzvelt Nyu-York Vəkillər Assosiasiyasına daxil olur. Üç il «Karter, Ledyard və Milbern» vəkillər kontorunda çalışır. Bu nüfuzlu vəkillər kontoru «Standart oyl», «Ameriken tobako» kimi nüfuzlu şirkətlərə qulluq edirdi.

F.D.Ruzveltin siyasi karyera etməsinə Teodor Ruzveltin böyük təsiri olub. Xanımı ilə tez-tez Ağ Evdə ziyafətlərdə iştirak edən Ruzvelt prezidentdən dəyərli məsləhətlər alır. Onun siyasi fəaliyyət üçün Demokrat partiyasını seçməsi atasına olan böyük rəğbətdən irəli gəlirdi. Atası vaxtilə bu partiyanın alovlu tərəfdarı olmaqla yanaşı demokrat-prezident Klivlendlə dostluq əlaqələrinə malik idi.

1910-cu il noyabrda Ruzvelt Nyu-York parlamentinə seçilir. İki il burada fəaliyyət göstərir. Vilson prezident seçildikdən sonra isə hərbi-dəniz nazirinin müavini təyin edilir və yeddi il bu vəzifədə çalışır. 1920-ci il prezident seçkilərində demokrat Ceyms Koksla birgə vitse-prezidentliyə namizəd göstərilir. Seçkilərdə ağır məğlubiyyətdən sonra, qısa müddətə siyasətdən kənarlaşır və Merilend sığorta kompaniyasının Nyu-York şöbəsinə başçılıq edir. Tezliklə siyasi fəaliyyətini bərpa edəcəyini güman etsə də, bu niyyəti 1928-ci ilədək yubanır.



downloaded from KitabYurdu.org

1921-ci ilin yayında inzibati qayğılardan azad olan Ruzvelt Kampobello sahillərində dincələn ailəsinin yanına gedir. Bir neçə gün sonra ayaqlarında dəhşətli ağrılar başlayır və hərarəti 40 dərəcəyə çatır. Həkimlərin ilkin müayinəsi onun uşaq poliomelitinə mübtəla olduğunu göstərir. Nəticədə hər iki ayağı iflic olan Ruzvelt hərəkət etmək qabiliyyətini itirir. Tam sağalmaq niyyətilə bir müddət böyük siyasətdən kənar qalaraq, elmi-ictimai fəaliyyət göstərmiş, ABŞ-in xarici siyasət kursunu təkmilləşdirmək üçün Vudro Vilson fondunun, Con Hopkins Universiteti nəzdində diplomatlar hazırlayacaq Uolter Peyc Məktəbinin yaradıcılarından olmuşdur.

Yenidən siyasi arenaya qayıdan Ruzvelt 1928-ci və 1930-cu illərdə ardıcıl olaraq Nyu-York ştatının qubernatoru seçilir. Qubernator olduğu müddətdə dövlət idarəetmə sisteminə yaxından bələd olur və 1932-ci il prezident seçkilərinə demokrat partiyasından namizəd göstərilir.

Ruzveltin seçkiönü kompaniyasının aparıcı mövzusu ölkənin ağır iqtisadi böhrandan çıxarılması idi. Ümummilli qurtuluş planı hazırlamaq məqsədilə o, R.Moli, S.Rozenman kimi Universitet professorlarına müraciət edir. Ağ Evə gedən yolda, ona Cozef Kennedi, H.Morgentau, U.Vudin, H.Leman və digər böyük kapital sahibləri maliyyə dəstəyi verirlər. 8 noyabr 1932-ci ildə keçirilən seçkilərdə F.D.Ruzvelt 57,4 % səs toplayaraq prezident seçilir.

Fəaliyyətə başladığı ilk günlərdən ölkənin iqtisadi bataqlıqdan xilas etmək üçün «Yeni xətt» sosial-iqtisadi islahatlar proqramını həyata keçirir. Ruzvelt hökuməti birinci olaraq ölkənin maliyyə sistemini qaydaya salmaq üçün xaotik bank əməliyyatlarında radikal islahatlar keçirir. Bununla yanaşı təxirəsalınmaz sosial problem – işsizlik probleminin həlli gündəmə gətirilir. Əhalinin maddi vəziyyətini yaxşılaşdırmaq üçün müvəqqəti vasitələrdən – ayrı-ayrı ştat və



downloaded from KitabYurdu.org

icmalara birbaşa yardım etməkdən – istifadə edilir. «Yeni xətt» proqramında əsas amil kimi nəzərdə tutulmasına baxmayaraq işsizlik problemi yalnız İkinci Dünya Müharibəsi başladıqda tam həllini tapmışdır.

Ruzveltin proqramının başlıca ideyası çox sadə idi: yeni iş yerləri açmaqla əmək qabiliyyətli işsizləri küçələrdən yığışdırmaq, onların öz bacarıqlarına olan inamını özünə qaytarmaq. Bu işlərdə Ruzveltin inandığı şəxslərdən olan Harri Hopkins böyük işlər gördü. Məhz Hopkinsin rəhbərlik etdiyi administrasiya 122.000 ictimai bina, 664.000 km yeni yollar, 77.000 körpü və 285 aeroport tikdi.

İqtisadiyyatın ən çox ziyan çəkdiyi kənd təsərrüfatı sahəsində də təcili tədbirlər görüldü. Qəbul edilmiş Konqres qanunlarına əsaslanaraq istehsala və qiymətlərə dövlət nəzarəti gücləndirildi. Əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə maksimal iş günü və ən aşağı məvacib həddi müəyyənləşdirildi, 16 yaşına çatmamış uşaqlara işləmək qadağan edildi.

Prezidentliyinin ilk illərində Ruzveltin xarici siyasi kursu ikili xarakter daşımışdı. «Yeni xətt» iqtisadi proqramının uğurla həyata keçməsinə çalışaraq, xalqın və Konqresin istəyinə uyğun olaraq təcridçilik siyasətinə qarşı çıxmır, lakin təcridçiliyi heç də uğurlu hesab etmirdi.

30-cu illərin sonlarına yaxın «Üçüncü reyx»in yeritdiyi təcavüzkar siyasət bütün dünyada sülhə təhlükə yaradırdı. T.Cefferson, T.Ruzveltin baxışlarını əsas tutan Ruzvelt Avropada güclərin tarazlığının saxlanmasının ABŞ-ın həyati maraqları çərçivəsində olduğunu yaxşı bilirdi. Vilson kimi o da «elə bir dünya» arzusunda idi ki, burada sülhün bərqərar olması üçün kollektiv təhlükəsizlik prinsipləri əsas tutulsun. Yuxarıda qeyd etdiyimiz amillərlə yanaşı, azad dünya iqtisadiyyatının inkişafina şərait yaradılması da zərurətə çevrilirdi.



downloaded from KitabYurdu.org

Hitler və «Üçüncü reyx» Avropada qüvvələr tarazlığına, bütün dünyada sülhə və azad dünya iqtisadiyyatına açıq-aşkar təhlükə yaradırdı.

Təcavüzkarların Avropa və Asiyada hər növbəti qələbəsi Amerika iqtisadiyyatına üz verə biləcək fəlakəti yaxınlaşdırırdı. Digər tərəfdən ABŞ və Avropadakı müttəfiqlərinin Dünya okeanına nəzarəti itirmələri «Ox» dövlətlərinin Qərb yarımkürəsinə birbaşa hücumunu təmin edə bilərdi.

Ruzvelt hələ 1941-ci ilə qədər də müharibəni yeni dünyanın qurulması uğrunda təcavüzkar və sülhsevər millətlər, liberal demokratiya və barbarlıq, vətəndaş və cinayətkar, xeyir və şər arasında mübarizə kimi şərh edirdi. Lakin yuxarıda qeyd etdiyimiz səbəblərdən artıq Avropada başlanmış müharibəyə tərəddüdlə yanaşılırdı. Lakin Pörl-Harbör faciəsi bu tərəddüdlərə son qoydu.

Müharibədə iştirakla yanaşı, Ruzvelti 1943-cü ildən daha bir problem – müharibədən sonra düşmən dövlətlərlə qurulacaq münasibətlər də narahat edirdi. Bu problemin həlli yönündə atdığı hər addım haqda xalqa hesabat verməli idi. İctimai rəy, Konqresə seçkilər və nəhayət 1944-cü ildə keçiriləcək prezident seçkiləri bunu zəruri edirdi.

Tarixin ən fəlakətli müharibəsində ABŞ-ın iştirakını təmin etmək və onu bu müharibədən qalib çıxartmaq, ölkəyə rəhbərlik edən şəxsdən böyük iradə və güc tələb edirdi. 1945-ci ilin ilk aylarından Ruzveltin səhhəti korlanır. Bu ərəfədə artıq Avropada münasibətlər aydınlaşmağa doğru gedirdi. Həkimlərin məsləhəti ilə o, Uorm-Sprinqsdəki malikanəsində dincəlməyə gedir. Elə burada da 12 aprel 1945-ci ildə beyninə qan sızması nəticəsində vəfat edir. Bədbəxt hadisə rəssam Elizabet Şuvalova onun portretini çəkərkən baş verib.

Statistik baxımdan Ruzveltin bütün prezidentlərdən fərqi, onun ardıcıl olaraq dörd dəfə prezident seçilməsidir.



downloaded from KitabYurdu.org

Amerika xalqı dövrün tələblərinə uyğun olaraq ona əsası Corc Vaşinqton tərəfindən qoyulmuş ənənəni pozmağı güzəştə getsə də, tezliklə Konstitusiyaya edilmiş düzəlişlə, bir şəxsin iki dəfədən artıq prezident seçilməsini rəsmən yasaqlayır.

30-cu illərin ortalarında F.D.Ruzveltin bioqrafiyasını yazmaq istəyən Emil Lüdviq prezidentlə söhbətində ona belə deyir: «Bu iş mənim üçün təzə və olduqca çətindir. Napoleon, Bismark, Höte və Bolivarın bioqrafiyasını yazmaq mənə daha asan idi. Sizi dəyərləndirmək çox çətindir – Siz yaşayırsınız». Bu sözlərdən mütəəssir olan Ruzvelt belə cavab verir: «...O halda təklif edərdim ki, yüz il gözləyəsiniz».

Haqqında kitablar, monoqrafiyalar yazılması üçün yüz il gözləmək lazım gəlmədi. Bu gün nəinki Birləşmiş Ştatlarda, dünyanın əksər ölkələrinin kitabxanalarında onun haqqında yazılmış kitablar onlarladır. Zaman keçdikcə Franklin D.Ruzveltin şəxsiyyətinə olan maraq daha da artır. Dünyada mürəkkəb qlobal proseslərin getdiyi, yeni güc mərkəzlərinin formalaşdığı bir dövrdə məhz belə xadimlərin yeri görünür.


downloaded from KitabYurdu.org



# HARRİ S.TRUMEN
## (HARRY TRUMAN)
## (1945–1953)

Fəaliyyəti qənaətbəxş hesab edilməyən prezidentlərdən biri də Harri Trumendir. 1951-ci il sorğularında onun fəaliyyətini amerikalıların yalnız 23 %-i dəstəkləmişlər. Bu məşhur Uoterqeyt qalmaqalı ərəfəsində reytinqi 24 % olan Niksondan da aşağı göstəricidir.



downloaded from KitabYurdu.org

Harri Trumen 8 may 1884-cü ildə Missuri ştatının Lamar şəhərində anadan olub. Sonralar yazdığı memuarlarında Con Tayler nəsli ilə qohumluqları olduğunu göstərirdi. Fermer olan atası Con Trumen 1890-cı ildə İndependens şəhərinə köçür.

Harri ilk ibtidai təhsilini burada alsa da kollecdə oxumaq arzusu baş tutmur. Taxıl birjasında uğursuz əməliyyatlardan müflis olan atası Kanzas-Sitiyə köçür. Müstəqil həyata qədəm qoyan Harri müxtəlif vaxtlarda dəmiryol növbətçisi, tikintidə podratçı köməkçisi, bank xidmətçisi kimi peşələrdə işləyir. 1906-07-ci illərdə nənəsindən onlara miras qalan fermada atası və qardaşı ilə birgə çalışır. 1914-cü ildə atası vəfat edir və Trumen təsərrüfata rəhbərliyi ələ alaraq qısa zamanda uğur qazanır.

1917-ci ildə Birləşmiş Ştatlar Birinci Dünya müharibəsinə qatılır. Trumen on iki il əvvəl üzv yazıldığı Milli Qvardiyanın tərkibində cəbhəyə yollanır. General Perşinqin komandanlığı altında Fransada aparılan döyüşlərdə iştirak edərək kapitan rütbəsi alır. 1919-cu ildə ordudan tərxis olaraq Elizabet Fermanla ailə qurur. Xanım Trumen ictimai həyatda fəal iştirak etməsə də gələcək prezidentin ən yaxın məsləhətçilərindən olmuşdur.

1921-ci ildə dostları Trumenə dairə məhkəməsi sədrliyi seçkilərinə namizəd olmağı təklif edirlər. Əvvəl razılaşmasa da maddi problemləri səbəbindən növbəti il bu təklifi qəbul edir. İşləməklə yanaşı Kanzas-Siti hüquq məktəbinə gedərək təhsilini artırır. 1924-cü ildə, təkrar seçkilərdə məğlub olan Trumen ilyarım ərzində Kanzas-Siti avtomobil klubunda işləyir. Malik olduğu kapitalı dağ-mədən müəssisəsinə yatırsa da uğursuzluğa düçar olur. Özəl dükanını açması isə ona nə az, nə çox 30 min dollar ziyan vurur.

1926-cı ildə demokrat partiyasının yerli funksionerlərindən Penderqastın himayədarlığı ilə dairə məhkəməsinin sədri seçilir və səkkiz il bu vəzifədə çalışır. Bu dövrdə Tru-



downloaded from KitabYurdu.org

menin partiya bossları ilə sıx əməkdaşlığının əsası qoyulur. Bu əməkdaşlıq 1934-cü ildə Konqresə keçirilən seçkilərdə onun senata seçilməsilə nəticələndi.

Federal siyasətdə ilk çıxışı olmasına baxmayaraq, dairə məhkəməsinin sədri kimi topladığı təcrübə köməyinə gəldi. Prezident Ruzveltlə ilk görüş onu «Yeni xətt»in qızğın tərəfdarı kimi tanıtdı. Bu da, öz növbəsində, onun Konqresin komitələrindən birinə sədr seçilməsinə kömək etdi. Virciniyalı senator Bert Uilerlə birgə dəmiryol menecerlərinin maxinasiyalarının qarşısını almaq məqsədilə nəqliyyat haqqında qanun layihəsini hazırlaması ona işgüzar senator imici qazandırdı. 1940-cı ildə yenidən senator seçildikdən sonra, federal hökumətin silahlanma proqramını tədqiq edən fövqəladə komitəyə rəhbərlik ona tapşırıldı. Trumenin buradaki fəaliyyəti Yaponiyanın Pörl-Harbörə hücumundan sonra böyük əhəmiyyət daşımağa başlamış və onu ölkə səviyyəsində tanıtmış oldu.

1944-cü il seçkilərində demokrat partiyasının funksionerləri onu vitse-prezidentliyə namizəd göstərirlər. Bunun əsas səbəbi demokratların, senata heç bir təsiri olmayan vitse-prezident Henri Uollesin yenidən bu vəzifəyə seçilməsini istəməmələri idi. Trumenin vitse-prezident seçilməsi sensasiya doğurmadı.

Prezident Ruzveltin vəfatından sonra, 1945-ci il aprelin 12-də Trumen prezident səlahiyyətlərinin icrasına başladı.

Trumen ilk olaraq Ruzvelt administrasiyasının layihələndirdiyi siyasi və iqtisadi planları gerçəkləşdirdi: BMT, Ümumdünya Bankı, Beynəlxalq Valyuta Fondu yaradıldı.

Onun hakimiyyəti dövründə baş vermiş ən yaddaqalan hadisə dünyada ilk dəfə olaraq atom silahından istifadə edilməsidir. 6 avqust 1945-ci ildə ABŞ qırıcı təyyarəsi Yaponiyanın Xirosima adasına ilk atom bombası atır. Hələ iyulun 24-də Trumen Stalini yeni silah haqqında məlumatlandırmışdı. O, hesab edirdi ki, bununla müharibə



downloaded from KitabYurdu.org

tezliklə başa çatacaq. Xirosima və Naqasakiyə atom bombasının atılması daim bəşəriyyətə qarşı böyük cinayət kimi dəyərləndirilib. Lakin Trumen qərarına haqq qazandırır, müharibənin uzanacağı təqdirdə hər iki tərəfdən qurbanların daha çox olacağını bildirirdi. Şübhəsiz ki, bu qərarın verilməsinə yaponların Pörl-Harbörə gözlənilməz hücumu, Filippində amerikalı əsirlərlə amansız davranması öz təsirini göstərməmiş deyildi. Ümumiyyətlə onun prezidentliyi dövründə atom silahından istifadə daim gündəmdə olub. Bəzi Amerika rəsmiləri konkret hallarda atom silahından istifadənin zəruri olduğunu bildirsə də, Trumen buna razılıq verməmişdir. O, atom bombasından, hər şeydən əvvəl siyasi məqsədlər üçün, qorxu vasitəsi kimi istifadəyə üstünlük verir və onun yalnız Sovet İttifaqı ilə qarşıdurma açıq müstəviyə, müharibə həddinə çatdıqda istifadə olunacağını bildirirdi.

Müharibədən sonrakı Avropada gedən proseslərə Trumen qədər təsir göstərmiş ikinci prezident yoxdur. O, qaliblərin alyansının qorunub saxlanılmasının mümkünsüzlüyünü başa düşərək, Qərbi Avropanı Sovet təhlükəsindən qorumağın zərurili olduğunu bildirir. 1947-ci ildə «Trumen doktrinası»nı bəyan edərək Yunanıstan və Türkiyəyə, burada hakimiyyət kommunistlərin əlinə keçməsin deyə, iqtisadi kömək göstərilməsi üçün Konqresə müraciət edir.

Bu baxımdan Marşall planı daha çox əhəmiyyət kəsb edirdi. Planın əsas məqsədi kommunist ideologiyasının daha tez inkişaf tapmasına münbit şərait yaradan iqtisadi durğunluqdan, xaosdan qurtulmaq üçün ABŞ-ın Avropadakı strateji müttəfiqlərinə kömək göstərilməsi idi. Digər tərəfdən Marşall planına təhlükəsizlik siyasətinin təzahür forması kimi də baxmaq olar. Bu, müharibədən sonra Sovet İttifaqı və onun təsir çevrəsində olan dövlətlər birliyinə qarşı duracaq Avropa ölkələrinin güclənməsinə səbəb olmalı idi.



downloaded from KitabYurdu.org

ABŞ-ın milli təhlükəsizliyinin təmin edilməsi üçün sol təmayüllü siyasətçilərin təqib edilməsinə Trumenin loyal yanaşması, onun daxili siyasi kursunun zəifliyini göstərir. Təhqiqat üzrə Senat komissiyasına rəhbərlik edən senator Cozef Makkartinin ideoloqu olduğu bu cərəyan (sovet ədəbiyyatında bu «Makkartizm» adlandırılır) kommunistlərin, elm, ədəbiyyat və maarif xadimlərinin izlənmələri, məhkəmə təqiblərinə məruz qalmalarına səbəb oldu. Bu, Trumenin «Sovet təhlükəsini» həddən artıq qabartması və bununla Avropa və Asiyada yeritdiyi siyasətin dəstəklənməsi üçün Konqresə təsir göstərmək cəhdindən irəli gəlirdi.

Trumen 1952-ci il seçkilərində iştirak etmək istəmir. Onun siyasi varisi nüfuzlu demokrat və İllinoys ştatının qubernatoru Edlay Stivenson olsa da, populyar general, İkinci Dünya Müharibəsinin qəhrəmanı Duayt Eyzenhauer qalib gəlir. Respublikaçılar iyirmi illik fasilədən sonra yenidən Ağ Evə sahib olurlar.

İstefaya çıxdıqdan sonra Kanzas-Sitidə yaşayan eks-prezident aktiv siyasi fəaliyyət göstərməsə də ölkədə gedən prosesləri diqqətlə izləmiş, 1961-ci ildə Con Kennedinin prezident seçilməsini dəstəkləmişdir.

Harri Trumen 26 dekabr 1972-ci ildə 88 yaşında Kanzas-Sitidə vəfat edib. Dəfn mərasimində çıxış edən Lindon Conson onu «XX əsrin nəhəngi» adlandırıb və bu dəyərləndirməni bir çox tarixçilər dəstəkləyir. Ölümündən sonra onun populyarlaşması, zamanın tələbinə uyğun olaraq, Trumenin prezidentlik fəaliyyətinin bəzi məqamlarının məxfi qalması, sonradan açılan arxivlərdəki əsl həqiqətlərin ictimaiyyətə bəlli olmasıdır.



downloaded from KitabYurdu.org



# DUAYT EYZENHAUER
## (DWIGHT D. EISENHOWER)
## (1953–1961)

Birinci Dünya Müharibəsi istisna olmaqla, Birləşmiş Ştatların iştirakçısı olduğu bütün müharibələr ölkəyə yeni prezident verib. İstiqlaliyyət müharibəsi C.Vaşinqtonun, 1812-ci il müharibəsi E.Ceksonun, Meksika ilə aparılan



downloaded from KitabYurdu.org

müharibə Z.Teylorun, Vətəndaş müharibəsi U.Qrantın, İspan-Amerika müharibəsi T.Ruzveltin, nəhayət İkinci Dünya Müharibəsi Duayt Eyzenhauerin prezident seçilməsində önəmli rol oynayıb.

Duayt Eyzenhauer 14 oktyabr 1890-cı ildə Texasın Denison şəhərində anadan olub. Ailədə tez-tez təkrar olunan deyimlərə görə Eyzenhauerlər «orta əsrlər alman ordusunun silahlı süvariləri»ndən olmuşlar. Təəssüf ki, bu romantik nağıl tarixi faktlarla təsdiqini tapmayıb. Amerikada yaşamış ilk Eyzenhauer XVIII əsrin əvvəllərində Pensilvaniyada yaşamış Frederik olub. Gələcək prezidentin xırda ticarətçi olan atası Devid Eyzenhauer 90-cı illərdə ölkədə baş verən iqtisadi böhran səbəbindən müflis olur və Kanzasın Abilin şəhərinə köçür. Burada o, yaxın qohumuna məxsus yağ fabrikində işə düzəlir. Aykın (Duaytı uşaqlığında belə çağırırdılar) yeniyetməlik dövrü də Abilində keçir. Zəhmətkeş və əməksevər Eyzenhauerlər uşaqlarını işgüzar ruhda tərbiyə etmişlər. Balaca Ayk atasına məxsus 3 akrlıq torpaq sahəsində çalışır, yetişdirdikləri tərəvəz məhsullarını Abilinin varlılar yaşayan məhəlləsində satırdı. Sonralar isə dayısına məxsus yağ fabrikində fəhləlik edirdi.

Abilindəki orta məktəbdə təhsilini bitirən 19 yaşlı Ayk əmək fəaliyyətini elə həmin fabrikin gecə növbəsində davam etdirir. İki il sonra Uest-Poyntdakı Hərbi Akademiyaya daxil olaraq qırx illik hərbi karyerasının başlanğıcını qoyur. 1915-ci ildə Akademiyanı bitirən Duayta leytenant rütbəsi verilərək, San-Antonio yaxınlığındakı Sem-Hyuston qalasına göndərilir. Qalada xidmətinin ilk aylarında hərbi hissənin yaxınlığında yaşayan, qədim aristokratlar nəslindən Daudlar ailəsinin qızı Memi ilə tanış olur və tezliklə onunla evlənir.

Artıq Avropada Birinci Dünya Müharibəsi başlamışdı. ABŞ müharibəyə qatıldıqdan bir neçə gün sonra Duayta kapitan rütbəsi verilərək, Avropaya gedəcək qoşun hissələrinin


downloaded from KitabYurdu.org

təlim keçdiyi 57-ci piyada polkuna göndərirlər. Qısa müddətdə tank qoşun hissələrinin hazırlanması sahəsindəki uğurlu fəaliyyəti hərbi rəhbərlik tərəfindən qiymətləndirilir və o, 1918-ci il iyunun 17-də mayor, oktyabr ayında isə podpolkovnik rütbəsinə layiq görülür.

1922-ci ildə Panama kanalı bölgəsinə göndərilən Eyzenhauer 1924-cü ilin oktyabrına kimi orada qulluq edir. O, Amerika ordusunun nüfuzlu simalarından general Konnerin rəhbərliyi altında işləyir. Elə generalın zəmanəti ilə də Duayt 1925-ci ildə Baş Qərargah Akademiyasının funksiyalarını yerinə yetirən Livenorq qalasındakı (Kanzas şt.) komandir-qərargah kollecinə qəbul edilir. Dövrünün ən nüfuzlu hərbi təhsil ocaqlarından olan kolleci o, 1926-cı ildə əla qiymətlərlə – 275 dinləyici arasında birinci bitirmişdir.

Kolleci bitirdikdən sonra Eyzenhauer Birinci Dünya Müharibəsində Amerika qoşunlarının iştirak etdiyi döyüş yerlərinin soraq kitabçasını hazırlamaq üçün Fransaya ezamiyyətə göndərildi. O, vətənə qayıtdıqdan sonra, 1928-ci ildə Vaşinqtondakı hərbi kolleci bitirmiş və 1929-33-cü illərdə hərbi nazir aparatında işləmişdir. Burada o, general Makarturla tanış olur. General ABŞ ordusuna qərargah rəisi təyin edildikdə Duaytı yanına işləməyə aparır. Makartur Filippinə göndərildikdə isə, onun köməkçisi vəzifəsində ekzotik adaya gedir və 1940-cı ilədək burada xidmət göstərir.

İkinci Dünya Müharibəsi başladıqda Eyzenhauer Baş Qərargah rəisi general Corc Marşallın yanında xidmət edir. Burada o, Cənubi Asiya və Filippinin gözlənilən Yapon təcavüzündən müdafiə planını hazırlayır. Tezliklə o, ABŞ ordusunun Avropada strateji fəaliyyət proqramını hazırlayan əsas fiqura çevrilir və general Marşall onu Avropa cəbhəsinə baş komandan təyin edir.

1942-ci il 24 iyunda İngiltərəyə gələn Eyzenhauerin qarşısında duran ilk məsələ ingilis və amerika hərbi birləşmələri arasındakı əməkdaşlığı möhkəmlətmək, Fran-



downloaded from KitabYurdu.org

saya qoşun çıxarmaq planını hazırlamaq oldu. Marşall kimi o da ikinci cəbhənin tezliklə açılmasına tərəfdar olsa da Uinston Çorçillə Ruzvelti bu plandan çəkindirmək nəsib oldu. Yalnız 6 iyul 1944-cü ildə «Overlord» əməliyyatını başlamaqla müttəfiq qoşunları Normandiyaya çıxarıldı. Bir həftə sonra Fransa torpağına ayaq basan Eyzenhauer, müharibənin sonunda məşhur amerikalıya çevrilir.

Müharibə bitdikdən sonra, 1945-ci ilin noyabr ayına qədər, Eyzenhauer Almaniyada ABŞ bölgəsinin hərbi qubernatoru olur. General Marşalldan sonra üç il ərzində Ordu Qərargahı rəisi vəzifəsini tutur. 1948-ci ildə isə ordudan gedir.

İstefaya çıxan Eyzenhauer müxtəlif fəaliyyət sahələrindən çoxsaylı dəvətlər alır. Nəhayət IBM şirkətinin prezidenti və Kolumbiya Universitetinin qəyyumu Tomas Uotson onu Universitetin prezidenti olmağa razı sala bilir. Bu vəzifədə onun fəaliyyəti nəzərəçarpacaq olmamış, bu ərəfədə əsasən xatirələrini yazmışdır.

1948-ci il seçkilərində Trumenin vitse-prezidentliyə namizəd kimi iştirak etməsi təklifini Eyzenhauer qəbul etmir. Lakin bir il sonra prezidentin NATO hərbi birləşmələrinin baş komandanı olmaq təklifini qəbul edərək yenidən Avropaya gedir.

Prezident seçilənədək onun konkret partiya mənsubluğu olmayıb. Lakin bir çox respublikaçı liderlərin, xüsusilə senator Henri Locun təkidlərindən sonra Eyzenhauer növbəti seçkilərdə respublikaçıların namizədi olur. 1952-ci ildə o, demokratların namizədi Edlay Stivensona qalib gələrək prezident seçilir.

Eyzenhauerin daxili siyasi-iqtisadi kursunun əsasını azad rəqabətin inkişaf etdirilməsi təşkil edirdi. Antitrest qanunvericiliyinin kəskinləşdirilməsi, müharibə ərəfəsində məvacib və qiymətlərə dövlət nəzarətinin ləğvi, müxtəlif iqtisadi-icraedici təşkilatların buraxılması onun iqtisadi proqramının başlıca müddəaları idi.



downloaded from KitabYurdu.org

Əxlaqi prinsiplərə söykənən dünyagörüşü onun xarici siyasi kursunda da özünü büruzə verib. Şərq və Qərb arasındakı münaqişəni, Sovet İttifaqı və Çinin təmsilçisi olduğu, mənəvi dəyərlərə söykənməyən kommunist diktaturası ilə azad Qərb demokratiyası arasındakı ziddiyyət kimi dəyərləndirirdi. Kommunist təhlükəsinə qarşı Qərb demokratik qüvvələrinin güclü koalisiyasının zəruriliyini bildirsə də, Sovet İttifaqı ilə münasibətlərin yaxşılaşdırılması tərəfdarı idi. Onun nüvə enerjisindən sülhməramlı məqsədlərlə istifadəyə çağırışları 1957-ci ildə Atom Enerjisi üzrə beynəlxalq təşkilatların yaranması ilə nəticələndi.

Dünyada sülhün bərqərar olması uğrunda fəaliyyəti onun 1956-cı ildə yenidən prezident seçilməsini təmin etdi. Artıq Konqresin hər iki palatasında üstünlüyü əldən verən respublikaçıların onun bu qələbəsinə əhəmiyyətli köməyi olmayıb. Bu, Eyzenhauerin populyarlığının zirvə nöqtəsi idi.

Prezident postundan getdikdən sonra siyasi fəaliyyət göstərməmiş, yalnız xatirələrini yazmaqla məşğul olmuşdur. Duayt Eyzenhauer 28 mart 1968-ci ildə dünyasını dəyişib.



downloaded from KitabYurdu.org




# CON FİTSCERALD KENNEDİ
## (JOHN F. KENNEDY)
## (1960–1963)

C.F.Kennedinin prezidentliyi bir çox xüsusiyyətlərinə görə yenilik simvolu kimi təcəssüm edir. O, XX əsrdə doğulmuş ilk və ənənəvi qaydada seçilmiş ən gənc prezident kimi tarixə düşüb. Digər tərəfdən Kennedi Ağ Evin sahibi olmuş ilk katolik idi.



downloaded from KitabYurdu.org

Con Fitscerald Kennedi 29 may 1917-ci ildə Massaçusets ştatının Bruklin şəhərində anadan olub. Amerikada yaşamış ilk Kennedi 1848-ci ildə İrlandiyadan köçərək Bostonda məskunlaşıb. Gələcək prezidentin atası Cozef Kennedi dövrünün tanınmış ictimai-siyasi xadimi olmaqla yanaşı, həm də varlı biznesmen idi. Ailənin maddi çətinliyi olmadığı üçün Cozef doqquz övladının hər birinin nüfuzlu məktəblərdə təhsil alması qayğısına qalıb.

Balaca Con ilk ibtidai təhsilini Harvard Universiteti nəzdindəki Dekster, sonra isə Riverdeyl məktəbində alır. Konnektikut ştatındakı Çoat və Kenterberi katolik məktəbində orta təhsilini başa vuran Conu atası Londona göndərir. 18 yaşlı Con London İqtisadiyyat məktəbində bir il təhsil aldıqdan sonra Prinston Universitetinə daxil olur. Lakin səhhətindəki problemlər üzündən tezliklə Universiteti tərk edir. Növbəti il təhsilini Harvad Universitetində davam etdirir və 1940-cı ildə bu təhsil ocağını müvəffəqiyyətlə bitirir. Diplom işini İngiltərə xarici siyasətinə həsr edən Con (atası 1937-ci ildən ABŞ-ın İngiltərədə səfiri idi) onu «Münhen barışması» adlandırır. Qeyd edək ki, təcridçilik tərəfdarı olan atası ABŞ-ın Avropada gedən proseslərə qarışmamasını istəyirdi. Atasının əksinə olaraq Con totalitar təhlükənin aradan qaldırılması üçün ABŞ-ın Avropada gedən proseslərə fəal müdaxilə etməsini zəruri sayırdı. Məhz bu ruhda yazılmış diplom işi «İngiltərə nə üçün yatırdı» adı ilə dərc edilir və ictimai-siyasi dairələrdə müəllifin tanınmasına səbəb olur. Cozef Kennedinin mövqeyi isə onun siyasi-diplomatik karyerasının sonunu qaçılmaz edir və o, 1940-cı ildə səfir postundan geri çağırılır.

Yaponiyanın Pörl-Harbörə hücumundan sonra, Sakit Okeanda müharibə başladıqda C.Kennedi orduya getmək haqda ərizə verir. Lakin onurğa sütununda çatışmazlıq səbəbindən tibb komissiyası onu hərbi xidmətə yarar-



downloaded from KitabYurdu.org

sız sayır. Bir neçə ardıcıl müraciətdən sonra nəhayət ona ABŞ hərbi-dəniz donanmasında xidmətə başlamaq nəsib olur. 1942-ci ildə Kennedi hərbi dəniz qüvvələri torpedo katerləri dəstəsində xidmətə göndərilir. Bir il sonra isə gənc zabit Sakit Okeanın cənub bölgəsində döyüşlərdə iştirak edən torpedo katerinə komandir təyin edilir.

2 avqust 1943-cü ildə Ferqüsson boğazında baş vermiş faciədə Kennedi təsadüfən ölümdən qurtulur. Onun komandiri olduğu «PT-109» kateri yapon esminesi «Amaqiri» tərəfindən taran edilərək batırılır. Heyətin 13 üzvündən ikisi həlak olur, qalanları isə katerin qalıqlarından istifadə etməklə yaxınlıqdakı adaya çatırlar. Göstərdiyi döyüş bacarığı və rəşadətinə görə gələcək prezident «Al qırmızı ürək» medalı ilə təltif edilir.

Con müharibə bitdikdən sonra Herstin qəzet konsernində reportyor kimi çalışır. Çox keçmir ki, jurnalistikadan uzaqlaşaraq siyasətlə məşğul olmağa qərar verir. Onun qərarı böyük oğlunun müharibədə faciəli həlakından sonra Cona böyük ümidlər bəsləyən atası tərəfdən dəstəklənir. Ümumiyyətlə Kennedinin siyasi karyera etməsində atasının, xüsusilə maliyyə cəhətdən böyük köməyi olub.

Siyasi fəaliyyət üçün, təbii ki, demokrat partiyasını seçən Kennedi Bostona gələrək Nümayəndələr Palatasına seçkilərdə iştirak edir və 29 yaşında ikən Konqresin üzvü olur. 1950-ci ildə təkrarən Konqresə seçilir. İki il sonra isə senata seçkilərdə Henri Loca qalib gələrək, fəaliyyətini senatda davam etdirir.

Senator seçilən 36 yaşlı Kennedi Fransız əsilli Jaklin Li Buvye ilə ailə həyatı qurur.

1956-cı il prezident seçkilərində Kennedi partiyanın namizədi Edlay Stivensonu dəstəkləyir və onun seçki kompaniyasında fəal iştirak edir. Aşkar bildirməsə də onun məqsədi vitse-prezidentliyə namizəd olmaq idi. Lakin bu



downloaded from KitabYurdu.org

istəyi həyata keçmir. Perspektivinə ümidini itirməyərək 1958-ci ildə Konqresə seçkilərdə iştirak edir və yenə də senator seçilir.

E.Stivensonun şəxsində demokratların iki ardıcıl prezident seçkilərində məğlub olması, Kennedini növbəti seçkilərdə namizədliyini irəli sürməyə həvəsləndirir.

1960-cı il seçkilərinə demokratların namizəd göstərməsi partiyadaxili çəkişmələrlə müşayiət olunur. Conson, Sayminqton, Stivenson və Kennedi əsas iddiaçılar idi. 1960-cı il iyul ayında partiyanın Los-Ancelosda keçirilən Konventində gərgin keçən müzakirələrdən sonra Kennedi və Conson, uyğun olaraq, prezident və vitse-prezidentliyə namizəd göstərilir.

Seçkilərdə Kennedinin rəqibi respublikaçıların namizədi Nikson idi. D.Eyzenhauerin prezidentliyi dövründə vitse-prezident olmuş Niksonun qələbə çalmaq şansı olduqca böyük idi. Onu dəstəkləyənlər arasında bir çox tanınmış siyasi xadimlərlə yanaşı eks-prezident Eyzenhauer də vardı. Buna baxmayaraq 8 noyabr 1960-cı ildə keçirilən seçkilərdə Kennedi 49,7 % səs toplayaraq prezident seçildi. O, Niksondan vur-tut 0,1 % çox səs toplamışdı.

Kennedi, yaxin keçmişin təcrübəsinin əksinə olaraq, kabineti qurarkən partiya mənsubluğunun fövqündə dayanır. Praqmatik respublikaçı Duqlas Dillonun maliyyə naziri təyin edilməsi, MKİ şefi Allen Dallesi vəzifəsində saxlaması buna sübutdur. Qələbəsini estafetin gənclərə ötürülməsi kimi dəyərləndirərək gənc və bacarıqlı mütəxəssislərə üstünlük verir. Milli təhlükəsizlik üzrə məsləhətçi M.Bandi (40 yaş), müdafiə naziri R.Mak-Namara (44), prezident köməkçisi T. Sorenson (32) buna misaldır. Eyni zamanda 35 yaşlı qardaşı Robert Kennedini ədliyyə naziri təyin edilir. Ümumiyyətlə onun komandasının orta yaş həddi 45 olub (Eyzenhauerdə isə uyğun göstərici 56 idi).



downloaded from KitabYurdu.org

C.Kennedinin «Yeni sərhədlər» adlandırdığı daxili siyasi-iqtisadi kursunun əsasını vergilərin azaldılması ilə iqtisadiyyatı dirçəltmək, xəstələrin sosial müdafiəsi, təhsilin təkmilləşdirilməsi və irqi-ayrı seçkilik probleminin həlli təşkil edirdi. Artıq Konqresdə üstünlüyü ələ alan respublikaçılar və bəzi hallarda onlarla alyans quran Cənub demokratları bu kursun federal sistemdə kompleks halında gerçəkləşməsinə maneə yaradırlar.

İrqi ayrıseçkilik məsələsində Kennedi ehtiyatla hərəkət edir. Qaradərililərin təqib edilməsinin Amerika demokratiyasının idealları ilə əkslik təşkil etdiyini bildirir və bu məsələdən beynəlxalq ictimaiyyətin, xüsusilə Sovet İttifaqının əks-təbliğat üçün məharətlə istifadə etməsinin qarşısını maksimum almağa cəhd göstərir.

Kennedi prezidentlik fəaliyyətində xarici siyasətə xüsusi önəm verib. Bu məsələdə Konqres ona nəzərəçarpacaq dərəcədə sərbəstlik vermişdir. Buna səbəb SSRİ-ABŞ qarşıdurması, atom və hidrogen silahlarının bütün bəşəriyyət üçün təhlükə törətməsi olmuşdur.

Kennedi müstəmləkə ağalığından yenicə xilas olmuş, inkişafca geri qalan dövlətlər uğrunda aparılan nüfuz müharibəsinə ciddi önəm verib. «Üçüncü dünya» adlandırılan bu ölkələri Kennedi, demokratiya və diktatura arasında «döyüş poliqonu» adlandırıb. Bu istiqamətdə Kennedi administrasiyasının təşəbbüsü ilə iki mühüm məsələnin həlli üçün cəhd göstərilir. «Tərəqqi alyansı» adlandırılan 19 Latın Amerikası ölkəsi ilə bağlanan əməkdaşlıq müqaviləsinin həyata keçməsi üçün Konqres on il müddətinə 20 mlrd. dollar vəsait ayırır. ABŞ-da xüsusilə gənclər tərəfindən dəstəklənən «Sülh korpusu» isə Afrika və Asiya ölkələrinin inkişafına köməklik məqsədi daşıyırdı. Lakin bu layihələri tam reallaşdırmaq mümkün olmamışdır.

1964-cü il prezident seçkilərinə hazırlaşan Kennedi Texasa səfər edir. 1963-cü il noyabrın 22-də, Texasa



downloaded from KitabYurdu.org

gəldiyi ilk saatda, Xarvi Li Osvaldın açdığı atəşdən vəfat edir. Onun qətlini XX əsrin cinayəti də adlandırırlar. Prezident fəaliyyətinə başlamış Consonun göstərişi ilə Ali Məhkəmənin sədri Erl Uorrenin başçılıq etdiyi istintaq komissiyası yaradılır. Bir illik təhqiqat X.L.Osvaldın cinayəti təkbaşına törətdiyi nəticəsinə gəlir.

Lakin bu səs-küylü qətl daim diqqət mərkəzində olub. Hətta 1977-ci ildə Konqresin xüsusi komissiyası da konkret rəyə gələ bilməyib. 80-ci illərdə aparılan təhqiqatlarda bu cinayətdə SSRİ DTK-sının, Kuba emiqrantlarının, MKİ-nın adları hallansa da, hələ ki, hamı tərəfindən qəbul olunan nəticə əldə edilməyib.



downloaded from KitabYurdu.org



# LİNDON CONSON
(LYNDON JOHNSON)
(1963–1969)

Ən yeni tarixdə prezidentlərin fəaliyyətinə həsr olunmuş ictimai rəy sorğularında Lindon Conson axırıncı yerlərdən birini tutur. Bunun bir çox səbəbləri var. Onun məhz popul-



downloaded from KitabYurdu.org

yar prezident Kennedinin öldürülməsindən sonra Ağ Evə sahib olması, tələbə tətillərinin kütləvi xarakter daşıması, irqi-ayrıseçkilik problemlərinin kəskinləşməsi, afro-amerikalıların vətəndaş hüquqları uğrunda mübariz, Nobel Sülh mükafatı laureatı M.L.Kinqin və gənclərin kumiri hesab edilən R.Kennedinin öldürülməsi onun prezidentliyinə kölgə salır. Bu baxımdan onun sosial-iqtisadi və vətəndaş haqları sahəsində əldə etdiyi nailiyyətlər demək olar ki, xatırlanmır.

Lindon Beyns Conson 27 avqust 1908-ci ildə Texas ştatının Stounuol şəhərində dünyaya gəlib. Əvvəllər fermer və makler olan atası Semüel Conson qısa müddət Texas qanunverici orqanında demokratların nümayəndəsi kimi təmsil olunub. Balaca Lindonun uşaqlığı bolluq içində keçsə də, tezliklə ailənin maddi vəziyyəti pisləşir. 1921-ci ildə pambıq bazarında baş verən böhran ailə başçısının müflis olması ilə nəticələnir. Çox keçmir ki, ailə Pedernalesə köçür. Burada orta təhsilini bitirən Lindon uğur arxasınca Kaliforniyaya gedir. İlk əvvəl ən ağır peşələrdə çalışır, sonra uzaq qohumunun vəkil kontorunda işləyir. İstər dərin savadının, istərsə də işgüzar əlaqələrinin olmaması səbəbindən planlarını gerçəkləşdirə bilmir və 1926-cı ildə yenidən Texasa qayıdır. Bir müddət yol tikinti idarəsində fəhləlik edir.

Texasın cənubundakı Meksikan məktəbində müəllimlik etdikdən sonra San-Markosdakı pedaqoji kollecə daxil olur. Təhsil haqqı çox olmasa da, oxumaqla yanaşı işləyir. Təhsildə ciddi uğur əldə etməsə də müəllim və tələbələrin rəğbətini qazanır. Kolleci bitirərək əvvəl Persoll, sonra da Hyuston şəhərində natiqlik sənətindən dərs deyir.

Texas senatına keçirilən seçkilərdə Uilli Hopkinsin seçkiönü kompaniyasında iştirakı, onda siyasi qabiliyyətin olduğunu göstərdi. Hopkinsin zəmanəti ilə 22 yaşlı Conson Texası Vaşinqtonda təmsil edəcək konqresmen Kleberqin köməkçisi olur. Bu onun həyatında ciddi dönüş yaradır.



downloaded from KitabYurdu.org

Kleberqin yanında dörd il işləməsi onu siyasətçi kimi püxtələşdirir. Dəbdəbəli və əyləncəli həyat keçirən konqresmenin əvəzinə onun əsas işlərini görən Conson, necə deyərlər, siyasi mətbəxin bir çox sirlərinə bələd olur.

Bu ərəfədə təsadüfən tanış olduğu Klaudiya Teylora, elə tanışlığının ilk günü evlənməyi təklif edir. Varlı biznesmen Tomas Teylorun qızı ilə ailə qurması Consonun gələcək karyerasına böyük kömək etmişdir.

1935-ci ildə nüfuzlu Sem Reybernin himayədarlığı ilə, Conson Texas gənclər idarəsinin direktoru seçilir. 1937-ci ildə vəfat etmiş konqresmenin yerinə keçirilən təkrar seçkilərdə iştirak edərək qələbə çalır. Seçkilərdə ona qaynatası ilə yanaşı, ştatın varlı biznesmenləri də kömək edirlər.

1941-ci ildə senata keçirilən seçkilərdə Conson Ruzvelt administrasiyasından güclü dəstək alır. Buna səbəb onun əvvəlki il keçirilən prezident seçkilərində göstərdiyi fəallıqla yanaşı, texaslı vitse-prezident Con Qarneri vəzifədən uzaqlaşdırmağa yardımçı olması idi. Senator seçilən Consonun nüfuzu daha da artır. Bu, öz növbəsində, Consonun işgüzar dairələrdə söz sahibi olması demək idi.

Müharibə başladıqda Conson fəaliyyətini dayandıraraq cəbhəyə yollanır və kapitan-leytenant rütbəsində donanmada xidmət edir. 1942-ci il 19 iyulda Ruzvelt döyüşlərdə iştirak edən konqresmenləri geri çağırdıqda o, Vaşinqtona qayıdır. İşgüzar dostlarının köməyilə bizneslə məşğul olaraq böyük sərvət toplaya bilir. 60-cı illərin əvvəllərində «Life» jurnalı onun 14 milyon dollara malik olduğunu bildirir.

1948-ci ildə senata seçildikdən sonra sürətlə karyera edir. Tezliklə senatda demokrat fraksiyasına rəhbərliyi ələ alır. 1954-cü il seçkilərində qələbəsi isə onu demokratların aparıcı liderinə çevirir.

Nəhayət, Nikson 1960-cı il prezident seçkilərində vitse-prezidentliyə namizəd göstərilir. Kennedinin qətlindən sonra ölkənin ali vəzifəsinə sahib olur.



downloaded from KitabYurdu.org

Consonun fəaliyyət proqramının əsasını kadr siyasəti və siyasi ardıcıllıq təşkil edirdi. Bununla yanaşı o, qətiyyətlə sosial problemlərin həllinə başlayır. Belə ki, 8 yanvar 1964-cü ildə elan etdiyi ilk hökumət proqramını «yoxsulluğa qarşı sözsüz müharibə» adlandırır .

Qanunvericilik məsələlərini, hökumət sistemində zəif və güclü tərəfləri Conson kimi bilən ikinci bir prezident olmamışdır. Uzun müddətli mübarizədən sonra Konqresdə çoxluğun liderinə çevrilmiş texaslı məktəb müəllimi hökumətə özünə məxsus ailə kimi yanaşmışdır. Bütün hökumət işlərinə və hər bir siyasi prosesə şəxsən nəzarət etmişdir.

Vaxtilə Kennedi tərəfindən Konqresə təqdim olunmuş vətəndaş hüquqları haqqında qanun layihəsini qısa müddətə qəbul etdirə bilir. Qanuna əsasən nəhayət Cənubda afro-amerikalılara seçki hüququ verilir, kişi və qadınlar arasındakı hüquq bərabərliyi öz əksini tapırdı. Bu 1791-ci ildə qəbul edilmiş hüquqlar haqqında Billin tam reallaşması istiqamətində atılmış böyük addım kimi dəyərləndirilir.

Qısa müddətə gördüyü işlər onun populyarlığını artırır. Növbəti seçkilərdə respublikaçıların namizədi Barri Qolduoterə böyük üstünlüklə qalib gəlir.

Xarici siyasət sahəsində Conson əsasən Kennedi kursunu davam etdirir. Sovet İttifaqı ilə əlaqələrin yaxşılaşdırılmasına ehtiyatla tərəfdar çıxır, 1968-ci ildə nüvə silahının yayılmaması haqda müqavilə imzalayır, prezidentliyinin sonuna yaxın silahlanmanı məhdudlaşdırmaq haqda danışıqlara hazırlıq görür. Lakin onun Vyetnamda uğursuz müharibəyə başlaması xarici siyasi kursun iflası olur.

Növbəti prezident seçkilərində vitse-prezident Hübert Hemorrinin namizəd göstərilməsinə yardımçı olur.

İstefaya çıxdıqdan sonra Texasdakı rançosuna qayıdır və 2 yanvar 1973-cü ildə vəfat edənədək ictimaiyyət arasında görsənmir. Ömrünün son günlərini nəvələrinin tərbiyəsinə və memuarlarını yazmağa həsr etmişdir.



downloaded from KitabYurdu.org



# RİÇARD MİLHAUZ NİKSON

(RICHARD M. NIXSON)
(1969–1974)

O, Amerika prezidentləri tarixinə ilk dəfə istefa vermiş prezident kimi düşüb. Bu, iki il davam etmiş Uotergeyt qalmaqalına son qoymaq üçün nümunəsiz addım olmaqla yanaşı, ABŞ tarixində görünməmiş konstitusiya böhranı kimi dəyərləndirilib.

Riçard Milhauz Nikson 1913-cü il 9 yanvarda Cənubi Kaliforniyanın Yorbe-Linda şəhərciyində anadan olub. İrland əsilli Niksonlar XVIII əsrin əvvəllərindən Amerika qitəsində məskunlaşıblar. Bəzi bioqrafları C.Vaşinqtonun yaxın ətrafına daxil olan, Vətəndaş Müharibəsinin qəhrə-



downloaded from KitabYurdu.org

manları sırasında Niksonlar nəslinin nümayəndələri olduğunu bildirirlər.

Gələcək prezidentin atası Frenk Nikson sahibi olduğu balaca dükandan əldə etdiyi cüzi gəlirlə ailəsini dolandırırdı. Balaca Riçardın uşaqlığı çətin şəraitdə keçib. Uitterdəki kollecə daxil olanadək ailənin bütün təsərrüfat işləri onun üzərinə düşürdü.

Lakin vəziyyətin ağırlığı onun kolleci uğurla bitirməsinə mane olmur. 1934-cü ildə Daremdəki (Şimali Karolina) Dyuk Universitetinə, təqaüd almaq şərtilə, daxil ola bilir. Universitetdə üç illik təhsilini başa vuraraq, xidmətini təklif etdiyi FTB və böyük vəkil kontorlarının cavabını gözləmədən valideynlərinin yanına qayıdır. Burada 24 yaşlı Nikson kiçik kontorda vəkillik praktikasına başlayır. İki il sonra qonşu dairədəki La-Qabia şəhərinə köçərək burada şəhər prokuroru vəzifəsini tutur. Paralel olaraq kommersiya ilə məşğul olmaq cəhdi baş tutmur.

1940-cı ildə Riçard Amerikanın sadə ailələrindən birinin qızı Telma Rayanla evlənmiş və bu nikahdan iki qızı dünyaya gəlmişdir. Qeyd edək ki, qızlarından biri sonralar D.Eyzenhauerin nəvəsi ilə ailə həyatı qurub.

Pörl-Harbör hadisələrindən sonra Niksonlar Vaşinqtona köçür. Burada Nikson Qiymətlərə nəzarət üzrə dövlət idarəsində çalışır. 1942-ci ilin yayında isə müharibəyə gedərək donanmada xidmətə başlayır və ikinci ranq kapitan rütbəsi alır. Maraqlı bir faktı qeyd edək ki, onun hərbdə olduğu ərəfədə həyatında önəmli dəyişikliklər baş verməsə də, qumarda udduğu 10.000 dollar gələcək karyerasına əhəmiyyətli təsir göstərib. Udduğu pulları siyasi karyera etməyə xərcləyərək Konqresə keçirilən seçkilərdə iştirak edir. Onun namizədliyini irəli sürməsinin də maraqlı tarixçəsi var. 1946-cı ildə qəzetlərdə Respublikaçılar partiyası yerli təşkilatının «Konqresə seçkilərdə iştirak etmək üçün namizəd tələb olunur» məzmunlu elanına cavab ola-



downloaded from KitabYurdu.org

raq Nikson seçki marafonuna qoşulur. Demokrat Vurxisə qalib gələrək 33 yaşında konqresmen seçilir.

Nikson siyasi karyerasını əsasən antikommunist təbliğatı üzərində qurub. O fanatik antikommunist olmasa da «kommunizm qorxusu»ndan karyera etməsi üçün yararlanıb. Kommunistlərlə iş birliyində və Sovet İttifaqına casusluq etməkdə günahlandırılan yüksək rütbəli diplomat və Karnegi Fondunun prezidenti Elcer Hissə qarşı sensasiyalı təhqiqatda (nəticədə E.Hissə 5 illik həbs cəzası verilib) iştirakı onu bütün ölkədə tanıdıb.

1948-ci il seçkilərində də qalib gələn Nikson 1952-ci ildə asanlıqla senator seçilir. Elə həmin il respublikaçılar onu vitse-prezidentliyə namizəd göstərirlər. Seçki prosesi zamanı rüşvətxorluqda ittiham edilməsi onun siyasi məhvinə səbəb ola bilərdi. Lakin Nikson televiziyada məşhur çıxışı ilə bu sınaqdan məharətlə çıxa bilir və Eyzenhauerin qələbəsindən sonra səkkiz il vitse-prezident vəzifəsini tutur.

1960-cı il seçkilərində respublikaçıların namizədi olan Nikson 0,1 % çox səs toplamış Kennediyə uduzur. İki il sonra Kaliforniya qubernatoru seçkilərində məğlub olduqda isə bir çoxları onun siyasi karyerasının bitdiyini bildirirlər. Lakin çox keçmir ki, onlar səhv etdiklərini anlayırlar.

60-cı illərdə yaxın dostu, varlı iş adamı Elmer Bobstun köməyi ilə bizneslə məşğul olur. Nüfuzlu vəkil kontorunun şəriki olaraq böyük sərvət toplayır. Bununla yanaşı elmi-siyasi yaradıcılıqla məşğul olaraq bir çox kitablar yazır.

Nikson 1968-ci il prezident seçkilərində iştirak etmək məqsədilə yenidən siyasi arenaya qayıdır. Partiyadaxili rəqibləri N.Rokfeller və R.Reyqana asanlıqla qalib gələrək respublikaçıların namizədi olur. Onun əsas şüarı Vyetnamda uğursuz müharibəyə çon qoymaq, daxili təhlükəsizlik və sosial problemlərin həlli idi. Robert Kennedi öldürüldükdən sonra çaşqın vəziyyətə düşmüş demokratlar vitse-prezident



downloaded from KitabYurdu.org

Hyübert Hemfrinin namizədliyini irəli sürürlər. Nikson 1968-ci ilin noyabrında keçirilən seçkilərdə qalib gələrək prezident seçilir.

Prezidentliyinin ilk günlərindən əsas diqqəti Vyetnam sindromuna yönəldən Nikson, 1969-cu ilin iyununda «Nikson doktrinasını» imzaladı. Bu, tərəflər arasında sülh danışıqlarını davam etdirməklə yanaşı, 1973-cü ilədək ABŞ qoşunlarının münaqişə bölgəsindən çıxarılması prosesini sürətləndirdi. Müharibənin faktiki olaraq ABŞ-ın məğlubiyyətilə sonuclanmasına baxmayaraq, Niksonun xarici siyasətdə uğurları şəksizdir. Keçmişdə kommunist «ovçusu» olsa da iki böyük kommunist dövləti Çin və SSRİ ilə münasibətləri nizamlamağa cəhd göstərir və hər iki ölkəyə səfər edən ilk prezident olur. Bu xətt «Soyuq müharibə» başladıqdan sonra ABŞ xarici siyasi kursunda sərt dönüşdən xəbər verirdi.

Prezidentlik səlahiyyətlərinin icrasına başlayanadək Nikson prezidentin yalnız xarici siyasətlə məşğul olmalı olduğunu deyirdi. Lakin Ağ Evə sahib olduqdan sonra yeritdiyi siyasət bunun tam əksini göstərir. Tezliklə yaradılan bir çox təsisatlar hakimiyyətin bir əldə cəmləşməsi, konkret olaraq prezidentin digər hakimiyyət qollarından üstün olması ilə nəticələndi. Bu isə öz növbəsində konqreslə qarşıdurmaya səbəb oldu.

1972-ci il seçkilərində Nikson yenidən respublikaçıların namizədi olur. Xüsusilə Vyetnam müharibəsində ciddi dönüş yarada bilməsi onun reytinqini yüksəltmişdi. O demokratların namizədi Corc Makqovernə böyük üstünlüklə qalib gələrək 2-ci müddətə prezident seçilir.

Qeyd etdiyimiz kimi Nikson ilk dəfə olaraq tutduğu vəzifədən istefa verib. Buna səbəb olmuş Uotergeyt qalmaqalını doğuran hadisə 17 iyun 1972-ci ildə baş verib. Həmin gecə demokratların Vaşinqtondakı Uotergeyt otelində yerləşən mənzil qərargahına gizli qulaqasma qurğuları və



downloaded from KitabYurdu.org

fotokameralar qoymaq istəyən beş nəfər həbs edilir. İlkin istintaq hadisənin Ağ Evə gedib çıxdığını aşkar etdi. Bəzi Ağ Ev rəsmiləri bu işin onlara aidiyyəti olmadığını bildirsələr də, istintaqı dayandırmağa nail ola bilmədilər.

İmpiçment təhlükəsi qarşısında qalan Nikson 8 avqust 1974-cü ildə televiziya ilə çıxış edərək istefa verdiyini bildirdi. Baş verən qalmaqalda günahı olmadığını bildirərək istefasını siyasi bazasını itirməsilə əlaqələndirdi. Lakin istefa onun impiçmentdən qurtarsa da alçaldıcı istintaq bitmədi. Bir ay sonra prezident Ford baş verənlərə görə rəsmi olaraq üzr istəyərək, onu bu biabırçılıqdan qurtardı.

Hər bir siyasətçi üçün ölüm sayıla biləcək bu qalmaqaldan sonra Nikson bir müddət tənhalığa çəkilərək elmi-siyasi yaradıcılıqla məşğul olur. Yaradıcılığının bəhrəsi olaraq onun doqquz kitabı nəşr olunmuşdur.

1994-cü il 22 apreldə vəfat edərkən Uotergeyt qalmaqalı yaddan çıxmasa da bağışlanmışdı. ABŞ siyasətində əlli ildən çox bir müddətdə aparıcı simalardan olan Niksonun təntənəli dəfni bunu sübut edir. Qeyd edək ki, vaxtilə onun istefasını tələb edən izdihamlı mitinqlərin iştirakçısı olan prezident Klinton dəfn zamanı qəbirüstü nitq söyləmişdir.



downloaded from KitabYurdu.org



# CERALD FORD
(GERALD FORD)
(1974–1977)

Cerald Ford Birləşmiş Ştatlar tarixində yeganə prezidentdir ki, nə prezident, nə də vitse-prezident seçkilərində



downloaded from KitabYurdu.org

iştirak etməyib. O, vitse-prezidentliyə Niksonun tədqimatı ilə gətirilmiş, sonuncunun istefasından sonra isə prezident səlahiyyətlərinin icrasına başlamışdır.

C.Ford 1913-cü il iyulun 14-də Miçiqan ştatının Qrand-Renids şəhərində dünyaya gəlib və Lesli Linç Kinq adlandırılıb. Atası Lesli Kinq yun ticarəti ilə məşğul olan kommersant idi. İki yaşında ikən valideynləri ayrılır və Lesli anası ilə qalır. Anası Doroti Qardner tezliklə Cerald Forda ərə gedir. Gələcək prezidentin atalığı oğulluğa götürməklə yanaşı ona öz adını verir. Özü haqqında bu həqiqətləri Cerald Ford (kiçik) yalnız 17 yaşında olarkən bilmişdir.

Fordlar kasıb olmasalar da Ceraldın yeniyetməliyi o qədər də yüngül keçməyib. 1930-cu ildə yerli məktəbdə orta təhsilini bitirərək restoranda qabyuyan və ofisiant kimi işə düzəlir. Belə ağır işə düzəlməsinə səbəb isə «Böyük böhran» illərində ailənin maddi vəziyyətinin pisləşməsi idi.

Hələ orta məktəbdə oxuduğu illərdə bacarıqlı futbolçu adını qazanması köməyinə gəlir. Məhz bu bacarığı sayəsində Miçiqan Universitetinə daxil olarkən ona təqaüd verilir.

1935-ci ildə Universiteti bitirən Cerald Yel Universitetinin futbol və boks üzrə yığma komandalarının baş məşqçisi işləyir. Bununla yanaşı sahibkarlıq fəaliyyəti göstərir, aldığı yüksək məvacibin bir hissəsini «Konover» modalar evinə yatıraraq onun payçısı olur. 1938-ci ildə Yel Universitetinin hüquq fakültəsinə daxil olaraq işləməklə yanaşı təhsilini artırır. Üç il sonra imtahan verərək hüquq elmləri üzrə bakalavr dərəcəsi alır.

Qrand-Renidsə qayıdaraq dostları ilə şərikli vəkil kontoru açsa da uğur qazanmır, kontor bir il sonra bağlanır. 1942-ci ilin yazından miçman rütbəsilə donanmada xidmət edərək ikinci ranq kapitan rütbəsində istefaya çıxır.

Müharibədən sonra nüfuzlu vəkil kontorlarından birində yüksək məvacibli işə düzələn Ford, elə bu ərəfədə siyasətə



downloaded from KitabYurdu.org

ciddi maraq göstərir. Onu siyasi fəaliyyətə həvəsləndirən əsas səbəb atalığının Respublikaçılar partiyası Kent dairə (Miçiqan şt.) komitəsinə sədr seçilməsi idi. 1948-ci ildə Konqresə keçirilən seçkilərdə namizədliyini irəli sürür. Seçki kompaniyası ərəfəsində Betti Blumer Uorrenlə tanış olur və onlar tezliklə ailə qururlar.

Seçkilərdə qalib gələn Ford 24 il müddətində Konqresin üzvü olur. Son səkkiz ildə respublikaçı azlığın lideri kimi çıxış edir. 1973-cü ilin dekabr ayında vitse-prezident Spiro T.Aqnyü istefa verdikdə, Ford ABŞ tarixində bu vəzifəyə seçilməmiş, yalnız təyin edilmiş ilk şəxs oldu. Bundan düz səkkiz ay sonra R.Nikson istefa verdikdə isə prezident səlahiyyətlərinin icrasına başladı.

Fordun Niksonu əfv etməsi amerikalılar arasında nüfuzuna böyük zərbə vurdu. Çoxları əfvi pərdəarxası sövdələşmələrin bəhrəsi kimi dəyərləndirirdi. Niksonun istefadan əvvəlki çıxışları belə düşünməyə əsas verirdisə də, fakt sübutunu tapmayıb. Buna baxmayaraq Ford opponentlərinə tənqid üçün əlverişli mövzu vermiş oldu və təkrar seçilməsinə böyük əngəl törətdi.

Uotergeyt qalmaqalı nəinki Fordun, hətta bütünlüklə Respublikaçılar partiyasının fəaliyyətinə problem yaradıb. 1974-cü il Konqresə seçkilərdə respublikaçılar hər iki palatada üstünlüyü əldən verdilər. Belə şəraitdə prezidentin öz hökumət proqramını gerçəkləşdirməsi çətinləşdi. Bu isə öz növbəsində prezident-konqres qarşıdurmasına rəvac verdi. Təsadüfi deyil ki, Ford Konqresin təqdim etdiyi qanun layihələrinə ilyarım ərzində 66 dəfə veto qoyub.

Xarici siyasətdə təcrübəli diplomat Henri Kissincerin fəaliyyəti nəticəsində əvvəlki kurs saxlanılıb.

Fordun yeritdiyi istər daxili, istərsə də xarici siyasi kursun liberallığını əsas göstərən sağ təmayüllü respublikaçılar kəskin çıxışlara başladılar. Partiyadaxili müxalifətin lideri Kaliforniyanın eks-qubernatoru Ronald Reyqan idi.



downloaded from KitabYurdu.org

Reyqan 1976-cı il prezident seçkilərinə Fordun namizəd olmasının qəti əleyhinə çıxış edirdi. Ford əvvəl bu çıxışlara əhəmiyyət verməsə də ilkin seçkilər Reyqanın reytinqinin yüksək olduğunu göstərdi. Yalnız partiyanın Kanzas-Sitidə keçirilən konventində Ford əsas rəqibinə kiçik üstünlüklə qalib gələrək partiyanın namizədi oldu. Bunun üçün o, liberal vitse-prezident Nelson Rokfellerlə vidalaşmaq zorunda qalır və bu vəzifəyə mühafizəkar senator Robert Doul namizəd göstərilir.

Demokratların namizədi isə Amerika xalqına əyalət adamı kimi təqdim edilən Cimmi Karter idi.

1976-cı ilin noyabrında keçirilən seçkilərdə Karter 50,1 % səs toplayaraq prezident oldu. Seçicilər Cerald Fordu şəxsən cavabdeh olmadığı qalmaqallara görə cəzalandırmışdılar.

Ford zəif prezidentlər sırasında özünə əbədi yer tutub. Lakin burada bir məqama diqqət yetirmək gərəkdir ki, o prezident olarkən ağır mirasa yiyə durub və prezidentlik institutunun bilavasitə ondan asılı olmayan səbəblərdən nüfuzunu itirdiyi dövrdə prezidentlik edib. Digər tərəfdən Ford heç vaxt prezidentlik iddiasında olmayıb. Onun prezident olması nəinki ölkə, hətta özü üçün də gözlənilməz idi.

İstefaya çıxdıqdan sonra ciddi siyasi fəaliyyət göstərməsə də, qoca və təcrübəli dövlət xadimi kimi daim diqqət mərkəzində olub. Ford 26 dekabr 2006-cı ildə vəfat etmişdir.



downloaded from KitabYurdu.org



# CİMMİ KARTER
## (JIMMY CARTER)
## (1977-1981)

ABŞ prezidentləri tarixində hər bir prezidentin fəaliyyəti, onun ölkə tarixində xidmətləri bu və ya digər prinsiplər əsasında dəyərləndirilir. Lakin qeyd edək ki, bu dəyərləndirmələr nisbi xarakter daşıyır. Müasirləri



downloaded from KitabYurdu.org

tərəfindən fəaliyyəti qənaətbəxş hesab edilməyən prezident sonralar tamamilə başqa cür qiymətləndirilib. Belə prezidentlərdən biri də Cimmi Karterdir.

Bu gün Amerika tarixçiləri, siyasi xadimləri və insan haqları uğrunda hərəkat fəalları bir çox xüsusiyyətlərinə görə bu insana rəğbət göstərirlər. Bunun başlıca səbəblərindən biri Karterin ABŞ xarici siyasətini insan haqları ilə uzlaşdırmağa çalışması olmuşdur.

Cimmi Karter (Ceyms Erl Karter) 1 oktyabr 1924-cü ildə Pleynis şəhərində (Corciya şt.) anadan olub. Onun nəsil şəcərəsi haqqında müxtəlif versiyalar var. Bəzi bioqrafları Karterin ingilis kralı Böyük Alfredin nəslindən olduğunu bildirir. Digərləri isə 1650-ci ildə Amerikaya köçmüş ser Tomas Karteri Cimminin ulu babası hesab edirlər. Karterin özü isə hazırda mövcud olan ailə məzarlığında 1798-ci ildə dəfn olunmuş Uayli Karterin nəslin ona məlum olan ilk nümayəndəsi olduğunu deyir.

Atası Erl Karter işgüzar fermer və böyük dükan sahibi olsa da «Böyük böhran» onlardan da yan keçməyib. Cimmi ilk uşaqlıq çağlarından işləməyə məcbur olur. Beş yaşında ikən Pleynisin küçələrində qovrulmuş araxis sataraq gündə 5 dollar qazanardı. Lakin bu, onun təhsil almasına mane olmayıb.

Yerli məktəbdə orta təhsilini bitirərək, 1943-cü ildə çox sevdiyi dənizçilik peşəsinə yiyələnmək məqsədilə Annapolisdəki Birləşmiş Ştatlar Hərbi-Dəniz Akademiyasına daxil olur. Üç il sonra Akademiyanı miçman rütbəsində bitirir. Elə həmin il Karterlərin çoxdankı dostları Smitlər ailəsinin qızı Rozalinlə evlənir.

Tezliklə donanmada xidmətə başlayaraq yeddi il burada qulluq edir. 1953-cü ildə atasının vəfatı onu istefaya çıxmağa məcbur edir və 29 yaşlı Karter doğma ştata qayıdaraq ailə biznesini davam etdirir.



downloaded from KitabYurdu.org

Xidməti ərzində topladığı kiçik məbləği də biznesə qoyaraq atasının işini daha da inkişaf etdirir. On beş il sonra onun illik dövriyyəsi 1 milyon dollara çatmışdı. Bundan əlavə bir çox şirkətlərə ortaq olan Karter artıq nüfuzlu iş adamı kimi tanınırdı.

Tədricən yerli siyasi dairələrdə söz sahibi olması, onun «Març of daymz» xeyriyyə cəmiyyətinin sədri seçilməsi ilə nəticələndi. 1962-ci ildə isə Corciya senatına seçilir və iki seçki müddətində burada fəaliyyət göstərir.

1966-cı ildə demokrat partiyasının nümayəndəsi kimi qubernator seçkilərində iştirak edir, lakin uğur qazana bilmir. Məğlubiyyət onu ruhdan salmır, 1970-ci ildə yenidən seçki marafonuna qoşulur və asanlıqla qubernator seçilir.

Karter 1972-ci il prezident seçkilərində «maariflənmiş və sənayeçi cənubun nümayəndəsi» kimi vitse-prezidentliyə namizəd olmaq istəyir. Lakin demokrat-namizəd Corc Makqovernin yaxın ətrafı buna mane olur. Aldığı rədd cavabı onu növbəti seçkilərdə öz namizədliyini irəli sürməyə ruhlandırır. 1976-cı ildə demokratların namizədi kimi çıxış edərək yalnız 2 % üstünlüklə Forda qalib gələrək prezident seçilir.

Seçki marafonunun startında aşkar autsayder hesab edilən Karterin qələbəsinin bir çox səbəbləri vardı. Əvvəla Nikson maxinasiyalarından qorxmuş Amerika ictimaiyyəti professional siyasətçilərə inanmaq istəmirdi. İkinci başlıca səbəb Karterin əyalət adamı olması, heç bir siyasi qalmaqalda adının çəkilməməsi, bir sözlə şəxsi keyfiyyətləri idi.

Nikson sindromunu dəf etmək məqsədilə Karter idarəetməyə yeni çalarlar əlavə etdi. İnauqurasiya günü Kapitolidən Ağ Evə ənənəvi olaraq limuzində deyil piyada getməsi, prezident himninin çalınmasının yasaqlanması, səfərə gedərkən əl baqajını özü götürməsi kimi formal dəyişikliklər edildi.



downloaded from KitabYurdu.org

Karterin qeyri-adi idarəetmə tərzi özünü Konqresə olan münasibətdə də göstərdi. Baxmayaraq ki, hər iki palatada üstünlük demokratlarda idi, partiya funksionerləri Uotergeyt qalmaqalından sonra icraedici aparata qarşı radikallıqdan əl çəkmədilər.

Xarici siyasətdə Karter administrasiyası ilk əvvəl bəzi uğurlar əldə edə bildi. 1973-cü ildən Kissincer tərəfindən aparılan ABŞ-Misir danışıqları bəhrəsini verdi. Karterin təşəbbüsü ilə Misir prezidenti Sadat və İsrailin baş naziri Begin arasında Kemp-Deviddə on üç gün davam edən danışıqlar baş tutdu və 1978-ci ilin sentyabrında sülh müqaviləsi imzalandı.

Sovet İttifaqı ilə münasibətlərini normallaşdırmaq daha çətin başa gəlirdi. Karter xüsusilə iki məsələdə anlaşmaq istəyirdi, silahlanmaya birgə nəzarət və insan haqlarının qorunması.

Lakin, onun bu istiqamətdə atdığı hər bir addım istər daxili opponentləri, istərsə də Avropadakı müttəfiqləri tərəfindən təpki ilə qarşılandı. Nəhayət 1979-cu ildə strateji nüvə silahlarının məhdudlaşdırılması haqda OCB-II müqaviləsi bağlandı. Bununla yanaşı Çin Xalq Respublikası ilə (Tayvanla diplomatik əlaqələrin kəsilməsi bahasına) münasibətlər tənzimləndi.

Çox keçmir ki, SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsi bu nailiyyətləri heçə endirir. Birləşmiş Ştatların atdığı ilk addım SSRİ-yə taxıl satışını qadağan və Moskvada 1980-ci il Yay Olimpiya oyunlarının boykot edilməsi oldu.

1979-cu ildə İranda ABŞ tərəfindən dəstəklənən şah rejiminin devrilməsi də Karterin nüfuzuna böyük zərbə vurdu.

Növbəti prezident seçkilərində Karterin namizəd olması ona partiyadaxili parçalanmalar bahasına başa gəldi.

Seçkilərdə Karterin əsas rəqibi mühafizəkar respublikaçı Ronald Reyqan idi. Reyqan dünyada baş verən bö-



downloaded from KitabYurdu.org

yük hadisələrə Karter hökumətinin passiv münasibətini kəskin tənqid edirdi. Karterin Reyqanı bütün dünyada sülhə təhlükə olacaq çıxışlar etməkdə ittiham etməsi də ona köməklik göstərmədi. Seçkilərdə 51 % səs toplayan Reyqan prezident seçildi.

Seçkilərdəki məğlubiyyətdən məyus olan Karter qısa fasilədən sonra, yenidən ictimai-siyasi fəaliyyətə başlayıb. İlk olaraq Atlantada prezident kitabxanasını yaradır. Onun təsis etdiyi «Karter Mərkəzi» beynəlxalq problemlərin həlli ilə məşğuldur. Bu yöndə o bəzi uğurlar da əldə edib.

1994-cü ilin sentyabr ayında Haitiyə diplomatik səfəri ərəfəsində o, hakimiyyətdən uzaqlaşdırılmış prezident Aristidin öz vəzifəsinə qaytarılması tərəfdarı kimi çıxış edib. 1995-ci ilin əvvəllərində isə Bosniya münaqişəsinin həllində vasitəçilik etmişdir. Karter kasıblar üçün mənzillər tikilməsi layihəsinin gerçəkləşməsində də yaxından iştirak edir.



downloaded from KitabYurdu.org



# RONALD REYQAN
## (RONALD REAGAN)
## (1981–1989)

Ronald Reyqan D.Eyzenhauerdən sonra iki tam müddətə hakimiyyətdə olmuş ilk prezident idi. O, böyük ictimai nüfuz sahibi kimi vəzifədən gedib. Bəzi tarixçi, jurnalist və politoloqların rəylərinə görə F.D.Ruzveltdən sonra



downloaded from KitabYurdu.org

ABŞ xarici və daxili siyasi kursunda R.Reyqan qədər əsaslı dəyişikliklər etmiş ikinci prezident yoxdur.

Ronald Uilson Reyqan 6 fevral 1911-ci ildə İllinoys ştatının Tampiko şəhərciyində irland əsilli ailədə dünyaya gəlib. Atası Edvard Reyqan ayaqqabı ticarəti ilə məşğul olsa da, qazancı ailəni dolandırmağa güclə çatırdı. Elə bu səbəbdən Ronald ilk yeniyetməlik çağlarından işləməyə məcbur olur, hələ orta məktəbdə oxuduğu illərdə 14 yaşında ikən tikintidə işləyir. Növbəti altı ildə Diksondakı (İllinoys şt.) kurort zonasındakı çimərlikdə xilasetmə stansiyasında işləyir. Yaxşı idmançı olması ona yarımtəqaüd almaq şərtilə Yurik kollecində təhsilini davam etdirməyə imkan yaradır. Bu ərəfədə özünü dolandırmaq məqsədilə qabyuyan, üzgüçülük müəllimi, qadınlar yataqxanasında aşpaz kimi çalışır. Çətin şəraiti onun təhsilə ciddi yanaşmasına mane olub. Kollecdə də göstərdiyi əsas səy futbol komandasının üzvü olmağa yönəlib.

1932-ci ildə kolleci bitirən Reyqan valideynlərinin yanına qayıdır. Daha bir il xilasetmə stansiyasında işlədikdən sonra Davenport radiostansiyasında futbol şərhçisi olur. 1934-cü ildən «WHO» radiostansiyasında idman şərhçisi kimi işə qəbul edilir və burada «Kabz» və «Uayt soks» komandalarının oyunlarına şərhçilik edir.

1937-ci ildə «Kabz» komandası ilə birlikdə Katolinada olarkən «Uorner brazerz» kinoşirkəti onu sınaq çəkilişlərinə dəvət edir. Uğurlu keçən sınaqdan sonra şirkət onunla müqavilə imzalayır. İlk əvvəl ikinci dərəcəli filmlərdə çəkilir.

Getdikcə kino aləmində tanınan Reyqan 29 yaşında ikən kinoaktirisa Ceyn Uaymenlə ailə qurur. Lakin nikah uğursuz olmuş və onlar səkkiz il birgə yaşadıqdan sonra ayrılmışlar. Gələcək prezident 1952-ci ildə ikinci dəfə Nensi Devislə evlənmişdir.

İkinci Dünya Müharibəsi başladıqda orduya çağırılsa da görmə qabiliyyəti zəif olduğu üçün arxa cəbhəyə göndərilir



downloaded from KitabYurdu.org

və əsasən təbliğat xarakterli filmlərin səsləndirilməsində iştirak edir.

50-ci illərin əvvəllərindən tədricən kinodan uzaqlaşır. 1954-cü ildə «Ceneral Elektrik»də işə düzəlir. Bununla yanaşı televiziyada «Ceneral Elektrik Teatr» verilişinin aparıcısı olur. Müqaviləyə əsasən o, həmçinin şirkətə məxsus müəssisələrə gedərək təbliğat-təşviqat xarakterli çıxışlar etməli idi. Etdiyi standart çıxışlar bəzən siyasi məzmunda olurdu. O əsasən Amerika demokratiya idealını mədh edərək, kommunist təhlükəsindən danışırdı. Bu tədricən onun siyasətlə ciddi maraqlanmasına səbəb oldu.

İlk vaxtlar özünü Ruzveltsayağı demokrat hesab edən Reyqan 1962-ci ildə rəsmi olaraq respublikaçılar partiyasının üzvü olur.

Bu ərəfədə iş yerini itirir. Və iki il işsiz qalır. Çox keçmir ki, respublikaçılar onu Kaliforniya ştatının qubernatoru seçkilərinə namizəd göstərirlər. 1966-cı ilin payızında keçirilən seçkilərdə o, demokrat Pet Brauna qalib gələrək qubernator seçilir.

1974-cü ilədək Kaliforniya qubernatoru kimi fəaliyyət göstərən Reyqan 1976-cı il prezident seçkilərində respublikaçıların namizədi olmaq istəsə də, bu istəyinə nail olmur. Lakin növbəti seçkilərdə bütün mərhələləri uğurla keçərək prezident seçilir.

Reyqanın ABŞ daxili və xarici siyasətində etdiyi önəmli dəyişikləri «mühafizəkar inqilab» adlandırırlar. İnqilabın nüvəsini «reyqanomika» adlandırılan və 70-ci illər iqtisadi problemlərinin həllinə yönəlmiş təkliflər paketi təşkil edirdi. Burada əsas hədəf kimi vergilərin azaldılması və dövlətin investisiya qoyuluşuna əngəl törədən maneələri aradan qaldırmaqla iqtisadi inkişafa nail olmaq götürülmüşdü. Ümumiyyətlə Reyqan hökuməti, iqtisadiyyatı inkişaf etdirmək, inflyasiyanın qarşısını almaq məqsədilə dövlətin iqtisadiyyata müdaxiləsini minimuma endirmək



downloaded from KitabYurdu.org

yolu seçmişdi. 80-ci illərdə gəlir vergisinin və mənfəətə görə verginin norması əhəmiyyətli dərəcədə azaldıldı, investisiya yatırımına vergi güzəştləri edildi. Dövlət biznesin bir çox növlərini nizama salmaqdan imtina etdi, trestlər əleyhinə qanunçuluğun tətbiq sahələri kəskin surətdə ixtisar edildi, şəxsi təşəbbüs üçün əlverişli şərait yarandı. Bu isə qısa müddətdə korporasiyaların gəlirlərinin görünməmiş dərəcədə artması ilə nəticələndi.

«Reyqanomika» şəraitində Amerika sənayesi elmi – texniki tərəqqinin ən müasir nailiyyətlərini səmərəli sürətdə tətbiq edirdi. Onun beynəlxalq miqyasda rəqabətə davamlılığını artırdı.

Hökumət inflyasiya və işsizlik problemlərini də uğurla həll etmişdir. İnflyasiya indeksi 1988-ci ildə 4,5 % oldu (Uyğun göstərici 1980-ci ildə 12,5 % olub). İşsizlik kvotası isə 7 %-dən 5,4 %-ə endirildi. Məşğulluğun artmasının əsas mənbəyi xidmət sahələrinin genişlənməsi oldu. 80-ci illərin ikinci yarısından başlayaraq ABŞ iqtisadiyyatına xarici kapital axını güclənməyə başladı. Bu əsasən qiymətli dövlət kağızlarının, bank əmanətlərinin qoyulmasından, şəxsi kompaniyaların səhmlərinin əldə edilməsindən, müstəqil kapital qoyuluşundan ibarət idi.

Reyqan administrasiyasının xarici siyasəti antikommunist ruhda köklənmişdi. Bu özünü nəinki «Şər imperiyası»na (Reyqan SSRİ-ni belə adlandırıb), eyni zamanda Mərkəzi Amerika ölkələrinə olan münasibətdə də aşkar göstərir. Sovet İttifaqı ilə dünyada nüfuz sahibliyi uğurunda aparılan «müharibə» ABŞ-ın qələbəsi ilə bitdi. Burada Reyqanın xidmətləri şübhəsiz ki, böyükdür. Lakin bəzən bunu sırf onun xidməti kimi qeyd edilməsi heç də düzgün deyil. Əsas amil 1985 –ci ildə siyasi hakimiyyətə gəlmiş Mixail Qorbaçovun ekspansionist dünya siyasətinə son qoyması, əslində İttifaqı möhkəmlətmək xatirinə apardığı islahatların əks effekt verərək Sovet İttifaqı və Varşava blokunun süqut



downloaded from KitabYurdu.org

etməsi olub. Bu Reyqanın qələbəsindən çox Qorbaçovun məğlubiyyəti idi.

Başladığı iqtisadi-siyasi kursun davam etdirilməsi üçün siyasi varisinin ondan sonra prezident seçilməsinə böyük kömək göstərmişdir. Onun siyasi varisi səkkiz illik hakimiyyəti dövründə vitse-prezident olmuş Corc Buş idi. Prezidentlik müddətinin son aylarını tamamilə Buşun seçki kompaniyasının uğurlu olmasına həsr edir. C.Buşun qələbəsindən sonra, artıq 78 yaşlı Reyqan praktiki olaraq fəaliyyət göstərmir. Bütün bununla o, tam yorğunluğunu, prezidentlik müddətinin başa çatacağı günü səbirsizliklə gözlədiyini nümayiş etdirirdi.

Ağ Evdən getdikdən sonra köhnə dostlarının köməyilə təmir etdirdiyi, Los-Ancelosun nüfuzlu Bel-Eyr məhəlləsində yerləşən malikanəsində yaşayır. İctimai diqqətdən kənarda qalmağa çalışsa da, eks-prezident kimi böyük hörmətlə qarşılanıb. Bu xüsusilə onun dünyada sülhün bərqərar olunması, «Soyuq müharibəyə» son qoyulması istiqamətində gördüyü işlərlə bağlıdır. Təcrübəli siyasi xadim kimi Yaponiyaya dəvət edilmiş, burada mühazirələr oxumuşdur. Onun aldığı 2 milyon dollar qonaraq 8-illik prezidentliyi müddətində aldığı məvacibdən 400.000 dollar çox idi.

Ömrünün son on ilini Reyqan alsheymer xəstəliyindən əzab çəkmiş, bütövlüklə yaddaşını itirmişdir. 5 noyabr 1994-cü ildə xəstəliyi haqqında rəsmi məlumat vermiş, ölkəyə xitabən vida məktubu ilə müraciət etmişdir. 2001-ci ildə keçirilmiş sosioloji sorğuda amerikalılar onu böyük prezident hesab etmişlər.

Ronald Reyqan 5 iyun 2004-cü ildə vəfat etmişdir.



downloaded from KitabYurdu.org



# CORC BUŞ
## (GEORGE H. W. BUSH)
## (1989–1993)

Amerika tarixində prezident bu və ya digər səbəbdən növbəti seçkilərdə iştirak etmədikdə, fəaliyyətdə olan vitse-prezidentin ölkənin ali vəzifəsinə iddialı olması bir neçə dəfə təkrarlanıb. Lakin bu özünü yalnız iki dəfə doğrulub. 1836-cı il seçkilərində vitse-prezident M.Van Burenin



downloaded from KitabYurdu.org

namizədliyi irəli sürülüb və o qalib gəlib. Bu praktika bir də 152 il sonra, Corc Buş prezident olduqda özünü doğruldub.

Seçkiöncəsi ona bu haqda verilən suala belə cavab verib: «Əvvəla keçmiş seçkilərlə 1988-ci il seçkiləri arasında böyük fərqlər var. İkincisi Şirli Makleyn (sipiritizm bilicisi hesab edilən məşhur Hollivud kinoaktrisası) deyir ki, keçmiş həyatımda mən M.Van Buren olmuşam».

ABŞ-ın 41-ci prezidenti Corc Herbert Uoker Buş 12 iyun 1924-cü ildə Milton şəhərində (Massaçusets şt.) anadan olub. Atası Preskott Buş Nyu-Yorkdakı aparıcı banklardan birinin ortağı idi, 1952-63-cü illərdə isə Konnektikut ştatını senatda təmsil etmişdi. Balaca Corc ilk təhsilini Andoverdə, Filips Akademiyasının nəzdindəki internatda alır. Burada təhsilini bitirdikdən altı ay sonra, yaponlar Pörl-Harbörə hücum etdikdə könüllü cəbhəyə gedir və dəniz aviasiyasında xidmətə başlayır. Elə xidmətinin ilk aylarında ona zabit rütbəsi verilir. Üç il ərzində Sakit okeanda döyüşən Corc, «San-Casinto» aviadaşıyıcısındakı torpedo-bombardmançı təyyarəsində 58 döyüş uçuşu edir. Göstərdiyi igidlik və rəşadətlərə görə orden və üç medalla təltif edilir. 58-ci uçuş onun üçün sonuncu olur. 1944-cü il sentyabrın 2-də onun təyyarəsi yapon zenit artilleriyası tərəfindən vurulur. Müharibə qurtardıqda ordudan tərxis olan Buş iki il yarım Konnektikutdakı məşhur Yel Universitetində oxuyaraq iqtisadçı ixtisasına yiyələnir. Hələ müharibə ərəfəsində, 1945-ci il yanvarın 6-da üç il əvvəl tanış olduğu Barbara Pirslə ailə qurur və bu nikahdan onların beş övladı dünyaya gəlir. Qeyd edək ki, Buşların ilk övladları Corc Buş (oğul) sonralar ABŞ prezidenti olub.

Yel Universitetini bitirdikdən sonra ailəsilə birgə Cənub-Qərbə –Texasın Odessa şəhərinə köçür və burada neft avadanlıqları istehsal edən «Dresser indastriz» kompaniyasında işləyir. Atası bu kompaniyanın direktorlar şurasının üzvü idi. Sahibkarlıq təcrübəsini zənginləşdirən



downloaded from KitabYurdu.org

Buş Hyüstona köçərək Buşlar ailəsinin kapitalı hesabına maliyyələşən «Sapata offşor» şirkətinin yaradılmasında iştirak edir.

Corc Buşun aktiv siyasi fəaliyyətə başlaması, atasının siyasətdən getmək ərəfəsinə təsadüf edir. Lakin, o hələ 50-ci illərin sonlarında dostlarına senator seçilmək niyyətində olduğunu bildirirdi. 1964-cü ildə Texas ştatından senata seçilmək istəsə də uğursuzluğa düçar olur. Məğlubiyyət onu ruhdan salmır və Buş iki il sonra yenidən seçki marafonuna qoşulur. İndi onun hədəfi Nümayəndələr Palatası idi. Asanlıqla qələbə qazanaraq Vaşinqtona gəlir. Konqresdəki dörd illik fəaliyyəti onun üçün əlamətdar olmasa da, paytaxtın siyasi elitasında, işgüzar dairələrdə, gələcək karyerasında əhəmiyyətli dərəcədə böyük rol oynamış dostluq əlaqələri qurur.

1970-ci ildə Buş, yenidən senator seçilmək istəyir. Bu dəfə də demokrat Lloyd Bentsenə məğlub olur. Lakin çox keçmir ki, prezident Nikson onu ABŞ-ın BMT-dəki nümayəndəsi təyin edir. Uotergeyt qalmaqalından və Niksonun istefasından sonra, partiyadaxili çaxnaşmalara son qoymaq məqsədilə onu respublikaçılar partiyası Milli Konventinə sədr seçirlər. 1974-cü ildə isə xüsusi missiya ilə Pekinə göndərilir. Bir il burada qaldıqdan sonra prezident Ford onu MKİ-yə sədr təyin edir. 1976-cı il seçkilərində demokrat Karter qələbə çaldıqda bu postla vidalaşmalı olur.

Bir müddət siyasi arenadan çəkilərək avtobioqrafiyasını yazmaqla məşğul olmuşdur. Bəziləri onun hətta siyasətdən getdiyini iddia edirdilər. Lakin tezliklə Buş daha böyük iddiada olduğunu bildirir və 1980-ci il prezident seçkilərinə qoşulur. Əvvəlcə bəzi ştatlarda keçirilən ilkin seçkilərdə qələbələr əldə etsə də, tezliklə R.Reyqan onu üstələyir. Məğlub olacağını başa düşərək namizədliyini geri götürür. Bu isə onun Reyqan tərəfindən «ikinci respublikaçı» elan edilməsi, yəni seçkilərə vitse-prezidentliyə namizəd kimi



downloaded from KitabYurdu.org

getməsi ilə nəticələnir. Və bu Reyqanın qələbəsindən sonra reallığa çevrilir.

Vitse-prezident kimi onun fəaliyyəti nəzərə çarpacaq olmayıb. Buş bütünlüklə və sözsüz prezidenti dəstəkləmiş, praktiki olaraq heç vaxt onunla hər hansı problemin həllində mübahisəyə getməmişdir. O səbrlə öz vaxtının çatacağını gözləyirdi.

Nəhayət 1988-ci il seçkiləri çatdı. Buş seçkilərdən çox-çox əvvəl «fillər partiyası»nın favoriti hesab edilirdi. Lakin bəzi ambisiyalı partiya funksionerləri də Reyqanın yerini tutmağa cəhd edirdilər. İlkin mərhələdə Robert Doul, Cek Kemp, Pyer Düpon namizəd olmaq istəsələr də, onun Ağ Evə gedən yolunu kəsə bilmədilər və Buş partiyanın namizədi oldu. Noyabrda keçirilən seçkilərdə 53,4 % səs alaraq demokratların namizədi Maykl Dukasisə qalib gəldi.

Daxili siyasətdə Buşun yeritdiyi mülayim kurs ciddi uğur qazana bilməyib. Bunun ciddi səbəbləri var. Reyqanın prezidentliyinin son illərində ölkədə baş verən iqtisadi-maliyyə böhranı, dövlət büdcəsinin defisiti, dövlət borclarının yaranması və əmanət banklarının iflası hər bir prezidentin geniş fəaliyyət sferasını kiçildəcək problemlər idi. Digər tərəfdən «soyuq müharibə»nin qurtarması ilə əlaqədar olaraq hərbi xərclərin ixtisar edilməsi işsizliyin artmasına səbəb oldu. 90-cı illərin əvvəllərində iqtisadiyyatdakı durğunluq və bunun törətdiyi çətinliklər, Buşun sosial-iqtisadi problemlərə lazımınca diqqət verməməsi üstündə tənqid olunmasını gücləndirmişdir. Onun fəaliyyəti yalnız bəzi qanun layihələrinin qəbul edilməsi ilə məhdudlaşdı. Buş eyni zamanda udduğu Körfəz müharibəsindən sonra sürətlə artan populyarlığından lazımınca istifadə edə bilmədi. Yaxın ətrafının etirazına baxmayaraq özündə yalnız cinayətkarlığa qarşı mübarizəni və yol-nəqliyyat problemlərini ehtiva edən minimalist konsepsiyasını irəli sürdü. Dəfələrlə verdi-



downloaded from KitabYurdu.org

yi vədinin əksinə olaraq büdcə defisitini aradan qaldırmaq üçün vergiləri artırması Buşun ən uğursuz addımı idi.

Lakin xarici siyasətdə Buş bəzi uğurlar əldə etdi. 1989-cu ildə diktator Noryeqanı həbs etmək üçün Panamaya müdaxilə, AFR-in NATO üzrə digər tərəfdaşlarından fərqli olaraq almanların birləşmə prosesinə daha tez reaksiya verməsi, dövlət katibi Ceyms Beykerin rəhbərliyi ilə Latın Amerikası ölkələri ilə yaranmış borc böhranının tənzimlənməsi, İsrail və onun ərəb qonşuları ilə sülh danışıqlarının bərpa edilməsindəki vasitəçiliyi belə uğurlardandır. Əsas nailiyyəti isə Fars Körfəzində baş verən münaqişəyə hərbi müdaxilə nəticəsində qazanılıb. BMT-nin qərarı ilə 1990-91-ci illərdə Küveyti İraq işğalından azad etmək üçün körfəzə 540 min əsgər göndərilməsi amerikalılarda «İkinci Vyetnam» qorxusu yaratdı. Lakin 42 günlük hərbi əməliyyatlar qələbə ilə nəticələndi.

Lakin çox keçmədi ki, Buşun xarici siyasətdə də kamil konsepsiyaya malik olmadığı aşkar oldu. Ümumiyyətlə ətrafına Ceyms Beyker, Kollin Pauell, Dik Çeyni, Brent Skaukroft (bu isimlərin bəziləri sonralar Buşun (oğul) prezidentliyi dövründə onun administrasiyasının aparıcı simalarından olmuşlar) kimi güclü siyasətçilər toplamasına baxmayaraq onun prezidentliyi uğursuz olub. 1992-ci il seçkilərindən əvvəl aparılan sorğularda rəyi soruşulanların 80 %-i dövlətin yeritdiyi daxili-xarici siyasətlə razı olmadığını bildirib. Seçkilərdə respublikaçıların namizədi olsa da demokrat Klintona məğlub oldu.

Beləliklə Corc Buş XX əsrdə ikinci müddətə seçilməmiş Taft, Huver və Karterlə bir sırada dayanır. Onun prezidentliyi milli və beynəlxalq dəyişikliklər dövrünə təsadüf edib və özündən sonra ciddi iz qoymayıb. Bu baxımdan Buşu keçid prezident də adlandırmaq olar.



downloaded from KitabYurdu.org



# BİLL KLİNTON
## (BILL CLINTON)
## (1993–2001)

Bill Klinton (tam adı Uilyam Cefferson Blayt IV) 19 avqust 1946-cı ildə Arkanzas ştatının Houp şəhərində dünyaya gəlib. O, hələ anadan olmamış bədbəxt hadisə nəticəsində



downloaded from KitabYurdu.org

atası həlak olur. Dörd yaşında ikən anası avtomobil ticarəti ilə məşğul olan Rocer Klintona ərə gedir (Bill on beş yaşından atalığının familiyasını daşıyır). Şöhrətpərəst olan balaca Bill dərslərini yaxşı oxuyar və məktəbin birinci şagirdlərindən hesab edilərdi. Bununla yanaşı məktəbin caz orkestrinə rəhbərlik edib. (Musiqiyə olan marağını bu gün də saxlayan Bill tez-tez saksafonda sevdiyi caz havalarını məharətlə ifa edir).

Orta məktəbdə təhsil aldığı illərdə, həyatında baş verən ən yaddaqalan hadisə onun 1963-cü ilin iyulunda Milli Gənclər təşkilatının üzvü kimi prezident Kennedi ilə görüşməsi olub. Sonralar etiraf edib ki, məhz həmin görüş onu gələcəkdə siyasətçi olmağa həvəsləndirib.

Klintonun Cənub babtist kilsəsinin üzvü olmasına baxmayaraq orta təhsilini bitirdikdən sonra Vaşinqtondakı nüfuzlu Corctaun Universitetinə daxil olur. Təqaüd alması ona 1969-70-ci illərdə Oksfordda oxumasına şərait yaradır. Gələcək həyat yoldaşı Hillari Rodhemlə (onunla nikahdan Klintonun iki övladı var) tanış olduğu Yel hüquq institutunu bitirdikdən sonra isə Arkanzasa qayıdır. Təhsil aldığı müddətdə maddi problemlərini özü həll etmiş, eyni zamanda üç yerdə işləməyə məcbur olmuşdu.

Fayetvell Universitetinin hüquq fakültəsində qısamüddətli pedaqoji fəaliyyət göstərdikdən sonra, 1974-cü ildən siyasətlə ciddi surətdə məşğul olmağa başlayır. Demokrat partiyasının üzvü kimi Konqresdə keçirilən seçkilərdə iştirak etsə də məğlubiyyətə uğrayır. Kiçik fərqlə məğlub olan Klinton Arkanzas siyasi isteblişmentinin diqqətini özünə cəlb etdi. Bu onun iki il sonra Arkanzas ştatının ədliyyə naziri seçkilərində iştirak edərək qalib gəlməsinə səbəb oldu. 1978-ci ildə isə qubernator seçkilərinə qoşulur və ABŞ tarixində ən gənc, 32 yaşında qubernator seçilir.

Qubernator olduğu müddətdə özünü bacarıqlı inzibatçı kimi tanıdır. ABŞ-ın kasıb ştatlarından olan Arkanzas



downloaded from KitabYurdu.org

Klintonun rəhbərliyi dövründə əhəmiyyətli dərəcədə inkişaf edir. Bunu bəzi statistik göstəricilərin müqayisəsi aydın göstərir. Yeni iş yerlərinin açılması, təhsil sahəsində əldə edilən uğurlar məhz Klintonun məqsədyönlü fəaliyyətinin nəticəsidir.

1991-ci il prezident seçkilərində namizədliyini irəli sürən Klinton ölkə səviyyəsində o qədər də tanınmırdı. Buna baxmayaraq o, artıq demokrat partiyasının daxilində nüfuz sahibi idi. Onun xüsusilə Reyqan siyasi kursunu dəstəkləyən (onları «Reyqan demokratları» da adlandırırdılar) sıravi demokratları potensial seçicilər cərgəsinə qaytarılmasında böyük rolu vardı. Klintonun seçki kampaniyasının strateji xətti bir növ yaddan çıxmış orta təbəqənin mənafeyinin qorunması təşkil edirdi. Digər tərəfdən Reyqan hökumətindən miras qalmış və Buş tərəfindən həll edilməmiş büdcə kəsirləri və işsizlik probleminin həlli istiqamətində görəcəyi işləri seçicilərə bəyan etməsi onun şansını artırırdı. Noyabrda keçirilən seçkilərdə 43 % səs toplayan Klinton proqnozların əksinə olaraq qalib gəldi. Fars körfəzi müharibəsinin uğurla başa çatması da Buşa kömək etmədi. Klintonun qələbəsində partiyasız sahibkar Ross Peronun da rolu oldu. Belə ki, R.Pero xüsusilə Buşun elektoratına daxil olan seçiciləri öz tərəfinə çəkərək səslərin 1/5-ni ala bilmişdi. Digər tərəfdən bu amerikalıların hər iki partiyanın yeritdiyi siyasətdən narazılığının ifadəsi idi.

Qeyd edək ki, Klintonun seçkiönü kampaniyasına onun bəzi şəxsi keyfiyyətləri kölgə salıb. Vyetnam müharibəsi ərəfəsindəki davranışı, tələbə olarkən narkotik maddələr qəbul etməsi, qubernatorluğu ərzində bəzi maliyyə maxinasiyalarında iştirak etməsi kimi kompromatlar opponentlərinə yaxşı mövzu idi. Lakin bu kompromatlar onun əxlaqi nüfuzuna zərbə vursa da, prezident seçilməsinə mane olmadı.

R.Reyqanın prezidentliyi dövründən qalan problemlər, başlıcası artıma meylli 200 mlrd.-lıq büdcə kəsirinin aradan



downloaded from KitabYurdu.org

qaldırılması öz həllini gözləyirdi. Klinton 17 fevral 1993-cü il hesabatında büdcə kəsirlərinin ləğv edilməsini prezidentliyinin əsas məqsədi olduğunu bildirdi. Gərgin danışıqlardan sonra kəsirləri aradan qaldırmaq üçün nəzərdə tutulan beşillik büdcə planını senatdan keçirmək ona nəsib oldu.

Qarşıya qoyulan əsas hədəflərdən biri səhiyyədə radikal islahatların keçirilməsi idi. İslahatlara xüsusi diqqət yetirən Klinton səhiyyə problemlərini həll edəcək işçi qrupa rəhbərliyi xanımı Hillari Klintona tapşırdı. Bu ABŞ tarixində «birinci ledi»nin dövlət əhəmiyyətli problemlərin həllində ilk iştirakı idi. Klintonun vaxtilə «prezident seçilsəm əsas məsləhətçilərimdən biri xanımım olacaq» deməsi özünü doğrultdu.

Mütəşəkkil cinayətkarlığa qarşı mübarizə haqda qanunlar paketinin hazırlanması Klintonun əsas uğurlarından oldu. Bu qanunlar 30.2 mlrd. dollara başa gələn 100.000 nəfərin polis sıralarına qəbul edilməsini vətəndaşların saxlamaq hüquq olan 19 sayda silahın qadağan edilməsini, üçüncü dəfə cinayət törətmiş şəxsin avtomatik ömürlük həbsə məhkum olunmasını özündə əks etdirirdi.

Prezidentliyi ərzində əsas diqqəti daxili problemlərin həllinə yönəltməsinə baxmayaraq Klintonun xarici siyasəti də bəzi uğurlar qazandı. Dövlət katibi U.Kristoferin vasitəçilik etdiyi Fələstin Azadlıq Təşkilatı ilə İsrail arasında aparılan danışıqlar 1993-cü ilin sentyabrında Ağ Evdə sülh müqaviləsinin imzalanması ilə nəticələndi. Rusiya ilə münasibətlər qısa müddətə normal məcraya salındı. Rusiyaya iqtisadi kömək onun öz imperiya ambisiyalarını məhdudlaşdırması hesabına başa gəldi. (məs. Baltik ölkələrindən rus əsgərlərinin çıxarılması tələbi).

1994-cü il yanvarın 10-da NATO-nun Brüsseldə keçirilən toplantısında «Sülh naminə tərəfdaşlıq» paktı imzalandı. Paktın Şərq ölkələrinə ekspansiyasına etiraz edilsə də (xüsusilə Rusiya bundan çox narahat idi), nəticədə ABŞ



downloaded from KitabYurdu.org

xarici siyasətinin uğuruna çevrildi (ölkəmiz də bu pakta qoşulub).

Belorus, Qazaxıstan və Ukraynanın atom silahından imtina etməsini də Klinton administrasiyasının uğuru kimi dəyərləndirmək olar.

Bəzi sələfləri kimi Klintonun da prezidentliyi qalmaqalsız ötüşməyib. Qalmaqal onun ikinci prezidentlik müddətində baş verib və Ağ Evdə praktika keçən Monika Levinski ilə bağlıdır. ABŞ, eləcə də dünya KİV-də geniş işıqlandırılan olay az qala Klintonun istefasıyla nəticələnəcəkdi. Aparılan təhqiqatlar, Konqresdəki müzakirələr prezidentin nüfuzuna ciddi zərbə vurdu. Lakin öz səhvini etiraf etməsi, bütün Amerika xalqından, xanımı və qızından rəsmi olaraq üzr istəməsi onu gözlənilən biabırçılıqdan xilas etdi.

XX əsrin sonuncu prezidentinin fəaliyyətini ümumilikdə qənaətbəxş hesab edirlər. Hər halda o, demokratların nümayəndəsi olaraq F.D.Ruzveltdən sonra iki tam müddətə prezident seçilən hələlik yeganə prezidentdir. İstefaya çıxdıqdan sonra ciddi surətdə siyasi fəaliyyət göstərməsə də, ictimaiyyət tərəfindən daim hörmətlə qarşılanır.



downloaded from KitabYurdu.org



# CORC BUŞ (oğul)
## (GEORGE W.BUSH)
## (2001 –2009)

1824-cü il prezident seçkilərində Con Kuinsi Adams qalib gəldi. O, ABŞ-ın ikinci prezidenti Con Adamsın oğlu idi. Bu təcrübə bir də yalnız 176 il sonra 2000-



downloaded from KitabYurdu.org

ci il seçkilərində təkrarlanıb. Belə ki, bu seçkilərdə qalib gələn Corc Buş (oğul) ABŞ-ın 41-ci prezidenti C.Buşun oğludur. Artıq qeyd etdiyimiz kimi, hər bir amerikalı sosial vəziyyətindən, cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq prezidentlik iddiasında ola və bu istəyini gerçəkləşdirə bilər. (Şübhəsiz ki, konstitusiyanın verdiyi imkanlar çərçivəsində). Bu baxımdan C.Buşun (oğul) prezident seçilməsi təbii qarşılanmalıdır.

Corc Buş (oğul) 1946-cı il iyulun 6-da anadan olub. Onun rəsmi bioqrafiyasında konkret harada anadan olduğu öz əksini tapmır. Texasda olduqca populyar olan Buşu texaslılar «yüz faiz özününkü» hesab edirlər. Lakin jurnalistlərin «Cənab Buş harada anadan olub?» sualına administrasiya əməkdaşı Maykl Couns «Təəssüf ki, Konnektikutda, amma iki-üç yaşlarından valideynlərilə birgə Texasa köçüb və tamamilə texaslı ruhunda böyüyüb» cavabını verib. Orta təhsilini Midlend və Hyustonda alaraq, Yel Universitetinə daxil olur və oranı bakalavr dərəcəsində bitirir. Harvard Universiteti nəzdində Biznes Məktəbində oxuyaraq magistr dərəcəsi alıb. Təhsilini bitirdikdən sonra hərbi xidmətə getmiş və Texas Milli Qvardiyasının HHQ-də F-102 təyyarəsində pilot kimi qulluq etmişdir.

Əmək fəaliyyətinə 1975-ci ildə, Midlenddəki neft-qaz sənaye şəbəkəsində başlamış və 1986-cı ilə qədər bu sahədə çalışmışdır. 1988-ci il prezident seçkilərində, atasının seçkiönü kompaniyasında fəal iştirak edir. Növbəti il bir neçə şəriki ilə birgə «Teksas Reyncers» beysbol komandasını alır. Beş il müddətində klub rəhbərliyində aparıcı vəzifələr tutmuşdur.

1994-cü il noyabrın 8-də keçirilən ştat qubernatoru seçkilərində iştirak edir və 53,5 % səs toplayaraq qubernator seçilir. 1998-ci ildə təkrar seçkilərdə 68,6 % səs toplayaraq tarixi qələbə qazanır və Texas tarixində iki ardıcıl dördillik müddətə qubernator seçilən ilk şəxs olur.



downloaded from KitabYurdu.org

2000-ci ildə keçirilən prezident seçkilərində respublikaçılar partiyasının namizədi olur. Gərgin keçən seçkilərdə, Buş demokratların namizədi, Klintonun prezidentliyi ərəfəsində vitse-prezident vəzifəsini tutmuş Albert Qora kiçik üstünlüklə qalib gələrək prezident seçilir.

Xanımı Lora Buş keçmişdə kitabxanaçı və müəllimə işləyib. Buşların Barbara və Cenni adlı əkiz qızları var.

Ağ Evə gedən yolda atasının rolu az olmasına baxmayaraq, istər seçki kompaniyasının təşkilində, istərsə də formalaşdırdığı kabinetdə vaxtilə atasının komandasında təmsil olunanlar üstünlük təşkil edib (Dik Çeyni, Kollin Pauell, Kondoliza Rays və s.).

11 sentyabr 2001-ci il hadisələri nəticəsində 3 min insan həlak olur. ABŞ xüsusi xidmət orqanlarının verdiyi məlumatlara görə terror aktlarının təşkilatçısı səudiyyəli milyoner Usəma Ben Laden Əfqanıstanda gizlənir və ABŞ administrasiyası taliban hərəkatından onun təhvil verilməsini tələb edir. Onların rədd cavabına Buş belə reaksiya verir: «Biz onları yuvalarından dartıb çıxaracaq… və ədalət məhkəməsi qarşısında mühakimə edəcəyik». ABŞ administrasiyasının diplomatik səyləri və hərbi əməliyyatlar aparmaq üçün geniş koalisiya yaradılır. 2001-ci il milad bayramı ərəfəsində NATO koalisiyası və «Şimal alyansı» adlı mücahidlər qrupunun birgə əməliyyatlarından sonra Əfqanıstan üzərində tam nəzarət yaradılaraq milli vəhdət hökuməti qurulur, talibanın əsas hərbi birləşmələri isə məhv edilir.

2003-cü ildə Səddam Hüseyn rejimini Əl-Qaidə ilə əlaqədə və kütləvi qırğın silahlarını BMT ekspertlərindən gizlətməkdə ittiham edən Buş İraqa hərbi müdaxilənin zəruriliyini bildirir. Lakin bu, Əfqanıstanda olduğu kimi heç də çoxsaylı dövlətlər tərəfindən dəstəklənmir. Buna baxmayaraq İraqa hərbi müdaxilə başlamış, Səddam Hüseyn rejiminə son qoyulmuşdur. Lakin hələ də İraq ərazisində



downloaded from KitabYurdu.org

sabitlik tam bərpa olunmayıb və vəziyyət qeyri-müəyyən olaraq qalmaqdadır. Nəticədə Buş administrasiyası həm daxildə, həm də xaricdə ciddi tənqid olunmuşdur.

Tənqidlərə baxmayaraq 2004-cü il 2 noyabrda keçirilən seçkilərdə Buş, demokratların namizədi Con Kerriyə qalib gələrək ikinci dəfə prezident seçilir.

Prezident seçildikdən sonra Buşlar haqqında maraqlı informasiya yayılmışdır. Aristokrat soyadlarının nəsil şəcərəsini araşdıran ingilis nəşriyyatı «Berkez Pikçers» iddia edir ki, Buşlar qədim kral nəslindəndir. Onlar rus imperator soyadı və Britaniya kral ailəsi ilə qohumluq əlaqələrinə malikdirlər. Digər tərəfdən müəyyənləşdirilib ki, Buş birbaşa Plantagentlər sülaləsindən olan Henrixin nəslindəndir. Lakin bu informasiya rəsmi təsdiqini tapmayıb.

Ümumilikdə Buşun prezidentliyi birqiymətli dəyərləndirilmir. Bu özünü aparılan sorğularda da göstərir. 11 sentyabr hadisələrindən sonra reytinqi 90 %-ə çatdırdısa, 2007-ci ilin sonunda bu göstərici 24 % olmuşdur. Buşun prezidentliyi tam obyektiv qiymətini yəqin ki, yaxın gələcəkdə alacaq.



downloaded from KitabYurdu.org



# BARAK OBAMA
## (BARACK H. OBAMA)
## (2009 – )

Əvvəlki yazılarda qeyd etmişdik ki, sosial vəziyyətindən, cəmiyyətdə tutduğu mövqeyindən, etnik mənsubluğundan asılı olmayaraq hər bir Amerika vətəndaşı prezident olmaq arzusuyla yaşaya və bu arzusunu gerçəkləşdirə bilər. 2008-



downloaded from KitabYurdu.org

ci ildə keçirilən prezident seçkiləri sadalanan amillərə daha birisini – irqi mənsubluğu da əlavə etdi. Yaxın keçmişdə ciddi problem hesab edilən irqi ayrıseçkilik birdəfəlik tarixin arxivinə göndərildi, hələ ötən əsrin ortalarında zəncilərlə bir avtobusa getməyi, eyni restoranda nahar etməyi həqarət hesab edən Amerika xalqı qaradərili Barak Obamanı özünə prezident seçdi. Amerika tarixində ilk dəfə baş verən bu hadisəni demokratiyanın böyük qələbəsi hesab etmək olar.

Barak Hüseyn Obama kiçik 1961-ci il 4 avqustda Honolulu şəhərində (Havay şt.) anadan olub. Keniyalı müsəlman olan atası Barak Hüseyn Obama–böyük luo qəbiləsindən olan ara həkiminin oğlu idi. Erkən yaşlarında çobanlıq etməsinə baxmayaraq sonradan Nayrobidə təhsil alır və dövlətdən maliyyə yardımı alaraq təhsilini ABŞ-da, Havay Universitetində davam etdirir. Burada o, gələcək prezidentin anası Stenli Ənn Danhəm ilə tanış olur. Obama-kiçik dünyaya gəldikdən iki il sonra o, Keniyaya qayıtmış və 1982-ci ildə avtomobil qəzasında həlak olmuşdur. Anası və atalığı Lolo Soetoro ilə birlikdə İndoneziyaya gedən Obama-kiçik dörd il burada yaşamış və Cakartadakı dövlət məktəblərindən birində oxumuşdur. Sonradan o, Honoluluya qayıdaraq anasının valideynlərinin yanında yaşayır. Burada o, nüfuzlu Punahou məktəbində təhsil alır.

1979-cu ildə məktəbi bitirən Obama Los-Ancelosdakı Qərb kollecində oxuyur, sonradan isə təhsilini Kolumbiya Universitetində davam etdirmiş və 1983-cü ildə oranı bakalavr dərəcəsində (politologiya və beynəlxalq münasibətlər) bitirmişdir. İki il ərzində Beynəlxalq Biznes korporasiyası və Nyu-York elmi-tədqiqat mərkəzində işləyir. 1985-ci ildə Çikaqoya köçmüş xeyriyyə fondlarında sosial təşkilatçı kimi çalışmışdır.

1988-ci ildə Obama Harvard universitetinin hüquq məktəbinə daxil olmuş, 1990-cı ildə isə yarandığı tarixdə ilk dəfə universitetin nüfuzlu **Harvard Law Review** nəşrinin



downloaded from KitabYurdu.org

qaradərili redaktoru olmuşdur. 1991-ci ildə hüquq doktoru diplomu alaraq Çikaqoya qayıtmış və burada hüquqi praktika ilə məşğul olmuşdur. Bundan əlavə 2004-cü ilə qədər o, Çikaqo universitetinin hüquq məktəbində konstitusiya hüququndan dərs demişdir.

Barak Obama 1992-ci ildə hüquqşünas Mişel Robinsonla ailə qurmuşdur. Onların Maliya Ənn və Nataşa adlı iki qızları var.

Gələcək prezident siyasi karyerasına İllinoys ştatının senatında başlayıb. Burada o 1997-2004-cü illərdə Demokratlar partiyasını təmsil edib. 2000-ci ildə Nümayəndələr palatasına iddialı olsa da konqresmen Bobbi Raşa praymerizdə (ilkin seçkilər) məğlub olur. Ştat senatında Obama həm demokratlarla, həm də respublikaçılarla əməkdaşlıq etmişdir: hər iki partiyanın nümayəndələri vergiləri azaltmaqla aztəminatlı ailələrə dövlət yardımı proqramını birgə hazırlamışlar. Obama məktəbəqədər təhsilin inkişaf etdirilməsinin fəal tərəfdarı kimi çıxış etmiş, istintaq orqanları üzərində nəzarət tədbirlərinin gücləndirilməsini dəstəkləmişdir. 2002-ci ildə Çikaqoda keçirilən antimüharibə mitinqində Corc Buş administrasiyasını sərt tənqid etməsi onu məşhurlaşdırmışdır.

2004-cü ildə Obama ABŞ senatına seçkilərə namizədlik uğrunda mübarizəyə qoşulur. Praymerizdə o, altı rəqibi üzərində inamlı qələbə qazanır. Obamanın respublikaçı rəqibi Cek Rayanın ailə problemləri ilə əlaqədar məhkəmə qalmaqalı ilə üzləşməsi səbəbindən namizədliyini geri götürməsi onun şansını daha da artırdı.

29 iyun 2004-cü ildə, seçkiönü kampaniyanın gedişində Obama Demokrat partiyasının milli qurultayına müraciətlə çıxış edir. Televiziya ilə translyasiya edilən çıxışı onu bütün ölkəyə tanıtdı. Senatorluğa namizəd dinləyiciləri Amerika cəmiyyətinin köklərinə qayıtmağa və ABŞ-ı yenidən «açıq imkanlar» ölkəsinə çevirməyə çağırdı: açıq imkanlar ide-



downloaded from KitabYurdu.org

alını o, atasının və özünün tərcümeyi-halında illüstrasiya edirdi.

Senata seçkilərdə Obama respublikaçı Alan Keyesə böyük üstünlüklə qalib gəlir. Səlahiyyətlərinin icrasına 4 yanvar 2005-ci ildən başlayaraq ABŞ tarixində beşinci qaradərili senator olur. Burada o, ətraf mühit problemləri, veteranlar məsələsi və beynəlxalq münasibətlər üzrə komissiyaların üzvü olur.

Ştat senatında olduğu kimi o, nümayəndələr palatasında da respublikaçılarla, xüsusilə hökumətin fəaliyyətinin şəffaflığı haqqında qanun layihəsi üzərində işləyərkən yaxından əməkdaşlıq edir. Bundan əlavə Obama məşhur respublikaçı senator Riçard Luqarla bir çox ölkələrdə, o cümlədən Azərbaycanda da səfərdə olmuşdur. Bütövlükdə o Senatda Demokrat partiyasının liberal xəttinə uyğun fəaliyyət göstərmişdir. Xüsusilə alternativ enerji mənbələrinin inkişafı ideyasına ciddi diqqət yetirmişdir.

Senator Obama qısa müddətdə mətbuatın hörmətini qazanmış və Vaşinqtonda diqqət mərkəzində olmuşdur. Artıq 2006-cı ilin payızında bir çoxları növbəti prezident seçkilərində onun namizəd olacağını mümkün sayırdılar. 2007-ci ilin əvvəllərində o Demokrat partiyasının favoritləri siyahısında Hillari Klintondan sonra ikinci yeri tuturdu. Yanvarda Obama prezident seçkilərində iştiraka hazırlıq üçün qiymətləndirmə komitəsi yaradır. Fevralda aparılan sorğularda demokratların 15 %-i onun 43 %-i isə Klintonu dəstəklədiklərini bildirdilər.

10 fevral 2007-ci ildə Sprinqfildə İllinoys ştatının köhnə Kapitolisi qarşısında keçirilən mitinqdə Barak Obama ABŞ prezidenti postuna namizədliyini rəsmən bəyan edir. Məkan simvolik xarakter daşıyırdı. Belə ki, 1858-ci ildə Avraam Linkoln tarixi «Bölünmüş ev» nitqini məhz burada etmişdir. Seçki kompaniyasının gedişi ərzində Obama İraq müharibəsinə son qoyulması, enerji müstəqilliyi və univer-



downloaded from KitabYurdu.org

sal səhiyyə mövzusunda çıxışlar edir. Onun kompaniyasının əsas şüarları «bizim inana biləcəyimiz dəyişikliklər» və «bəli, biz bacarırıq» olub. Onu da qeyd edək ki, Obama seçkiönü kompaniyanı dövlətin maliyyələşdirməsindən imtina edən birinci və hələ ki, yeganə namizəd olub.

Obama-namizədin əsas problemi onun «afro-amerikalı» mənsubluğu olub. Tezliklə aşkar oldu ki, ölkənin qaradərili əhalisinin bəzi, o cümlədən nüfuzlu nümayəndələri Obamanı heç də özlərininki hesab etmirlər. Məsələ ondadır ki, «əsl» amerikalı zəncidən fərqli olaraq Obama heç də Qərbi Afrikadan Amerika kontinentinə gətirilmiş qul nəslindən deyil. Bundan əlavə, amerikalı zənci-siyasətçilərin böyük əksəriyyətindən fərqli olaraq ona qaradərililərin hüququ uğrunda mübarizədə iştirak nəsib olmayıb.

7 iyun 2008-ci ildə Hillari Klintonun seçki yarışmasından çıxması haqqında verdiyi rəsmi bəyanatından sonra Barak Obama demokratların vahid namizədi oldu. İlk olaraq ABŞ-ın 42-ci prezidenti Bill Klinton Obamanı dəstəkləyir və rəsmi nümayəndəsi Mett Makken vasitəsilə, onun prezident seçilməsi üçün əlindən gələni əsirgəməyəcəyini bəyan edir.

23 avqust 2008-ci ildə, Demokratlar partiyasının qurultayı ərəfəsində Obama vitse-prezidentliyə namizədin adını açıqlayır: bu senator Co Bayden olur. Hər ikisinin namizədliyi 28 avqustda partiyanın qurultayında təsdiqlənir.

Barak Obama seçkiönü debatlarda respublikaçıların namizədi Con Makkeynlə üç dəfə qarşılaşmışdır. Sorğulara görə Obama hər üç raunda qalib gəlmişdir. Debatlarda uğursuz çıxışları, həmçinin respublikaçıların vitse-prezidentliyə namizədi Sara Peylinin səlahiyyətlərindən sui-istifadə etməsi haqqında təhqiqatla bağlı qalmaqal Makkeynin reytinqini aşağı salmışdır. Bəzi bukmeyker kontorları hətta əvvəlcədən Obamanın qələbə qazanacağını bildirmiş, Makkeyn özü isə mümkün məğlubiyyətə hazır olduğunu söyləmişdir.



downloaded from KitabYurdu.org

4 noyabrda seçicilərin 64 %-nin iştirak etdiyi seçkilərdə 51 % səs toplamaqla yanaşı, seçimçilərin 338 səsini alan Barak Obama prezident seçildi.

18 noyabr 2008-ci ildə Los-Ancelosda keçirilən ekoloji konfransın iştirakçılarına video müraciətində Buş administrasiyasını ABŞ-ın ətraf mühitin qorunmasında «liderlik rolunu əldən verməkdə» ittiham edərək, enerjiyə qənaət üzrə tədbirlərə hər il 15 mlrd. dollar ayırmağa söz vermişdir. Elə həmin gün KİV-də onun, vaxtilə Bill Klinton administrasiyasında ABŞ-ın ədliyyə nazirinin müavini olmuş qaradərili hüquqşünas Erik Holderi gələcək administrasiyasında ədliyyə naziri təyin etmək niyyətində olduğu haqda qeyri-rəsmi məlumatlar yayılmışdır. Eyni zamanda 1 dekabrda Çikaqoda çıxış edərkən keçmiş rəqibi Hillari Klintonun ABŞ Dövlət katibi postuna, Robert Qeytsin isə müdafiə naziri postuna namizəd olduqlarını rəsmən bəyan etmişdir.



downloaded from KitabYurdu.org

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. ABŞ Dövləti. Ümumi cizgilər. Bakı: 2005, 120 s
2. Amerika tarixinin əsas cəhətləri. Bakı: 2005, 406 s
3. Demokratiya: gediləsi uzun bir yol. Antologiya. Tərt. H.Hacızadə. Bakı: 2001, 445 s.
4. Əliyev Ş. Prezidentlik institutu. Bakı: 1994, 115 s.
5. İvanov R. Duayt Eyzenhauer. B.: İşıq, 1985, 336 s.
6. Urofski M.İ. ABŞ demokratiyası haqqında əsas mətnlər. Bakı: 2005, 487 s.

## Rus dilində

1. 100 великих политиков. М.: «Вече», 2006, 480 с.
2. 100 знаменитых политиков. Харков: Фолио, 2004, 511 с.
3. Америка. Энциклопедия повседневной жизни. М.: 1988, 416 с.
4. Гершов З.М. Вудро Вильсон. М.: 1983, 335 с.
5. Глядя в будущее. Автобиография Джордж Буш: В сотрудничестве с Виктором Голдом. М.: Прогресс, 1989, 336 с.
6. Горовиц Д., Кольвер П. Клан Кеннеди. М.: 1988, 494 с.
7. Громыко А.А. 1036 дней президента Кеннеди. М., 1971, 279 с.
8. Джефферсон Т. Автобиография: Заметки о штате Виргиния. Л.: «Наука» 1990, 314 с.
9. Иванов Р.Ф. Дипломатия Авраама Линкольна. М.: 1987, 301 с.
10. Иванов Р.Ф. Президентство в США. М.: 1981, 62 с.



downloaded from KitabYurdu.org

11. История США: В 4-х т/ Под. Ред. С.Н. Севостьянова. М.: Наука, 1983-1985

12. Качан Я.И. Миф и реальность. Что такое «американ уей оф лайф», Минск: 1970, 174 с.

13. Майроф Б. Лики демократии. Американские лидеры: герои, аристократы, диссиденты, демократы. М.: «Вес Мир», 2000, 480 с.

14. Мальков В.Л. Франклин Рузвельт. М.: 1988, 350 с.

15. Мишин А.А. Принцип разделения властей в конституционном механизме США. М.: 1984, 190 с.

16. Никонов В.А. От Эйзенхауэра к Никсону: Из истории Рес. Партии США, М.: 1984, 287 с.

17. Пессен Э. Миф о бревенчатой хижине. М.: Прогресс, 1987, 276 с.

18. Печатнов В.О. Гамильтон и Джефферсон. М.: 1984, 335 с.

19. Печатнов В.О. Демократическая партия США: избиратели и политика. М. 1980, 248 с.

20. Романова Н.Х. Реформы Э. Джексона. М.: 1988, 150 с.

21. Севостьянов Г.Н. Томас Джефферсон. М.: «Мысль», 1976, 392 с.

22. Согрин В.В. Джефферсон. Человек, Мыслитель, политик. М.: 1989, 272 с.

23. Согрин В.В. История США. СПб, 2003, 192 с.

24. Согрин В.В. Основатели США: исторические портреты. М.: 1983, 177 с.

25. Токвилл А. де Демократия в Америке. М.: 2000, 560 с.

26. Уткин А.И. Рузвельт. М.: Логос, 2000, 544 с.

27. Уткин А.И. Теодор Рузвельт: Политические портреты. Свердловск, 1989, 192 с.



downloaded from KitabYurdu.org

28. Федоров В. Как избирают президента США. М.: 1980, 95 с.

29. Яковлев Н.Н. Братья Кеннеди. М.: 2003, 488 с.

30. Яковлев Н.Н. Вашингтон. М.: 2003, 416 с.

31. Яковлев Н.Н. ФДР – человек и политик. Загадка Пёрл-Харбора. М.: 1988, 731 с.

## *İngilis dilində*

1. Americas eleven greatest presidents./ Ed. By M.Borden – Chicago? 1971-295 p.

2. Gallick Sarah. Ronald Reagan: the pictorial biography. – New York. 1999 – 119 p.

3. Roseboom H.H. A History of presidential elections – New York. 1959, 568 p.

4. Wagner H.L. George Washington great american presidents. 2004-101 p.

## *İnternet resursları*

1. http: // www.en.wikipedia.org
2. http: // www.peoples.ru
3. http: // www.whitehause.gov
4. http: // www.presidents.h1.ru



downloaded from KitabYurdu.org

A successful political system does not depend only on laws and constitutions written on paper, it depends on separate people who implement this system, their qualities and characteristic features.

This book in Azerbaijani language depicts 43 political leaders - presidents who formed and implemented the USA Constitution; their lives and activities.



downloaded from KitabYurdu.org

# QEYDLƏR


downloaded from KitabYurdu.org

Yığılmağa verilib: 13.09.2012 Çapa imzalanıb: 16.09.2012
Format: 84x108 1/32. F.ç.v 7
Sayı: 500

«Apostrof» Çap Evi
AZ 1009, Bakı, Azərbaycan, M.İbrahimov 43

downloaded from KitabYurdu.org